**SÜLEYMAN RÜSTƏM**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÜÇ CILDDƏ

III CILD

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab "**Süleyman Rüstəm**. Seçilmiş əsərləri. Dörd clddə. III cild" (Bakı, Azərnəşr, 1971) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Azad Rüstəmzadə**

**894.3611-dc 21**
**AZE**
**Süleyman Rüstəm. Seçilmiş əsərləri.** Üç cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2005, 280 səh.

Azərbaycanın müasir dövr poeziyasını yaradanlardan biri olan xalq şairi Süleyman Rüstəm sözün dərin və həqiqi mənasında xəlqiliyi öz poeziyasının canına, qanına hopdurmuş coşqun təbli bir şair olmaqla yanaşı, həm də gorkəmli dramaturqdur. O, hələ ilk yaradıcılıq illərindən dramaturgiyaya həvəs göstərmiş, bu janrda qələmini sınayaraq "Çimnaz xanım yuxudadir" adli bir pərdəli komediya yazmışdır. Əsər həmin ildə məhşur aktyor Mirzağa Əliyevin köməyi ilə "Tənqid-təbliğ" teatrında tamaşaya qoyulmuşdur. 1931-ci ildə Süleyman Rüstəm yazıçı Hacıbaba Nəzərli ilə birlikdə "Yanğın" pyesini qələmə almışdır. Lakin S.Rustəmi dramaturq olaraq şöhrətləndirən onun məşhur "Qaçaq Nəbi" mənzum dramıdır. Dramda şair-dramaturq xalq qəhrəmanı Qaçaq Nəbinin ədalətsizliklərə qarşı mubarizəsini təsvir etmiş, romantik qəhrəmanlıq üslubunda onun obrazını yaratmışdir.

"Seçilmiş əsərləri"nin bu cildində müəllifin dramatik növün müxtəlif janrlarında yaratdığı uğurlu nümunələrdən "Cimnaz xanım yuxudadır" (1922), "Qaçaq Nəbi" (1940), "Durna" (1947) və "Gəldi-gedər" (1955-1969) toplanmışdır.

**ISBN 9952-418-58-X**
© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

*Pyeslər*

# ÇİMNAZ XANIM YUXUDADIR

*Bir pərdəli komediya*

İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| Q a f a r | - 50 yaşında |
| C i m n a z | - 30 yaşında |
| Əli | - 20 yaşında |
| N a b a t | - 18 yaşında |

Qafarın evi. Dəhliz və bir neçə otaq.

Ç i m n a z. Yaxşı ki, Şirinbacı var. Onsuz mən neyləyə bilərdim. Şirinbacı düz deyir, nə olacaq bu dörd divar arasında oturmaqdan? Aləmin gözü açılıb, mən isə qalmışam bu qaranlıq dünyada. Qafar yaxşı iş görmür. Özü dostlarıyla kinoya, teatra, hər yerə gedir. Kef çəkir. Mən yazığı isə heç yerə buraxmır. Mənim teatrım olub bu ev, bu mətbəx. Daha bəsdir. Bir də zəmanə daha o zəmanə deyil. *(Saata baxır.)* Şirinbacıya söz vermişəm, geciksəm yaxşı olmaz. Qafar onsuz da Balaxanıya xəstə bacısıgilə gedib. Dedi bəlkə bu gün gələ bilmədim. Gəlməsə yaxşıdır. Mən gedim, gecikməyim. Nabat, ay Nabat!

N a b a t *(gəlir).* Nə var xanım?

C i m n a z. Sənə min dəfə demişəm ki, mənə xanım demə. Mən haranın xanımıyam?! Mən də sənin kimi bir yoxsul qızıyam. Sən mənim kiçik bacımsan. Sən ata-anadan yetim qalanda mən səni kiçik bacılığa götürdüm.

N a b a t. Sizdən yerdən-göyə qədər razıyam.

Ç i m n a z. Nabat, bir də zəmanə başqa zəmanədir. Şirinbacıyla danişmışam. Səni gecə kurslarına göndərəcəyəm. Sən gərək xoşbəxt olasan. Oxuyasan, gözün açıla.

N a b a t. Sağ olun, çox sağ olun!

Ç i m n a z. Məni on altı yaşında ehtiyac üzündən məhəbbətsiz, sevmədiyimə ərə verdilər. Sənin həyatın belə qurulmasın gərək.

N a b a t. Düz deyirsiniz. Mən sizə Əlinin barəsində demişdim, mən... onu...

Ç i m n a z. Yadımdadır! Qorxma... Qafar əminə də deyərəm. O mənim sözümdən çıxmaz... Sizin toyunuzu özüm eliyəcəyəm. İndi çarşabımı ver, görüm, məhləmizin arvadları dilbir olub teatra gedir, məni də özlərilə aparırlar.

N a b a t. Tratıra! Tratır nədir?

Ç i m n a z. Hə teatra... Sən evdən muğayat ol!

N a b a t. Məni də aparın da...

Ç i m n a z. Bəs ev-eşik necə olsun? Nabat, sözümə diqqətlə qulaq as! İşdir Qafar əmin gəlib çıxsa, məbadə mənim otağıma buraxasan. Soruşsa, deyərsən ki, başı bərk ağrıyırdı, özünü pis hiss eləyib tez yatdı. Başa düşdün? Gətir çarşabımı görüm. Bəsdir bu dörd divar arasında oturdum. Baxaq görək teatr necə şeydir?!

N a b a t. Buyurun! *(Çadram verir.)*

Ç i m n a z. Nabat... Teatra səni də aparacağam.

N a b a t. Gedib geyinim.

Ç i m n a z. Bu səfər yox, gələn səfər. Sözüm sözdür. Sözlərim qulağında sırğa olsun... İşdir, Qafar əmin gəlsə, deyərsən ki, bərk yatıb, dedi məni oyatmasınlar. Bildin?

N a b a t. Bildim. Xatircəm ol!.. Mən sənin bir sözünü iki eləməmşəm, eləmərəm də. Arxayın get!

Ç I m n a z. Gedək görək teatr nə olan şeydir? *(Gedir.)*

N a b a t. Qaldım yenə tək... Mənim dilimə heç yalan gəlməz, amma Çimnaz xanımın yolunda yalan danışsam, günah olmaz. Gördünüz necə yalvarırdı mənə, yalvarmasaydı, bəlkə də bu işə razılıq verməzdim. Doğrudur, kişidən gizli tratırdır, mıratırdır, nədir ora getmək yaxşı iş deyil. Amma yazıq Çimnaz xanım neyləsin, axı?.. Qafar əmi onu bu otaqlardan bayıra buraxmır. Elə kişilərə elə belə də lazımdır. *(Bayırdan səs gəlir.)* Aha, səs gəlir. Bəlkə Əlidİr. *(Qapı arasından baxır.)* Hə, özüdür ki, var. Lap yerinə düşdü. Qafar əmi orda, Çimnaz xanım tratırda, bizdə ki, burda... Bir az ordan, burdan danışarıq, könlümüz açılar.

Ə l i *(qapı arasından).* Gəlmək olar?

N a b a t. Bilmirəm.

Ə l i. Evdə deyəsən adam yoxdur.

N a b a t. Nə danışırsan, adə. Mən adam deyiləm, heyvanam bəs?

Ə 1 i. Sən hələ yarım adamsan.

N a b a t. Özünsən.

Ə l i. Düzdür. Mən də yarım adamam. Çünki, sən də, mən də hələ cavanıq, yarım adamıq. İkimizi birləşdirsələr, onda olarıq tamam-kamal adam. Hə, bu barədə danışdın, nə dedilər?

N a b a t. Çimnaz xanımla danışmışam. O, ürəkdən razıdır. Qalıb Qafar əmi - ondan bir az qorxuram.

Ə l i. Qorxma, qorxma, məhəbbətdə qorxu yaramaz.

N a b a t. Əli, üstümə yenə əliboş gəlmisən, adam də istəklisinin yanına əliboş gələr?

Ə l i. Görünür başdan boşam ki, əliboş gəlmişəm.

N a b a t. Başın olsaydı, mənə rast gəlməzdin ki, tez get, bu küçənin başındakı dükandan mənə çərəz-mərəz al, tez gəl. Alçadan, gilasdan. Əlinə nə düşsə al.

Ə l i. Göz üstə. *(Oturur).*

N a b a t. Niyə oturdun, getdə.

Ə l ı. Gedirəm də.

N a b a t. Bəs haçan?!

Ə l i. İndi.

N a b a t. Yaxşı, yubanma, get.

Ə l i. Gedirəmdə.

N a b a t. Adə, bəs haçan?

Ə l i. Elə indi...

N a b a t. Məni dığ eləmə.

Ə l i. Bilirsən nə var?

N a b a t. Nə var?

Ə l İ. Deməyə utanıram.

N a b a t. Səndə utanan üz olsaydı, mənə rast gəlməzdin. Sözünü de.

Ə l i. Deyirəm ki, deyirəm ki, yeri, bir yerişinə baxım, sonra uça-uça gedim.

N a b a t. Yaxşı, buyur bax. *(Nazla yeriyir.)* Bu da mənim yerişim.

Ə l i. Can-can, ayağını yerə asta bas, canım çıxdı... Belə sənin yerişinə bu quru canım qurban... Doşab almışam bal çıxıb ki... Mən getdim... *(Qaçaraq gedir.)*

N a b a t. Yaman zarafatcıl oğlandır... *(Oxuyur.)*

Sevgisiz ürək olmaz,
Nə gül, nə çiçək olmaz.
Könül sevməyən gözəl
Gözümdə göyçək olmaz.

Əli gələnəcən gedim mətbəxə çay hazırlayım. *(Gedir.)*

Q a f a r *(gəlir).* Vay, vay nə yaman yoruldum!.. Deyəsən evdə heç kəs yoxdur. Görəsən, bunlar hardadır... Onu da çox yaxşı bilirəm ki, indi Çimnaz xanım məni görən kimi sevindiyindən körpə uşaq kimi atılıb-düşəcək. Çimnaz xanım elə bilir ki, mən bu saat kənddə xəstə bacımın yanındayam.

Əgər doğrudan o bilsə ki, mən hardaydım, ya od vurub özünü yandırar, ya da evdən baş götürüb ömürlük qaçar. Əslində mən xəstə bacımın yox, köhnə tanışım Tanyuşanın yanındaydım. Mənim ona da yazığım gəlir. Tanyuşa məni görən kimi ağladı. Mənə vəfasızsan dedi. Oturub şirin-şirin söhbət eləyirdik ki, birdən qulluqçu loxəbər gəlib dedi: "Xanım, əfsər gəlir, əfsər gəlir". Tanyuşanın rəngi oldu meyit rəngi... Mənim ürək-göbəyim düşdü. Dedim; əfsər xeylağı harsı-parsı bilmir, yaxşı, birdən çaxdı gülləni təpənə, öləndən sonra əfsərə neyliyə bilərsən. Qaldım məəttəl, özümü hansı deşiyə soxum. Sağ olsun, yenə Tanyuşa. Məni dal qapıdan ötürdü. Asta qaçan namərddir deyib düz buracan yortmuşam. Əslinə baxsan heç bu əzab, əziyyətə dəyməzdi. Tanyuşada daha əvvəlki Tanyuşalıq qalmayıb, yox doğrudan qalmayıb, üz-gözündəki rəngləri yuyub silsən lap xortdana oxşayar. Yox, Qafar bu səninçin dərs olsun.

Çimnaz xanım ayrı cür arvaddır. Özü gözəl, xasiyyəti özündən də gözəl. Yox, yox, biz kişilər öz arvadlarımıza doğrudan da zülm eləyirik. Götürək elə mənim özümü. Xudanəkərdə mən arvad olmuş olsaydım, ərimin belə işlərinə tab gətirə bilməzdim. Öz xasiyyətimi çox gözəl bilirəm. İşdir, arvad olsaydım, dünyada heç bir kişiylə yola getməzdim. Yox, getməzdim. Mən öz xasiyyətimi bilirəm axı. Çimnaz xanım o açıq gəzən, klublara, teatrlara gedən arvadlardan olsaydı, çoxdan mənim atamı dalıma sarıyardı. Bundan sonra ehtiyat lazımdır, ehtiyat. İndi zəmanə başqa zəmanədir. Əllaflıqla otuz ildə qazandıqlarım sabun köpüyü kimi havaya uçub gedər. Yox, mən də özümü bir gün ağlamalıyam... Çimnaz xanım yaxşı arvaddır, qoy gedim onun könlünü alım. *(Yataq otağına gedərkən Nabat məcməyidə çay gətirir. Q a f a rı görən kimi özünü itirir. Məcməyi slindən yerə düşür'.)*

N a b a t. Vaxsey, ağam, vay...

Q a f a r. Zalımın qızı, neylədin?

N a b a t *(dili soz tutmur).* Mə, mə, mə, mə...

Q a f a r. Qoyun kimi niyə mələyirsən? Dillənsənə.

N a b a t. S. s. s. s. s. Sən kəndə getməmişdin?

Q a f a r. Yox, maşına gecikdim. Tez bu zibilini yığışdır.

N a b a t. Bu saat... Qafar əmi, sizə nə olub, rənginiz ağarıb?

Q a f a r. Necə?! Ağarmışam?! Bir az yorğunam. Onunçun...

N a b a t *(kənara).* Nə yaman yerdə günü axşamladıq. İndi mən buna nə dil töküm ki, sözümə inansın.

Q a f a r. Nabat, qızım, tez iki nəfərlik süfrə hazırla.

N a b a t. Qafar əmi, məgər qonağınız gələcək?

Q a f a r. Nə qonaq?!. Biri mən, biri də Çimnaz xanım.

N a b a t *(süfrə düzəldir).* Nə deyirəm ki. *(Kənara)* Bu saat Çimnaz xanımla üzbəüz oturub şirin-şirin söhbət elərsən.

Q a f a r. Qoy onu özüm bura gətirim, Çimnaz hansı otaqdadır?

N a b a t. Yataq otağında.

Q a f a r. Çox əcəb... *(Qapıya doğru gedir.)*

N a b a t. Yox, əcəb baş tutmayacaq. Qafar əmi, qurban olum... olmaz...

Q a f a r. Necə... sən nə danışırsan, çəkil görüm.

N a b a t. Mən çəkilməyəcəyəm... Sən qapıdan çəkil.

Q a f a r. Yum ağzını. Səni korlayan o Çimnazdır, Çimnaz. Sənin nə haqqın var, mənə söz qaytarasan! Çəkil qabağımdan.

N a b a t. Bütün dünyanın qoşunları üstümə töksən də çəkilməyəcəyəm.

Q a f a r. Yox, bunun başı xarab olub. Nabat, yoxsa döyülməyin çatıb?

N a b a t. Yox, hələ çatmayıb.

Q a f a r. Çəkil.

N a b a t. Olmaz, olmaz, olmaz!

Q a f a r. Yaxşı, niyə axı?!.

N a b a t. Niyəsi odur ki, Çimnaz xanımın başı bərk ağrıyırdı. Getdi yatmağa... İndi o şirin yuxudadır. *(Qapıya tərəf)* Qafar əmi, sən allah gəl bir qulaq as. Xor-xoru eşidirsən?

Q a f a r. Xor-xoru?

N a b a t. Hə,hə...

Q a f a r. Doğrudan deyəsən eşidirəm. Qoy gedim bir halını soruşum.

N a b a t. Dedimki, olmaz.

Q a f a r. Rəhmətliyin qızı, arvada mənimlə şəriksən məgər?

N a b a t. Qafar əmi, Çimnaz xanım doğrudan da xəstə kimiydi. Gedib yuxudan oyatsanız, vallah, inanın ki, üzünüzə baxan kimi bağrı çatlar.

Q a f a r. Ayı-zadam ki, mənə baxanda bağrı çatlasın?!

N a b a t. Q a f a r əmi, oturun, sizə yemək gətirim.

Q a f a r. Yox, Çimnazsız boğazımdan heç nə getməz.

N a b a t. Qafar əmi, bayaqdan sizə baxıb fikirləşirəm. Deyirəm bu axır vaxtlarda cavanlaşmısınız.

Q a f a r. Qoy görək, gözə gətirərsən... Deyirsən Çünnazın başı bərk ağrıyırdı?

N a b a t. Bərkdən bərk.

Q a f a r. Daha keçib. Bu dəfə tək oturaram. *(Oturur, kənara)* Qərəz bu gün mənimki ikibaşlı gətirmədi.

N a b a t *(kənara)*. Uf... ürəyim bir az sakit oldu.

Q a f a r. Get mənim qəlyanımı gətir.

N a b a t. Qafar əmi, elə burda oturacaqsınız?

Q a f a r. Yox, çıxıb dam üstə oturacağam. Bu nə axmaq sözdür.

N a b a t. Qorxuram. Var-gəl elərsiniz, sonra Çimnaz xanım diksinib ayılar.

Q a f a r. Get, tərpənmərəm, Nabat xanım. *(Nabat gedir.)* Görəsən, Çimnazın dərdi nədir?! Görünür, mənim ayrılığıma dözə bilmir. Mən bir yerə gedəndə xiffət eləyir, darıxır, hirslənir, özündən çıxır. Bunlar dərd deyil, bəs nədir? Məhəbbət, ayrılıq zarafat deyil, canım.

Ə l i *(kağız torbalarda meyvə ilə gəlir)*.

Can gözəl, can gözəl.
Mən sənə qurban, Gözəl.

Q a f a r. Adə, sən kimsən?

Ə l i. Bə, bə, bə, bə...

Q a f a r. Adə, lal deyilsənki... Sən kimsən, hə?!.

Ə l i. Mə, mə, mə, mə...

Q a f a r. Sən də mələyirsən, hə?

Ə l i. Mə-ə mə, mə... mən mənəm.

Q a f a r. Mənimlə iş düzəlmir, axı de görüm kimsən, kim?!

Ə l i. He, he, heh, heç kim.

Q a f a r. Yox bu olmadı. Heç kimlə yaxa qurtara bilməzsən. A kişilər, mənim evim dönüb olub teatrxana. Cavab ver, yoxsa bu saat öldürərəm səni.

Ə l i. Çi, çi, çi, Çİmnaz xanım özü bilir.

Q a f a r. Nəyi bilir, adə?!

Ə l i. Eşqimizi, bayaq söz verdim ki, meyvə alım gətirim, söhbət eliyək, biz bir-birimizə söz vermişik.

Q a f a r. Adə nadürüstün biri, nadürüst... Necə yəni söz vermişik... Mən sağ ola-ola, sən mənim arvadımı, sənin əcəlin tamamdır.

Ə l i. Mə, mə, mə, mə, mən...

Q a f a r. Çərənləmə. Mən ölmüşəm ki, sən mənim arvadıma məhəbbət elan eləyirsən?!

Ə l i. Yo, yo-yox... Na-Na-Na-Nabat yaxşı bilir, soruş ondan... mə, mə, mə.

Q a f a r. Hamı mənim düşmənimmiş ki... Tfu, zatına lənət, ay belə arvad... Siz allah bir ona baxın. Bir görün məni kimə satırlar. Yox, bu ev deyil, teatrxanadır, teatrxana. Əvvəl bu haramzadəni, sonra da o xain arvadı öldürəcəyəm... Aha... titrəyirsən. *(Əlini boğazlayır.)*

Ə l i. Vay... öldüm... vay... bo-boğuldum.

Q a f a r. Öl, köpək oğlu, xalqın arvadına eşqnamə oxuyanda yaxşıdır, öləndə pis. Əvvəl səni, sonra da onu.

Ə l i. Bo-bo, boğuldum.

N a b a t *(yüyürərək gəlir. Əlini onun əlindən almağa çalışır).* Qafar əmi, Qafar əmi, burax onu, o bizim Əlİdir.

Q a f a r. Dəlidir getsin dəlixanaya, mənim evimə niyə gəlib?!

N a b a t. Dəli yox, Əlidir, Əli... Xeyir işdən ötəri gəlib ey...

Q a f a r. Necə, xeyir iş?.. Xalqın arvadına sataşmaqla havaxtdan xeyir iş olub? *(Əliyə)* De kəlmeyi-şəhadətini, əclaf!

N a b a t. Buraxın, deyirəm sizə... Başınıza hava gəlməyib ki?..

Q a f a r. Kişi olsaydın bilərdin ki, adamın arvadına sataşmaq nə deməkdir, çəkil.

N a b a t. Qafar əmi, buraxın onu, yoxsa haray çəkib şəhərin bütün milisionerlərini tökərəm bura. Bu mənimdir, Çimnaz xanımın buna dəxli yoxdur. Bu Əlidir, Əlidir. Xeyir işdən ötəri gəlib... Mənim nişanlımdır.

Q a f a r *(Əlini buraxır).* Necə, xeyir iş, nişanlı?

Ə l i. Bəli, Qafar əmi... xeyir iş, nişanlı... bayaq dedim məni başa düşmədiniz. Çimnaz xanım bu işin içindədir. O sizə bu barədə deyəcəkdir. Görünür, hələ deməyib... Nə eybi. Amama öz aramızdır, az qalmışdı, məni o dünyalıq eliyəsən ha...

Q a f a r. Bu nə işdir, bu gecə mənim başıma gəlir. Yox, doğrudan da bu gecə bizim ev olub teatrxana.

N a b a t. Əli bu küçənin başındakı klubda işləyir.

Q a f a r. Artist?

N a b a t. Xeyir a...

Q a f a r. Ay lotu, gündüz klubda, gecə də mənim evimdə işləyirsən. Doğrudan az qalmışdı, səni öldürəm. İkimiz də yaxşı qurtarmışıq... Yaxşı di get, bəlkə bir az hirsim soyusun.

N a b a t. Əli, Qafar əmi düz deyir, get hirsi soyuyandan sonra gələrsən. *(Ona göz vurur.)*

Ə l i. Nə deyirəm ki... *(Gedir.)*

N a b a t. Mən də mətbəxə baş çəkim. *(Gedir.)*

Q a f a r. Adə, mən nə pis adammışam... Bir dəqiqənin içində öz gül kimi arvadımdan şübhələndim. Amma yazıq Çimnazın heç nədən xəbəri yox. Bu saat şirin yuxudadır... Kim bilir bəlkə elə bu dəqiqə yuxusunda mənciyəzi görür. Özüm ölüm elədir ki, var, ürəyinə damıb...

N a b a t *(gəlir)*. Buyurun qəlyanınızı!

Q a f a r. Ver görək... *(Qəlyan çəkir.)* Ay qız, Çimnaz xanım yatanda nə olarki... Birinci dəfədir məgər. Onu o qədər yuxudan oyatmişam ki... Yox, mən ona baş çəkməsəm bağrım çatlar. Vallah üzümə baxan kimi başağrısı çəkilib gedəcək... Düz tapmışam, Çimnazın dərdinin əlacı mənim üzümü görməkdir. *(Qapıya tərəf gedir).*

N a b a t *(gabağını kəsir)*. Hara?

Q a f a r. Bu da sözdür, arvadımın yanına.

N a b a t. Bayaq dedim ki,olmaz, olmaz. Xanımın başı bərk ağrayır, özü də bu saat şirin yuxudadır.

Q a f a r. Çəkil qapıdan deyirəm sənə. Mənimlə mala şəriksən məgər. Arvad alanda mənimlə maya qoymusan məgər. İtil gözümdən...

N a b a t. Qafar əmi... deyirəm ki, hə, deyirəm ki, olar ha, amma olmaz.

Q a f a r. Dilin topuq çalır. Rəngində ağappaqdır. Aha, yəqin burda bir iş var.

N a b a t *(kənara)*. İşlər lap alt-üst oldu... Mən nə tədbir töküm axı... Qafar əmi, düz tapmısan. Burda bir iş var. Amma dilim gəlmir.

Q a f a r. İşin içində iş olanda, əlbəttə, dilin gəlməz. Yaxşı tapmışam.

N a b a t. Yox, tapmamısan Qafar əmi... Bilirsən nə var? (*Nazla)*

Q a f a r. Nə var, axı?!

N a b a t. Qısqanclıq.

Q a f a r. Bu nə sözdür?

N a b a t. Deyirəm də... Mən, mən, mən...

Q a f a r. Sonra.

N a b a t. Səni, səni, səni, səni.

Q a f a r. Məni, məni, məni, sonra?

N a b a t. Hə, səni, səni, səni.

Q a f a r. Uzatma, dalını de...

N a b a t. Sə, sə, sə...

Q a f a r. Mənə əlifba dərsi vermə. Müxtəsər sözünü de.

N a b a t. Mən səni sevirəm.

Q a f a r. Nə dedin, necə?!

N a b a t *(nazla).* Qafar əmi, mən səni doğrudan da sevirəm.

Q a f a r. Qələt eləyirsən, sevirsən... Danışdığına bax... Səni sevirəm! Bəs bayaqkı o dələduz nəçiydi?

N a b a t. O mənim doğma xalaoğlumdur. Doğrudur, o məni sevir... Amma mənim ondan zəhləm gedir. Əgər mən bayaq nişanlımdır deməsəydim, indi bəlkə o çoxdan ölmüşdü. Bayaq bir yalandı dedim... İndi isə doğru deyirəm, mən səni sevirəm. *(Kənara)* Görəsən kələyim baş tutacaqmı?

Q a f a r. Doğrudan da mənim evim teatrxanadır, teatrxana. Çəkil, gedim arvadımın yanına.

N a b a t. Olmaz. Mən qısqanıram. Oyan-buyan eləsən belə bağıraram ki, dünya tökülər bura. Soruşarlar nə olub, deyərəm, Qafar əmi mənə eşq elan eləyirdi.

Q a f a r. Pah atannan...

N a b a t. Odur ki, mənim ürəyimdən gələn məhəbbəti yerə salma! Dedim ki, mən səni Çimnaz xanımla bir yerdə görəndə qısqanıram, od tutub yanıram. Cızdağım çıxır, istəyirəm xörək içində zəhər verib ikinizi də birdən öldürəm.

Q a f a r. Bu nə deyir, adə?! Bizim əcəlimiz qıldan asılıymış ki...

N a b a t. Qafar əmi... sözdür deyirəm də... Bunlar hamısı məhəbbətdəndir, məhəbbətdən.

Q a f a r *(düşünür, kənara).* Görünür, bu şeytan doğrudan da mənə vurulub. Mənim kimi kişiyə vurulmayıb kimə vurulacaq. Bu vaxtacan buna heç əməlli-başlı diqqət yetirməmişəm. Ölməmiş sifətdən də, bədəndən də pis deyil. *(Nabata)* Ay şeytan, əgər məni sevirdinsə, niyə bu vaxta qədər dinməmisən, hə?..

N a b a t. Qorxmuşam... Bağışla, Qafar əmi, bir sözdür ağzımdan çıxdı... Bağışla məni... Mən Özüm də bilmirəm, indi sizə nə demişəm.

Q a f a r. Onu ürəyin səndən daha yaxşı bilər. Gəl otur yanımda görək.

N a b a t. Nə üçün axı?!

Q a f a r. Qiyabi də məhəbbət olar? Gəl gör sənə nə deyirəm.

N a b a t. Yaxşı, dayan... xanım ayılar. Sonra, sonra... Burax məni.

Q a f a r. Ay qız, Çimnaz xanım dediyin kimi indi şirin yuxudadır. Qulağının dibində top da atsan ayılmaz. Qorxursansa qoy qapıları bağlayım. *(Qulağı qapıya dirəyir.)* Qorxma... gözümüz aydın, xoruldayır bir gəl qulaq as.

N a b a t *(qulaq asır).* Doğrudan da, yaman xoruldayır.

Q a f a r. Keçmə xoruldayan arvaddan. *(Qapıları bağlayır.)* Dincəldin... Al açarı, indi gəl otur yanımda...

N a b a t . Mən qorxuram, bəs o biri qapılar.

Q a f a r. Yaxşı: qoy gedim o biri qapıları da bağlayım. *(Gedir.)*

*Bayırdan səs gəlir. Nabat özünü itirir. Qafarın da öskürayi eşidilir. Çimnaz qapıdan başını çıxarır.*

Ç i m n a z. Səlamətlikdir?.. Qafar gəlməyib ki?!

N a b a t *(onu geri qaytarır).* Qafar əmi gəlib. Odur gəlir... Sonra... sonra. Tez, tez.

*Çimnaz geri çəkilir.*

Q a f a r *(gəlir).* Ay qız, qulağıma səs gəldi axı.

N a b a t *(kənara).* İndi gör qulağına nə səs gələcək. *(Bərkdən)* Səs gəldi, səs gəlir... Səs gələcək, Nabat güləcək. Çimnaz güləcək.

Q a f a r. Bu nə danışır, adə... Dəli olmamısan ki?..

N a b a t. Olmuşam, oluram, olacağam. *(Titrəyir.)* Məhəbbət, məhəbbət... vay... vaxsey... şaxsey...

Q a f a r. Məhərrəm ayıdır məgər, şaxsey, vaxsey gedirsən?

N a b a t. Gedirəm özümdən, vay, vay, ölürəm, vay ölürəm.

Q a f a r. Qışqırma, Çimnaz xanım ayılar.

N a b a t. Vay başım, vay ürəyim... *(Birdən yerə sərələnir.)*

Q a f a r. Adə bu öldü ki, görəsən bunun dərmanı, əlacı nədir.

N a b a t. Sirkə, abqora. Sirkə abqora.

Q a f a r. Görünür məhəbbətdəndir. *(Mətbəxə cumur, Nabat tez ayağa qalxır, qapını açıb Çimnazı yataq otağına ötürür.)*

Ç i m n a z. Necə?.. Bu nə sözdür? Görünür ki...

N a b a t. Yox... Ona aşiq olmasaydım, eşqimi elan eləməsəydim eviniz yıxılacaqdı.

Ç i m n a z. Necə?.. Bu nə sözdür? Görünür ki...

N a b a t. Daha uzun eləmə, tez keç otağına, yoxsa işlərimi korlarsan. *(Onu otağa salır.)* Soyunandan sonra qapını tıqqıldadarsan ki, arxayın olum. *(Təzədən yerə sərələnir.)* Vay öldüm. Vaxsey, şaxsey.

*Qafar əlində neft şüşəsi gəlir.*

Q a f a r. Al bu da sənin abqoran... *(Onun başına tökür.)* İndi dincəldin.

N a b a t *(qalxır).* Dincəldim... *(Üst-başını qoxulayır.)* Vay, vay...

Q a f a r. Yenə gətirim?

N a b a t - Vay. Bu ki neftdir, neft...

Q a f a r. Neftdir! Qəm yemə, neft tez uçub gedər. Təki sənin məhəbbətin uçub getməsin. Gəl indi sənin o mərcan dodaqlarından zəhmət haqqını alım. *(Nabatı öpmək istəyir.)*

N a b a t. Çəkil... xain, şorgöz!

Q a f a r. Necə-necə, xain, şorgöz?

N a b a t. Bəli.

Q a f a r. Bəs sən məni sevmirsən?

N a b a t. Səni, onu, onu, səni. Mən Çimnaz xanımı sevirəm.

Q a f a r. Heç başım çıxmır, bu nə sirdir. Bəs bayaqkı sözlər, bayaqkı eşqlər, məhəbbətlər?..

N a b a t. Qafar əmi, siz məni yaxşı tanımırsınız. Mənim tutmam var, hərdən məni cin vurur. Bayaq məni cin vuranda görmədiniz? Gördünüz ki... Bayaq az qalmışdı öləm ki.

Q a f a r. Ölməyin daha məsləhətdi.

N a b a t. Naxoşam ey... Ürək keçməmə az qalmış qızdırmanın gücündən ağzıma gələni danışıram. Yəqin, görünür, bayaq da elə olub... Yaxşı, Qafar əmi, bayaq məni cinlər vuranda sənə nə demişdim axı?

Q a f a r. Yəni doğrudan da bilmirsən bayaq mənə nə demisən?

N a b a t. Yox, yox, sizə acı söz, zad deməmişəm ki?

Q a f a r *(kənara).* Baxtım ayaq üstəymiş. Yoxsa evim yıxılardı... *(Bərkdən)* Özüm ölüm mənim evim teatrxanaymış. Teatrxana! Aha o nə səsdir?

N a b a t. Yəqin Çimnaz xanım oyanıb. Qoy bir gedim baxım.

Q a f a r. Çəkil... Bu da bayaqkı deyil... Olmaz, olmaz. Çimnaz, bu dəqiqə gəlirəm. Görünür mənsiz yaman darıxmısan.

N a b a t. Darıxmasaydı, ayılmazdı ki...

Q a f a r. Gəlirəm mənim gülüm-bülbülüm... Əşi adama hər nə olsa yenə öz arvadından olar. Yaxşı deyiblər, qonşuya ümid olan şamsız qalar.

Ç i m n a z *(gəlir).* Qafar, yenə nə var ki, kefin belə kökdür.

Q a f a r. Heç, Çimnaz maşına çata bilmədim. Qayıtdım evimə. Sənə nə olmuşdu, başın ağrıyırdı?

Ç i m n a z. Balaca.

Q a f a r *(Nabata).* Bəs sən deyirdin lap bərk ağrıyır. Şeytan... Arvad, amma öz aramızdır, hərdən yuxuda yaman xoruldayırsan ha.

Ç i m n a z. Qızdırmadandır, teatr ki var.

Q a f a r. Necə teatr? Nə teatr?

Ç i m n a z. Hə, hə, o teatr... yuxudakı teatr, Qafar, yuxuda çox qəribə bir teatr görmüşəm.

Q a f a r. Əcəb eləmisən. *(Nabat Əlini pəncərədən otağa salır.)* Çimnaz, bax, əsil teatr budur, bu.

Ç i m n a z. Əli yaxşı oğlandir. Nabata layiq oğlandır.

Q a f a r *(onları süzür).* Nə deyirəm ki, yaxşı, Çimnaz, yuxuda məni görmədin ki!

Ç i m n a z. Yox.

Q a f a r *(kənara).* Yaxşı ki, görməyib, yoxsa atamı yandırardı... *(Çimnaza)* De görüm, yuxuda nə gördün axı?

Ç i m n a z. Qafar, yuxudakı teatrda bilirsən necə oynayırdım...

Q a f a r. Olmaz ki, yuxu teatrında oynadığını bizimçin oynayasan könlümüz açılsın.

Ç i m n a z. Bu dəqiqə...Nabat... Sən də gəl birgə oynayaq. Bax belə.

*Oynayırlar.*

Q a f a r *(dingildəyir).* A kişilər mənim evim doğrudan da teatrxanaymış, teatrxana!

Ç i m n a z *(kənara, ucadan).* Öz xoşunla bizi teatrlara aparmayınca, bizim evimizdə hər gecə belə gülməli teatr tamaşaları olacaq. *(Tamaşaçılara)* Hamınız buyurub gələ bilərsiniz.

P Ə R D Ə

*1922*

# QAÇAQ NƏBİ

*Beş pərdəli, doqquz şəkilli tarixi dramatik poema*

İŞTİRAK EDƏNLƏR

N ə b i - xalq qəhrəmanı, 30 yaşında.
H ə c ə r -onun arvadı, 24 yaşında.
A l ı k i ş i - Nəbinin atası, 50 yaşında.
G ü l b a c ı - Həcərin anası, 45 yaşında.
M e h d i -Nəbinin qardaşı, 25 yaşında.
Ş a h M ə m m ə d - Həcərin atası, 45-50 yaşında.
Ç i m n a z - Hecərin yoldaşı, 20 yaşında.
Q u r d K ə r i m - Nəbinin dəstəsinə soxulmuş satqın; 30 yaşında.
Q ə h r ə m a n
T a p d I q
M ü r s ə l -Nəbiyə qoşulmuş kəndlilər.
S ə f ər k i ş i
Vəli
M u s a - Təbriz kəndlisi, 40 yaşında.
Q a s ı m - Təbriz kəndlisi, 35 yaşında.
G ü l l ü x a l a - Musanın arvadı, 30 yaşında.
Q a z a q V a s i l i - Nəbiyə qoşulmuş yoxsul gazaq, 35 yaşında.
T ə h m a s b ə y - Qarabağ bəyi, 45 yaşında.
S ə l i m b ə y - Təhmas bəyin oğlu, 25 yaşında.
C ü m ş ü d b ə y - Qarabağ bəyi, 40 yaşında.
M a h m u d b ə y - Qarabağ bəyi, 35 yaşında.
M ə m m ə d - koxa, 40 yaşında.
X ə l i l - tacir, 50 yaşında.
L e y l a - Xəlilin arvadı, 35 yaşında.
S l a v ç i n s k i - polkovnik, 50 yaşında.
C ə l i l - strajnik, 35 yaşında.
F a t m a - Mürsəlin arvadı, 40 yaşında.
B ə y l ə r, s t r a j n i k l ə r, q a z a q l a r, k ə n d l i l ə r.

Hadisə 1890-95-ci illərdən bəhs edir.

# BİRİNCİ PƏRDƏ

## BİRİNCİ ŞƏKİL

Qarabağ, Şuşa qalası, Təhmas bəyin həyəti. Bayırda səs-küy qalxır. Cümşüd bəy və strajniklər vergi verməyən kəndliləri döyə-döyə həyətə gətirirlər. Nəbi bir yanda odun yarır.

C ü m ş ü d  b ə y

Uzun danışmayın deyirəm sizə,
Dərinizi soymaq borc olsun bizə.

S ə f ə r  k i ş i

Təqsirimiz nədir, bir deyin, bilək.

*(Əlini göyə qaldıraraq)*

Bu nə güzərandır, ey zalım fələk!

C ü m ş ü d  b ə y

Kəs səsini köpək... Beyniniz kütdür.
Bu kəndistan ki var, barsiz söyüddür.
Söyürsən, döyürsən, qanmır ki, qanmır,
Özü, öz halına yanmır ki, yanmır.
Toxumunuz kəsilsin gərək dünyadan.

T a p d ı q

Sizi kim yaşadar onda firavan?

S ə f ə r  k i ş i

Ayağımız yalın, başımız açıq,
Hamımz bir dərddə, hamımız acıq.
Sıxır pəncəsində vergilər bizi,
Haram yaşamaqdır qudurdan sizi.
Bir söz, əlinizdən gəlmişik cana.

C ü m ş ü d  b ə y

Sus ki, bulaşdırram ağzını qana!
İstəyiniz nədir, deyiniz görək?!

S ə f ə r  k i ş i

Qanlı tifağınız pozulsun gərək!

C ü m ş ü d  b ə y

Bəyliyin yerində murdar donuz tək
Dilənirsiniz, bax, yeyib, içərək.
Donquldanırsınız işə gələndə,
Təqsir öləndədir, ancaq öləndə!..

*Səfər kişini döyürlər, səsə Təhmas bəy çıxır*

S ə f ə r  k i ş i

Məndə can qalmadı, ah,
Ölürəm, aman allah...

T ə h m a s  b ə y

Bu nə qalmaqaldır, bağıran kimdir,
Allahı köməyə çağıran kimdir?
Cümşüd bəy, de görüm, nə olub yenə?

C ü m ş ü d  b ə y

Bunların ucundan gün yoxdur mənə.
Səhərdən düşmüşəm əldən, ayaqdan,
Sağ yer qoymayıblar məndə bayaqdan.
Dad, aman əlindən bu kəndlilərin,
Od yağır dilindən bu kəndlilərin.
Bu ilki vergilər qalsın bir yana,
Keçən ilinkinə min cür bəhanə
Gətirib vermirlər...

T ə h m a s  b ə y

Kəndli tayfası
Qudurar döyməsə onu ağası.

S ə f ə r  k i ş i

Təhmas bəy, camaat ölür acından,
Yandı taxılımız, gəlmədi ələ.

T ə h m a s  b ə y

Sus, yoxsa asdırram dar ağacından.

S ə f ə r  k i ş i

Günahımız nədir?

T ə h m a s  b ə y

Rədd ol, çıx çölə!
Vergiləri verin, o doğru deyir.

S ə f ə r  k i ş i

Acından camaat çöldə ot yeyir.
Özün bilirsən ki, bu il bu yerde
Yağınlıq olmadı, el düşdü dərdə.
Olan-olmazı da məhv etdi dolu,
Elinsə ürəyi qəzəblə dolu...

T ə h m a s  b ə y

Qəzəbə bir baxın, kəs, qoca köpək!
Burnundan tökülsün verdiyim çörək.

Səfəri yenə döyürlər.

C ü m ş ü d  b ə y

Vergilər bir yana, bunlar hələ bir,
Vallah, biyara da getmək istəmir.
Mən yazıq dedikcə: çıxsın biyara,
Elə bil deyirsən daşa-divara.

T ə h m a s  b ə y

A Cümşüd, deyəsən xərifləyirsən,
Sənə ki, min dəfə tapşırmışam mən:
Bu qanmaz tayfayla danışma yumşaq,
Allaha çox şükür, deyilsən uşaq.
Aldanma kəndlinin sən göz yaşına,
Üzünə güldünmü, çıxar başına.
Biyara getməyən, vergi verməyən,
Bəylərə hörməti lazım görməyən,
Bilsin ki, nə qədər bu canım sağdır.
Əlimdən salamat çıxmayacaqdır!

*(Otağa keçir.)*

Koxa Memmed iki strajniklə qurd Kərimi çəkə-çəkə gətirirlər. Strajniklərdən birinin üz-gözü qana bulanmışdır.

K o x a

Bəyin nökərinə əl qaldırmağı
Sizə kim öyrətdi? Köpək uşağı!

Q u r d  K ə r i m

Vay, öldüm, vurmayın, yazığam.

K o x a

Kiri!
Bax, gör, nə etmisən, axmağın biri.

*(Strajniki göstərir.)*

Qanadıb fağırın ağız-burnunu.

T ə h m a s b ə y

*(gələrək)*

Bu nədir? Kim salıb bu hala bunu?

K o x a

Yol kəsən, baş kəsən, zəncirsiz dəli,
Şübhəniz olmasın, belədir, bəli.
Lotunun, əclafın, alçağın biri,
Oğrunun, quldurun, qaçağın biri
Kəndirbaz, hoqqabaz, meymun oynadan,
Hər yerə baş vurub qazan qaynadan,
Bizləri saymayan, dələduz, lovğa...

T ə h m a s b ə y

Müxtəsər et görüm, uzatma, Koxa!

K o x a

Bu qurd Kərim ki var, köpək oğludur,
Fağır strajnik buyruq quludur.
Sizin omrinizə elərkən əməl
Bax, bu zatıqırıq, yaramaz, əfəl
Vurub baş-gözünü bulayıb qana,
Demək, əl qaldırıb sizə, divana.

T ə h m a s b ə y

Sən atayın goru, uzatma ancaq.

K o x a

Xırmanda taxıllar yığılıb dağ-dağ,
Durur qalaq-qalaq odun meşədə,
Qorxuram, hamısı zay olub gedə.
Bunlardan bir kimsə yetmir haraya,
Vurmur öz əlini ağdan-qaraya.
Tutmağa çalışdım bunları dilə,
Yola gəlmədilər pişim-pişimlə.
Cin vurdu başıma, çıxdım özümdən,
Hamsını doyunca kötəklədim mən.
Bunun əti gərək çəkilə şişə,
Zorla camaatı qovmuşdum işə
Bu gəlib qoymadı, qarışdı ara.
Budur, döyə-döyə gətirdim bura.

T ə h m a s b ə y

Yaxşı, hammıza deyirəm təkrar,
Tez at-arabanı qoşun hər nə var.

T a p d ı q

Bizdə at-araba nə gəzir?

T ə h m a s b ə y

Belə?
Ağlınız yerinə gəlməyib hələ?
Öküzləri qoşun!

T a p d ı q

Öküz varmı ki?

T ə h m a s b ə y

Mənim bir sozümü etməyin iki,
Atanı, ananı, arvadını qoş,
Cəddi-əqrəbanı, övladını qoş!..

*(Cümşüd bəyə)*

Baxma sən bunlarm ağlamağına,
Arvadlı, kişili qat qabağına,
Yumruqla, təpiklə çıxart bayıra,
Hökmümə əməl et, yox başqa çara.

*(Qurd Kərimi göstərir.)*

Bunu da saxlayın qoduqluqda ac,
Vurun kürəyinə yüz yağlı qırmac!

N ə b i

A bəy, rəhmə gəlin, insafa gəlin,
Onsuz da xoş günü yoxdur bu elin.

T ə h m a s b ə y

Nəbi, neçə kərə demişəm sənə,
Qapımda nökərsən, ağ olma mənə!

N ə b i

Bəy!.. Axı...

T ə h m a s b ə y

Canımı yığmısan bura.

*(Boğazım göstərir.)*

Sonra danışaram, səninlə sonra!

M a h m u d b ə y

*(Otaqdan çıxır.)*

Təhmas bəy, pozmayın heç nəşənizi,
Gedəyin, qonaqlar gözləyir sizi.

Gedirlər. Cümşüd bəy, koxanın və strajniklərin köməyi ilə kəndliləri zorla bayıra çıxarırlar. Nəbi odun yarır.

N ə b i

Yanıram içində alovun, odun,
Bəy başı olaydı gərək bu odun!
Onu bu baltamla yaraydım belə.

T a p d ı q

Qara günlərimiz daldadır hələ.
Allah da, Quran da onlarınkıdır,
Qanun da, divan da onlarınkıdır.

N ə b i

Belə getməyəcək, görəsən bir gün
Bu fəsad ocağı olar sərnigün!

V a s i l i

Vasili, Vasili, taleyinə bax!
Məzlumlar əlinlə edilir dustaq.

N ə b i

Qazaq, razısanmı bu əməlindən?
Ayrılıb yuvandan, doğma elindən
Nə üçün gəlmisən bizim dağlara?
Sizin yerlər hara, bu yerlər hara?!

V a s i l i

Məni özünüzə bilməyin düşmən,
Qafqaza gəlmədim öz xoşumla mən.
Əsgəri xidmətin quluyam ancaq.

N ə b i

Düşmən deyilsənsə düz söylə, qazaq,
Rusiyətdə nə var?

V a s i l i

*(gülümsəyərək)*

Nə deyim?

Nəbi

*(gülərək)*

Yenə.

V a s i l i

Niyə bu sualı verirsən mənə?

N ə b i

Bilmək istəyirik, orda kəndlilər
Xoşbaxt yaşayırmı barı bir qədər?

V a s i l i

Qardaş, sən nə qoyub, nə axtarırsan?
Hər yerdə iğtişaş, hər yerdə üsyan,
Alovlu nəğmələr ucalır göyə.

N ə b i

Görünür hamının istəyi birdir,
Bütün məzlumların ürəyi birdir.

V a s i l i

Çox yaxşı adamsan, duyuram ki, sən...
Gözündən görürəm ürəyini mən.

N ə b i

Zindansız dustağam öz vətənimdə,
Ağ gün həsrətilə yaram qan verir.
Yanır xanimanlar, çapılır ellər,
Əyri kefə baxır, doğru can verir.

V ə l i

*(Daxil olur.)*

Nəbi, xoş görmüşük, kefin necədir?

N ə b i

Günəşli gündüzüm zülmət gecədir.

V ə l i

İndicə rast gəldim yolda bir qıza,
Meydan oxuyurdu aya, ulduza.
Anam-bacım olsun, göyçəkdi, göyçək,
Gözləri badamdı, saçları ipək.
O qiz, gözün aydın, səni axtarır.

N ə b i

Nə dedin, nə dedin?Məni axtarır?

*Bu an Həcər görünür.Nəbi cəld onu qarşılayır.*

N ə b i

Həcər? Bu gördüyüm yuxudur, nədir?

H ə c ə r

Yuxu niyə olur? Gözünü sil bir!

N ə b i

Yox, yuxum çevrilib oldu həqiqət,
Sıxdıqca ruhumu bir acı həsrət,
Çaldıqca qapını ayrılıq daşı.
Axdı ürəyimə gözümün yaşı.
Bir daha çevrilməz göz yaşım selə.

H ə c ə r

Heç məni demirsən, yuxumda belə
Nəbi, Nəbi deyib, çəkirəm haray.
Sənsiz nə yeməyim, nə içməyim var.
Birdir gözlərimdə sonsiz qış, bahar.
Sənsiz nə ürəyim, nə üzüm gülməz.
Quru bir cəsəddir Nəbisiz Həcər.

N ə b i

Ürəyi ürəkdən ayıra bilməz
Ah, nə bu ayrılıq, nə də ki, xəncər.
Nigaranam, Həcərim, çox.
Kəndimizdə nə var, no yox?

H e c ə r

Kənd yenə o kənddir qışda, baharda,
Ancaq nə edinı ki, sən yoxsan orda.

N ə b i

Nə deyim, ay Həcər, nə deyim sonə,
Toy xərci gərəkdir, bilirsən, tnənə.

H ə c ə r

Bilirəm, ay Nəbi, bilirəm...

Nəbi

Onda
Qoy dözək zəhmətə sənin yolunda
Həcər, yadındamı, hər baharda biz
Birlikdə çıxardıq dağa ikimiz.
Baxardıq köpürüb axan sulara,
Bu xoş tamaşadan ayrılıb sonra,
Yığardıq meşədən biz ətək-ətək
Yanağın, dodağın rəngdə çiyələk.
O günlər düşəndə yadıma mənim
Oynayır yerindən ruhum, bədənim.

H ə c ə r

Hərdən də çalardın mənimçün tütək...

N ə b i

Yenə o günlərlə döyünür ürək.

H ə c ə r

Kəndə qayıdardın qaş qaralanda.

N ə b i

Yoxsul daxmamızda çıraq yananda.

H ə c ə r

Mənciyəz anamdan yeyərdim töhmət.

N ə b i

Zarafat gəlməsin sənə məhəbbət.
Söz ver ki, ömrünün axırınadək
Mənim olacaqsan, Həcərim, mənim!

H ə c ə r

Sənindir sinəmdə döyünən ürək
Yetincəyə qədər əcəlim mənim.

Səlim bəy sərxoş vəziyyətdə otaqdan bayıra çıxıb Həcəri görür. Həcərin gözəlliyi onu hcyrətə salır.

S ə l i m b ə y

Aha... Baxçamıza qonmuş göyərçin,
Allah göndərmişdir onu mənimçün.

*(Nəbiyə)*

Nəbi, bu qız kimdir?

N ə b i

Bizim ellidir.

S ə l i m b ə y

Bəh, bəh, bərəkallah, gözələ bax bir.
Ay qız, adın nədir?

H ə c ə r

Həcər...

S ə l i m b ə y

*(Cümşüd bəyə)*

Çox gözəl...

H ə c ə r

*(Nəbiyə)*

Mən getdim...

*(Getmək istəyir.)*

S ə l i m  b ə y

Hara?
Dur, qaçma, yaxın gəl!
Səni kim böyüdüb belə nazənin?
Tayın, bərabərin tapılmaz sənin.

N ə b i

*(Həcəri ondan qoruyur.)*

Səlim bəy, qoy getsin.

S ə l i m  b ə y

Sən dinmə görək!

N ə b i

Yad gözlər  Həcəri görməsin gərək.

Səlim bəy

Gözəli gözlərdən gizlətmək olmaz.

*(Qolundan tııtur.)*

Gəl gedək, məclisə can gəlsin bir az.
İçək sağlığına kef otağında.

N ə b i

*(Həcəri onun əlindən alır.)*

Onun nə işi var qan ocağında?!
Çək onun əlindən murdar əlini!

S ə l i m b ə y

Namərdəm kəsməsəm acı dilini.

N ə b i

Bəy vurram...

S ə l i m b ə y

Sən bunun cürətinə bax!
Bəyə əl qaldırır südəmər uşaq.

H ə c ə r

Amandır, ay adam, amandır, kömək!

N ə b i

Daşdı səbir kasam, al gəldi, köpək!

Səsə Vasili, bir neçə kəndli və Cümşüd bəy gəlir.

C ü m ş ü d b ə y

Bəyə əl qaldırmaq?! Nankor qudurğan!

Nəbi ilə əlbəyaxa olurlar, vuruşma zamanı Nəbi Səlim bəyi yerə yıxır.
Cümşüd bəy Nəbini nişan alarkən Nəbi Səlim bəyi buraxır.
Növbətçi qazağın tüfəngini alıb Cümşüd bəyi vurur.

N ə b i

Sən də al payını, cəllad!

*(Həcərlə birlikdə aradan çıxır.)*

C ü m ş ü d b ə y

Ah... aman.

Hamı səhnəyə doluşur.

M a h m u d b ə y

Nə olub?..

S ə l i m b ə y

Xəyanət...

*(Vasilini şillələyir.)*

Alçaq, yaramaz.

M a h m u d b ə y

Tez olun, tez olun, yubanmaq olmaz,
Atları dörd nala çapın, gətirin,
Harda olmuş olsa tapın, gətirin!
Vurdu Cümşüd kimi mərdi, igidi...

T ə h m a s b ə y

Vuran kimdi?

M a h m u d b ə y

Alı oğlu Nəbiydi!

PƏRDƏ

## İKİNCİ PƏRDƏ

İKİNCİ ŞƏKİL

Təhmas bəyin həyatı. Strajnik gəlib otaqdan Təhmas bəyi səsləyir.

S t r a j n i k

Təhmas bəy, a Təhmas bəy!

T ə h m a s b ə y

Nə olub, ay lovxəbər!

S t r a j n i k

Bədbəxtlik üz veribdir.

T ə h m a s b ə y

Tez ol, danış müxtəsər!

S t r a j n i k

Nəbi...

T ə h m a s b ə y

Yenə də Nəbi? Əcəb qalmışıq aciz.

S t r a j n i k

Əsgəran dərəsində soyub poçtu tər-təmiz,
Pullarısa paylayıb lüt, yoxsul kəndlilərə.

T ə h m a s b ə y

Ayıq olun, demişəm, sizə azı min kərə.

S t r a j n i k

Onu gözdən itirdik biz, əlli igid atlı,
Bilmədik göyə çıxdı, yoxsa ki, yerə batdı.

T ə h m a s b ə y

İtil, rədd ol!..
Ağalar, yox, buna dözmək olmaz.
Ürəyimi qurd kimi gəmirib yeyir qisas.
Qorxudan neçə aydır, rahat yata bilmirik,
Nəbini axtarırıq, lakin tuta bilmirik.
Belə getsə üzümüz əsla gülməyəcəkdir.
Papaqdır başımızda, deyin, yoxsa ləçəkdir?!
Nəbinin dəstəsinə qoşulan lüt kəndlilər
Kökümüzü kəsərlər fürsət tapsalar əgər.

S ə l i m b ə y

Gündüz-günortaçağı, buna mat qalmışam mən
Otuz at qaçırıblar bəyliyin töyləsindən.

T ə h m a s b ə y

Qorxun, aparmasınlar arvad, uşağımzı,
Ələ keçirməsinlər bütün torpağınızı.
Bəylər, qulaq asınız, sözüm acı olsa da,
Haramdır qeyrətsizə yaşamaq bu dünyada!
Hanı vurhavurumuz, hanı gəlhagəlimiz,
Hanı görən gözümüz, hanı vuran əlimiz?!

S ə l i m b ə y

İsti-soyuqçun deyil başımdakı bu papaq,
Nəslimizin baxtına qılıncım yol açacaq.
Hər kim olursa olsun, aman verməræm yada,
Mən ölümə adınla sözsüz gedərəm, ata!

T ə h m a s  b ə y

Atana oxşamısan, Səlim, gəl öpüm səni,
Yaxşı başa düşmüsən oğulluq vəzifəni.

Mahmud bəy və Koxa Məmməd kefli halda gəlirlər.

K o x a

Təhmas bəy, xoş görmüşük, salam bütün bəylərə!

T ə h m a s  b ə y

Gör nə kökə düşmüsən.

K o x a

İçməmişik boş yerə.

T ə h m a s  b ə y

*(İstehza ilə)*

Çək başına yorğanı, sübhə qədər xorulda,
Sonra hüzurumuzda yağmasan da, gurulda.

K o x a

Vallah, biz nə yatırıq, nə də xoruldayırıq,
Mən, Mahmud bəy, bu saat gur-gur guruldayırıq.
Bir kələk qurmuşuq ki, gələcək bizdən xoşun,
Məsəl var, bata bilməz bir nəfərə bir qoşun.

T ə h m a s  b ə y

Hardan gəlirsiniz?

K o x a

Kefdən, damağdan.

T ə h m a s  b ə y

Bu haqda deyirdim elə bayaqdan,
Siz nə haydasınız, aləm nə hayda.

K o x a

Bizim tədbirimiz verməsə fayda
Vur, öldür məni də, Mahmud bəyi də.

M a h m u d  b ə y

*(Təhmas bəyə nə isə pıçıldayır.)*

Lap sən deyən oldu.

T ə h m a s  b ə y

Bayaqdan de də...

M a h m u d  b ə y

Boyun qaçırırdı əvvəlcə yaman.
Sonra tutub onun boş damarından
Yağlı vədələrlə gətirdik yola,
Deyin, kim satılmaz pula, qızıla?!
Sənin sözlərinə qol qoyur tamam.

T ə h m a s  b ə y

Afərin, afərin, bax, buna varam.

K o x a

İndi bildiniz ki, koxalıq nədir?

T ə h m a s  b ə y

Tez ol, qurd Kərimi yanıma gətir.

K o x a

Göz üstə.

T ə h m a s b ə y

Bəylər, içəri keçin, məni gözləyin bir az,
Vacib bir iş var, onu təxirə salmaq olmaz.
Mahmud bəy, deyəsən işlər düzəlir.
Bir söz, bu hiyləniz xoşuma gəlir.

Koxa Qurd Kərimi gətirir.

T ə h m a s b ə y

A gədə, yaxın gəl, yaxşı qulaq as.

K o x a

Mərhəmət kanidir ağamız Təhmas.

T ə h m a s b ə y

Günahın böyükdür, bilirsən özün,
Bu gündən azadsan, buna nə sözün?!

Q u r d K ə r i m

*(Təhmas bəyin ayaqlarına qapanır.)*

Sizin qulunuzam ölənə kimi.

T ə h m a s b ə y

Mahmud bəy fikrimi sənə deyibmi?

Q u r d K ə r i m

Bəli, deyib, deyib...

T ə h m a s  b ə y

Bilirsən, demək,
İnan, baş tutarsa bu böyük kələk
Bəylərin yanında ucalar başın.
Tərəddüd etməkdən büsbütün daşın!

Q u r d  K ə r i m

Hərdən düşünəndə əsirəm zağ-zağ.

T ə h m a s  b ə y

İgid də qorxarmı?

M a h m u d  b ə y

Ağgözə bir bax.
Fürsət tapan kimi verməzsən aman,
Sabahın parlaqdır, sözümə inan.

*(Ona tapança verir.)*

T ə h m a s  b ə y

*(Ona pul verir.)*

Arxanda bəylər var, qorxma heç nədən.

Q u r d  K ə r i m

Dedim ki, ömürlük qulunuzam mən.

M a h m u d  b ə y

Durma, get!

Q u r d  K ə r i m

Baş üstə!

*(Gedir.)*

T ə h m a s  b ə y

*(Mahmud bəyə)*

Afərin, yaşa!..

K o x a

Bəs mən yaşamayım?

T ə h m a s  b ə y

Sən də min yaşa!
Ağalar, bu tədbir baş tutsa əgər,
Başımız ucalıb göylərə dəyər.
Açılar gül kimi bəylərin baxtı,
Sarsılmaz kökündən padşahın taxtı.

PƏRDƏ

## ÜÇÜNCÜ ŞƏKİL

Qayalıqdır. Uzaqdan tütək və oxumaq səsi gəlir. Bir azdan sürünə-sürünə bir bələdçi səhnədə görünür. Fit verib yoldaşlarını səsləyir. Koxa, Qurd Kərim və bir neçə strajnik gəlir.

C ə l i l

Onlar bu ətrafda olsunlar gərək...

K o x a

Gəlin işimizi vaxtında görək.

Qurd Kərimi ağaca sarıyırlar.

Q u r d  K ə r i m

Gərək qurmayaydıq bu tələni biz,
Olubdur qorxudan tüklərim biz-biz.

K o x a

*(Qurd Kərimi vurur.)*

Bağır, bağırtından titrəsin dağlar!
Eşidib səsin gəlsin qaçaqlar.

Onu yalandan vururlar.

Görürəm, döşünə yatmayır şallaq,
Kimi axtarırdın meşədə, alçaq?!

Q u r d  K ə r i m

Nəbini, Nəbini, qoçaq Nəbini,
Bəylərin gözünə bıçaq Nəbini.

Vururlar və qaçirlar.
Cəlili qaçaqlar vurur.Koxanı tuturlar,

N ə b i

*(Gəlir.)*

Dayanın, bu nədir, kimdir döyülən?
Niyə dinmirsiniz? Sizinləyəm mən!

K o x a

*(Titrəyir.)*

Buyruq qullarıyıq, yox, təqsir bizdə,
Bizə döy dedilər, döyürük biz də.

N ə b i

Kim dedi? Cavab ver!

K o x a

Səlim bəy.

N ə b i

Aha...

K o x a

Belədir, and olsun o bir Allah.

N ə b i

Kəs səsini!

*(Kərimə)*

Qardaş, nəçisən, kimsən?

Q u r d  K ə r i m

Zindandan qaçmışam bu dağlara mən.
İzimə düşərək tutdular məni,
Getdi ağrılarım görüncə səni.
Pənah gətirmişəm adına, Nəbi!
Yetiş mən yazığın dadına, Nəbi!

N ə b i

Bir dayan, mən səni tanıdım, qoçaq,
Sən də çox yemisən bəylərdən şallaq,

Q u r d  K ə r i m

Qoydu ürəyimdə kamımı fələk,
Ömür xırmanımı sovurdu külək.

N ə b i

Tək əldən səs çıxmaz, yadında saxla.

*(Koxanı göstərir.)*

Onu öz əlinlə ağaca bağla!

K o x a

Sən nə danışırsan, qurbanın olum...

N ə b i

Bağlayın!

K o x a

Hər yandan bağlandı yolum.

Onu ağaca bağlayırlar.

Qurd Kərim

İndi çək cəzanı!

K o x a

Günahım nədir?

V ə l i

Sıpanın belinə gəlməyir kəndir.

M e h d i

Vurun, qardaşlarım, ölüncə vurun!

K o x a

Vay öldüm, yazığam, vurmayın...

M e h d i

Vurun!..

N ə b i

Açin, kifayətdir, itilib getsin.

K o x a

Allah ömrünüzü çox uzun etsin...

N ə b i

Mən mərdlik naminə buraxdım səni.

K o x a

Özünə borclu bil qəbrəcən məni.

N ə b i

Koxa, Səlim bəyə sən çatdır bunu:
Xalqın intiqamı gözləyir onu.

K o x a

Baş üstə, deyərəm... Daha nə deyim?

M e h d i

*(Zarafatla)*

Ağrısını alım, gözünü yeyim.

Gülüş, Koxa gedir.

V ə l i

Adam da düşməni buraxar əldən?

Q ə h r ə m a n

Nəbinin işinə məəttələm mən.

M e h d i

Haqlısan a Vəli, o haramzadə
Bir gün görərsən ki, dönüb cəllada,
Əlində qılıncı vurur boynunu.

Q ə h r ə m a n

Mehdi qardaşımız düz deyir bunu.

Bu halda qaçaqlar tacirləri və başqa yoldan ötənləri gətirirlər.

T a p d ı q

Budur, bu tacirlər, bu da malları.

V ə l i

Tacirin çox olur dövləti, varı.

M e h d i

Mən yanılmıramsa bunlardır ki, var
Aclıq törədənlər, ölüm yayanlar.

*(Tacirlərə)*

Qoyub başınızı qızılın üstə,
Kağız pulun üstə, ağ pulun üstə
Kefə baxırsınız eldən xəbərsiz,
İndicə hesabı çürüdərək biz.

N ə b i

*(Görünür)*

"Hörmətli" qonaqlar, xoş gördük sizi,
Qorxmayın, sıxmayın ürəyinizi,
Silahınız varsa tez atın yerə!..

X ə l i l

And olsun Allaha və peyğəmbərə,
Silahımız yoxdur.

Onları axtarırlar.

M e h d i

Yalan deyirsən.

*(Onun cibindən tapança çıxarır.)*

X ə l i l

Məndən peşkəş götür şoqəribi sən.

V ə l i

Niyə titrəyirsən, a tacirbaşı?

X ə l i l

Əzəldən sevmərəm dava-dalaşı.
Mallar sizin olsun, bizə dəyməyin!

V ə l i

Onsuz da bizimdir, zəhmət çəkməyin.

M e h d i

*(Tacirə)*

Sənin öz cibindən varmı xəbərin?

*(Onun sinəsini yoxlayır.)*

Mən səhv etmirəmsə qızıldır dərin.

*(Qızıl torbasını çıxarır.)*

X ə l i l

Onlara dəyməyin, çatlayar bağrım.
Allah, nə pis oldu mənim axırım?

M e h d i

Kəndlilər çılpaqdır, acdır...

X ə l i l

Bizə nə?

M e h d i

Vicdansızın biri, dilin var yenə?
Qurd kimi daraşıb hər bədənə siz
Qanını soraraq kökəlirsiniz.

X ə l i l

Mən yaxşı adamam, oğlum, qulaq as.

M e h d i

Cidanı çuvalda gizlətmək olmaz.

X ə l i l

Barı, öldürməyin.

V ə l i

Bəsdir, az ula!

N ə b i

Bunları salamat ötürün yola.

X ə l i l

Çıxmaz bu yaxşılıq yadımdan, Nəbi,
Görüm var olasan, qəhrəman Nəbi!

Tacirləri ötürürlər. Uzaqdan bayatı səsi gəlir.

S ə s

Əzizim, neylim sənə,
Düşübdür meylim sənə,
Mən dönsəm könül dönməz,
Sən dönsən, neylim sənə.

Bir dəstə kəndli gəlir.

Səfər

Xoşgördük,ayNəbı. Nəbi
Salam, omi can, Sizniyəgəldiniz?

Səfər

Bilərsən, dayan...

N ə b i

Tez ol, danış görək.

S ə f ə r

Qurbanın olum,
Belə güzərandan yaxşıdır ölüm.

N ə b i

Kəndimizdə nə var?

S ə f ə r

Hər evdə matəm,
Deməklə qurtarmaz, doludur sinəm.
Nəbi, bundan apar son hesabını
Aclığın daş əli döyüb qapını.
Qıyır körpələrə, gözəl canlara,
Bağrım dərd əlindən yaradır, yara!..
Ellərin qanına susayıb bəylər,
Məgər bu işləri görməyir göylər?

N ə b i

Qəribə adamsan, bu ayaqda sən
Bəylərdən, göylərdən nə gözləyirsən?
Bu barədə sonra, de görüm mənə,
Divan sizdən vergi istəyir yenə?

S ə f ə r

Hələ qurtarmayıb vergi davası,
Alıb altımızdan xalça-palazı
Qoyublar hamını quru yer üstə,
Ürəklər yaralı, könüllər xəstə.

Xalqın haqq səsinə qulaq asan yox,
Qanlı qanunları silib pozan yox.
Eşitdik, çıxmısan bizə havadar.
Verdi ürəyimiz belə bir qərar:
Elliklə qoşulaq sənin dəstənə,
Şığıyaq qartal tək düşmən üstünə.

V ə l i

Qocasan, ağarıb saçın, saqqalın,
Dava ayağında pis olar halın.

S ə f ə r

Siz allah, bir görün, kim kimə gülür,
Gücümü bu ellər, bu dağlar bilir.
Buna şübhən varsa gəl bir tutaşaq,
Ağzın süd qoxuyur, uşaqsan, uşaq.

N ə b i

Zarafat elədi, sındınmı, söylə?

S ə f ə r

Eh, cib-cib öyrədir bir görün necə
Bildirki sərçəyə bu ilki sərçə.

N ə b i

Hər şeyin yeri var, doğrudur, qoca,
Başın dağlar kimi ucadır, uca.

S ə f ə r

Nəbi can, bir xəbər eşitmişəm mən,
Ancaq ki...

N ə b i

Bayaqdan niyə demirsən?

S ə f ə r

Xeyli var dillərdə gəzir bu xəbər:
Kim sənə qıyarsa pul verəcəklər.
Hanı Səlim bəydə qıl qədər vicdan,
Bu sözü deyirlər onun adından.

N ə b i

Bütün el-obaya bunu yayıb o,
Başıma min manat qiymət qoyub o.
Mənsə Səlim bəyin başına ancaq
Bircə quruş qiymət qoymuşam nahaq.
O başçün bu çoxdur, demirəm əbəs,
Çünki onun başı quruşa dəyməz!

S ə f ə r

Dəyməz, Nəbi, dəyməz, haqlısan, oğlum!
Dar gün görməyəsən heç zaman, oğlum!

N ə b i

*(Qaçaqlara)*

Dostlar, budur mənim arzum, əməlim:
Bir yerə toplansın qaragün elim.
Bəylərin zülmünə nəhayət verək,
Zəncirsiz, zindansız bir həyat sürək.
Özümüz çalışaq, özümüz əkək.
Bizə dərd olmasın bir parça çörək.
Doğma balaları bizik bu yerin,
Bu torpaq bizimdir, deyil bəylərin!

S ə f ə r

Bizə yaraşmayır kölәlik, Nəbi,
Qılınc vuran qolun heç bükülməsin.
Görüm düşməninin üzü gülməsin!

N ə b i

Hələlik yağılar güclüdür, bəli,
Gec-tez zərbəmizdən qırılır beli.

S ə f ə r

Nəbi, danış, danış, dilinə qurban.

N ə b i

Dostlar, əminəm ki, gələr bir zaman,
Torpaqlar altına etsək də səfər
Hörmətlə yad elər bizi nəsillər.

T a p d ı q

*(Tələsik gəlir.)*
Nəbi, Nəbi, qardaş.

N ə b i

De, nə var yenə?

T a p d ı q

Dustaq aparırlar qazaqlar yenə.

N ə b i

Görəsən yenə də kim düşüb tora?
Alıb əllərindən gətirin bura.
Göylərə çatmayır yerlərin ahı,
Yazıq yoxsulların, nədir günahı!

Haqqım deyənləri asıb-kəsirlər,
Acından qırılır yetim-yesirlər.
Bürüyür yolları qandal səsləri,
Udur məzlumları çar məhbəsləri.

Birinci qaçaq gedir. Güllə səsləri eşidilir.
Qaçaqlar ayağı və qolları zəncirli qazaq Vasilini gətirirlər.

N ə b i
*(Arxadan)*
Gəlin, bura gəlin.
Nə görürəm mən.
Vasili, rus qardaş, Vasili, sənsən?!

V a s i l i

Mənəm, qardaş, mənəm.

Öpüşürlər.

O vaxtdan bəri
Dustaqda yatırdım sandən ötəri.

N ə b i

Açın qollarını, ayaqlarını.

V a s i l i

Afərin, bəyəndim qaçaqlarını.
İgid adamlardır, geciksəydilər
Yolum gedəcəkdi Sibirə qədər.
Sonra danışaram, uzundur söhbət.

N ə b i

Gəldi bu görüşdən qolara qüvvət.

*(Qaçaqlara)*
Dostlar, bu qazaq da kəndlidir, kəndli,
O da, bizim kimi dərdlidir, dərdli...
Qoy məni sevənlər onu da sevsin!

Q ə h r ə m a n

Ürək sözümüzdür, Nəbi, bu sözün.

V a s i l i

Deyirəm, bəlkə də çıxıb yadından,
Tüfəngim səndədir.

N ə b i

Aha, bir dayan.

*(Öz tüfəngini ona uzadır)*

V a s i l i

Yox, o səninkidir, istəməz.

N ə b i

Bəs sən?
Ona silah verin!

Qaçaqlar Vasiliyə silah verirlər.

Q ə h r ə m a n

Alın...

V a s i l i

Bu da mən.

*(Gəzişir.)*

Bir oda yanırıq indi hamımız,
Nəbi, ayrı deyil intiqamımız.
Mən burda qalıram.

N ə b i

Qardaşım, yaşa.

V a s i l i

Vuruşarıq qoşa, ölərik qoşa!

Qaçaqlar bir qızı aralığa alıb gətirirlər.

T a p d ı q

Siz allah, bu qızın boyuna baxın,
Nə məni, nə bunu qoymurdu yaxın.
Sinəmdən vurmuşdu mənim az qala,
Aldıq silahını onun güc-bəla.

*(Ortalığa bir bıçaq və xəncər atır)*

N ə b i

Bacım, hardan gəlib hara gedirsən?
Nə üçün dinmirsən?

Ç i m n a z
(Üzünü açır.)

Yad deyiləm mən.

N ə b i

Həcərin yoldaşı, Çimnazdır bu qız.

*(Çimnaza)*

Dağlarda nə işin bu zaman yalqız?

M e h d i

Bir qara xəbərlə gəlmisən yoxsa?

Ç i m n a z

Mən bayquş deyiləm.

V ə l i

Varam, bu qıza.

Ç i m n a z

Vacib bir iş üçün gəlmişəm bura,
Salmaq istəyirlər Həcəri tora.
Yazıq gecə-gündüz ağlayır zar-zar.

N ə b i

Nə üçün başıma uçulmur dağlar?!

Ç i m n a z

Məni yanınıza Həcər göndərib;
Dərdlər ürəyində baş-başa verib.
Kənddə qan ağlayır arvad-uşaqlar.
Tökülür evlərə bəylər, qazaqlar,
Nəbinin heyfini alırlar bizdən.
Bir kömək gəlməsə, axırda düşmən
Kənddə qoymayacaq daşı-daş üstə,
Dözməyə daha can qalmayıb bizdə.

N ə b i

Nədir bu güzəran, nədir bu həyat!
Xalqa divan tutur bir yığın cəllad,
Məni istəyirlər, dostdan, qohumdan,
Qaynayır qəzəbdən ürəyimdə qan.

M e h d i

Qardaşlar, hirsimdən ağrıyır başım,
Tez ol, bir tədbir tök, Nəbi, qardaşım!

Xalqı incidirilər bizdən ötəri,
Hünər meydanıdır igidin yeri.
Bu yolda al qana boyanmışıq biz,
Əmrinə müntəzir dayanmışıq biz!

V ə l i

Bu gün tərpənməsək gec olar sabah.

Q ə h r ə m a n

Onların üstünə cumarsaq, vallah,
Səlim bəy deşiyi alacaq satın.

V ə l i

Durmayın, atların belinə yatın!
Gətirin Boz atı, o yel qanadı.

Q ə h r ə m a n

Təkdir bu dünyada Nəbinin atı!

Boz atı gətirirlər.

N ə b i

Bir dəli yel kimi dağlara cumaq!
Aslanlar yurdunda sönməsin çiraq.
Elə vuruşaq ki, titrəsin göylər.
Yanıb alovlarda kül olsun bəylər.
Boz at, səni sər tövlədə bağlaram,
Ayağını qızıl, gümüş nallaram.
Məxmərə tutaram, ipək çullaram,
Boz at, apar məni doğma ellərə,
Qoy ellər düşməsin düşmən əllərə!

P Ə R D Ə

## ÜÇÜNCÜ PƏRDƏ

### DÖRDÜNCÜ ŞƏKİL

Həcərgilin evi. Ev kasıb qaydasında döşənmişdir.
Həcər nigarançılıq çəkir.

H ə c ə r

Yaman nigaranam bacım Çimnazdan,
Düşmənlə doludur hər tərəf, hər yan.
Süzürəm gözümlə uzaq yolları,
Görəsən, Nəbini tapdımı barı?
Ona yetirdimi dediklərimi?
Ah… Nəbi bilsəydi dərdi-sərimi
Nə məni, nə eli qoymazdı darda,
Aman, harda qaldı, bu Çimnaz, harda?!

Bu zaman qapı döyülür. Həcər həyəcanla qapıya cumur.
Gülbacı daxil olur.

G ü l b a c ı

Qızım, niyə belə qəmginsən,

H ə c ə r

Ana…
Dönüb dərd əlindən ürəyim qana.

G ü l b a c ı

Bala, nahaq yerə, qulaq as mənə,
Nələr deyəcəyəm gör indi sənə.
Nəbidən danışır aləm yenə də,
Bu söz ildırım kimi yayılıb kəndə:
Deyirlər, padşaha qaldırdılar əl,
Görünür başını girləyib əcəl.

H ə c ə r

Sözünün mənası nədir, ana can?

G ü l b a c ı

Mənası odur ki, qan qusur atan.
Dedi, sözlərimi qizima çatdır.
Razılıq verməsə, o mənə yaddır,
Həcər, bir başa düş atan deyəni.

H ə c ə r

Niyə yorursunuz bu qədər məni,
Nəbi məni sevir , məndə Nəbini,
Elin adətini, elin dəbini
Pozmaq istəyirsə, qoy pozsun atam.
Sonra hara yozur, qoy yozsun atam,
Belə bir təklifə asmaram qulaq,
Etməyin baxtımı gündə daş-qalaq.

G ü l b a c ı

Dili dil deyil ki, zəhərdir, zəhər.
Adam öz xeyrini bilməzmiş…

H ə c ə r

Yetər!...

Şahməmməd zümzümə eliyə-eliyə gəlir.

Ş a h m ə m m ə d

Gün doğdu, el oyandı,
Aləm nura boyandı,
İstəklim atdı məni,
Ürəyim oda yandı.

*(Həcərə)*

Həcər can, necəsən?

H ə c ə r

Yaxşıyam, ata.

Ş a h m ə m m ə d

Buludlar çaxnaşır baxışlarında.
Qoy ürək sözümü söyləyim aydın,
Bir gün yaşamazdım sən olmasaydın.

G ü l b a c ı

Mətləb üstə gələk.
Qulaq as, qızım,
Gözümün işığı, dürr, almaz qızım.

Ş a h m ə m m ə d

Nəbinin adını çıxart yadından,
Bizə xeyir gəlməz onun adından.
Bir gün açacaqlar başına kələk,
Hamı belə deyir: əldə öləcək.

H ə c ə r

Allah eləməsin, danışın açıq.

Ş a h m ə m m ə d

Qızım, deyirəm ki, sən ağ günə çıx,
Sənə o Nəbidən olmaz adaxlı.
Bir gün ayaqları, qolları bağlı
Sibirə gedəcək, bizdən deməkdir.

H ə c ə r

Bu uzun nəsihət kimə gərəkdir?

Ş a h m ə m m ə d

Səni istəyən var, lap böyük yerdən.

G ü l b a c ı

Adı Səlim bəydir.

H ə c ə r

*(İstehza ilə)*

Nə xoşbəxtəm mən.

G ü l b a c ı

Bəs necə, əlbəttə xoşbəxtsən, bala.

Ş a h m ə m m ə d

Adam da göz yumar bu cah-cəlala?!

H ə c ə r

Boğaram özümü, inanın!

Ş a h m ə m m ə d

Aman...

H ə c ə r

Yada ki, ataram dağdan, qayadan...

G ü l b a c ı

Bu naz, bu şıltaqlıq əbəsdir, əbəs.

H ə c ə r

Mənə lazım deyil o qızıl qəfəs!

G ü l b a c ı

Qızım, eşitməsən bu öyüdümü
Halal eyləmərəm sənə südümü.

H ə c ə r

Ana, yalvarıram, əhdi pozmayın,
Mənə diri-diri qəbir qazmayın.

Ş a h m ə m m ə d

Qızım!

G ü l b a c ı

Baxma onun sən göz yaşına,
Gəl gedək, ağlını yığsın başına.

Ş a h m ə m m ə d

Özünü ələ al, ağlama, qızım,
Atanın qəlbini dağlama, qızım.

Gedirlər.

H ə c ə r

Bu qara günümdə, bu dar günümdə,
Ürəklər dağlayan ağlar günümdə,
Yanımda dərdimi bilənim yoxdur,
Gözümün yaşını silənim yoxdur.
Görünür, beləymiş Həcərin baxtı.

At ayaqlarının tappıltısı eşidilir.

Odur, Nəbi gəldi... Keçən qazaqdı.
Yollar xatalıdır, qorxuram yaman,
Gözümün önündən çəkilmir duman.
Tutublar bərəni, bəndi qazaqlar,
Dövrəyə alıblar kəndi qazaqlar.
Gözətçi qoyublar cığıra, yola,
Onların əlindən quş quşluğuyla
Uçub keçə bilməz bu tərəflərə,
Kim kömək edəcək yazıq Həcərə!
Dərdimi bəs kimə söyləyim indi,
Gözlərim yol çəkir, neyləyim indi?!

A l ı

*(Gəlir.)*

Salam, Həcər, qızım, atan evdədir?

H ə c ə r

Bəli.

A l ı

Zəhmət çəkib bura gəlsin bir.

Ş a h m ə m m ə d

*(Gəlir.)*

Buyur, buyur, otur, səndən nə əcəb?

A l ı

Nahaq gəlməmişəm, səbəb var, səbəb.
Bir xəbər yayılıb elə, obaya:
Qızı Səlim bəyə verirsən guya.

Ş a h m ə m m ə d

Vallah, heç bilmirəm, nə deyim sənə,
Günahım varsa da bağışla mənə.

A l ı

Bu qara xəbərdən partlayır ürək,
Getmir boğazımdan nə su, nə çörək.

G ü l b a c ı

Nə üz veribdir ki? Lap nahaq yerə.

A l ı

Mən də inanmırdım deyilənlərə,
Ancaq görürəm ki, axır zamanlar
Şahməmməd bizlərdən dolanır kənar.
Məni bu şübhələr gətirdi cana,
Odur başı lovlu gəldim yanına.

Ş a h m ə m m ə d

Vallah, əriyirəm xəcalətimdən,
İzin ver, qoy açım düyümləri mən.
Bu xəbər həm doğru, həm də yalandır.

A l ı

Bəlkə mən qanmıram, sən məni qandır,
Həqiqət hansıdır, yalan hansıdır?

Ş a h m ə m m ə d

Ürək yaralarım yenə qan sızır...
Mən özüm-özümə qəbir qazmışam.
Qorxudan, naəlac əhdi pozmuşam.

A l ı

Necə?.. Necə?.. Necə?..

Ş a h m ə m m ə d

Mane olma gəl!
Nə çoxdur obada ismətli gözəl,
Alarsan Nəbiyə, düzələr işlər.

A l ı

Vəfasız bilməzdim səni bu qədər.
Nələr eşidirəm? Yenə də amma
Ürəyim inanmır qulaqlarıma.
Qızın adaxlısı sağ ola-ola
Namusu, qeyrəti satırsan pula!

Ş a h m ə m m ə d

Alı... Adəti var, bizim bu elin,
Hara köçürəydim qızımı gəlin?
Dağlara, daşlara, zindanlaramı?

A l ı

Daha kifayətdir, deşmə yaramı!

Ş a h m ə m m ə d

Kəndə düşmən gəlir gündə on kərə.
Sənə də, mənə də qan uddururlar,
Qohuma, qardaşa divan tuturlar.
Odur ki, axırda kəsildi çarəm,
Fikrimi könülsüz dəyişdim tamam.

A l ı

Bir daha dilinə gəlməsin adım,
Heyif ki, mən səni çox gec tanıdım.
Şahməmməd, unutma, çəkməzdi yağı
Sinəmə çəkdiyin bu çarpaz dağı!

*(Gedir.)*

Ş a h m ə m m ə d

Arvad, kül başıma...

G ü l b a c ı

Səndə baş hanı!

Ş a h m ə m m ə d

Lap doğru deyirsən, al o baltanı
Vur mənim boynumu, bu nə həyatdır?
Öz doğma evim də könlümə yaddır.

G ü l b a c ı

Bəsdir türkəsaya danışma görək.

Ş a h m ə m m ə d

Bu səhvi mən özüm düzəldim gərək!

Bayırdan itlərin hürüşməsi və at ayaqlarının səsi eşidilir.

Arvad, get, Həcərdən muğayat ol sən.

Gülbacı yan otağa keçir.

Ş a h m ə m m ə d

*(Qapıya tərəf)*

Ay qapını döyən, ay adam, kimsən?

K o x a

*(İçəri girərkən)*

Mən adam deyiləm, Koxa Məmmədəm.

Mahmud bəy və Koxa gəlir.

Ş a h m ə m m ə d

Bizə xoş gəlibdir mübarəkqədəm.
Buyurun, buyurun əziz qonaqlar.

K o x a

Şuşadan gəlirik, xeyir xəbər var.

Ş a h m ə m m ə d

*(Oturmağa yer göstərərək)*

Bağışlayın bizi, kasıb evidir.

M a h m u d b ə y

Kasıb dövlətlidən daha qəvidir.
Qəm yemə, çox çəkməz, dövlətlənərsən,
Yaşarsan ən gözəl imarətdə sən.
Göstərərlər səni kənddə barmaqla,
Bir sözdür deyirəm, yadında saxla!

K o x a

Eldə poladdan da möhkəm məsəl var,
Deyərlər: kişinin sözü bir olar!

M a h m u d b ə y

Koxa, Şahməmmədlə işim var, işim.

K o x a

Siz danışın, mən də bığımı eşim.
Deyərlər: kişinin sözü bir olar!

*(Bığını eşir.)*

M a h m u d  b ə y

Biz elçi gəlmişik qızın Həcərə.

Ş a h m ə m m ə d

Qızıma demişəm bir neçə kərə...

M a h m u d  b ə y

Səlim bəy istəyir sənin qızını,
Müxtəsər, tapmısan bəxt ulduzunu.

K o x a

Şahməmməd, mən ölüm, vur bura, gəlsin,
Razı ol, bir kərə canın dincəlsin.
Səlim bəy itbazdır, tazıları var,
Hər səhər onları hey öpüb yalar.
Sevir tazıları candan, ürəkdən,
Belə gözəl oğlan görməmişəm mən.
Canından çox sevən iti, tazını
Çəkəcək Həcərin, inan, nazını.

M a h m u d  b ə y

Koxa, nə deyirsən, ağıllı danış.

Ş a h m ə m m ə d

Həcər gözlərindən yağdırır yağış,
İnsaf yaxşı şeydir.

M a h m u d  b ə y

Fikir ver bura,
Həcər nəçidir ki, sən dura-dura?

K o x a

Şahməmməd, and olsun bu eşmə biğa,
Sənə yalan satmaz ömründə Koxa.

M a h m u d  b ə y

*(Koxanı əlilə saxlayır.)*

Qızın yox deməsi, hə deməkdir, qan!
Həcər tək bir qızım olsaydı, inan,
Ya bəyə verərdim, ya da heç kimə.

K o x a

Ya da ki, özümə alardım.

M a h m u d  b ə y

Dinmə.
Ayıbdır, bir utan, yekə kişisən.

*(Şahməmmədə)*

Bu qədər uzatma gəl bu işi sən.
Təhmas bəy olacaq qıza qaynata,
Adam da göz yumar belə həyata?!

Ş a h m ə m m ə d

Mənə möhlət verin, bir fikirləşim. .

K o x a

Sən fikirləş, mən də bığımı eşim.

M a h m u d b ə y

Əşi, möhlət nədir, iş-işdən keçib,
Səlim bəy kişidir, möhkəm and içib,
Həcəri alacaq... mənə bax, kişi,
Bu qədər ləngitmək olmaz bu işi.

Ş a h m ə m m ə d

Qız Nəbini sevir, a bəy!

M a h m u d b ə y

Bir utan...

Ş a h m ə m m ə d

Gəlir qan qoxusu bu işdən qan, qan!..

M a h m u d b ə y

Düşün, Nəbi kimdir? Quldurun biri,
Çoxdan hazırlanıb o itin qəbri.

K o x a

Şahməmməd, Nəbidə kişilik yoxdur,
Bir də ki, başında qalmaqal çoxdur.

M a h m u d b ə y

Çoxdandır gözləyir yolunu tələ,
Nəbi bu gün, sabah keçəcək ələ.

Ş a h m ə m m ə d

Ah, bədbəxt olacaq mənim ceyranım.

M a h m u d  b ə y

Bizə başağrısı verməyin, canım.
Qıza baxan kimdir? Söz atanındır.
Söz malın deyildir, mal satanındır.
Ağa olacaqsan bu kənddə, ağa,
Duracaq səninçün hamı ayağa.
Gəzəcək dillərdə şöhrətin, adın,
Bir söz, açılacaq qolun, qanadın.
Get qızı geyindir.

Mahmud bəy Koxa ilə nə isə pıçıldaşır.

Ş a h m ə m m ə d

Nə üçün?

M a h m u d  b ə y

Artıq
Gəlini götürüb yola çıxmq.

Ş a h m ə m m ə d

Belə də iş olar? Bəs nişan, üzük?

M a h m u d  b ə y

Biz öz sözümüzdə doğruyuq, düzük.
Qızı aparırıq bir şərtlə, inan,
Şuşada olacaq ona toy.

Ş a h m ə m m ə d

Aman...

M a h m u d  b ə y

Qohumu olursan böyük bir bəyin,
Mənası varmıdır bu deyinməyin?
Get, qızı geyindir!

Ş a h m ə m m ə d

*(Özünü itirir.)*

Bir-az səbr elə!
Nə üzlə görünüm mən sabah elə?
Yer də ayrılmır ki, girim yerə mən.
Dünyaya gəlmişəm nahaq yerə mən.
Belə də zülm edər adam, adama?

M a h m u d b ə y

A kişi, özündən nağil qurama!
Get, qızı geyindir... yaxşı olmaz ha!..

Ş a h m ə m m ə d

Sizi and verirəm o bir Allaha...

M a h m u d b ə y

Tez ol, tələsirik, yol da uzaqdır.

Ş a h m ə m m ə d

Qızdan soruşmamış?..
Bu ki, lap ağdır!

*(Şahməmməd otağa keçir.)*

M a h m u d b ə y

Qızı aparmasaq əgər bu gecə
Bütün bu tədbirlər dönəcək heçə.

K o x a

Həcər burda qalsa itəcək gözdən,
Nəbiyə qoşulub qaçacaq tezdən.

M a h m u d  b ə y

Həcərlə qurtardıq, qaldı bir Nəbi
Bu addır eyləyən məni əsəbi.

K o x a

Mən verrəm Nəbinin fatəhəsini,
Bir də eşitməzsən onun səsini.

Ş a h m ə m m ə d

*(İçəridən)*

Sən nələr edirsən, ay zalım fələk!

H ə c ə r

*(İçəridən)*

Yaralı bir quşdur sinəmdə ürək.
Səsimə səs verən görmürəm, Allah!
Az qalır, ürəyim partlasın, eyvah!..

Şahməmməd, Həcər və Gülbacı yan otaqdan çıxırlar.

H ə c ə r

İnsan dəllalları, xoş gördük sizi!

K o x a

Xoş gördük, Səlim bəy göndərib bizi.

H ə c ə r

Gedin, Səlim bəyə deyin ki, Həcər
Özünə seçmişdir Nəbi kimi ər.
Tüpürərəm onun üzünə, belə!

*(Tüpürür.)*

Ş a h m ə m m ə d

Qızım, dur...

M a h m u d  b ə y

Bu nədir?

K o x a

Yaxşi fikir elə.

H ə c ə r

*(Atasına)*

Yoxsa sən də məni satırsan, ata?
Ətimi itlərə atırsan, ata?!
Mən onu, Nəbini sevirəm ancaq,
Onsuz yerim olsun qoy qara torpaq!

Mahmud bəyin işarəsilə Koxa qıza yaxınlaşır.

M a h m u d  b ə y

Yolçu yolda gərək, yubanma, Koxa!

H ə c ə r

Yoxa çıxasınız, görüm ki, yoxa.

Həcərin başını örtüb zorla çəkə-çəkə aparırlar.

H ə c ə r

Buraxın, deyirəm, buraxın!

M a h m u d  b ə y

Gəl!

K o x a

Gəl!..

Həcəri aparırlar.

Ş a h m ə m m ə d

Niyə sağ qalmışam, hardasan, əcəl!

At ayağı səsləri eşidilir.

Getdi həyatımın, ömrürnün yazı,

G ü l b a c ı

Bəlkə alnımızda beləymiş yazı.

Ş a h m ə m m ə d

Söndü evimizin çırağı, söndü.
Günəşli gündüzüm gecəyə döndü.

Onlar yan otağa keçirlər. İşıq sönür və yenidən yanır.
Çimnaz böyük bir ehtiyatla içəri girir. Ətrafa göz gəzdirir.

Ç i m n a z

Deyəsən yatıblar... Həcər, ay Həcər!

Ş a h m əm m ə d

*(Yan otaqdan çıxır.)*

Çimnaz, sənsən?

M e h d i

Mənəm...

Ş a h m ə m m ə d

Nə var, nə xəbər?

Çimnaz huy çəkir. Nəbi yapıncıda barıdan aşır.

Ş a h m ə m m ə d

Nəbi, sənsən?

N ə b i

Mənəm, bəs Hecər hanı?

Ş a h m ə m m ə d

Düşdü yad əllərə Həcərin canı.
Koxayla Mahmud bəy yıxdı evimi,
Alıb caynağına quzğunlar kimi
Apardılar...

N ə b i

Hara?..

G ü l b a c ı

Şuşaya tərəf.

Ş a h m ə m m ə d

Qorxuram qız edə özünü tələf.

N ə b i

Of, yaxşı, Səlim bəy, yaxşı, Mahmud bəy...
Sizin nəslinizi dənləyəm gərək.

*(Xəncərini oynadır.)*

Ş a h m ə m m ə d

Nəbi, qan olmasın, qadanı alım.

N ə b i

Qaralır gözlərim, dəyişir halım,
Yox, dözə bilmərəm bu dərdə yox, yox!
Bu heyfi qoymaram mən yerdə yox, yox!
Həcər, qorxma, Həcər, ölməyib Nəyib,
Çox da ki, ömründə gülməyib Nəbi.
Nəbiyəm sözümü deyərəm qısa,
Bərkdə tanıyırlar mərdi, igidi,
Çevirməsəm onun toyunu yasa
Haram olsun mənə anamın südü!

P Ə R D Ə

## BEŞİNCİ ŞƏKİL

Şuşada Təhmas bəyin bağı, Toy məclisidir. Yeyıb içir, çalıb oynayırlar.

K o x a

Təhmas bəy, Təhmas bəy, baxtımız gülür,
Naçalnik Səlimin toyuna gəlir.

T ə h m a s b ə y

Səni şad xəbər ol həmişə, Koxa!

K o x a

Budur, buyurdular naçalnik ağa.

N a ç a l n i k

*(Gəlir.)*

Toyunuz mübarək, Təhmas bəy, salam!

T ə h m a s  b ə y

Aha, xoş görmüşük, hardasan balam?

S ə l i m  b ə y

Naçalnik, xoş gəlib.

N a ç a l n i k

Səlim bəy, yaşa!
Yaxın gəl eləyək sənə tamaşa...
İgiddir, qoçaqdır, göyçəkdir, göyçək.

T ə h m a s  b ə y

Polkovnik, buyurun, içəri keçək.

N a ç a l n i k

Bəh-bəh, ətir saçır güllər, çiçəklər,
Bağçada oturaq hələ bir qədər.

T ə h m a s  b ə y

Naçalnik, bağışla, sevindiyimdən
Vallahi başımı itirmişəm mən.
Ayağın altında qoç kəsəm gərək.

N a ç a l n i k

İstəməz, Təhmas bəy, dayan bir görək.

T ə h m a s  b ə y

Sizinçün yüz qurban kəssəm də azdır.

N a ç a l n i k

Təhmas bəy qəribə mehmannəvazdir.

T ə h m a s b ə y

Yerdən göyə qədər razıyam sizdən,
Gözümə nur gəldi gəlişinizdən.

S ə l i m b ə y

Ə... quzu ətindən yaxşı kabab çək!..

N a ç a l n i k

İçək sağlığına Səlimin, içək.

K o x a

*(Səlim bəyə)*

Nəbi zağ-zağ əsir adın gələndə,
Rəhmətlik babanın gücü var səndə.

M a h m u d b ə y

Sənə tay tapılmaz, aslansan, aslan!
Görüm dağılmasın əsla büsatın.

K o x a

Bu ölsün, Nəbigil sənin qorxundan
Siçan deşiyini alacaq satın.

N a ç a l n i k

Deyirlər ki, Nəbi çapır kəndləri,
Tutur körpüləri, tutur bəndləri.

M a h m u d b ə y

Düz buyurursunuz, bəladır, bəla
Min hiylə qurursan, düşməyir tora.

T ə h m a s  b ə y

Əlimə çörəkçin baxan bir gəda
Salıb varlığımı bir yanar oda.
Vurur addım başı adıma ləkə,
Nəbi təhlükədir, boyük təhlükə...
Bu dərdə tezliklə tapmasaq çara
Yaramın üstündən vuracaq yara.

M a h m u d  b ə y

Bəylərin yurdunu qoyub virana,
İş bərkə düşəndə keçir İrana.
Bir dəstə düzəldib təbrizlilərdən,
Cumur üstümüzə yel kimi hərdən.

N a ç a l n i k

Necə olmuş olsa, ağalar, yenə
Canı əlimdədir, inanın mənə.

T ə h m a s  b ə y
Bəli, qanun, divan, hər şey bizdədir,
Padşahın kölgəsi üstümüzdədir.
Doğru demirəmmi, cənab naçalnik?

N a ç a l n i k
Da, da... Fikrinizə oluram şərik.

K o x a
Naçalnik danışır, bir qulaq asın.

N a ç a l n i k
Qəribə xalqı var sizin Qafqazın.,
Padşaha inanmır, mənə inanmır.
Min dil tökürəmsə yenə inanmır.
Siz bir motal papaq kəndliyə baxın,
Nə bəyi, nə xanı qoymayır yaxın.

Sarılıb silaha çıxır dağlara,
Cəza da kar etmir o alçaqlara.
Əgər belə getsə, nəyimiz qalar?
Onlar başmızın üstünü alar,
Dağıdar bəylərin xanimanını,
Bölər torpağını, içər qanını.
Sizlər yatmışsınız, onlar oyaqdır.

T ə h m a s b ə y

Yox, hələ ölməyib, bəylər də sağdır.

N a ç a l n i k

Bəylər! Sözüm sizə gəlməsin acıq,
Bütün el-obanız, bağırır: acıq.
Fürsət tapan kimi bizimkiləri
Tutub öldürürlər... Bəyin nökəri...

*(İstehza ilə)*

Vətəndən danışır, eldən danışır,
Elin qəlbindəki teldən danışır.

T ə h m a s b ə y

Qəm yemə, qəm yemə, hər şey düzələr,
Onun öhdəsindən Təhmas bəy gələr.

N a ç a l n i k

Ölümün gözünə dik baxan adam
Quru sözlə ölməz!

T ə h m a s b ə y

Göynəyir yaram,
Onu öldürməsəm, sabah başıma
Mən papaq qoymaram, ləçək bağlaram.

N a ç a l n i k

Bu, sözün doğrusu gəldi xoşuma,
Bu xidmətlərini yadda saxlaram.

K o x a

Qorxaqdır, çox da ki, mərd çıxıb adı,
Onu xilas edir ancaq Boz atı.

N a ç a l n i k

Bizim Səlim bəysə qoçaqdır, qoçaq,
Gec-tez hökumətdən medal alacaq.
Səlim bəy, cəhd elə, göstər özünü.

S ə l i m b ə y

Doğrultmaq borcumdur sənin sözünü,
Naçalnik, görərsən gücümü.

N a ç a l n i k

Əhsən...

T ə h m a s b ə y

Görün, necə oğul böyütmüşəm mən!

K o x a

*(Lovğalanaraq)*

O gün rast gəlmişdik Nəbiyə.

X ə l i l

Necə?
Koxa, doğrudanmı?

K o x a

Sərçəymiş, sərçə,
Atışdıq, onunla bir neçə saat.

X ə l i l

Sonra?

K o x a

O alçağı qurtardı Boz at.
Rastıma gələrsə bir də o tülkü
Bölərəm xəncərlə bilin tən iki.

M a h m u d b ə y

Camaat şişirdib onun adını,
Bilməyir zərbəmin hələ dadını.

*(Naçalnikə)*

Başına and olsun, əlimə düşə
Mən onun ətini çəkərəm şişə.
Mənə də Mahmud bəy deyərlər.

T ə h m a s b ə y

Əhsən...

S ə l i m b ə y

Atamın belindən gəlməmişəm mən
Tutub dərisini soymasam onun,
Anasını ağlar qoymasam onun.

N a ç a l n i k

Ağalar, qorxmayın, qüvvət sizdədir,
Padşahın nəzəri üstünüzdədir.

T ə h m a s  b ə y

Nəbi qurmaq üçün bəylərə tələ
Torpaq vəd eləyir bu azğın elə.

N aç a  l n i k

Təhmas bəy, ağalar, sizindir torpaq,
Sizindir... yenə də sizin olacaq!
Nədən qorxursunuz, bilmirəm, nədən?
Dağ kimi durmuşam arxanızda mən.

*(Təhmas bəyə)*

Etmə hər söz üçün qanını qara,
Torpaq istəyəni çəkdirrəm dara!

Hamı onu alqışlayır.

K o x a

Deyirəm, xanəndə qatar oxusun.

N a ç a l n i k

Etiraz etmirəm, tatar oxusun!

T ə h m a s  b ə y

Gərək ərşə qalxsın səsi bu toyun,
Niyə durmusunuz, çalın, oxuyun!

M a h m u d  b ə y

Çalın, qoy naçalnik oynasın bir az.

N a ç a l n i k

Doğrusu, oynamaq bilmirəm.

T ə h m a s  b ə y

Olmaz.

N a ç a l n i k

Səlim bəy yaxşıdır, bir hava çalın.
Oynasın qartalı sizin mahalın.

Rəqs havası çalınır. Səlim bəy oynayır. Sonra Koxanı oynamağa dəvət edir. Güllə səsləri. Səlim bəy tələsik çıxır, bu zaman Nəbi öz dəstəsilə həyətə girir. Hamı donub qalır.

N ə b i

Kimsə tərpənməsin yerindən, yoxsa...
Tərpənsə anası batacaq yasa!

X ə l i l

Amandır, amandır, qırmayın bizi.

N ə b i

Yuxarı qaldırın əllərinizi!
Ayrılın, arvadlar, siz bu tərəfə.
Kişilər o yana... artıq bu dəfə
Sizə qan tökməyə verməzəm macal.
Qəhrəman, onların silahını al!
Mehdi can, sən də get, tez Həcəri tap,
Qurbanı olduğum o dilbəri tap!

N a ç a l n i k

*(Bağırır.)*

Bu nədir, sən kimsən?

N ə b i

Adamam, necə?

K o x a

*(Mizin altından)*

Deyir ki, qonaq ol bizə bu gecə.

V ə l i

Dilin topux çalır.

K o x a

Qurbanın olum,
Anadan gəlmədir.

Q ə h r ə m a n

Çərənləmə, yum!..

Qadınlar qorxudan çığırırlar.

N ə b i

Xanımlar, qorxmayın, dəymərik sizə,
Bunların gözüylə baxmayın bizə.
Biz, adam öldürən deyilik, ancaq
Bizi bu alçaqlar eləyib qaçaq.

N a ç a l n i k

Vəhşilər yurduymuş doğrudan, Qafqaz.

V a s i l i

Kəs, səsini, cəllad.

N a ç a l n i k

Aha, yaramaz!
Sən də bunlardansan?

V a s i l i

Bəs, necə?

N a ç a l n i k

Alçaq!..

*(Ona əl qaldırmaq istəyir.)*

V a s i l i

Bu dəfə niyyətin baş tutmayacaq.

*(Vasili naçalnikin tapançasını çıxarır.)*

N a ç a l n i k

Qardaş, ağlın olsun, inadı burax,
Sən rus saldatısan, deyilsən qaçaq.

V a s i l i

Əcəb qardaşım var, alçaq yaramaz!
Dilin tövbə deyir, ürəyin qisas.

N ə b i

Vasili, sən ona dəymə hələlik.

N a ç a l n i k

Kölәlik yaraşır sizә, kölәlik!

N ә b i

Adam hörmәt elәr gәlәn qonağa,
Gәldim nişanlımı aparım, dağa.
Toyum Salvartıda olacaq, bilin,
Tәvәqqe edirәm, hamınız gәlin!

Mehdi vә Hәcәr yan otaqdan sәhnәyә gәlir.

H ә c ә r

Nәbi can!

N ә b i

Hәcәrim, gülüm, çiçәyim.

H ә c ә r

Çatdı arzusuna yazıq ürәyim.

N ә b i

*(Hәcәrin bәzәyinә işarә edir.)*

Çıxart, at bunları, boyuna qurban.
Qızılın, daş-qaşın, dövlәtin, malın
Üstündә yatmışdır bir qara ilan.

H ә c ә r

Qandır bünövrәsi bu cah-cәlalın.
Mәnә tüfәng verin, bu gündәn belә!

Namuslu qız kimi qoşulub elə
Düşmənin bağrını didəcəyəm mən,
Nəbinin yoluyla gedəcəyəm mən.

M e h d i

Yolçu yolda gərək, yubandıq, qardaş!

Q ə h r ə m a n

Tez çapaq atları dağlara birbaş.

N a ç a l n i k

Bu xəbər, çatarsa padşaha, inan,
Olar yurd, yuvanız yer ilə yeksan.

N ə b i

O "adil" padşaha deyiniz ki, mən
Taxtına, tacına düşmənəm, düşmən.

*(Koxaya)*

Sən mənim adımdan cənab, zəhmət çək,
Səlim bəyə de ki, toyun mübarək!
Ağalar, gedirik... hələlik... ancaq
Yerindən tərpənən sağ qalmayacaq!
Mənim sizdən yalnız bir xahişim var,
Çağrılmamış qonaq kimdi, sorsalar –
Deyərsiniz ki, o, Qaçaq Nəbiydi,
Dostları özündən qoçaq Nəbiydi!

Gedirlər.

P Ə R D Ə

## ALTINCI ŞƏKİL

Köçərilərin düşərgəsi. Gecədir... Arazın yaxınlığmda bir qayalıq.
Nəbinin dəstəsi düşmən təqibindən qurtarıb buraya gəlmişdir.
Köçərilər Nəbinin adamlarına yer vermişlər.

H ə c ə r

Lay-lay dedim yatasan,
Qızıl gülə batasan.
Gül yasdığın içində
Şirin yuxu tapasan.
Laylay, balam, a laylay.
Laylay, gülüm, a laylay.

F a t m a

*(Körpəyə)*

Yat deyirlər,yat barı,
Ömrümün laləzarı.
Sənə gələn elçilər
Dağıdacaq kandarı.
Nə dəcəlsən, can bala,
Salırsan min qan, bala,
Maddım-maddım baxırsan,
Yatarsan haçan, bala?

Qurd Kərim, Qəhrəman və Mürsəl gəlirlər.

H ə c ə r

A Kərim, bir xəbər bildinmi?

Q u r d K e r i m

Yox, yox...

H ə c ə r

Doğrusu, Nəbidən nigaranam çox.

F a t m a

Dünyada dərd hanı bu dərddən acı?

Q u r d   K ə r i m

Sıxma ürəyini, ay Həcər bacı.

M ü r s ə l

Gəzdik qarış-qarış hər yanı, Həcər,
Dostumuz Nəbidən bilmədik xəbər.

H ə c ə r

Görəsən, nə gəlib yenə başına?

*(Ağlayır.)*

M ü r s ə l

Yoxam, Həcər bacı, bu göz yaşına,
İnsan şişirtməsin gərək dərdini,
Sovur küləklərə ürək dərdini.

F a t m a

Ay Allah, başına gəlməsin xəta.

M ü r s ə l

Nəbi sağ çıxacaq düşsə də oda
Yəqin ki, rast gəlib yolda bir kəsə,
Qonaq aparıblar.

H ə c ə r

Bəlkə, nə isə...
Satqına rast gəlsə satar Nəbini,
Divan da zindana atar Nəbini.
Ürəyim dincəlmir.

F a t m a

Yorma özünü...
Nəbi eşitsəydi sənin sözünü,
Doyunca gülərdi.

M ü r s ə l

Aşkardır, aşkar,
On düşməni varsa, on min dostu var.

Q u r d  K ə r i m

Dost-dostu satarmı? Gəlməyir dilim.

H ə c ə r

Zəmanə xarabdır, vallah, nə bilim,
Sinəm dərd əlindən sökülür, budur.

Q ə h r ə m a n

*(Həcəri bir kənara çəkir.)*

Həcər bacı...

H ə c ə r

Bəli…

Q ə h r ə m a n

Qulaq as.

H ə c ə r

Buyur.

Q ə h r ə m a n

Nəbiyə heç bir şey olmayıb, olmaz.
İndicə gələcək, səbr elə bir az!
Hara getdiyini dedi dostuna.

*(Özünə işarə edir.)*

Qardaşı Mehdi də qoşuldu ona.
Gizli yol tapmağa gediblər, Həcər,
Bəlkə bu Arazı keçək bir təhər.
Düşmən yerimizi bilməyir hələ,
Gərək birimiz də keçməyək ələ.
Çox gözəl tanıyır Nabi Təbrizi,
Təbriz dostlarımız saxlayar bizi.
Nəbiyçin heç qorxma, düz deyirəm mən,
Qayıdar indicə yuaxarı kənddən.
Sən məcbur elədin bu sirri açım,
Bunu bir mən bilim, bir də sən, bacım!..

H ə c ə r

Ömrün uzun olsun, Qəhrəman qardaş
Xətər görməyəsən heç zaman, qardaş!..

Q ə h r ə m a n

Dəstəmiz Arazı tez gərək keçə,
Çünki qorxuludur bu dilsiz gecə.

F a t m a

Səhərdən acsınız, oturun, yeyin.

M ü r s ə l

Bir dadaq, necədir sənin xörəyin.

Q u r d  K ə r i m

Nəbisiz haramdir bu çörək mənə,
Onsuz parçalanır ürəyim yenə.

M ü r s ə l

Nəbi gəlib çıxar, kefini pozma!

F a t m a

Allah, sən Nəbiyə qara gün yazma!

M ü r s ə l

Tanrı çox görməsin Nəbini elə!
Analar elə qoç doğmayıb hələ.

Q u r d  K ə r i m

Səlim bəy nə qədər güclu olsa da,
Nəbidən tük salır.

H ə c ə r

Kişidir o da?

M ü r s ə l

Ay Kərim, sən allah, adam adı çək.
Oturun başındakı ləçəkdir, ləçək!

Q u r d  K ə r i m

Sönməyib hələ də ürəyində kin.

M ü r s ə l

Filin qabağında neylər bir çibin?

Hamı yeməyə məşğul olur.Həcər körpəsinin yanına keçir.
Qurd Kərim fənəri qapıb gizli işarə verir.

H ə c ə r

Deyəsən yatmaqla heç yoxdur aran?
Yat, bala, deməkdən yoruldu anan.

*(Zarafatla)*

Niyə dərdə-sərə salırsan məni,
Görüm, cavanəzən öləsən səni.

F a t m a

Nə sözdür deyirsən, ay Həcər bacı?
Qoy düşmənin keçsin günləri acı.
Tökmə acığını yazıq körpəyə.
Niyə danlayırsan balamı, niyə?

*(Uşağı oradakılara göstərir.)*

Sifəti elə bil çiçəkli yazdır,
Gözləri qapqara, bir cüt gilasdır.
Burnu, göz dəyməsin yekədir, yekə,
Qulağı dağlara salıbdır kölgə.

M ü r s ə l

Nəbinin burnundan düşmüsən, ay qız?
Çuvaldan seçilmir səndəki ağız,
Ayaqların kündə, əllərin kösöy,
Gəlin gedən kimi qaynananı döy!
Zarafat elədim, qəşəngsən, küsmə,
Büzmə dodağını, mən ölüm, büzmə!

F a t m a

Ay allah, bundan beş dənə ver.
Heç olmasa, üç dənə ver.
Həsrətin çəkmişlərə ver,
Çaladakı camışlara ver.

Bu dəmdə uzaqdan bir güllə səsi eşidilir. Eyni zamanda Kərim də havaya bir güllə atır. Uzaqdan at ayaqlarının səsi gəlir.

Hamı heyratdədir.

M ü r s ə l

Deyəsən, gələn var, dinməyin, sakit.

Q ə h r ə m a n

Verməz ehtiyatı əlindən igid.

Q u r d   K ə r i m

Baxım, görüm, kimdir?

Q ə h r ə m a n

Gör kimdir gələn?

F a t m a

Həcər, sən durma, gəl bəridə əylən.

Qadınlar körpəni alıb yan tərəfə keçirlər.

M ü r s ə l

Olmaya Səlim bəy qazaq gətirir?

Q ə h r ə m a n

Qorxaqlar özünü bərkdə itlrir.

S ə s l ə r

Dayan, dayan, qaçma!

Q ə h r ə m a n

Aman, alçaqlar...

Güllə açılır, bir nəfər yıxılır.

M ü r s ə l

Aldı üstümüzü atlı qazaqlar.
Səlim bəy, Səlim bəy.
Özüdür ki, var...

Bəylər və qazaqlar onları əhatə edir.

S ə l i m b ə y

*(Yaxındakılara)*

Ah, Mahmud bəy, qoyma, qoyma qaçsınlar.
Qaçıb başımıza əngəl açsınlar.
Qoymayın bir nəfər çıxsin salamat,
Yaxşı qisas alın, ad çıxarın, ad...

Bir neçə nəfər ətrafı axtarır, Mürsəl kişini qolu bağlı götürürlər.

M ü r s ə l

Daha dayanmışdır, bıçaq sümüyə,
Ellərin naləsi ucalır göyə.
Min oyun açdınız onun başına...

S ə l i m b ə y

A gədə, durmayın, vurun başına.

Vururlar.

F a t m a

Vurmayın, dayanın, vurmayın bizi,
Allah amanıdır, qırmayın bizi.

S ə l i m b ə y

Yaxşı, deyin görüm, hardadır Həcər?
Yoxsa danışdırır sizi bu xəncər...
Hanı, Həcər hanı?

M ü r s ə l

Bilmirəm...

S ə l i m b ə y

Söylə.

M ü r s ə l

Dedim ki, bilmirəm...

S ə l i m b ə y

Dilə bax, dilə...
Həcərin yerini göstərməsəniz
Murdar yuvanıza od vurarıq biz.
De görüm, hardadır Həcər bu saat!

Bu halda səhnə arxasından qışqırıq qopur. Koxa və bir neçə qazaq Həcəri tutub gətirir.

M ü r s ə l

Sən insan deyilsən, cəlladsan, cəllad!

F a t m a

Amandır, dəyməyin.

H ə c ə r

Buraxın məni!

M a h m u d b ə y

Əldən buraxarmı düşmən düşməni?!
Gərək nəslinizi qıraq birbəbir.

Həcər çırpınır. Səlim bəyi vurmaq istəyir.

S ə l i m b ə y

Dəyməyin, dayanın.

H ə c ə r

Sözünüz nədir?

S ə l i m b ə y

Xoş gördük, əhvalın necədir, söylə?
Xoşuna gəlirmi yaşamaq belə?
Yıxıl ayağıma, öp ayağımdan.

H ə c ə r

Əyilməz düşmənə ölsə də aslan.
Papaq deyil sizin başınızdakı
Bir baxın, Həcərdir qarşınızdakı!

S ə l i m  b ə y

Buraxıb möhtəşəm o cah-cəlalı
Bir adsız gədanın oldun əyalı.
Atıb qızılları, atıb daş-qaşı,
Özünə yurd-yuva etdin dağ-daşı.
Bu da həyatmıdır?

H ə c ə r

Bəs nədir, səncə?

S ə l i m  b ə y

Bu, it günündən də betərdir, məncə.
Bax, yenə əlimdə əsirsən, əsir,
Duyuram, qorxudan ürəyin əsir.
Yolunu gözləyir çoxdan qazamat,
Bir şərtlə elərəm mən səni azad.

H ə c ə r

Nə şərtlə?

K o x a

*(Sözə qarışır.)*

Ay arvad!

H ə c ə r

Arvad özünsən.

K o x a

Olsun, ancaq, Həcər, deyirəm ki, mən
Bizim, Səlim bəyə ver doğru cavab,
Doğru danışmaqsa savabdır, savab...

H ə c ə r

Əzəldən yalanla olmayıb işim.

K o x a

Siz danışın, mən də bığımı eşim.

S ə l i m b ə y

Həcər, de Nəbinin bizə yerini,
Qorxma, öldürmərik sənin ərini.

H ə c ə r

Azad könüllərdir onun qalası.

S ə l i m b ə y

Ayağı çarıqlı, kəndli balası
Bəylərə, padşaha bata bilərmi?
Murdar arzusuna çata bilərmi?
O, bu yaxındadır, gizlənib yəqin,
Qorxaqdır, mən buna əminəm, əmin!..
Gəlsin meydanıma cürəti varsa,
Güdsün namusunu qeyrəti varsa.

H ə c ə r

Maşallah, qeyrətdən kalansan yaman,
Lap sənin kimiydi, gorbagor atan.

S ə l i m b ə y

Bunda cürətə bax!

H ə c ə r

Beləyəm, belə.
Ağzın süd qoxuyur, körpəsən hələ!

S ə l i m  b ə y

Arvad olmasaydın, səni qılıncla
İkiyə bölərdim.

H ə c ə r

Bu qol, bu qıçla?
Silahım olsaydı, bunu bil ki, sən,
Qoymazdım yanımıda nəfəs çəkəsən!

K o x a

Həcər, olacaqsan axırda məyus.

H ə c ə r

Sus, boşqab yalayan piltəbığ dəyyus!

K o x a

Bunda əsər yoxmuş ardan, həyadan.

S ə l i m  b ə y

*(Düşünərək)*

Alın körpəsini, atın qayadan!

Uşağı beşikdən götürürlər. Fatma onlarla əlbəyaxa olur, uşağı əllərindən almaq istəyir.

F a t m a

Körpədə nə günah? Aman, rəhm elə!

M a h m u d  b ə y

Düşmən balasıdır, o, gərək ölə!

H ə c ə r

Bala, anan ölsün, bala can, bala...
Ananın ürəyi oldu qan, bala...
Buraxın!

K o x a

Uşağı atdılar.

H ə c ə r

Aman!

S ə l i m b ə y

Aparın, yolunu gözləyir zindan!

*(Gülür.)*

H ə c ə r

Səlim bəy, sevinib gülmək nahaqdır,
Bilin, bu qan yerdə qalmayacaqdır!

S ə l i m b ə y

Aparın! Aparın!

Həcəri aparırlar. Qurd Kərim görünür.

S ə l i m b ə y

Qurd Kərim, sənsən?

Q u r d K ə r i m

Bəli, mənim ağam!

S ə l i m  b ə y

Afərin, əhsən!

(Pul verir.)

Bəs Nəbi hardadır?

Q u r d  K ə r i m

Yuxarı kənddə.

S ə l i m  b ə y

Daha durmaq olmaz bir dəqiqə də.

Güllə səsləri.

Bu nədir?

Q u r d  K ə r i m

Evimiz yıxıldı, aman...
Yəqin ki, Nəbidir.

S ə l i m  b ə y

Mən getdim...

Q u r d  K ə r i m

Dayan!
Bu tərəfdən gedin.

S ə l i m  b ə y

Çox gözəl.

Q u r d  K ə r i m

Bəs mən?

S ə l i m  b ə y

Burda qal, bilmirəm, qorxursan nədən?

Q u r d  K ə r i m

Vallahı şübhəyə düşsələr əgər
Nəbigil dərimə saman təpərlər.

S ə l i m  b ə y

Yox, yox, sən burda qal, ayıq ol, ayıq!

Q u r d  K ə r i m

Qorxuram...

S ə l i m  b ə y

Mən getdim, danışma artıq!

N ə b i

*(Səhnə dalından)*

Qoymayın onları çıxsın aradan,
Qırın namərdləri, verməyin aman!

Atışma qızışır. Nəbi yel kimi səhnədən gəlib keçir. Nəbinin döyüşçüləri qızğın atəş açırlar. Səhnədə qaçışırlar. Səlim bəyin dəstəsindən ölənlər olur.

H ə c ə r

Hanı mənim balam, verin balamı!
Yarın bu sinəmi, görun yaramı!..

N ə b i

Həcər, aç gözünü, qoçaq arvadım.
Sənsiz bir zindandır ömrüm, həyatım!

H ə c ə r

Bircə balam vardı gül kimi, Nəbi!
Cəlladlar öldürdü ilkimi, Nəbi!

N ə b i

Bu ağır yaranı sağaldar zaman,
Vətən göylərindən çəkilər duman.

M e h d i

Qardaşım, sahildə toplaşıb dostlar,
Gəl keçək Arazı nə qədər vaxt var.

N ə b i

Gedək, Həcər, gedək, yağı gəlməmiş,
Arazı adlayaq dan sökülməmiş.

*(Araza xitab eləyir.)*

Bax, Arazım, bu dəhşətə, müsibətə şahid ol,
Azadlığa qurbanların üzərindən gedir yol.
Biz iki qan qardaşıyıq, aramızdan axırsan,
Ayrılıqdan qövr eləyən yaramızdan axırsan.
Hey axırsan, bizim ulu babaların yaşından,
Tarix bilir nə bəlalar gəlib, keçir başından...
Sənsən mənim qana dönmüş ürəyimin aynası,
Arzum budur, külə dönsün bu zalımlar dünyası!
Al qoynuna dostlarını, ey bağrı qan Arazım,
Mənim qanlı göz yaşımdan yaranmısan, Arazım!
Əlbir olub od salmaqçün düşmənlərin canına,
Sinən üstdən yol ver, keçim qardaşımın yanına!

P Ə R D Ə

## DÖRDÜNCÜ PƏRDƏ

### YEDDİNCİ ŞƏKİL

Təbrizdə yoxsul Musanın evi. Nəbi yaralıdır. Yataqda uzanmışdır. Həcər və Güllü xala da buradadır. Musa Nəbinin yanında oturub kaman çalır, Nəbi musiqi ahəngi altında danışır.

N ə b i

Düşmənə rast gəldik biz "Çətən daş" da
Altı yüz qazaqdı, Səlim bəy başda.
Vuruşda gündüzü gecəyə qatdıq,
Nə qədər gülləmiz vardısa atdıq.
Lalə tək qızartdı qan dağı-daşı,
Dost-dostu itirdi, qardaş-qardaşı.

M u s a

Ah, dəstən bəs hardadır indi?

N ə b i

Dağ kəndlərində...

M u s a

Olsaydım, Nəbi qardaş, əgər sənin yerində
Gətirərdim onları birbaşa Təbrizə mən.

N ə b i

Yox, yox, Musa, bu işdən duyuq düşərdi düşmən,
Yox, qoy onlar hələlik dağ kəndlərində qalsın.
Yaralılar, yorğunlar bir az dincini alsın.

M u s a

Bağışla, qoydum bayaq söhbətini yarımçıq,
O son davadan danış...

N ə b i

Qardaş, nə deyim artıq.
Sonra ehtiyatla çəkildik geri,
Tez keçdik Arazı o taydan bəri,
Mən bu son vuruşda üç yara aldım.
Bir günün içində on il qocaldım.

M u s a

Nəbi, göz dəyməsin, dəmir kimisən,
Ürək dərdimizin baş həkimisən.
Vətənin oğlusan, millətin gözü.
Qopdu gəlişinlə yaramın közü.

N ə b i

Gəlişim əziyyət versə də sizə,
Pənah gətirmişəm ana Təbrizə.

M u s a

Bu nə sözdür, Nəbi? Öz evindəsən.
Ən əziz qonaqsan bu Təbrizdə sən.

N ə b i

Unutmaq olarmı bu haqqı-sayı.
Arazın o tayı, istər bu tayı
Bir duyan, bir vuran saf bir ürəkdir,
Onun hər dərdinə dərman gərəkdir.

*(Nəbi oxuyur.)*

Araz, hər yaz çəmən birdir o sahildə, bu sahildə,
Qərənfil, yasəmən birdir o sahildə, bu sahildə.
Bilirsən ki, suya xəncər, qılınc vursan da ayrılmaz,
Ürək birdir, bədən birdir, o sahildə, bu sahildə.

Əzəldən ayrılıq dərdi, vüsal dərdi, vətən dərdi,
İnandım bir də mən, birdir o sahildə, bu sahildə.
Ürək telli müqəddəs saz, şerdən incə xoş bir dil
Araz, bildinmi sən, birdir o sahildə, bu sahildə?!
Haray saldım uzun illər, bütün aləm eşitsin ki,
Əziz, doğma vətən birdir o sahildə, bu sahildə.

M u s a

Bu dərd həm sənindir, həm də mənimdir,
O sahil, bu sahil öz vətənimdir.

N ə b i

Ah, bağı, bağçası, ətir qoxuyan,
Bu yer ürəyimin bir parçasıdır.

M u s a

Hər kənddə ulayır bir bayquş, bir xan,
Düşmənin toyudur, elin yasıdır.
Gəzir qarış-qarış Azərbaycanı
Yükü dağdan ağır bir qəm karvanı.

N ə b i

Belə getməyəcək bu qanlı dövran,
Olacaq zülm evi yer ilə yeksan.

M u s a

Bu mənim üst-başım, bıda ki, evim,
Belə güzəranı mən necə sevim?
Vəfasız dünyada quru canım var,
Bir də ki, ağlayan bir kamanım var.
Adam sayılmayır kim ki, yoxsuldur.
Bu yerdə vicdan da, namus da puldur!

N ə b i

Musa, Qasım dayı gecikdi yaman...

M u s a

Qorxma, gəlib çıxar, qalma nigaran.

Uzaqda mahnı oxunur.

Dərdlilər yollardan gözünü çəkməz,
Haray, bu hicranın əlindən haray!
Ürəyi yanmayan göz yaşı tökməz,
Haray, bu dövranın əlindən haray!
Sirdaş yaranmısan, ey Araz mənə.
Bir dünya dərdim var, qulaq as mənə,
Pərişan görünür bahar-yaz mənə,
Vəfasız dünyanın əlindən haray!

H ə c ə r

Bala, əziz bala, hardasan, harda?!
Bu bədbəxt ananı qoymusan darda.

G ü l l ü  x a l a

Sənə dağ çəkənin qurusun əli!

H ə c ə r

Özümdə deyiləm balam öləli.
Verərək baş-başa dərdi-sərimlə
Mən od götürürəm kirpiklərimlə.

Qapı döyülür. Həcər və Gullü xala yan otağa keçir.
Qasım dayı kiçik səbətdə Nəbiyə Üzüm gətirir.

N ə b i

Aha, Qasım dayı, xoş gördük səni.

Q a s ı m

Vəfasız düşünmə o qədər məni.

M u s a

Qasım, nə xəbərlə gəlmisən?

Q a s ı m

İş var...
Düşmənlər Nəbiyə quyu qazırlar.

M u s a

Bəs niyə gecikdin?

Q a s ı m

Bir səbəb oldu.

N ə b i

Tez danış, ürəyim şübhəylə doldu.

Q a s ı m

Qoy deyim birbəbir öyrəndiyimi,
Təbriz hakiminə Tiflis hakimi
Haqqında yazıbdır belə bir fərman:
"Gərək təslim etsin Nəbini İran".
Burda Səlim bəyin bir dostu vardır,
Adı Paşa bəydir, qart canavardır.
Ona da yazıbdır sizin Səlim bəy,
"Nəbini tutmaqçın mənə et kömək".
Odur ki, bu saat Paşa bəy, divan
Səni axtarırlar, səni, Nəbi can...

N ə b i

Deyirsən, burdan da çəkilək geri!

Q a s ı m

Deyəsən duyublar olduğun yeri.

N ə b i

Kim verdi sənə bu qara xəbəri?

Q a s ı m

Haman Paşa bəyin qoca nökəri.

M u s a

Nəbi, biz onunla qohumuq bir az,
O, bizim adamdır, yalan danışmaz.

Q a s ı m

*(Xatirinə salaraq)*

He... bir də deyir ki, dəstəndən kimsə
Bu işə qol qoyub...

N ə b i

*(Həyəcanla)*

Necə?

Q a s ı m

Nə isə
Bir az ehtiyatlı olsan nə olar?
Göz-qulaq olmağın zərərimi var?

N ə b i

Çətindir, çətindir buna inanmaq,
Dəstəmdən Kərimdir Təbrizdə ancaq.
Vuruşda sağ əlim, dostum, qardaşım,
Mənim dar günümdə ürək sirdaşım.

*(Fikirləşir.)*

İnsandır... Bəlkə də, dilim qurusun.
Mən nə danışıram?.. Öz yurdumzun
Vəfalı oğlundan şübhə yaramaz
Yəqin yalan qatıb doğruya bir az.

Q a s ı m

O, yalan danışmaz, ayıq ol, Nəbi!
Hər tərəf casusdur, sayıq ol, Nəbi!
Uymasın ürəyin hər şirin dilə,
Dostu yaman gündə imtahan elə.

Qapı üç dəfə döyülür. Qurd Kərim gəlir, həyəcanlıdır.

Q u r d K ə r i m

*(Nəbiyə)*

Qardaşım, necəsən?

N ə b i

Yaxşıyam bir az.

Q u r d K ə r i m

Mənə bıçaq vursan heç qanım çıxmaz.
Hər yana baxırsan xarabazardır.
Dolub dilənçiylə küçə və meydan,
İlan oynadanla, meymun oynadan
Bütün camaatı yığır başına...

M u s a

*(Kinayə ilə)*

Yaman darıxırsan deyəsən, aşna!
Ancaq bunlarımı görür gözlərin?
Heç məni açmadı sənin sözlərin.

N ə b i

Yoxsa qardaş dərdi könlünə yaddır?

Q u r d  K ə r i m

Yox, Nəbi, deyirəm, bu nə həyatdır?

N ə b i

Bu sözlər yaraşmır sənin adına,
Qara keçmişini sal bir yadına.

M u s a

Kərim, heç qınama təbrizliləri,
Başları üstündə ölüm xəncəri
Verir öz hökmünü sorğu-sualsız,
Sən bir ev tapmazsan, qəmsiz, məlalsız.

Küçədən bir neçə güllə səsi eşidilir. Hamı bir an qulaq asır.

Q u r d  K ə r i m

Uzaqda atıldı.

N ə b i

Həcər, mənə bax.
Burda qalmaq olmaz, tez yola çıxaq.
Çalışaq, düşməyək ələ bu gecə.

Q a s ı m

Sizi ötürərik elə bu gecə.

Q u r d  K ə r i m

Ay Nəbi, bu təlaş tamam nahaqdır,
Deyirəm, xəstəsən, yol da uzaqdır.
Sənə ağır olar, bəlkə bir qədər,
Başqa dost evində qalaq bir təhər.

N ə b i

Bura bax, yoxsa sən... nə isə... artıq
Danışmaga dəyməz, yola çıxırıq.

H ə c ə r

Ürəyim nə yaman sıxılır, eyvah...
Nəbiyə bir xətər dəyməsin, Allah!

Q a s ı m

Qorxma, Həcər bacı, biz ölməmişik,
Dostlar bu ətrafda çəkirlər keşik

N ə b i

Gedək, başımıza nə gəlir görək...

G ü l l ü  x a l a

Yaralı quş kimi çırpınır ürək.

N ə b i

*(Musaya)*

Gəl, Musa, gözlərin dolmasın yaşla,
Vuruş qabaqdadır, sən işə başla.

G ü l l ü   x a l a

Hamının ürəyi birdirsə əgər,
Mənimsə ürəyim ikidir, Həcər,
Biri bu taydadır, biri o tayda.

H ə c ə r

Ağlama, ağlamaq verərmi fayda?

N ə b i

Sağ ol, Güllü xala,var ol, a Musa...

Qucaqlaşıb öpüşürlər,

M u s a

And olsun pozulmaz dostluğumuza,
Gəlləm yanınıza bir neçə aya,
Bizdən salam deyin dosta, aşnaya.

Q a s ı m

Nədir bu ayrılıq, bilə bilmirəm,
Nədən bülbül qonmaz gülə, bilmirəm,
Gülmək istəyirəm, gülə bilmirəm,
Məni yalqız qoyub, gedəndən ayrı,
Can necə yaşasın bədəndən ayrı?!

Güllü xala Nəbinin dalınca bir kasa su atır.

P Ə R D Ə

## SƏKKİZİNCİ ŞƏKİL

Tacir Xəlilin evi. Pərdə açılarkən uzaqdan atışma səsləri eşidilir.
Xəlil həyəcanla pullarını sayır.

X ə l i l

Canıma qorxudan düşüb vic-vicə,
Nəbi dağıdacaq kəndi bu gecə.

Qapı döyülür. Leyla yan otaqdan çıxır.

L e y l a

Xeyır ola, a kişi?

X ə l i l

Danışma,dayan.

L e y l a

Yox, qapını açma, qorxuram yaman!

Qapı yenə döyülür.

X ə l i l

Ay qapını döyən, kimsən, bir dillən?

Q u r d  K ə r i m

Kərimdir, tez ol aç.

X ə l i l

Kərim?

Q u r d  K ə r i m

Mənəm, mən.

Xəlil tez qapını açır. Qurd Kərim içəri girir.
Xəlil onu görüb təəccüblə baxır.

Q u r d  K ə r i m

Daha qaçaqlarda qalmayıb tutar,
Dövrəyə alıbdır bizi qazaqlar.

*(Göz vurur.)*

Nəbi yaralıdır, gizlət evində,
Niyə mat-qut oldun, kişi, sevin də!

X ə l i l

Əsirəm, doğrusu, adı gələndə,
Yüz qurban kəsərəm Nəbi öləndə.
Gətirmə evimə.

Q u r d  K ə r i m

Nə üçün?

L e y l a

Divan
Başına min manat qiymət qoyub, qan.
Evimdə tapılsa mənə söz gələr.

Q u r d  K ə r i m

Qoy barı bu sözü desin özgələr.

*(Qulağına nə isə pıçıldayır.)*

X ə l i l

Necə?

Q u r d  K ə r i m

Bəli, bəli... naçalnik özü.
Heç kəsə hələlik demə bu sözü.

X ə l i l

Çox gözəl.

Q u r d  K ə r i m

Gəlirik, sən yer hazırla.

*(Gedir.)*

X ə l i l

Gül açır könlümdə böyük arzular,
Məndən düşə bilməz allah da şəkkə.
Əziz qonaq girib yorğan-döşəyə
Dincəlsin, kim istər o dincəlməsin?
Kim istər evinə qonaq gəlməsin?..

L e y l a

A kişi, başa düş, gəl sarsaqlama,
Ağrımaz başına yaylıq bağlama.

X ə l i l

Danışma, deyildir bu, arvad işi,
Öz tüpürdüyünü yalamaz kişi.

L e y l a

Qorxuram, axırda çıxa bir əngəl,
Deyəsən başını girləyib əcəl.

X ə l i l

Çərənləmə, dedim!

L e y l a

Sözdür, deyirəm.

X ə l i l

Hələ bundan sonra artacaq rütbəm,
Bu saat Nəbigil bizə gələcək,
Yaxında taleyim, baxtım güləcək.
Asan deyil etmək Nəbini qonaq.

L e y l a

Bu işin axırı çox pis olacaq.

X ə l i l

Arvad, səfehləmə.

L e y l a

Ağıla bax, ala!

*(Qaramat atır.)*

X ə l i l

Arvad, tez, yubanma, sən yer hazırla!

Qapı döyülür. Nəbi Qurd Kərimin və Tapdığın çiyninə dayalı halda içəri girir. Nəbinin başı sarıqlıdır.

X ə l i l

Olsun ayağının altında başım.

N ə b i

Bu kimin evidir, Kərim, qardaşım?

Q u r d K ə r i m

Allah bəndəsinin.

N ə b i

Kişi, mənə sən
Sifətdən bir qədər tanış gəlirsən.

X ə l i l

Yaxşılıq etmisən bir zaman mənə.

*(Kənara)*

Gərək əvəzini qaytaram sənə!

N ə b i

Tutur gözlərimi bir qara pərdə
Bir çara göstərin düşdüyüm dərdə.

Q u r d K ə r i m

Nəbi, nə deyirsən, özünə gəl.

N ə b i

Ah…

X ə l i l

Uzun et Nəbinin ömrünü, Allah!

N ə b i

Bir içim su verin...

X ə l i l

Bu saat.

Q u r d  K ə r i m

Dayan!
Su sənə zərərdir, ağırdır yaran.

N ə b i

Bəs Qəhrəman hanı? Bəs Vəli hanı?

Q u r d  K ə r i m

Düşmənlər tutmuşdur bütün hər yanı,
Onlar atışırlar.

N ə b i

Durmayın, gedin,
Barı yoldaşlara bir kömək edin!
İgidə yaraşmaz evdə oturmaq.

Q u r d  K ə r i m

Nəbisiz qoymaram kənara ayaq.

T a p d ı q

Doğrudur, biz gedək, sənsə burda qal.

N ə b i

Kərim, yox, sən də get, vuruş, qılınc çal!
Adımdan Həcərə tez yetir xəbər.
Yığıb dost-aşnanı gəlsin köməyə,
Həcərsiz uçulur başıma göylər,
Hicran neştərini vurur ürəyə.

Nəbini uzandırırlar.

X ə l i l

Kaş mənə dəyəydi o güllə...

N ə b i

Dostum,
Yanıram su verin mənə bir qurtum.

Q u r d  K ə r i m

Yaramaz.

N ə b i

Di, gedin.

Q u r d  K ə r i m

Yaxşı, bu saat.

N ə b i

Qoy səni gəzdirsin hələlik Boz at.

Q u r d  K ə r i m

Gedək, dostlar, gedək bitməyib dava!

*(Kənara)*

Nəbinin dərdinə tapılar dava.

*(Tüfənglə Nəbini vurmaq istəyir. Nəbi gözünü açır.)*

Nəbi can, üstünü açma bu qədər,
Xəstəsən, xəstəyə tez soyuq dəyər.

*(Onun üstünü örtür.)*

N ə b i

Get, dedim.

Q u r d K ə r i m

Gedirik.

*(Gedir.)*

N ə b i

*(Xəlilə)*

Qapını bağla!

X ə l i l

Allah, sən Nəbini bəladan saxla!
Yenə atışırlar.

N ə b i

Bizimkilərdir.
Qəhrəmanla Vəli ər oğlu ərdir.
Çıxardar onları Həcər tələdən.
İgid də qorxarmı oddan, güllədən?!

X ə l i l

Yoxdur bu ellərdə Həcərin tayı.

N ə b i

Qorxutmaz Həcəri düşmənin sayı.
Həcərin saçları dalğa-dalğadır,
İpək birçəkləri halqa-halqadır,
Davada Nəbiyə polad arxadır,
Yazmışam adını ürəyə, Həcər,
Hardasan, gəl yetiş köməyə, Həcər!
Yaram çox ağrıdır...

X ə l i l

Qorxma, inşallah,
Qalxarsan ayağa lap bu gün, sabah,
Ürəyini sixma, qovraqsan, qovraq,
Kiçik bir gülədən yıxılarmı dağ?!

N ə b i

Ah, yata bilsəydim əgər doyunca.,.

X ə l i l

Nədir bu patrondaş, xəncər, tapança,
Qoy açım bunları, uzan, yat, dincəl...

*(Nəbinin belindən yaraqlarını açıb taxçadakı yorğan-döşəyin altında gizlədir.)*

N ə b i

Görünür ki, məndən uzaqmış əcəl.

X ə l i l

Gecən xeyrə qalsın, mən getdim, sən yat.

N ə b i

*(Sayıqlayır.)*

Düşmən oynatmasın meydanımda at!
Verin Boz atımı, Mehdi, durma, cum,
Həcər, yanımca gəl, qoçaqlar, hücum!..
Yağdırın düşmənə güllədən yağiş.

L e y l a

Nəbi, yatmamısan?
Sayıqlayırmış...

*(Çıxır, daldan fit səsləri gəlir.)*

X ə l i l

Deyəsən bərk yatıb, ayılmaz daha,
Arzuma yetişdim, şükür Allaha.

*(Yavaşca bayır qapıya tərəf gedərkən*
*Nəbi birdən sıçrayır.)*

N ə b i

Dayan, hara? Dayan!.. Cavab ver, hara?

X ə l i l

Dəstəmaz almağa.

N ə b i

Hara?

X ə l i l

Bayıra.

N ə b i

Tərpənmə yerindən deyirəm sənə,
Mən aman verməröm alçaq düşmənə.

X ə l i l

Ay aman, ay haray.

N ə b i

Al, haramzadə.

*(Onu vurur.)*

Yaşamaq haramdır sənə dünyada.

Bu halda bayırdan səs-küy qalxır. Fit verilir, qapı açılır.
Güllələr içəri yağış kimi yağır. Nəbi yerindən sıçrayır.
Divara söykənib atışmağa başlayır.

N ə b i

Sən də al payını, hiyləgər tülkü!
Hələ ölməmişəm, sağam, bir, iki...
Nəbiyə xəyanət?..

*(Qurd Kərimi vurur. Bu vaxt hər tərəfdən qazaqlar içəriyə tökülüşürlər. Nəbini araya alırlar. Hər tərəf düşməndir.)*

M a h m u d  b ə y

Təslim ol Nəbi!
Yoxsa öldürərik səni it kimi.
Tez qandalaqlayın! Dustağımsan sən,
Görərsən, dərini soyacağam mən.
Aparın!..

N ə b i

Aparın, gələr ki, bir gün
Sizin kökünüzü kəsərək bütün.
Nəbini qorxutmaz nə dar, nə zindan,
Bir üzə gülməyir həmişə dövran.

M a h m u d  b ə y

Aparın!..

N ə b i

Gedirəm öz ayağımla,
Mən fəxr eləyirəm, qandalağımla.

P Ə R D Ə

## BEŞİNCİ PƏRDƏ

### DOQQUZUNCU ŞƏKİL

Görüş zindanı, Səhnanin bir tarəfi kamera, digər tərəfi zindan rəisinin otağıdır. Pərdə musiqi müşayiətilə açılır.

N ə b i

Qazamat istidir yata bilmirəm,
Düşmənlər güclüdür, bata bilmirəm,
Ayaqda qandalaq, qaça bilmirəm,
Qoy sənə desinlər ay qaçaq Nəbi,
Dostları özündən ay qoçaq Nəbi!

Mehdi və Vasili başqa qiyafədə içəri girirlər. Keşikçiyə pul veririər.

M e h d i

Nəbi can.

N ə b i

Mehdi can, Vasili, qardaş!..

M e h d i

Dağlardan enmişik yanına birbaş.

Qucaqlaşırlar.

Bütün dost-aşnadan salam var sənə.

N ə b i

Ömürlük qazamat kəsiblər mənə.

M e h d i

Qəm yemə, dostların oyaqdır, oyaq,
Onlar and içərək veriblər qərar:
Bu qara zindanı dağıdacaqlar.
Enmişik dağlardan iki yüz atlı,
Hamısı qəhrəman, şöhrətli, adlı,
Qardaşım, qəm yemə, Gorusu gerçək
Almışıq dövrəyə üzük qaşı tək.
Hamımız yolunda sinə gərərək.
Səni bu zindandan qurtaraq gərək.

N ə b i

Ehtiyatlı olun, qurban verməyin,
Düşmən hiyləgərdir, aman verməyin.

M e h d i

Qardaşım, gözünü qırpma bir an da,
Vuruş başlanacaq dan ağaranda.

N ö v b ə t ç i

Aman, evim yıxıldı, böyüklər gəlir bura,
Sizi burda görsələr məni çəkərlər dara.
Tez olun, tərpənin!

N ə b i

Di, durma Mehdi...

M e h d i

Hələlik...

N ə b i

Dostlara məndən salam de.

Naçalnik, Səlim bəy və bir neçə qazaq içəri girir.

S ə l i m b ə y

Yaxşı tanımırsan onu sən hələ,
Odur ürək verən, dil verən elə.
Onu asdırmasaq dar ağacından
Ölkədə günbəgün artacaq üsyan.

N a ç a l n i k

Siyasət lazımdır, Səlim bəy, düşün,
Nəbi əlimdədir onsuz da bu gün.

Nəbini gətirirlər.

Xoş gördük, qoç Nəbi!

N ə b i

Qurşama, əl çək!

N a ç a l n i k

Nəbi, bu yaxşıdır, buyur, bundan çək.

*(Papiros təklif edir.)*

N ə b i

İstəməz, çəkdiyim budur hələlik,
"Həsən dədənovdur", buyur naçalnik.

N a ç a l n i k

Məni yaxşı eşit, gör nə deyirəm.

N ə b i

Qulağım sizdədir.

N a ç a l n i k

Düşünüb hərdən
Deyirəm, doğrudan heyf Nəbidən.
Sənə lap ürəkdən acıyıram mən.
Bilirsənmi nə var?

N ə b i

Bilmirəm hələ.

N a ç a l n i k

Nəbi, gəl mənimlə danışma belə.
Adına bağlıdır bütün üsyanlar,
Yazıqsan, cavansan, gələcəyin var.
Əgər belə getsə, məhv olarsan sən.
Nəbi, gəl bu daşı tök ətəyindən!
Söndür qəzəbini, bəylərlə barış,
Sənə qulluq verək, bizlərə qarış.
Yerə salmayasan sözümü gərək...

N ə b i

Satılmaz ellərçün döyünən ürək!

N a ç a l n i k

Satılmaz... Satılmaz... Sözünə bir bax!
Qana boyanmışdır bütün Qarabağ.
Üsyan qaldırsa da beş-altı mujik,
Yenə də Qafqazın ağası bizik!
Nəbi, arxalanma bu qədər elə!

N ə b i

Kimə arxalanım, naçalnik, söylə?

N a ç a l n i k

Bizə, ancaq bizə, bizdədir qüvvət,
Qoşulsan bizlərə elərik hörmət.
Artar var-dövlətin, artar vəzifən,
Sənə kişi kimi söz verirəm mən.

N ə b i

Sizdə görməmişəm hələ kişilik,
Bağışlayın məni, cənab naçalnik!

S ə l i m b ə y

Polkovnik, mən sizə demişdim bayaq,
Bununla danışmaq nahaqdır, nahaq!

N ə b i

Yaxşı fikirləşin, bəydir adınız,
Quyruq bulamaqdan yorulmadınız?

S ə l i m b ə y

Nəbi, unutma ki, sabınlı kəndir
Çoxdan boğazının həsrətindədir.
Özün öz əlinlə qəbrini qazma!

N ə b i

Mən ölən deyiləm, kefini pozma!

N a ç a l n i k

Bir az açıq danış, nə istəyirsən?

N ə b i

Azadlıq, azadlıq, ancaq azadlıq!

N a ç a l n i k

Səninlə danışmaq artıqdır, artıq.
Qəbirdə görərsən azadlığı sən!

N ə b i

Ellərim görəcək, görməsəm də mən.

N a ç a l n i k

Ellərim, ellərim, ağlın hardadır?
Ellərim deyənlər zindanlardadır!
Nahaq salmayıblar səni zindana.
Padşahı saymayan bu qudurğana
Su, çörək verməyin, ölsün acından,
Sabah asılacaq dar ağacından!

N ə b i

Ölsəm də, oluram buna ümidvar:
Analar minlərcə nəbilər doğar.

P Ə R D Ə

## ONUNCU ŞƏKİL

Sıldırım qayalıqlar. Axşam çağıdır. Ocaqlar tüstülənir.
Həcər bir qaya üstündən uzaqlara baxır.

H ə c ə r

Bunlar harda qaldı?

Ç i m n a z

Darıxma, Həcər,
Nəbi sağ-salamat bir azdan gələr.

H ə c ə r

Nələr çəkdiyimi ürəyim bilir,
Bir gözüm ağlayır, bir gözüm-gülür.

Ç i m n a z

Gül iki gözünlə, bir ürəyinlə.

H ə c ə r

*(Gülür.)*

Qoy sən deyən olsun.

Ç i m n a z

Bax belə, belə...

H ə c ə r

Çimnaz danışanda gülür ürəyim.

Q ı z l a r d a n b i r i

Vallah, göz dəyməsin, yamanca qızsan.

Ç i m n a z

Qızlar, gəlin sizə bir mahni deyim.

Q ı z l a r

De gəlsin, de gəlsin.

Ç i m n a z

Dinməyin bir an.

*(Oxuyur.)*

İlk bahardan gözəl gülər
Qarabağın gözəlləri.
Yolçuları yoldan elər
Qarabağın gözəlləri.
Bal gəzdirər dodağında,
Mahnı deyər yaz çağında,
Çiçəklərin qucağında
Qarabağın gözəlləri.
Sevdiyinə sərin olmaz,
Dərdi, qəmi gözə almaz,
Kişiərdən geri qalmaz
Qarabağın gözəlləri.

T a p d ı q

*(Papağını ata-ata gəlir.)*

Həcər, gözün aydın, Nəbigil gəlir.

H ə c ə r

Şad xəbər olasan.

Ç i m n a z

Dərəyə bax bir.

H ə c ə r

Qızıl samovarlı, qızıl tavalı,
Naçalniklə, pristavla davalı,
Deyin, çalğıçılar vursun qavalı,
Qoy sənə desinlər, ay nadan Nəbi,
Divanı yerindən oynadan Nəbi!

Nəbi, Mehdi, Vasili və başqa qaçaqlar çalğı müşayiətilə gəliriər.

H ə c ə r

Xoş gördük, a Nəbi!

T a p d ı q

Xoş gördük səni.

N ə b i

Dostlarım doğrudan sevirmiş məni.

Q ə h r ə m a n

Deyəsən Nəbiyə düşüb qazamat,
Maşallah, kökəlib.

N ə b i

Sizə zarafat
Gəlməsin qapqara, daş kimi çörək.

V ə l i

Niyə gecikdiniz? Danışın görək.

N ə b i

Qoy Mehdi danışsın.

M e h d i

Mən niyə, balam?

V ə l i

Nəbi, danışmasan vallah, partlaram.

N ə b i

Elə ki, ayrıldıq biz qazamatdan,
Gördüm qan-tər axır sel tək Boz atdan.
Çapdı dalımızca atı qazaqlar,
"Qoyma, vur" səsindən titrədi dağlar.
Çıxıb hər tərəfdən göbələk kimi
Düşmənlər hürürdü qart köpək kimi.

V ə l i

Sonra? Sonra?

Q ə h r ə m a n

Sakit, dinməyin görək!

N ə b i

Dedim, bir qurban da verməyək gərək,
Baxdım ki, Boz atı dörd nala çapsam,
Onların əlindən mən nicat tapsam
Hər şey dəyişəcək bir an içində,
Üzəcək dostlarım al-qan içində.

Dəhşətli, qorxulu vuruşmalarda
Kişi, öz dostunu qoyarmı darda?!
Qıy vurdum, ay uşaq, tez yerə yatın!
Atın deyən kimi hamınız atın!
Qap-qatı bir duman basmişdı yolu,
Yağılar hasar tək kəsmişdi yolu.
Polad sinəmizi verib qabağa,
Cumduq gözümüzdən od yağa-yağa.
Saldıq pərən-pərən qudurğanları,
Sıçradı dörd yana qara qanları.
Qopduqca bədəndən düşmənin başı,
Çatıldı heyrətdən göylərin qaşı.
Bu vuruş, doğrudan böyük sınaqdı,
Hər yandan dolu tək güllələr yağdı.
Hər atəş açdıqca dostlarımla mən
Ayaqlar üzüldü üzəngilərdən.
Bulaşdı al qana çiçəklər, otlar,
Tük saldı qartallar, kişnədi atlar.
Atışma qızışdı, qopdu qıyamət!
Yerləri, göyləri bürüdü dəhşət!
Göz-gözü görmürdü, hər yan çən, duman,
Saysız yaralardan fışqırırdı qan.
At kişnəməsindən, güllə səsindən,
Qızmış aslanların hər nərəsindən
Sarsıldı qayalar, diksindi dağlar,
Qırıla-qırıla qaçdı qazaqlar.
Bu qoca aynalı gəlməsin gözə,
Çoxunu göndərdi gedər-gəlməzə.

M e h d i

Vuruş meydanında qana-qan dedim,
Basılmaz ömründə qəhrəman dedim.
Beş atlı üstümə yeridi yandan,
Ancaq baş tutmadı düşmənin fəndi.
Nəbi köməyimə yetişən zaman
Elə bil yerindən bir dağ tərpəndi!

Q ə h r ə m a n

Var olsun, var olsun qəhrəman Nəbi!
Mİn illər yaşasın mehriban Nəbi!

N ə b i

Qarışdı tərimə Boz atın təri...
Elliklə düşməni oturtduq geri,
Çaparaq atları, qovuşduq sizə.

V ə l i

Nəbinin dostları gəlməsin gözə!

N ə b i

Hər igid yadında saxlasın gərək,
Köksüz bir ağacı tez yıxar külək!
Gəlin ürəklərdən bir səngər quraq,
Sönməsin ellərçün yanan o çıraq!

M ü r s ə l

Bir canım var, o da qurbandır elə!
Yaşımdan şikayət etmirəm hələ.

Q ə h r ə m a n

Yaxşı, Mürsəl dayı, ay cavan oğlan,
Bəs hanı Nəbiyə qoşduğun dastan?

V ə l i

Lap yerinə düşdü, danış Nəbidən.

M ü r s ə l

Ondan yüz il desəm yorulmaram mən.

*(Saz çalıb oxuyur.)*

Nəbi qatıb qabağına, qovdu qorxaq dovşan kimi
Səlim bəyi, məlim bəyi, naçalniki, maçalniki.
Bir barmaqla Mahmud bəyin dartıb cirdı cəhəngini,
Pristavlar tökdü yerə tüfəngini, müfəngini.

*(Nəbiyə)*

Nəbi can, necədir? Döşünə yatdı?

Q ə h r ə m a n

Vallah, cır səsindən qulağım batdı.

M e h d i

Qoy indi aşıqlar, oxusun bir az.

M ü r s ə l

Ellərin büsatı aşıqsız olmaz.

A ş ı q

Nəbinin bığları eşmə-eşmədir,
Papağı güllədən deşmə-deşmədir.
Nəbinin attnı bir at keçmədi.
Deyirlər, qandalı açıbdır Nəbi,
Minib Boz atına qaçıbdır Nəbi.

Hamı aşıqları alqışlayır. Nəbi onlara pul verir.

T a p d ı q

*(Diqqətlə baxır.)*

Bu gələn kim ola? Baxın, uşaqlar...

V ə l i

Tək başına gəlir, burda bir iş var.

V a s i l i

Elçiyə oxşayır.

T a p d ı q

Düzdür, tapmısan.

Q ə h r ə m a n

Qoy vurum, öldürüm.

N ə b i

Tələsmə, dayan.

K o x a

Mənə tapşırmışdır bu işi divan,
Bəylər nə deyibsə deyirəm mən də.

M ü r s ə l

Sən bunu görərsən bilirsən haçan?
Dəvənin quyruğu yerə dəyəndə!

K o x a

Təslim etməsəniz Nəbini, bilin,
Üzü gülməyəcək ömürlük elin.
Davasız, şavasiz versəniz elə
Dərdiniz, qəminiz qalmaz bir gilə.
Kəndə dönərsiniz adınız təmiz,
Qulluq alarsınız, dirçələrsiniz.

V ə l i

Bizi nə bilmisən? Alçağın biri!

Q ə h r ə m a n

Namərdəm mən səni buraxsam diri.

*(Koxanı vurmaq istəyir, ona mane olurlar.)*

M ü r s ə l

Nəbi can, mən ölüm, sən dinmə görək,
Bunun cavabını özümüz verək.

N ə b i

Mən bir söz demirəm, özünüz bilin.

*(Kənara çəkilib dostlarının hərəkətinə diqqət yetirir.)*

M ü r s ə l

A koxa, nə yaman uzunmuş dilin...

K o x a

Məni ləngitməyin, nə oldu cavab?

M ü r s ə l

Bir az səbrini bas, mirzə qozqurab.

K o x a

Cavabı bu qədər uzatmaq olmaz!

M ü r s ə l

Qorxma, ağaların cavabsız qalmaz.

*(Düşünür və əlini belindəki qayçıya atır.)*

K o x a

Siz cavab axtarın, mən də əyləşim,
Bir əməlli-başlı bığımı eşim.

M e h d i

Buyur, burda əyləş, a koxa ləloş.

*(Onu bir daş üstündə oturdur.)*

Mürsəl, gəl, koxanın bığlarını eş!

M ü r s ə l

Görüm ki, canını dərd, azar alsın,
Süpürgə bığların soxaya qalsın.

*(Koxanın bığlarını kəsib ovcuna basır.)*

Canın rahat oldu? Bax, cavab budur,
Al, bu da bir cavab, şıllaq atma, dur!

K o x a

Gec-tez alaçaqlar bu heyfi sizdən.

V ə l i

Bir anbar salam de bəyiərə bizdən.
De ki, aldanmadı sözə qaçaqlar,
Onlar yuvanıza od vuracaqlar.

K o x a

Baş üstə...

Koxanı dolayaraq yola salırlar.

N ə b i

Sağ olun, qəhrəmansınız.

T a p d ı q

*(Yüyürərək gəlir.)*

Nəbi...

N ə b i

Nə xəbər?

T a p d ı q

Odur üç nəfər
Dırmanır dağa.

N ə b i

Mehdican, yoxla.
Gör kimdir gələn.

M e h d i

Öyrənərəm mən.

*(Gedir.)*

N ə b i

*(Qaçaqlara)*

Qardaşlar, aldığım xəbərə görə,
Üç naçalnik çıxıb bu gün səfərə.
Min atlı göndərib dağlara sarı
Tiflisin general qubernatoru.

V a s i l i

Qaçaqlar çörəyi burnuna yemir,
Buyurub gəlsinlər, dənlərik bir-bir.

Bu zaman Alı kişi iki kəndli ilə pərişan halda gəlir.

N ə b i

Ata... Nə üz verib?

A l ı

Qurbanın olum,
Sən dözə bilməzsən bu dərdə, oğlum!
Dərdim var sinəmdə uca dağ kimi,
Yenə dayanmışam qoca dağ kimi.

N ə b i

Söylə...

A l ı

Kəndimizi tutdular topa,
Başını itirdi bütün el-oba.
Dedilər, Nəbini tez verin bizə!

Əgər verməsəniz qan çıxar dizə.
Gərək görəydiniz namussuzları,
Saçından sürüyüb bizim qızları
Aparıb, getdilər qənimət deyə,
Haqqı tapdadılar həqiqət deyə.
Ucaldı göylərə oddan ləpələr,
Yandı beşiklərdə dilsiz körpələr.
Allahı köməyə çağırdıq, Allah
Bizi eşitmədi, dilim gəlmir, ah...

N ə b i

Bəs anam?

A l ı

Soruşma.

N ə b i

Ne dedin? Necə?

A l ı

Bütün varlıq dönür gözümdə heçə

N ə b i

Vuruldu qəlbimə yeni bir yara.
Dünya gözlərimə görünür qara,
Nələr eşidirəm...

A l ı

Pərvərdigara!..
Məni öldürəcək bu ağır yara.

N ə b i

Qıydılar canına, ana, can ana!
Qardaşlar, siz deyin, kim dözər buna?!

M e h d i

Ana, yazıq ana, bağışla məni,
Qoruya bilmədim yağıdan səni.
Yanında olsaydım dönüb aslana
Sənin cəlladını boyardım qana.

N ə b i

Ana dərdi, vətən dərdi, el dərdi
Yaralı bağrımı qana döndərdi.

A l ı

Gəl, basım bağrıma, balacan, səni,
Xilaskar doğubdur bu dövran səni.
Çox bəlalar çəkdin cavan yaşında,
Əlin titrəməsin haqq savaşında!

H ə c ə r

Nəbican, başını dağ kimi dik tut.
Gözünün yaşını kininlə qurut!

N ə b i

Ana, and içirəm ruhuna bir də,
Mən sənin qanını qoymaram yerdə!

İşıq sönür və yanır. Hamı yatmış. Nəbi sıldırım qayanın başmda dayanıb ətrafı seyrə dalmışdır. Həcər ağır addımlarla gəlir. Nəbi xəyal aləmindən ayılır.

H ə c ə r

Nəbi, yatmamısan?

N ə b i

Bu vaxtda yatmaq!
Kim bilir, sabaha kim sağ çıxacaq,
Başımız üstündə tutmuşdur qərar
Yenə qan-qan deyən qara buludlar.
Onu yox etməsək qan bahasına
Bir xitam verilməz elin yasına.

H ə c ə r

Yox, boyun əymərik versək də qurban!
İgid üstünlüyü qazanmır asan.

N ə b i

Hər qurban verdikcə alışır sinəm,
Dolanır başıma bütün bu aləm.

H ə c ə r

Nəbi, qadan alım, bu sınaq günü
Qara fikirlərlə yorma özünü.

N ə b i

Düşünüb bayaqdan tökmüşəm tədbir,
Gərək sinə gərək düşmənə əlbir!
Azadlıq yolunda şərəfdir gerçək
Min dəfə dirilib, min dəfə ölmək!

H ə c ə r

Gəl basım bağrıma, Nəbican, səni,
Təzədən dünyaya gətirdin məni.
Gəl, bir qədər dincəl.

N ə b i

Yox, Həcərciyim,
Ömrümün bəzəyi, gülüm, çiçəyim...
Baxtımın ulduzu, ellər gözəli,
Bir ağ gün görmədin mənə gələli.
Nə gərdənlik taxdın, nə üzük taxdın,
Min kərə ölümün gözünə baxdın.
Ellərin yasında bağlayıb qara,
Özünü vətənçin atdın odlara.
Ulduzlar şahiddir, demirəm yalan,
Gözümsən, özümsən, can sirdaşımsan.
Yenə bardaş qurub ürəyimdə qəm,
Mən sənin yanında xəcalətliyəm.

H ə c ə r

Nəbi, nə deyirsən? Ağıllı danış!
Məgər ürəyimlə deyilsən tanış?
Çıxmışam bu yola öz xoşumla mən,
Durmuşam yanaşı sirdaşımla mən.
Gəl qara günləri gətirmə yada.
Bu ucsuz, bucaqsız dərdli dünyada
Ağlayaraq birgə, gülərik birgə.
Yaşayarıq birgə, ölərik birgə...

N ə b i

Elədir, gözəlim, canım, ciyərim,
Ürəyi qar kimi ləkəsiz pərim.
Seyr edib vətəni, deyirəm artıq
Günəşli günlərin qarşısındayıq!

V a s i l i

(*Tələsik gəlir.*)

Nəbi, Nəbi!

N ə b i

Nəvar?

V a s i l i

Gəldim xəbəro.
Qaynayır qazantək yeno dağ, dərə,
Yolların üstünü alıb tozanaq,
Çapır üstiimüzə bir sürü qazaq,

Qəhrəman

(Gəlir.)

A Nobİ, qazaqlar yaxınlaşdılar,
Sel kimi, yei kimi dağı aşdılar.

Nəbi

Eşidin əmrimi, yatın səngorə,
Gülləni atmaytn boş, nahaq yerə!

Voli

Düşmən üç tərəfdən eləyir hücum.

Nobi

Həcəritn, yubanma, sol səngərə cum!
Sonə tapşınbr, Vəli, sağ tərof,
Dostlar, haraınıza bəüidir hədəf.
Əwəl başçıları alın nişana,
Döndərin onlarıı bağrını qana!

Mehdi

İgidlər, irəli dalımca gəlin!
Yağmın bağnnı xəlbir tək dəlin!

Atışma başlanır. Mehdi vurulur.

Aman, Nəbi, ata...

Alı

*(Onun başını dizi üstə alır.)*

Kim vurdu səni?

M e h d i

Anamın yanında basdırın məni.

A l ı

Ey fələk, gülmədim sayəndə bir an,
Qubarım dağlardan böyükdür mənim.
Dərdimin üstünə dərd qoydu zaman,
Belimi sındıran bu yükdür mənim!

N ə b i

*(Siyirməqılınc özünü qardaşının üstünə atır.)*

Qırıldı Nəbinin qolu, qanadı,
Aman, ürəyimin başı qanadı.
Sən ki, qartalıydın bizim dağların,
Nə üçün yumuldu göz qapaqların?!

V a s i l i

Düşmən zor söstərir dörd bir tərəfdən...

N ə b i

Gəlirəm, gəlirəm, ölməmişəm mən!

P Ə R D Ə

## ON BİRİNCİ ŞƏKİL

Dağlarda düşmən qərargahı. Polkovnik Slavçinski, Səlim bəy,
Mahmud bəy, Koxa və qeyriləri. Ətrafda vuruşma gedir.

M a h m u d b ə y

Yaman zor göstərir qaçaqlar yenə,
Qurbanlar istəyir bu dağlar yenə.

N a ç a l n i k

Gəl mənə bu qədər tökmə dil, ağız,
Bir ovuc mujiklə bacarmırsınız!
Yox, belə bilməzdim Mahmud bəy səni,
Yetər, çıxartmayın özümdən məni!

M a h m u d b ə y

Doğru sözə, nə söz, güclüdür düşmən,
Polkovnik, başımı itirmişəm mən.
Doğrusu, halımız yamandır, yaman.

N a ç a l n i k

Səndən gözləməzdim, sözündən utan!
Mahmud bəy, özünə ürək ver, ürək!..

M a h m u d b ə y

Vallah, məhv olarıq gəlməsə kömək.

N a ç a l n i k

Mahmud bəy, nə kömək? İgidlərə bax!
Bəylərə batarmı yüz motalpapaq?
Bu haqda bir qədər düşünün dərin,
Kəsin qabağını o asilərin
Dəmirdən, poladdan bir hasar kimi,
Bəli, bu sıldırm qayalar kimi!

S ə l i m  b ə y

(Gəlir.)

Polkovnik, nə edək?

N a ç a l n i k

Nə olub məgər?

S ə l i m  b ə y

Getdi əlimizdən on qabaq səngər,
Elə bil hamısı dəlidir, dəli...
Qırıla-qırıla cumur irəli.

N a ç a l n i k

Qorxmayın, vuruşun, vallahi sizdən
Birbaş Peterburqa yazacağam mən.

Qazaq təngənəfəs gəlir.

Qara xəbərləmi gəlmisən sən də?

Q a z a q

Qaçaqlar girdilər yuxarı kəndə.

N a ç a l n i k

Sus, itin balası, itil, sərsəri,
Tez olun, onları oturdun geri!

Qazaq gedir.

M a h m u d  b ə y

Vəziyyət ağırdır, polkovnik, düşün,
Bəs nə vaxt gələcək Tiflisdən qoşun?

N a ç a l n i k

Bu qoşun söhbəti əbəs deyilmi?
Mən özüm burdayam, bu, bəs deyilmi?

M a h m u d b ə y

Bu doğrudur, lakin...

N a ç a l n i k

Yeri deyil, sus!..

S ə l i m b ə y

O gün beş yüz atlı boyun oldunuz,
Bu günsə davanın qızğın çağında
Dodaq büzürsünüz kömək haqqında.
Biz sizə güvənib girdik savaşa,
Qorxuram, arzumuz yetməsin başa.

N a ç a l n i k

Kömək, kömək, kömək... Sözünə bir bax!
Bu haqda danışmaq nahaqdır, nahaq.
Onlardan on dəfə çoxsunuz ki siz,
Nə cürətiniz var, nə qeyrətiniz!
Ağalar, inanın, budur həqiqət,
Udar bu davanı hünər, cəsarət!

S ə l i m b ə y

Mahmud bəy, yubanma, sənədir ümid,
Yanınca götürüb bir dəstə igid
Tez dələduzların ver cəzasını.
Yerlə yeksan elə, yurd-yuvasını!

M a h m u d  b ə y

Divan tutacağam o azğın kəndə,
Rəhmim gəlməyəcək körpələrə də.
İnanın, onlara qan uddurmasam,
Böyükdən kiçiyə tamam qırmasam,
Alt-üst eləməsəm yuvalarını,
Külə döndərməsəm obalarını,
Mahmud bəy deyiləm, inanın mənə!

N a ç a l n i k

Afərin, Mahmud bəy, afərin sənə!
Mahmud bəy gedir.

K o x a

Məni də yerimdən dəbərdir qisas,
Gedək, özümüzçün atışaq bir az.

*(Gedir.)*

I I  Q a z a q

*(Gəlir)*

Düşmən səngərindən qoca bir qaçaq
Bizim qazaqları səslədi rusca.
Keçdi o tərəfə iyirmi qazaq,
Polkovnik, şübhəsiz rusdur o qoca.

N a ç a l n i k

Ya ölü, ya diri, keçırin ələ.
Başına min manat qiymət qoyuram.

Qazaq gedir.

S ə l i m  b ə y

Naçalnik, ora bax, çevrilib yelə
Qazaqlar geriyə çəkilir tamam.
Əgər bu təpə də gedərsə əldən
Yaxa qurtarmarıq əsla əcəldən.

Polkovnik durbinlə döyüşü seyr edir. O həyəcan və təlaş içindədir.

N a ç a l n i k

Dostum, qoy sənin tək vuruşsun hamı,
Əldən buraxmayın bu istehkamı!
Artıq aydın oldu vəziyyət mənə,
Kömək çatdıraram tezliklə sənə.

*(İki qazaqla aradan çıxır.)*

S ə l i m  b ə y

Get, get! İt canıyımş Səlimin canı,
Vaz at dovşan kimi, dil pəhləvanı!

K o x a

*(Vahiməylə gəlir.)*

Evimiz yıxıldı, atamız yandı,
Səlim bəy, gəl qaçaq, tez ol, amandı!

S ə l i m  b ə y

Nə dedin?

K o x a

Gəl qaçaq.

S ə l i m  b ə y

Anqırma, heyvan!

K o x a

Ayrı çarə yoxdur, sözümə inan.
Nəbi dəstəsiylə cumur yel kimi,
Gəlir üstümüzə daşqın sel kimi.

S ə l i m  b ə y

Gör kimə vermişəm süfrəmdə çörək,
Gör kimdən ummuşam özümə kömək,
Gör kimə inanıb, bel bağlamışam,
Gör kimi qapımda it saxlamışam.

K o x a

Səlim bəy... gəlirlər... Mən qaçdım.

S ə l i m  b ə y

Dayan!..
Alçaq, al payını!..

*(Vurur.)*

K o x a

Olürəm, aman...

Səlim bəy qaya dibində atəş açır, Nəbi yüngül yaralanır. Nəbi də atır. Səlim bəyin gülləsi qurtamışdır. Tapançanı Nəbiyə tərəf tuşlayır və başını qurtarmağa can atır.

N ə b i

(Ətrafa səslənir.)

Həcərim, sağa cum, qurbanın olum.

(Qaçaqlara)

Başınıza dönüm irəli, hücum!..

Səlim bəyin hər yandan yolu kasildiyindən qayaların dibində geri çəkilərkən Nəbi ilə üzbəüz olur.

N ə b i

Aha, xoş görmüşük Səlim bəy səni,
Niyə öldürmədin vaxtında məni?

(İstehza ilə)

Artıq əlimdəsən, bir an içində
İndi üzəcəksən al qan içində.

S ə l i m b ə y

İgid qan-qan deməz gələndə üstün,
Nəbi, söz verirəm kişi tək bu gün,
Bir də əl qaldırsam mən sənə...

N ə b i

Gecdir.
Hesabı çürüdək, bu, sən görüşdür.

S ə l i m b ə y

Nəbi, bir fikirləş, səni görərəm,
Ağırlığın qədər qızıl verərəm.

N ə b i

Yum murdar ağzını, buna bax, buna!

S ə l i m  b ə y

Batırma əlini nahaqdan qana.
Sənə neyləmişəm?

N ə b i

(İstehza ilə)

Heç bir şey... Qorxaq!
Yanır bütün aləm, ətrafına bax.
Mənəm, mənəm deyib söz başında sən,
Boğdun yoxsulları göz yaşında sən.
Nə dövlətdən doydun, nə qandan doydun,
Dərdli anaların canına qıydın.
Çevirdin zindana vətən mülkünü,
Boyadın al qana vətən mülkünü.
Mən ellər adından almasam qisas
Nakam ölənlərin ruhu şad olmaz!

Səlim bəy lapdan xəncərə əl atmaq istərkən Nəbi onu vurur. Qaçaqlar səhnəyə doluşur.

A l ı

Bu dərdli torpağın çörəyi sənə
Halal olsun, bala!

H ə c ə r

*(Gəlir.)*

Düşməndən yenə
Xeyli əsir aldıq.

*(Onu bağrına basır.)*

A l ı

Qəhrəman qızım,
Gəl, öpüm alnından, mehriban qızım!

V a s i l i

Heyif ki, polkovnik çıxdı aradan,
Onu parça-parça elərdim, inan.

Mürsəl tüfənginin başına Koxanın papağını keçirib
oynaya-oynaya gəlir.

V ə l i

Söylə, Mürsəl kişi, bu nə oyundur?
Kimin papağıdır bu papaq

M ü r s ə l

Gen dur!
Əclaflıq, məclaflıq çanağıdır bu,
Gorbagor Koxanın papağıdır bu!

*(Papağı yerə çırpıb təpikləyir.)*

N ə b i

Qaçaqlar, qəhrəmanlar, düşmən basıldı, ancaq,
Dava qurtarmamışdır, unutmasın hər qaçaq.
Dostlarım, arxayınlıq osla yaraşmaz bizə,
Düşmən qüvvə toplayıb gələcək üstümüzə.
Ən dəhşətli, ən ağır döyüşlər qabaqdadır!
Ağ günümüz, baxtımız bu ana torpaqdadır!

"Koroğlunun dəliləri" mahnısı altında qaçaqlar hərəkət edirlər.

A l ı

Get, oğlum, get, mənim dağlar qartalım,
Vuruş aslan kimi, qadanı alım.
Get, sənə desinlər, ay Qaçaq Nəbi!
Dostları özündən ay qoçaq Nəbi!

P Ə R D Ə

## D U R N A

*Uç pərdəli musiqili komediya*

İŞTİRAK EDƏNLƏR

M u r a d - briqadir (aşıq)
D u r n a - kolxozçu (briqadir)
K ə r i m d a y ı - Durnanın atası
N i s ə - Durnanın anası
Q ə m ə r - kolxozçu
H i l a l - kolxozçu
D u r s u n - kolxozçu (tənbəl)
N ə c ə f - Dursunun atası
Ş ə r ə f - Dursunun anası
L a l ə - kolxozçu
K o l x o z ç u l a r

## BİRİNCİ PƏRDƏ

Dağ ətəyi. Çay kolluqları görünür. Bir ağac altında çayxana. Bir tərəfdə qapan var. Qızlar səbətlərdə çay yarpaqları gətirib təhvil verirlər. Durna gəlir. Uzaqdan gələn aşıq Muradın səsinə qulaq asır.

D u r n a. Odur... O çaldıqca ürəyim yerindən oynayır. Elə bil bu dağlar, bu çəmənlər, güllər, çiçəklər mənim ürəyimlə birgə gülür. *(Oxuyur.)*

Yar çalır, qəlbimin teli oynayır,
Hər teldə aşığın əli oynayır.
Baharın çiçəyi, gülü oynayır,
Çal aşıq, sənin o, sazına qurban,
Gəl cavan ömrünün yazına qurban.

Hər tərəf, lalədir, tər bənövşədir,
Toxunma qırılar, qəlbim şüşədir.
Yara qurban demək yara peşədir,
Gəl cavan ömrümün yazına qurban.

Aha oğlanlar, qızlar onu dövrəyə alıblar. *(Baxdığı tərəfə gedir. Lalə gəlir.)*

L a l ə

Adım Lalə, özüm lalə,
Sənə vardır, sözüm lalə
Gözəllikdə tayım hanı
Bir bəladır gözüm, lalə.

Qərib gəzib yer axtarar,
Yaman adam şər axtarar!
Mənim kimi ağıllı qız
Ozünə tay ər axtarar.

Vay, yoruldum a... Bu haramzadə görəsən hansı cəhənnəmdə qaldı?! Hey deyir sevirəm səni, amma heç toydan-filandan sohbət salmır. Bu gün-sabah toy eləməsə üzümün həyasını töküb zorla gedib girəcəyəm xarabalarına. *(Əlindəki aynaya baxıb saçlarını düzəldərkən orda Dursunun əksini görür.)* Aha, yaxşı əlimə düşmüsən. *(Dursun qaçmaq istəyir.)* Dayan, hara qaçırsan, ay birinci haramzadə!

D u r s u n. Ora...

L a l ə. Hara?

D u r s u n. Nahara... *(Əyilir.)* Hörmət və ehtiram.

L a l ə. Qarnına şiş batsın elə! Tez ol, gəl otur yanımda, yoxsa...

D u r s u n *(kənara)*. İşə düşmədik? Dilim-dilim olasan, dilim! *(Gəlib Lalənin yanında oturur, dinmirlər.)*

L a l ə. Dillənsənə... Lal deyilsən ki... Ayrı vaxtda mininə eşqnamə oxuyursan.

D u r s u n (uzanır). Vay nə ləzzət eləyir.

L a l ə. Utanmaz! Adam da sevgilisinin yanında tir çəkib uzanar, qalx ayağa!

D u r s u n. Mən ölüm, nəşəmi pozma. Ləzzət çəkirəm özümçün. Qoy bir az yaşayaq da.

L a l ə. Mən istəmirəm ki, adın həmişə pisliyə çəkilsin, sənə tənbəl Dursun desinlər.

D u r s u n. Atan oldu rəhmətlik! Məni sənin tənbəlliyin basıb ey...

L a l ə. Boş-boş danışma. Yaxşı, sabah toyumuzdan sonra da belə işləsən, onda necə dolanacağıq, necə?

D u r s u n. Ay, hay danışdı da... Atama, anama nə gəlib, ay qız, nəinki mən və sən, nəvə-nəticələrimiz də işləməsə dədəm Nəcəfin, nənəm Şərəfin onları saxlamağa gücü çatar.

L a l ə. Danışdı da... Odur, bax gör Muradın briqadası nələr eləyir.

D u r s u n. Əlbəttə! Mənim də briqadamda Durna kimi gözəl-göyçək bir qız olsaydı, bax bu qadasın aldığım Talış dağlarını saman çöpü kimi qaldırıb qoyardım, o Qarabağ dağlarının kəlləsinə.

L a l ə. Olmaz ki, qoyasan öz kəllənə, bəlkə ağlın başına gələ?

D u r s u n. Ay qız, mən ancaq gözəllik barədə deyirdim ey...

L a l ə. Necə? Yəni demək istəyirsən ki, mən kifirəm?

D u r s u n *(qorxur)*. Yox ay qız, sənin gözəlliyinə şübhə eləyən hanı? *(Kənara)* Dilim-dilim olasan dilim!

L a l ə. Heç bilirsən Kərim dayı səndən necə gileylənir.

D u r s u n. Nə deyir axı?

L a l ə. Deyir ki, mənim briqadam Dursun kimilərin ucundan belə geriləyir.

D u r s u n. Qoy o getsin öz qızı Durnanın dərdinə qalsın ki, Muradın briqadasına qoşulub bir-birinə eşqnamə oxuyurlar.

L a l ə. Sənə nə?!

D u r s u n. Əlbəttə, mənə nə, əlbəttə, bizə nə. Amma o gün atamgil Durnanı yaman tərifləyirdilər. Səndən söz düşəndə dodaq büzdülər...

L a l ə *(acıqlı)*. Necə? Yaxşı, yaxşı, toy gecəmizdən sonra onlara divan tutmaq mənə borc olsun.

D u r s u n *(kənara)*. Dilim-dilim olasan dilim. *(Laləyə)* Özündən çıxma, zarafat eləyirəm ey. Yaxşı, ey mənim biriminci məhəbbətim, daha nə sözün var?

L a I ə. Sözüm odur ki, iki günə kimi məni apar xarabanıza.

D u r s u n. Danışdı da... Ay qız, bilmirsən ki, vur-tut bircə otağımız var. Görmürsən dədəm, nənəm, mənimçün xüsusi imarət tikdirir. Qoy xarabanı tikib qurtarsınlar, sonra.

L a l ə. Bir otaq olanda nə olar ki... Qocalar hələlik mətbəxdə yatsalar qiyamət qopmaz ki...

D u r s u n. Qorxuram axırda deyəsən ki, həyətdə yatsınlar. Sözünü bil, danış. Bir az da gözlə, vəssalam. Hörmət və ehtiram.

L a l ə *(pərt)*. Daha mən yazıq evə gedə bilməyəcəyəm.

D u r s u n. Niyə, yolu tanımırsan?

L a l ə. Analığım deyir ki, Dursundan da bir şey çıxmasa səni evden qovacağam.

D u r s u n. Qələt eləyir. İxtiyarı yoxdur.

L a l ə. Burabax, sözünü bil, danış!

D u r s u n. Yox ey, deyirəm ki, çox oyan-buyan eləsə verərsən, padsud.

L a l ə. Danışdığından belə çıxır ki, sən məni sevmirsən.

D u r s u n. Səhvin var. Ay qız, bütün cümlə-cahan qızları bir yana, sən bir yana. Mən ölüm, bir qulaq as!

Ürəyimi yar qadasın aldığım,
Sənə sözüm var, qadasın aldığım.
Yanaqları nar, qadasın aldığım
Gözəllərin gözəlindən gözəlsən.

L a l ə

Üzümdə var xal, gözünə döndüyüm,
Yoxdur, məndə hal gözünə döndüyüm.
Tez ol, məni al gözünə döndüyüm.
Ürəyimi yar qadasın aldığım,
Sənə sözüm var qadasın aldığım.

L a l ə və D u r s u n *(birlikdə)*

Bu dünyada dərdə salma başını
At bir yana ağlamağın daşını
Ürəyimi yar qadasın aldığım,
Sənə sözüm var qadasın aldığım.

Oxuya-oxuya oynayırlar.

K ə r i m *(Dursunu göstərir).* Buyur, təhvil al!... Buda bizim briqadanın canı. *(Dursuna)* Adə, bu gün niyə işə çıxmamışdın, hə?

D u r s u n. Salam-əleyküm, Kərim dayı! Üzüm ayağının altında, ağ ciyərim ağrıyır. Dərdim böyükdür ey!

K ə r i m. Nə dərd? Səni görüm lənətə gələsən! O Laləni də yoldan eləyən sənsən, sən! Üzümüz el yanında qaradır, qara. Bir vaxt hər yerdə Kərim dayının iş metodu deyə danışardilar. İndi...

D u r s u n. Lal-zad deyilik ki, yenə danışaq da.

K ə r i m. Onda keçici bayrağı biz almışdıq.

D u r s u n. Burda nə çətin iş var ki, yenə alaq da.

K ə r i m. Qəzetlərdə tez-tez şəkillərimiz çıxardı.

D u r s u n. Göndərin, yenə çıxsın da.

K ə r i m. Çərənləmə!.. Səni görüm lənətə gələsən, lənətə. Adə, havaxt adam olacaqsan?!

D u r s u n. Kərim dayı, gərək bu dəfəlik bağışlayasan.

K ə r i m. Bağışlayasan, bağışlayasan. Tənbəlliyi, avaralığı da adama bağışlarlar. Mənim bir səhvim də odur ki, atan Nəcəfin sözünə qulaq asıb, səni bu vaxta kimi briqadamızda saxlamışam.

D u r s u n. Kərim dayı, mənim də ən böyük səhvim odur ki, zəhmət çəkib bu dünyaya gəlmişəm. Gərək gəlməyəydim.

K ə r i m *(gülür).* Ətin tökülsün elə. Nə vaxt adam olacaqsan, adə?

D u r s u n. Lap elə bu dəqiqə! Ancaq bir şərtlə.

K ə r i m. Nə şərtlə?

D u r s u n. Bura zəhmət çək! Qulağını bərk tut. *(Kərimin qulağına nə isə pıçıldayır.)* Özüm ölüm!

K ə r i m. Kəs səsini! O sənin tayındır, axmaq?

D u r s u n. Bəs necə? Deyirsən Muradın tayıdır. Bir qız ki, öz atasının briqadasını qoyub özgə, naməhrəm bir briqadada işləyə... Onda...

K ə r i m *(əsəbı).* Yum ağzını!.. Artıq bizim briqadamızda sənə yer yoxdur. Sabah kolxozçuların iclasında sənin məsələni müzakirə eləyəcəyik.

D u r s u n. Gücün mənə çatır, sən get öz qızını müzakirəyə qoy... Belə Durna sənin də, mənim də adımızı yerə vurur ey...

K ə r i m *(əsəbı).* İtil, gözüm bir də səni görməsin!

D u r s u n. Nə deyirəm ki, hörmət və ehtiram. Ancaq, hünərin varsa bu sözləri get o aşıq Murada de. Gücün mənə çatır.

K ə r i m. İtil dedim sənə!

D u r s u n. İtilək də... *(Gedir.)*

H i l a l. Sen düz deyirsən, Kərim. Bu işi belə qoymaq olmaz.

K ə r i m. Eh!.. Mən Durnaya nə deyim? Hilal, daha buna dözmək olmaz. Bu saat gedib briqadamızın üzvlərinə çatdır ki, axşam kluba yığılsınlar. Onlarla vacib söhbətim olacaq.

H i l a l. Baş üstə!

K ə r i m. Nə olar ki?.. Qoy o aşıq Murad olsun, mən də Kərim. Əsil yarış hələ qabaqdadır. Gedək.

Gedirlər. Qızlar çay yarpaqları gətirib qapanda çəkdirirlər.
Tənffüs zəngi vurulur.

Q ə m ə r. Aha, gördünüz kim kimi keçdi. Baxın görün nə qədər yığmışam. *(Onlara dəftərçəsini göstərir.)*

I Q ı z.Yığmağına bizdə yığmışıq. İşin dalısına baxarıq.

Q ə m ə r. Baxarıq, baxarıq.

Durna gəlir. Qızlar pıçıldaşıb gülüşürlər

D u r n a. Qızlar, nə var, yenə baş-başa veribsiniz? Bilirəm, məndən danışırsınız.

Q ə m ə r. Hardan bilirsən?

D u r n a. Mənim gözlərimin də qulağı var, axı.

Q ə m ə r. Düz tapmısan, Durna, səndən danışırdıq. Qızlar bilmək istəyir, bu xeyir iş, havaxt olacaq?

D u r n a. Hansı iş, nə xeyir iş?

Q ə m ə r. O xeyir iş, biz deyən xeyir iş. *(Saza işarə ilə)* Onu deyirik də.

D u r n a. Qızlar sizi şeytan da aldada bilməz. *(Qəmərə yavaşca).* Mən onu sevirəm, Qəmər!

Q ə m ə r. Onu çoxdan bilirik.

D u r n a *(oxuyur.)*

Eşqim qanadlanır, sənin adınla,
Dəryadan dərindir ala gözlərin.
Döyünən qəlbimi vermişəm sənə
Nədəndir gəlməyir yola gözlərin?
Ala gözlərin, ala gözlərin.
Nədəndir gəlməyir yola gözlərin?

Təbiət özü də vurğundur sənə,
Sənsən o həyatı sevdirən mənə,
Baxıram hüsnünə doymuram yenə.
Az qalır canımı ala gözlərin.

Qızlar son bəndi təkrar edir və oynayırlar.

D u r n a

Məndən gözəlsiniz, qızlar, a qızlar!
Sizə aşiq olan sızlar, ha qızlar!
Gənclər yolunuza səpər çiçəklər
Hər gün əlinizdən öpər çiçəklər.

Bu ana vətəni bəzər adınız,
Günəştək dünyanı gəzər adınız.
Məndən gözölsiniz, qızlar, a qızlar!
Eşqə təməlsiniz, qızlar, a qızlar!

Eh, qızlar görəsən dünyada sevib-sevilməkdən, xoşbəxtlikdən də şirin şey varmı?!

Q ə m ə r. Onu sən yaxşı bilərsən, Durnacan!

D u r n a. Niyə bilmirəm ki?

Q ə m ə r *(gülür).* Onda sağ əlin başımıza... Gedək, qızlar...Deyəsən gələn odur...

D u r n a. Kim?

Q ə m ə r *(saza işarə ilə).* Oda...

D u r n a. Getməyin qızlar.

Q ə m ə r. Dilin getmə deyir, ürəyin get. Ürəyə qulaq asmaq yaxşıdır. Gedək, qızlar!

Gülüşərək gedirlər.

D u r n a. Qızlar, qızlar! *(Ağacın altında oturur Dursun gəlib arxadan onun gözlərini əllərilə tutur.)* Burax, Murad, burax.

D u r s u n *(kənara).* Yenə Murad? Bir dəlı şeytan deyir, əlini çəkmə qoy qiyamətəcən gözləri dünya işığına həsrət qalsın.

D u r n a. Burax, Muradcan, burax!

D u r s u n. Zəhrimar Muradcan, Dursuncan desən ölərsən?!

D u r n a. Burax, Murad, bağrım çatladı.

D u r s u n *(kənara).* Qorxuram əlimi çəkəm, məni görüb yazığın ürəyi gedə.

D u r n a. Daha bəsdir, Murad! *(Silkinib qalxır.)* Bıy Dursun!

D u r s u n. Biriminci eşqimizə and olsun, lap özüməm ki var. Hörmət və ehtiram.

D u r n a. Dursun, tez ol get burdan! Görən olar, yaxşı düşməz.

D u r s u n. Görsünlər də... Mənim nəyim Muraddan əskikdir. Sən Durna, mən Dursun, adlarımız bir-birinə gör necə yaraşır. Durnası, əl çək o boşboğaz aşıqdan. Ondan sənə nə fayda?

D u r n a. Heç olmazsa sən danışma. Öz adını da, atamın adını da yerə vurmusan.

D u r s u n. Çalışaram, bundan sonra göyə vuraram.

D u r n a. Məzələlik eləmə. Atamın briqadasında sənin kimilər olmasaydı, o el içində bədnam olmazdı. Bir bax gör, Murad necə işləyir. İndi hamı ondan danışır.

D u r s u n. Əlbəttə hamı ondan danışar da... Nöşün ki, onunçün ki, ondan ötrü ki, o səbəbə ki, onun briqadasında sənin kimi özü ceyran, yazıq atanın briqadasında isə Lalə kimi üzünü mürdəşir yumuş, şeytan var, şeytan. Murad baxır sənə, şairlər demişkən, ilhamını səndən alıb özünü vurur oda, közə... Atan, mən baxırıq Laləyə, ödümüz ağzımıza gəlir; bayaq atanla birlikdə bir padpolnı iclas eləyib belə qərara gəldik ki, sən gərək Muraddan yerli-dibli əl çəkib keçəsən bizim briqadamıza... Qərar qətidir. Şikayət qəbul edilməyəcək!

D u r n a. Sən allah şit-şit danışıb, ətimizi tökmə! Sənin bu mənasız söz-söhbətin axırda məni el-oba arasında hörmətdən salacaq.

D u r s u n. Hay-hay, tərsinə, hörmətə mindirəcək, ay qız! Nə görmüsən onda? Mətləb sazdadırsa sabahdan bir saz alacağam özümçün. Kökləyib çalacağam səninçin. Kef-damaq eləyəcəyik özümüzçün.
Qaldı ki, qəşənglik barədə, Muradla mənim aramda ancaq bircə təfavüt var. O da ibarət olsun onun bığlarından. Neynək, göz üstə, qaş üstə, baş üstə. Sabahdan hərifin atasını yandırmaqçın keçəcəyəm bığ qoymağa səninçün. Muradın acığına bığımı bir qarış onunkindən uzun eliyəcəyəm özümçün. Dayansın bığımın qabağında görüm necə dayanır. Qaldı planı doldurmaq, işə can yandırmaq məsələsi, onun çarəsi asandır.

Sən bir bürüştə hə de, dönüm səninçün qırğıya, sığırçına, bildirçinə, sağ-sağana, qarğaya.

D u r n a. Sən allah burda ovçu bazarı açma görək!

D u r s u n. Ovçu dedin yadıma düşdü. Üstəlik qəribə ovçuluğum da var ey... Elə bu gün işə çıxmamağımın səbəbi qurd dərəsinə ova getməyimdir.

D u r n a. Qorxmadın ki?

D u r s u n. Dursun hara, qorxdu hara?!

D u r n a. Ova tək getmişdin, yoxsa tulayla?

D u r s u n. Tulanı neyləyirəm. Özümə nə gəlib.

D u r n a. Nə ovladın?

D u r s u n. Çox şey.

D u r n a. Məsələn?

D u r s u n *(kənara).* Dilim-dilim olasan dilim. *(Durnaya)* Mən indi nədən danışırdım?

D u r n a. Ovdan.

D u r s u n. Hə, hə. Ovçuluq hər adamın işi deyil. Ovçuluğun ən vacib şərti odur ki, gərək çənədən möhkəm olasan, özünçün. Başını ağrıdıram, gərək ovçunun dili də tüfəngi kimi güllə ata, zalp ata. *(Samovarın başından dudkeşi götürüb tüfəng kimi oynadıb tuşlayır.)* Müxtəsər, əlimdə, on iki lülə, on beş açılan pulemyot, tfu.. bağışla... Pulemyot yox, tüfəng... Əsə-əsə, əsə-əsə, əsə-əsə.

D u r n a. Daha əsə-əsə niyə?

D u r s u n. Sən imanın mən əsə-əsə dedim, yoxsa tələsə-tələsə...

D u r n a. Yaxşı sonra.

D u r s u n. Mən indi nədən danışırdım?

D u r n a. Ovdan, ovdan.

D u r s u n. Bəli, qurd dərəsində tələsə-tələsə canavar axtarıram, özümçün. Vurub sərirəm yerə səninçin. Bu dəmdə bir mağaranın ağzında nəyə rast gəlsəm yaxşıdır?

D u r n a *(gülərək).* Qırqovula.

D u r s u n. Savadsız danışma!.. Bir sürü canavara. Canın üçün, eləmə tənbəllik, düşdüm bu canavarların canına. *(Meydan sulayır.)* O canavar sənin, bu canavar mənim. Bu canavar sənin, o canavar mənim. O canavar Nisənin, bu canavar Kərimin. Bu canavar Şərəfin, o canavar Nəcəfin. O canavar mənim, *(göyü göstərir)* bu canavar onun...

D u r n a *(gülür).* Gözə gəlmiyəsən belə ovçu!

D u r s u n. Sonsuz təşəkkür.

D u r n a. Sonra...

D u r s u n. Hə? Sonra... Yaxşı, indi mən nədən danışırdım?

D u r n a. Ovdan.

D u r s u n. Elədir... Ovdan...

D u r n a *(kənara)*. Bunu necə başımdan rədd eləyim. *(Dursuna)* A Dursun!

D u r s u n *(sözünü dudkeşlə deyir).* Can Dursun!

D u r n a. Qoy canavarlar bir yanda dursun. İndi ki, belə mahir ovçusan, olmaz ki, mənə bir qəşəng qırqovul ovlayıb gətirəsən!

D u r s u n *(özünü itirir),* Qırqovul? Elə bu dəqiqə?

D u r n a. Elə bu dəqiqə!

D u r s u n *(kənara).* Dilim-dilim olasan dilim. *(Durnaya)* Nə deyirəm ki, elə bu dəqiqə olsun. Məni gözlə ha!.. *(Dudkeşi də özüylə aparır.)*

Bir ovçuyam bu dağlarda,
Adım Dursun, özüm Dursun,
Sevgilimə göz dikəni
Görüm gürzə ilan vursun,
Sağ ol Dursun, var ol Dursun!..

Səhnə arxasından Muradın səsi eşidilir.

M u r a d

Gözəl həyatımın nəfəsi sənsən,
Könlümün arzusu, həvəsi sənsən.

D u r n a

Bu təmiz eşqimin nəfəsi sənsən
Ömrümün mənalı nəğməsi sənsən.

Murad kolxozçularla birlikdə oxuyaraq gəlir.

X o r

Aşıq bir ağız de, açılsın könül
Mahnı dilə gəlsin, saz dilə gəlsin.
Səsinə səs versin sevdalı bülbül,
Bahar dilə gəlsin, yaz dilə gəlsin.

M u r a d. Elə səhərdən sizinçin oxuyuram da.
Q ə m ə r *(Durnaya işarə ilə).* İndi daha yaxşı oxuyarsan.
M u r a d. Ay şeytan... Nə deyirəm ki... *(Oxuyur.)*

Bağlarda əsəndə payız yelləri
Ağaclar saçını yolmasa olmaz.
Cananı ürəkdən, candan sevənin
Gözləri qan-yaşla dolmasa olmaz.
Qəlbim xəbər verir səadətimdən
O xumar gözlərə məhəbbətimdən
Mənim bu sevdalı təbiətimdən
Könüldə nişana qalmasa olmaz.
Yar deyib danışan, gülən hər aşıq
Ürəkdən dərdləri silən hər aşiq,
Eşqin mənasını bilən hər aşiq
Yar yolunda qurban olmasa olmaz.

X o r

Mizrabı tellərə vurduqca aşıq Murad
Var olsun, bu dunya durduqca aşıq Murad.
Könlümüz açıldı gözəl səsindən,
Həyata can gəldi xoş nəfəsindən.
Ayrılmaz ürəyim bahardan, yazdan
Dillənir könüllər çaldığın sazdan.
Könlümüz açıldı gözəl səsindən,
Həyata can gəldi xoş nəfəsindən.

Oxuyub oynadıqdan sonra, kolxozçular dağılışırlar.
Səhnədə Murad və Durna qalır.

M u r a d. Durnacan, məni çoxdanmı gözləyirdin?
D u r n a. Bir az var.
M u r a d. Qoyurlar ki, yol boyu məni ay oxutdular ha...
D u r n a. Eşidirdim!

M u r a d, Durnacan! Mənim sazımı dilləndirən bu xoşbəxt varlıq öz sonsuz gözəlliyilə könülləri oxşayan bu zəngin təbiət və ona əbədi məna verən sənsən, sən! Sevgisiz bir həyatın nə mənası? Durnacan! Mən sənə, vətənə və məni yetişdirən xalqıma qoşduğum mahnıları oxuduqca cavanlar səsimə səs verib bir ağızdan oxuyur, özünü oda, közə vurur. Zəhmətin canı eşqdir, eşq!

D u r n a. Düz deyirsən, Murad! *(Fikrə dalır)* Ancaq, hərdən atamın haqqında fikirləşəndə...

M u r a d. Başa düşürəm... Atan gərək məndən inciməyə.

D u r n a. Səndən yox, məndən inciyib...

M u r a d. Yox, gərək o səndən də inciməyə. Axı hamımız bir əməl uğrunda çalışırıq. Biz onun briqadası ilə yarışırıq. Vaxt vardı, Kərim dayı mahalın ən adlı-sanlı briqadiri sayılırdı. İndi isə o bizdən geridədir. Səbəbi də aydındır. Onun briqadasında möhkəm əmək nizam-intizamı yoxdur. Sən ona de ki, mən onun ən yaxın dostuyam. İstəsə ona kömək eləməyə hazıram.

D u r n a. Ona heç bu sözü demək olar?!

M u r a d. Yaxşı... Onda mən özüm ona deyərəm.

D u r n a. Yox demə... O, bu ağır günlərdə yaman əsəbiləşib... Kənardan da ona bizim barəmizdə qəribə sözlər deyiblər. Kişini yaman özündən çıxarıblar. Qorxuram o bizim bu sevgimizə mane ola.

M u r a d. Olmaz, Durna, olmaz!.. O, ağıllı kişidir. Heç güman eləmirəm ki, atan, bir-birinə qırılmaz tellərlə bağlı iki qəlbin əməllərinə qarşı çıxsın.

D u r n a. Orası doğrudur!

M u r a d. Dediklərimin hamısı doğrudur, hamısı. *(Oxuyur.)*

And olsun baharın çiçəklərinə,
Sən mənim qəlbimin gözüsən, Durna!
Günümsən, ayımsan, səadətimsən,
Bu cavan ömrümün özüsən, Durna!
Dilimin ən şirin sözüsən, Durna!

D u r n a

Bu cavan ömrümün mənası sənsən,
Vuran ürəyimin sevdası sənsən.

Günüm sənsən, ayım sənsən
Günümsən, ayımsan, səadətimsən.
Bu cavan ömrümün özüsən, Murad!
Dilimin ən şirin sözüsən, Murad!

M u r a d

Sən mənimsən, mən səninəm əzəldən,
Çiçək açmış çəmənimsən əzəldən.

D u r n a və M u r a d *(birlikdə)*

Sənsən mənim eşqim, arzum, diləyim,
Ayrılarmı ürəyindən ürəyim!

D u r n a. Aman ürəyim, canım ürəyim!
M u r a d. Günüm sənsən!
D u r n a. Ayım sənsən!
D u r n a və M u r a d *(birlikdə)*

Günümsən, ayımsan, səadətimsən.
Bu cavan ömrümün özüsən, Murad *(Durna)*
Dilimin ən şirin sözüsən, Murad *(Durna)*

D u r n a. Muradcan! Sən bu sözləri hardan tapırsan?

M u r a d. O xəzinənin açarını mənə sənin gözəlliyin, məhəbbətin, azad, xoşbəxt vətənimin cah-cəlalı veribdir. Durnacan, indi mənim könlümdə bircə arzum var.

D u r n a. Nə arzu?

M u r a d. Bu yarışda üstün gəlib dünya xalqlarının ümid ocağı Moskvanı görmək.

Səhnə arxasından Murad və Durnanı səsləyirlər.

M u r a d. Nə var, Qəmər?

Q ə m ə r. Kolxoz sədri deyir ki, briqadasının əmək günü hesabatını tez özüyla gətirsin.

M u r a d. Bu saat!

Q ə m ə r. Durna, sən də gəl... Sənə sözüm var!

D u r n a. Nə deyirəmki...

Gedirlər. Hilal çay dəmləyir. Dursun gəlir. Çiynində tüfəng, Belində patrondaş var. Təpədən dırnağa ovçu paltarındadır. Dudkeş də əlindədir.

D u r s u n *(dudkeşi durbin kimi işlədir).* Hanı bu Hilal dayı?

H i l a l *(dudkeşi ondan alır).* Səhərdən bununçun gəzirdim.

D u r s u n. Amanın günüdür, Hilal dayı!

H i l a l. Nə üz verib?

D u r s u n. Ölmüşəm götür məni yerdən.

H i l a l *(gülür).* Nə olub axı?!.

D u r s u n. Mənə qəşəng yağlı bir qırqovul.

H i l a l. Qırqovulu neyləyirsən?

D u r s u n. Canana söz vermişəm. Mən ölüm, Hilal dayı, meyitimi yerdə qoyma... Mənə qırqovul.

H i l a l. Özümü səninçün qırqovul eləməyəcəyəmki... Buyur mən qırqovul, vur məni!

D u r s u n. Məni aldada bilməzsən. Sən qırqovula yox, tülküyə daha çox oxşayırsan.

H i l a l. İndi ki, belə oldu... Al payını! Buyur, bax odur, qırqovul ağacda... *(Ağacdakı sağsağanı ona nişan verir.)* Tez ol, tüfəngini sazla. Nişan al!

D u r s u n. Alım da. Xoşbəxtlikdən patronların hərəsinə bir kilo barıt doldurmuşam. Dəysə atasını yandıracaq.

H i l a l. Dəyər, inşallah!

D u r s u n. Qayadan, dağdan olsaydı, adam ehtiyat üçün söykənərdi ona.

H i l a l. Qaya, dağ mən... Söykən mənə. *(Özünə Dursuna dayaq eliyir.)*

D u r s u n. Hilal dayı, altı addım geri. Qulaqların batar. Sonra bütün qazandığm gedər dava-dərmana. Atıram. *(Dua oxuyur.)* Bismillah, zabisiraillah və rəhmətullah.

H i l a l. Nə oxuyursan, adə?!

D u r s u n. Qorxu duası. Atdım. *(Bir güllə atır və özündən gedir.)*

H i l a l. Adə Dursun, qalx ayağa. *(Dursunu yoxlayır).* Bu murdar oldu ki... *(Tələsik gedib samovardan stəkan qaynar su alır və Dursuna içirir.)*

D u r s u n. Vay, vay... Yandım ki.

H i l a l. Qışqırıq salma... Get qırqovulunu götür. Halaldır, özün vurmusan.

Dursun yanmış dilini bayıra çıxarmış vəziyyətdə səhnədən çıxır.

H i l a l. Anan ölməsin, belə ovçu!

Dursun ölü sağsağanla gəlir. Oynayaraq oxuyur.

D u r s u n

Birminci sevgim Durna,
Dərdimə həkim Durna,
De ki, adaxlanmışam
Soruşsa hər kim Durna!

*(Durna görünür. Dursun onun qabağında oynayır.)*

Qapında bir qulam qul,
Mərd oğulam, mərd oğul.
Eşqinlə vurmuşam mən
Ən birminci qırqovul.

Durnası, bax, bu qırqovulu birminci eşqimin biriminci gülləsilə vurmuşam.

D u r n a. Bu nədir, dedin?

D u r s u n. Qırqovul, Durna, yox ey Durna qırqovul.

D u r n a. Bu ki alacadır.

D u r s u n. Balacadır?.. Düz deyirsən... Bunların nəsli getdikcə cırlaşır.

D u r n a. Balaca yox alaca...

D u r s u n. Hilal dayı allah şahididir ki, mən qırqovul vurmuşam, qırqovul.

D u r n a. Yenə nə içmisən? *(Ondan kənara çəkilir.)*

D u r s u n. Tut suyu... Ağ ciyərə xeyri var. Vallah bilmirəm, nə görmüsən o aşıq Muradda. Mən isə...

D u r n a. Bu barədə bir kəlmə də... Eşitdinmi?

D u r s u n. Bir kəlmə nədir ki, min kəlmə deyəcəyəm. Bir "hə" de, nəinki araq, yerli-dibli heç su da içməyim.

D u r n a. Eh, içki olan-olmaz ağlını da beynindən yuyub aparıb.

D u r s u n. Durnacan! Bilirəm, o aşıqdır, sənə deməyə cürbəcür bic-bic sözlər tapır. Sən də inanırsan ona. Heç eybi yoxdur. Bu yaxınlarda onun adını adımla, səsini səsimlə batırmasam, lap bambılıyam, bambılı.
O söz aşiqidirsə, mən əsil birminci məhəbbət aşiqiyəm. Eşqimizə and olsun! *(Ayaqlarına düşür.)*

D u r n a. Əl çək. Utanmaz!

Lalə gəlir. Dursun özünü itirir.

L a l ə. Ay birminci bihəya!.. Kimin ayaqlarına düşmüsən, hə?

D u r s u n. Sənə nə? Sən kim, mən kim?!

L a l ə. Necə, necə?

D u r s u n. Ay qız, bərkə qalsa, mən heç səni kökündən tanımıram.

L a l ə. Ah, birminci vicdansız!

D u r n a. Lalə, sən, bu birminci məhəbbətini götürüb aparsan, səndən çox razı qalaram.

L a l ə. Sən razı qalarsan? Heç inana bilmirəm. Muradı göz altı eləməyin bəs deyil, indi də mənimkinə əl atırsan.

D u r n a. Səhvin var, Lalə, mən sənin o birminci məhəbbətini tanımaq belə istəmirəm.

D u r s u n. Nə dedin? Gec-tez mən özümü sənə tantdıraram, görərsən.

L a l ə. Yenə harda içmisən, ay gic-gici!

D u r s u n *(yaltaqlanır).* Hardan bildin?! Cici-cici.

Az içsəydim olardı haram,
Ötürmüşəm beş yüz qram.

L a l ə. Tez ol, düş qabağıma!

D u r s u n. Ey, məni arvad yanında tək görüb üstümə kişilənmə! *(Tüfəngini Laləyə doğru tutur.)*

Lalə tüfəngini onun əlindən qapır.

L a l ə. Düş qabağıma!

D u r s u n *(əllərini yuxarı qaldırır).* Mən təslim! Ancaq nahaq kefini kök eləyirsən. Bir patron vardı, allaha şükür onu da atmışam.

Gedirlər.

D u r n a. Adam öz-özünün düşmənidir. Yazıq Lalə!.. Mən səni onun əlindən qurtarmalıyam.

Murad gəlir.

M u r a d. Bağışla, Durnacan!.. Gecikdim. İndicə burdan gedən Dursundu?

D u r n a. Oydu! Əl çəkmirki, çəkmir.

M u r a d. Nə deyir axı?

D u r n a. Deyir ki, ölürəm dərdindən... Nə bilim, sevirəm səni, birminci və axırımıncı məhəbbətimsən.

M u r a d *(gülərək).* Kişini niyə süründürürsən, cavabını versənə!

D u r n a *(zarafatla).* Hələ fikirləşirəm.

Gülüşürlər.

M u r a d. Qoy bizi görək. Özü cəhənnəmə... O, Laləni dəbədbəxt eləyib. Eh Durna, bu torpağın üstündə möhkəm dayana bilməyən adamlar hələ də var.

D u r n a. Elədir, Murad!

M u r a d. Durnacan! Bəzən səni qollarım arasına alıb yüksəklərə uçmaq və oradan bu ucsuz-bucaqsız gözəl dünyamızı sənə göstərmək istəyirəm. *(Onu qolları arasına almaq istərkən birdən Dursun gəlib çıxır.)*

D u r s u n

Aha, keçmisiniz xəlvətə.
Podpolnı məhəbbətə?

*(Çayçının dudkeşini qapıb haray salır.)* Ay haray, birminci məhəbbətimi oğurladılar.

M u r a d. Rədd ol burdan. Sərxoşun biri sərxoş!

D u r s u n. Sərxoş özünsən ki, gündüz günorta çağı birminci sevgilimi qucaqlayırsan. *(Muradla əlbəyaxa olur.)*

M u r a d. Səsini kəsəcəksən, ya yox?

D u r s u n. Boğuldum, kömək eləyin.

Səsə kolxozçular gəlirlər.

X o r

Nə olub, nə olub.
Nə olub, deyin bizə.
Nə dərd üz verib sizə?
Baharın xoş çagında,
Güllərin qucağında.

Heç savaşarmı insan,
Heyranıq buna heyran!
Çalın, oynayın, gülün,
Ömrün qədrini bilin!

D u r s u n

Vallah bu Dursun canı,
Gördüm öpür Durnanı,

M u r a d və D u r n a *(birlikdə)*

Təqsir o nadandadır,
Əqilsiz insandadır.

X o r

O, nə qanır baharı,
Bu gözəl laləzarı.
Aşıq durma, sazı al,
Oynamaq havası çal.

Rəqs edirlər.

X o r

Gülür həyat, gülür bahar,
Gözəl Durna, dur oyna!
Aşıq Murad, mizrabını
Sən də saza vur oyna!

Yaşıl geyib bizim dağlar,
Çiçəklənib bu bağlar.
Çalın, gülün şadlıq edin,
Ələ düşməz bu çağlar.

D u r s u n. Hamısını Kərim dayıya deyəcəyəm.

Q ə m ə r. Hamımız bilirik, atası biləndə nə olar. Bizim yerdə sevgi azaddır.

D u r s u n. Azaddır, azaddır. Onu bilin ki, Durna mənim olacaq, vəssəlam!

Q ə m ə r. Onu boynunun ardını görəndə görərsən.

D u r s u n. Sən də mənim üstümə kişilənirsən? *(Ona tərəf hücum etmək istəyir.)*

Lalə gəlir, Dursun özünü itirir. Adamların arasında gizlənmək istəyir.

L a l ə. Aha... yaxşı əlimə keçmisən...

D u r s u n. Sansız təşəkkür! *(Dursun iki qızı yaxalayıb zorla onların qoluna girir.)*

Lalə qayıdıb Dursunu yaxalayır. Kolxozçular oxuya-oxuya gəlir.

X o r

Mizrabı tellərə vurduqca aşıq Murad
Var olsun dünyalar durduqca aşıq Murad!
Könlümüz açıldı gözəl səsindən,
Həyata can gəldi xoş nəfəsindən!

P Ə R D Ə

## İKİNCİ PƏRDƏ

Kərim kişinin evi. Pancərələrdən bağça görünür.
Durna otağı səliqəyə salır, gülləri güldanlara qoyur.

D u r n a

Sevgisiz bir ömrün nə mənası var,
Könlümün könlündən təmənnası var,
Aç mənə qəlbini, aç varaq-varaq,
Səninlə əl-ələ bir dünya quraq,
Ömrümün ən gözəl dəqiqələri
Sənindir, sənindir, ey vəfalı yar!

Qəmər gəlir.

Q ə m ə r. Salam Durna, evdə kim var?
D u r n a. Təkəm, kimdən çəkinirsən ki.
Q ə m ə r. Dedim bəlkə...
D u r n a. Bəlkə nə?
Q ə m ə r. Heç... bəxtəvərsən, Durna!
D u r n a. Sənə baxıb öz-özümə deyirəm ki, kaş mənim gözəl-göyçək bir qardaşım olaydı, Qəməri alaydım ona. Sənə heyfim gəlir. Bilmirəm, kimə qlsmət olacaqsan, kimə.
Q ə m ə r. Mənimçin qorxma... Pisinə qismət olmaram. *(Kitabları yoxlayır.)* Aha, Durna, görürəm qiyabi instituta yaman hazırlaşırsan ha...
D u r n a. Sənə zarafat gəlməsin. İşdə qabaqcıl olan gərək imtahanda da qabaqcıl ola. Bir ay sonra Moskvaya yola düşməliyəm.
Q ə m ə r. Məndə huşa bax ey. Moskva dedin yadıma düşdü. Təzə xəbərdən xəbərin var? Muştuluğumu verməsən demiyəcəyəm.
D u r n a. Bilirəm, bilirəm, o, sabah Moskvaya gedir.
Q ə m ə r. Elədir. Həm kənd təsərrüfatı sərgisinə, həm də olimpiadada çıxışa. Bəs sən? Göz dəyməsin, boy-buxun, gözəllik deyirsən səndə, könülləri dindirən məlahətli səs deyirsən səndə...
D u r n a. Əvvəla hələ imtahana hazır deyiləm, ikinci də atama görə. Bilirsənmi, atamın könlünü qırmaq istəmirəm. Amma heç bilmirəm, bu ayrılığa necə dözəcəyəm. (Qəzeti göstərir.) Budur, bax... Muraddan

yazırlar. Bu onun şəkli, bu da qoşmaları, heç bilirsən nə qəşəng mahnılardır. *(Oxuyur:)*

Ellər yaradıb nə gözəl səni,
Şümşaddır sənin əllərin, Durna!
Bulud tək tutub ay camalını
Sənin o qara tellərin, Durna!
Sevdim səni gözəl Durnam,
Sevdim səni can Durnam,
Sevdim səni maralım.
Gəlməz sənsiz bir an qərarım, Durna!
Sevdim səni gözəl Durnam,
Sevdim səni can Durnam!

Q ə m ə r. Doğrudan nə gözəl sözlərdir. Elə hey səndən deyir. Durna sən çox xoşbəxtsən, özünə layiq bir oğlan tapmısan. Özü qəşəng, sözü qəşəng, səsi qəşəng... Kolxozda da birincilərin birincisi. Yaxşı, bir de görək atanla barışdılar, ya yox.

D u r n a. Yox, atam onun əlindən yaman acıqlıdır. Deyirki, səndə onunla birgə, mənim kökümə balta çalırsan.

Q ə m ə r. Balta niyə? Bu yarışdır. Kim qabaqdadırsa hörmət də, şöhrət də onundur, onun.

D u r n a. Əlbəttə, atam əyri yollarla özünə əmək-günü yazdıranlara - əvvəl başdan öz qohumlarına güzəştə getməsəydi, bu kökə düşməzdi. Təqsir özündədir. Mən də, Murad da vaxtında ona xəbərdarlıq elədik. Sözümüzü qulaq ardına vurdu. İndi ayılıb, ancaq gecdir.

Lalə təngnəfəs gəlir.

L a l ə. Hanı o Kərim dayı?

D u r n a. Salam harda qaldı, ay qız?!

L a l ə *(hirsli)*. Evimizdə. De görüm, hanı Kərim dayı?

D u r n a. Neyləyirsən onu?

L a l ə. Onunla davam var, davam.

D u r n a. Aləm sülhdən danışır, sən dava-dava deyirsən. Yenə nə olub ki?

L a l ə. Nə olacaq? Dursun məndən qaçır. Gecə-gündüz dilindən Durna düşmür.

D u r n a. Mənim günahım nədir?

L a l ə. Sən ona meyl göstərməsən, o bu qələti eləməz. Deyir sənin eşqinlə meşədə qırqovulların, turacların nəslini kəsib.

Q ə m ə r. O getsin öz nəslinin hayına qalsın.

D u r n a. Yalandır, böhtandır.

L a l ə. Bəs onda niyə məndən qaçır? Düşüb qalıb barınızın qabağında. Məni bədbəxt eləmə, Durna! *(Ağlamsınır.)*

D u r n a. Bədbəxt niyə olursan, ay qız?! Ağlama, özünü ələ al. Sən niyə onun hər sözünə inanırsan, axı?

Q ə m ə r. Gör bır özünü nə günə salmısan ki, Dursun da səndən qaçır.

D u r n a. Əslinə baxsan onu ərköyün böyüdüb bu hala salan ata, anasıdır. Eh Lalə, Lalə!

Q ə m ə r. Lalə, sən əvvəllər yaman qoçaq qızdın. Ona qoşulanı tamam dəyişmisən.

L a l ə. Neyləyim, özümlə deyil, sevirəm axı...

D u r n a. Sənə sevmə deyən kimdir. Sevirsənsə özünü elə aparki, ayağa düşməyəsən. Sən niyə, qoy o səni kölgə kimi izləsin. Qoy o sevinsin ki, sən onu sevirsən.

L a l ə. Əvvəllər elə idi. Amma indi.

Q ə m ə r. Sən onun ayağını çayxanalardan, meyxanalardan yığışdıra bilsən, onda sənə deyərik, afərin Lalə, afərin!

D u r n a. Onda sevməyinin də bir mənası olar!

L a l ə. Yəni deyirsən ki, doğrudan da, Dursunu sevmirsən?

D u r n a. Mən öz sözümü bayaq dedim.

L a l ə *(sevincək).* Durna, vallah hər yerdə, həmişə. Demişəm, yenə də deyəcəyəm. Bu mahalda gözəllikdə məndən sonra ikinci yeri sən tutursan. Gəl bir öpüm səni. Toyumuza hələəlbət ikinizi də çağıracağam.

Q ə m ə r. Biz də hələəlbət gələrik.

L a l ə. Onda mən gedim. *(Oxuyur və oynayır.)*

O mənim öz yarımdır, öz Dursunumdur,
Dövlətimdir, varımdır, öz Dursunum.
Mən onunam, o mənim öz Dursunum,
Siz də gəlin, qol qoyun, birinci eşqimizə,
Tuf, tuf, tuf, yaman göz dəyər bizə.

Bayırdan Dursunun səsi gəlir. Lalə diksinir.

D u r s u n

Sən haralısan, haralı, Durna!
Dursun əlindən yaralı Durna!
Uca dağların maralı, Durna!
Maralı, maralı, maralı Durna!

Dursun başını pəncərədən içəri soxanda Laləni görüb qaçır.
Lalə onun dalınca cumur.

L a l ə. Hara qaçırsan?.. Dayan ay birminci dələduz!

Durna və Qəmər gülüşürlər.

D u r n a. Qəmər, kim nə deyir desin. Mənim Laləyə yazığım gəlir. Onu bu bataqlıqdan çəkib qurtarmaq lazımdır.

Q ə m ə r. O çox bacarıqlı qızdır. Heyf ki, pis adama rast gəlib.

Onu Dursunun təsirindən ancaq sən qurtara bilərsən.

D u r n a. Mən bu barədə çox düşünmüşəm. Qəmər, onu öz briqadamıza keçirsək necə olar?

Q ə m ə r. Çox yaxşı olar... yaxşı fikirdir.

D u r n a. Elə də eləyəcəyəm.

Q ə m ə r. Onu analığından ayıra bilsək, bəxti açılar.

D u r n a. Bunu lap düz deyirsən. Onu eliyərəm.

Q ə m ə r. Mən mane olmayım, gedim Durna!

D u r n a. Hara belə tələsirsən?

Q ə m ə r. Olimpiadaya gedənlərin baxışına. Heyf, heyf ki, sən getmirsən.

D u r n a. Qəm yemə!.. Qocalmamışıq ki... Qəmər, tez-tez gəl! Sənsiz yaman darıxıram.

Q ə m ə r. Gələrəm, Durna, gələrəm. *(Gedir.)*

Kərim və Nisə gəlir.

K ə r i m. Qızım... bir az əvvəl bizim həyətdən vaz atıb qaçan Laləydi?

D u r n a. Bəli, ata, o idi!

K ə r i m. O, bura niyə gəlmişdi ki?

D u r n a. Heç... Elə belə gəlmişdi də.

K ə r i m. Bilmək olmaz niyə gəlmişdi?

D u r n a. Ata, istəyirəm, laləni öz briqadamıza keçirəm. Dursundan uzaqlaşar, onda görərsən necə ağıllı qız olar.

K ə r i m. Olmaz ki, elə Dursunu da götürəsiniz öz briqadanıza.

D u r n a. Onsuz sizin briqadanın işi keçməz ki.

K ə r i m *(hirsli)*. Sən nə cürət eləyib mənimlə bu dildə danışırsan. Yox, yox, sən əvvəllər belə deyildin. Görünür, dil verənin var. *(İstehza ilə)* Ay Nisə, *(qəzeti göstərir)* kim deyir ki, saz pis şeydir. Elə deyil?

N i s ə. Əlbəttə, a kişi, doğurdan a... Bu aşıq Muradı çağırsana, bizə bir qədər saz çalıb oxusun.

K ə r i m. Əcəb qandın! Buyurun, bu da mənim ömür yoldaşım.

D u r n a. Mən qandım, ata... Amma bir də belə tikanlı sözlər eşitmək istəmirəm. *(Acıqlı otaqdan çıxır.)*

K ə r i m. Əlbəttə istəməzsən. Sərf eləmir, axı! Neştər yaraya dəydi? Barakallah qız böyüdən!

N i s ə. Əlbəttə, barakallah... Əyər, əskiyi varsa, vur başımı yar! Mənciyəz qızımız barədə deyilənlərin bir kəlməsinə də inanmıram.

K ə r i m. Ay ilana zəhər verən kərtənkələ!

N i s ə. Qızım səninçin körpə uşaq deyil. Bir başına vur ki, o gecə gündüz qiyabi instituta imtahana hazırlaşır. Əlindən dəftər, kitab düşmür.

*(Miz üstdəki kitabları göstərir).*

K ə r i m *(bir kitabı götürüb Nisəyə göstərir)*. Qiyabi institutda, Leyli Məcnun?!

N i s ə. Nə Leyli Məcnun?!

K ə r i m. Görünür, qızımızın birinci imtahanı Leyli Məcnun əhvalatından olacaq.

N i s ə. Leyli Məcnundan olanda nə olar ki?! Onu bilmək də böyük işdir.

K ə r i m. Bəli uzun işdir. Mən indi başa düşürəm ki, ayağımın altını qazıyan düşmənim öz evimin içindəymiş.

N i s a. Səhvin var. Düşmənin öz ürəyinin içindədir. Bir yaxşı fikirləş!

K ə r i m *(hirsli)*. Nə istəyirsiniz məndən? Ağzından süd qoxusu gələn aşığın biri adımı-sanımı çırpdı yerə.

N i s ə. Eh... qohum bazlıq eləməyəydin. Nəcəfçin keçərsənmiş. Dursunçun keçərsənmiş... Bax, axırda belə olarsan. Təqsirlərin hamısı özündədir, özündə...

K ə r i m. Heç eybi yoxdur. Mən hələ sağam. Bu günün sabahı da var. *(Yadına nəyi isə salır.)* Yaxşı, bəs sən buna nə deyirsən ki, bütün mahalda biabır olmuşuq.

N i s ə. Yenə nə olub ki?

K ə r i m. Nə olacaq, heçnə, qulağıma çatıb ki, qızımız o aşıq Muradla küncdə-bucaqda, bağda, bağatda, dərədə, təpədə xəlvət-xəlvət görüşürlər.

N i s ə. Görüşsünlər də... Kişi, bəlkə doğrudan da Murad qızımızı istəyir.

K ə r i m. Qızmızı istəyən qapımıza adam göndərər.

N i s ə. Kişi, deyirəm bəlkə qızımızın xasiyyətinə yaxından bələd olmaq istəyir.

K ə r i m. Necə, necə, xasiyyətinə bələd olmaq istəyir?

N i s ə. Bəs necə! Sənin, mənim zəmanəmiz deyil ki, gözüyumulu qız verib, qız alasan... yəqin elə mən deyəndir.

K ə r i m. Bəli, bəli xasiyyət bələd, bələd xasiyyət, əcəb işdir, yaxşı göstərərəm ona xasiyyətimi. Ay arvad, bir də deyirlər ki, biz evdə olmayanda o bura gəlir. Heç bilirsən bu barədə nələr danışırlar?!

N i s ə. Yalan sözdür. Murad çox tərbiyəli oğlandır. Durnaya isə özüm tərbiyə verib böyütmüşəm.

K ə r i m. Onda hekayə tamam oldu. Demək cavanlığında keçdiyin eşq yollarını ona da öyrətmisən.

N i s ə

Bəsdir kişi atdın qıza iftira,
Heç yapışmaz quru palçıq divara.
İndi çatıb qız on səkkiz yaşına.
Necə gəlib eşq həvəsi başına.

K ə r i m

Dayan arvad, səbrini bas, dayan dur,
Məncə bu Durnanın işi uzundur.
Görüşürlər Murad ilə xəlvəti,
Tapdalanır mən Kərimin qeyrəti.

N i s ə

Birdəfəlik qoy kəsilsin bu söhbət.
Qızım qanmır nədir sevgi, məhəbbət.

K ə r i m

Yox, yox məni haldan salıb şübhələr.
Buna çarə tapmalıyam müxtəsər.

N i s ə. Necə çarə?
K ə r i m

Bir macal ver, bir dayan,
Edəcəyəm öz qızımı imtahan!

N i s ə. Nə imtahan?
K ə r i m

Bir macal ver, bir dayan,
Edəcəyəm öz qızımı imtahan.

*(Durnanı səsləyir.)* Ay qız Durna, Durna!
Durna *(gəlir)*. Buyur, ata!
K ə r m. Qızım, bayaq qəlbini qırdım. Məni bağışla!
D u r n a. Nə eybi var ata?
K ə r i m. Əhsən belə qıza! Durna, sənə bir kiçik sualım var. Əgər düz cavab versən, and içirəm, bundan sonra sənə güldən ağır söz deməərəm.
D u r n a. Buyur, ata!
K ə r i m. Deyirəm o qiyabi kənd təsərrüfatı institutuna girəndə əsas imtahanı nədən verəcəksən?
D u r n a. Mənimçin bütün dərslər əsasdır, ata!

Kərim miz üstündəki "Leyli və Məcnun" kitabını göstərir.

K ə r i m. Deyirəm bəlkə əsas imtahanın bundandır. Leyli Məcnundan, eşqdən, məhəbbətdən!
D u r n a. Füzulinin əsərlərini bilməmək eyibdir, ata!
K ə r i m. Rəhmətlik Füzuli təkcə bunu yazıb elə?
D u r n a. Xeyr. Bu onun şah əsəridir.
K ə r i m. Bəs onun rəiyyət əsəri hansıdır?
D u r n a. Ata...
K ə r i m. İndi ki, Leyli Məcnun əhvalatını bilirsən, de görüm, eşqin məğzi, cövhəri, mayası, mənası, müəmması nədir?

N i s ə. Hə, hə, anan sənə qurban! De görək atanın soruşduğu şey nə deyən şeydir? Dərsüün əsil mayası nədir?

K ə r i m. Arvad, gəl qanmadığın işə baş qoşma. *(Durnaya)* Hə, qızım...

D u r n a. Bu qəliz sualı birinci dəfədirki, sizdən eşidirəm.

K ə r i m. Başqasından eşitməyibsən?

D u r n a. Xeyr, ata!

K ə r i m. Nə əcəb? Təəccüblü işdir.

D u r n a. Ata, siz bilirsinizsə deyin öyrənim. Bəlkə gərəyim oldu.

K ə r i m. Bu vaxtadək gərəyin olmayıb?

D u r n a. Sən allah, ata, dediyin o beş-altı mərtəbə qəliz şey nədir? Yeməlidir, içməlidir.

K ə r i m. Ay şeytan! Utanma, yenə ucundan, bucağından bilməmiş olmazsan.

N i s ə. Qızım Durna, olmaz ki, birinci əsas imtahanı elə öz atana verəsən, canımız qurtara.

K ə r i m. Qorxma, səhvin olsa biz ölməmişikki, düzəldərik. De görək, eşqin məğzi, cövhəri, mayası, müəmması, mənası nədir axı?

D u r n a. Qoy bir fikirləşim!

K ə r i m. İmtahanda da belə eliyəcəksən?

D u r n a. Dediyiniz odur ki, odur ki...

K ə r i m. Zəhrimarın adını de də.

D u r n a. Adını siz demisiniz də, mənası isə odur ki.

K ə r i m və N i s ə. Hə, nədir ki?

D u r n a *(gülərək).* Çox ləzzətli şeydir.

K ə r i m. Dadmısan?

D u r n a. Əlbəttə.

N i s ə. Necə, necə?

K ə r i m. Nə olar ki? De görək şirindir, yoxsa acı.

D u r n a. Həm şirindir, həm acı.

K ə r i m *(Nisəyə).* Barakallah qız doğan! *(Durnaya)* Hə, deməli həm şirindir, həm də acı. Sonra?

D u r n a. Əsil mənası odur ki, insan gərək öz ata-anasını...

K ə r i m. Aldada?

D u r n a. Xeyr, ürəkdən sevə.

K ə r i m. Aha, daha kimi sevə?

D u r n a. Öz vətənini, elini!

K ə r i m. Daha kimi?

D u r n a. Heç kimi.

K ə r i m. Bu olmadı ki.

D u r n a. Sözün qısası insan gərək ataya, anaya məhəbbət yetirə... Daha bundan şirin nə ola bilər ki.

K ə r i m. Onun acılığından, heç nə demədin axı?

D u r n a. Acılığı da odur ki, bir də görürsən dünyalar qədər sevdiyin...

K ə r i m. Oğlandan?

D u r n a. Xeyr, atadan haqsız məzəmmətlər eşidirsən.

N i s ə. Gəl öpüm səni, mənim ağılli, kamallı balam! Səni görüm min yaşayasan.

K ə r i m. Yaxşı, bu eşq dərsini sənə kim öyrədib?

D u r n a. Orta məktəbi qurtaranda Xasay müəllim...

K ə r i m. Barakallah Xasay müəllm!.. *(Kənara)* Görünür, mən səhv eləmişəm. *(Durnaya)* Qızım, Leyli Məcnun imtahanını bu sayaq rəvan verə bilsən, heç şəkkim yoxdur ki, əla qiymət alacaqsan. Əla! Nisə, xörəyin hazırdır?

N i s a. Bu saat!

D u r n a. Bəs siz qonaq getməyəcəksiniz?

K ə r i m. Afərin! Yaxşı ki, yadımiza saldın. Ay arvad, Heybət kişi bizi gözləyir. Getməsək, yaxşı düşməz. *(Kənara)* Fürsətdir. Əsil imtahan indi başlanacaq. Nisə, düş qabağıma, gedək!

D u r n a *(sevincək).* Tez qayıdacaqsınız?

Kə r i m. Necə, tez qayıtsaq məsləhətdir, yoxsa gec?

D u r n a. Gec də qayıtsaz eybi yoxdur, evdən xatircəm olun!

K ə r i m. Qızım sən deyən kimi, çalışarıq tələsmiyək. Sənki, evdəsən.

Bayıra çıxırlar.

D u r n a. Nə yaxşı oldu? Lap Muradın gələn vaxtıdır. *(Səs eşidir.)* Deyəsən gələn Muraddır. Gedim görüm. *(Həyətə çıxır.)*

Kərim və Nisə pəncərədən otağa atılırlar. Fit səsi gəlir.

K ə r i m. Arvad, deyəsən hava həyəcanı başlandı axı... *(Bayırdan səs eşidilir.)* Gəlirlər, gəlirlər.

N i s ə. Bıy, başımıza xeyir!

K ə r i m. Yaxşı, indi biz harada gizlənəcəyik.

N i s ə *(mizin arxasında oturub yumruğunu mizə vurur.)* Mən gizlənməyəcəyəm... Qoy gəlsin ona iki kəlmə söz deyəcəyəm.

K ə r i m. Qalx, ay arvad!.. Tez ol gir bu şkafa, mən də sandığa.

N i s ə. Ay kişi, mən şkafa yerləşə billəm?

K ə r i m - Tez ol. Daha ayrı çarəmiz yoxdur.

N i s ə. Bismillah rəhman əlhərim... *(Şkafa girir.)*

Kərim *(sandığa girir).* Buda məniınki.

N i s a. Ay kişi, qabiliyyotin yoxdur. Gül kiıni paltarlan əzişdirdin ki...

Kərim *(sandıqdan).* Nisə, ay Nisə!

N i s ə. Nə var, a kişi?

K ə r i m. Deyirəm yuxuya-zada getməyəsən ha...

Durna və Murad otağa girirlər. Muradın əlində budaq var.

D u r n a. O nədir, Murad?

M u r a d. Bunu sizin ərik ağacından qırmışam. Cavanlar bu yarpaqları bir-bir yolub "sevir, sevmir" deyə öz bəxtlərini sınayırlar.

D u r n a. Yəni bundan bir şey öyrənmək olur?

M u r a d. Buna inanmasam da, yenə öz bəxtimi yoxlamaq istəyirəm. *(Yarpaqları yolur.)* Sevir, sevmir, sevir, sevmir. Sevir.

K ə r i m *(sandıqdan).* Arvad, ay arvad!

N i s ə *(şkafdan).* Nə var, a kişi!

K ə r i m. Bunlar ki, belə başlayıb, qorxuram bu il meyvə üzünə həsrət qalaq.

D u r n a. Ürəyim suya döndü ki, sevir, yoxsa sevmir?

M u r a d. Sevir, Durnacan sevir. *(Oxuyur.)*

Qəlbimi vermişəm, sənə əmanət,
Onu yaxşı saxla amandır, Durna!

D u r n a

Heç nədən qorxmuram eşqin yolunda,
Məni qorxudan şey hicrandır, Murad!

M u r a d

Sinəmdə doyünən ürək sənindir, Durna!
Eşqinlə döyünən ürək sənindir, Durna!

D u r n a və M u r a d *(birlikdə)*

Qızılgül sənindir, çiçək sənindir,
Varlığım adına qurbandır, Murad *(Durna)*
Qurbandır, Murad *(Durna)*
Sənsiz nə mənası gülün, çiçəyin, Murad!
Eşqinlə döyünür təmiz ürəyim, Durna!
Sənsən həyatımın mənası Durna *(Murad!)*
Eşqimin günəşli dünyası Durna *(Murad!)*

M u r a d. Durnacan, de görüm sən həqiqi, səmimi eşqin nə olduğunu heç dərindən düşünmüsənmi?

D u r n a. Düşünmüşəm.

M u r a d. Səncə, eşq nədir?

K ə r i m *(sandıqdan).* Arvad, bu da mənim sualımı verdi ki.

D u r n a. Eşq, eşq odur ki.

K ə r i m *(sandıqdan).* Adam gərək öz ata, anasını sevə.

D u r n a. Eşq iki qəlbin bir döyünməsi, ən gözəl, nəcib arzuların çiçəklənməsi, bir-birinin həsrətilə yanan iki gəncin bir-birinə qovuşması deməkdir.

K ə r i m *(sandıqdan uca səslə).* Barakallah Xasay müəllim!

M u r a d. Durnacan, görəsən biz öz arzumuza nail ola biləcəyikmi? Atan, anan bu barədə nə deyir?

D u r n a. Atam səndən bir az incikdir. Yarışda ona üstün gəlmisən. Yaman əsəbiləşib... Əvvəllər belə deyildi. Hərdən özündən çıxıb fağır anamı yerli-yersiz danlayır.

N i s ə *(şkafdan).* Bax, kişi bunu lap düz deyir.

M u r a d. Amma anan Nisə çox gözəl arvaddır. Ürəyi açıq, təmiz, səmimi.

D u r n a. Düzdü.

N i s ə *(şkafdan).* Sağ ola belə kürəkən! Kişi, Durna Muradındır vəssalam.

M u r a d. Durnacan, mən həm kənd təsərrüfatı sərgisində, həm də olimpiadada iştirak etməkçin sabah Moskvaya yola düşürəm.

D u r n a. Bilirəm.

K ə r i m *(sandıqdan).* Nisə, eşidirsən, sabah pay-piyada Moskvaya yola düşürlər.

N i s ə *(şkafdan).* Necə, necə? Qızımızı götürüb qaçır?

K ə r i m. Moskovacan pay-piyada.

M u r a d. Bütün respublikaların çalıb oxuyanları, gözəl oynayanları ora yığılacaq. Birincilik qazananlara mükafat veriləcək.

D u r n a. Burda birincisən. Orda da birinci olmasan, qayıtma, orda qal.

M u r a d (*zarafatla).* Çalışaram birinciliyi qazanmayıb orda qalım.

D u r n a. Yox, yox, zarafat eliyirəm. Eh, Murad, heç bilmirəm, bu ayrılığa necə dözəcəyəm?

M u r a d. Bir ay nədir ki?! *(Oxuyur.)*

Arzum budur gündüzlərin
Heç görməsin gecə, Durna!
Sən güləndə bütün qəmlər
Dönsün görüm heçə, Durna!

Gəzərəm eşqin yolunda,
Cananımın sağ, solunda.
Doğru aşiq yar yolunda
Gərək candan keçə, Durna!

K ə r i m və Nisə qeyri-ixtiyari əl çalırlar.

M u r a d. Durnacan, mənə bir xatirə olaraq nə verirsən?

Durna sandığı açmaq istəyir. Sonra fikrindan daşınır.

D u r n a. Eşqinlə döyünən qəlbimi!

K ə r i m *(sandıqdan).* Barakallah Xasay müəllim! Üzün qara olsun, ay Nisə!

D u r n a. Murad, de görüm, Moskvada nə oxuyacaqsan?

M u r a d. İstəyirəm, əvvəlcə o sandığa girsəm neylərsən havasını oxuyum.

K ə r i m *(sandıqdan).* Arvad, dinmə, bizim havamızı oxuyacaqlar.

N i s ə *(şkafdan).* Bizim niyə? Sənin havanı oxuyacaqlar.

D u r n a. Çox yaxşı olar. Ancaq o havanı əvvəlcə burda mənə oxumalısan.

M u r a d. Bir şərtlə. Sən də mənə kömək eləməlisən. *(Sazı alır.)*

Sən bir dəli ceyran olsan,
Düzlərə qaçacaq olsan,
Mən bir mahir ovçu olub
Səni ovlasam neylərsən?

D u r n a

Sən bir mahir ovçu olsan
Məni ovlayacaq olsan,
Mən bir gözəl alma olub
Sandığa girsəm, neylərsən?

M u r a d

Sən bir gözəl alma olub
Sandığa girəcək olsan,
Mən bir paslı açar olub
Sandığı açsam, neylərsən?

D u r n a

Sən bir paslı açar olub
Sandığı açacaq olsan,
Mən bir gözəl gəlin olub
Sandıqdan çıxsam neylərsən?

M u r a d

Sən bir gözəl gəlin olub
Sandıqdan çıxacaq olsan.
Mən bir gözəl oğlan olub
Səni almasam, neylərsən?

K ə r i m. İndi görərsən neylərəm, haramzadə!

Kərim sandıqdan, Nisə şkafdan çıxır. Murad va Durna qaçırlar.
Kərim Muradın dalınca bayıra cumur. Bu dəmdə eyni Murad paltarda,
Görkəmdə Dursun əlində saz içəri girir. Nisə onu görən kimi şkafa girir.
Dursun onu Durna bilir, Çalıb oxuyur.

D u r s u n

Aşiq mənəm, ay Durna!
Yoxdur sənə tay, Durna!
Düşsün bədbəxt Dursuna,
Eşqindən bir pay, Durna!

*(Dursun şkafı açıb Nisəni görür. Özünü itirir.)*

Kərim də həyətdən qayıdıb Dursunu görüb təəccüblənir.
Dursun qaçmaq istərkən Kərim sazını alıb, onu kötəkləyir.

K ə r i m. Get indi görüm Moskova pay-piyada necə gedirsən!

**P Ə R D Ə**

## ÜÇÜNCÜ PƏRDƏ

Kərmin həyəti. Ağaclıq, güllük, çiçəklik.
Durna ilə Lalə söhbət edə-edə gəlirlər.

D u r n a. Lalə, niyə çəkinə-çəkinə gəlirsən?

L a l ə. Vallah, xəcalət çəkirəm, Durnacan, mən hər bu qapıdan içəri girəndə özümü bir sayaq hiss eləyirəm. Deyirəm, Kərim dayı, Nisə xala buna nə deyərlər axı.

D u r n a. Çox nahaq! Heç onlardan utanma. Sən mənim kiçik bacımsan. Artıq sən mənim briqadamdasan, özü də alnının açıq, üzün ağ. Bu ev sənin öz evindir. Daha səni gözümdən irağa qoymayacağam. Cavan, gözəl-göyçək qızsan. Niyə bədbəxt olasan axı!

L a l ə. Sağol. Durna bacı! Heç bilmirəm, bu yaxşılığının əvəzini nəylə, necə çıxım.

D u r n a. Heç necə. Sənin xoşbəxtliyin hər şeydən vacibdir. Görmürsənmi, indi hamı səndən danışır. Sən öz səadətini öz əlinin zəhmətilə qazanırsan.

L a l ə. O öz yerində, sən birbacı kimi əlimdən tutmasaydn, bəlkə mən indi belə olmazdım. Deyirəm, keç mənim təqsirimdən, səni çox incitmişəm.

D u r n a. Eh... məni yox... Sən özünü incitmisən.

L a l ə *(qəmgin).* On il əvvəl anam ölməsəydi... atam da gedib məni gözüm çıxdıya salan başqa bir arvad almasaydı, mən heç vaxt bu həyat yollarında büdrəməzdim. İkinci anam hər gün heçin, puçun üstündə saçlarımdan tutub məni bərk-bərk döyərdi. İki il əvvəl atadan da yetim qaldım. Analığım məni hər kimə olursa olsun ərə vermək istəyirdi. Qonşumuzun o başı batmış oğlu Dursunu da mənimçin analığım gözaltı eləmişdi. Qalanını sən özün məndən yaxşı bilirsən.

D u r n a. Sən həyata təzədən gəlirsən, Lalə, keçmişi fikrindən, xəyalından çıxart getsin. Uzaq görən gözlərinlə sabaha, gələcəyə bax, sənin bəxtin ordadır, orda. Vaxtı ilə səni bədbəxtliyə, uçuruma sürükləyən o nadanın adını bir daha dilinə gətirmə.

L a l ə. Qızıl kimi sözlər deyirsən, Durna! Ancaq bir də o alçağa rast gəlsəm, onu bu əllərimlə salacağam ayaqlarımın altına... Nə yemisən, turşulu aş.

D u r n a. Onu həyat özü döyüb, sənin döyməyinə ehtiyac yoxdur.

Qəmər tələsik gəlir.

Q ə m ə r. Durnacan, muştuluğumu ver! *(Ona məktub verir.)*

D u r n a. Məktubdur.

L a l ə. Adamındandır.

Q ə m ə r. Xeyr, Muraddandır.

L a l ə. Nə təfavütü, adamındır da.

D u r n a. Sənin canınçn, Lalə... O mənim istəklimdir. Görək nə yazır? *(Oxuyur.)* "Çıxışım çox gözəl keçdi. Görünür, bu günlərdə bizi Kremilə qonaq çağıracaqlar. Moskvada bu qoşmam çox bəyənildi".

Q ə m ə r. Hansı qoşma?

D u r n a *(oxuyur.)*

İlk bahar görününcə
Könüllər dilə gəldi.
Pərvanələr işığa,
Bülbüllər gülə gəldi.

Nə gözəldir ilk bahar
Dodağında gülüş var.
Düzülüb qatar-qatar
Durnalar gölə gəldi.

Sevin, sevin ey könül,
Başında rəngbərəng tül
Əlində bir dəstə gül
Yar gülə-gülə gəldi.

Sevincim həddən aşdı
Güldüm gözləri yaşlı.
Birdən dilim dolaşdı,
Mənimki belə gəldi.

L a l ə. Var olsun, butün yazan da, yazdıran da!

Q ə m ə r. Yazan, Muraddır. Bəs yazdıran kimdir?

L a l ə. Yazdıran bax, bu bəxtəvərdir! *(Durnanı göstərir.)*

D u r n a. Buy, gör kağız nə vaxt yazılıb? İndi gərək özü burda olaydı ki...

L a l ə. Ürəyin suya dönməsin gəlib çıxar. Durna, daha nə yazır?

D u r n a. Heç nə.

L a l ə. Gizlətmə, hamısını oxu! Yaxşı indi ki, özün oxumursan, ver mən oxuyum. *(Məktubu Durnanın əlindən qapır. Durna məktubu geri almağa çalışır.)*

L a l ə *(məktubu oxuyur.)*

Mən gələndə yenə səni
Üzü gülər görüm, Durna.
O gün olsun saçlarını
Öz əlimlə hörüm, Durna!

Qoy ürəyim səndə qalsın,
Məhəbbətin məndə qalsın.
Hicran bizdən gendə qalsın,
Qurban sənə ömrüm, Durna!

*(Məktubu Durnaya qaytarır.)*

D u r n a və Q ə m ə r. Sağol, Lalə!

D u r n a *(məktubun gerisini oxuyur).* "Kənd təsərrüfatı sərgisində kolxozumuz birinci yeri tutan qabaqcıl kolxozlar cərgəsindədir. Mənə qızıl medal veriblər".

Q ə m ə r. Gözümüz aydın! Mən getdim Muradgilə muştuluğa.

Qəmər gedir. Kərim və Nisə gəlir.

K ə r i m *(Durnaya qəzeti göstərir).* Hə, qızım, oxumusan?

D u r n a. Xeyr, ata!

K ə r i m. Deyirəm, gözün aydın! Moskvada ondan yazırlar. Kolxozumuzun üzünü ağardıb. *(Qəzeti Durnaya verir.)* Bu da onun şəkli. Utanma, bas bağrına.

D u r n a *(utanır).* Ata!

K ə r i m. Deyirəm, qoy bir qayıtsın onunla haqq-hesabı çürüdək.

Hə, qızım necə oldu? Kim deyən oldu? İudi kim qabaqdadır. Siz, yoxsa biz?

D u r n a. Hələlik siz! Amma dediyiniz kimi bu günün sabahı da var. Yarış davam eləyir.

K ə r i m. Kimi qorxudursan, eləsin də.

D u r n a. Ata, görürsənmi, nəcəfləri, dursunları özündən uzaqlaşdıran kimi işlərini yenidən qura bildin.

K ə r i m. Mənə dərs vermə! Mən özüm öz səhvimi düzəltdim.

D u r n a. Atacan, bu inadından, mənəm, mənəm deməyindən əl çəkəsən! *(Əlindəki məktub yerə düşür.)*

K ə r i m. O nədir? *(Qaldırmaq istəyir. Durna ondan tez tərpənir.)*

D u r n a. Heç.

K ə r i m. Necə yəni heç. Daha niyə gizlədirsən? Ondan kağiz almısan?

D u r n a. Bəli, ata almışam.

K ə r i m. Nə olar almısan, alda. Yaxşı nə yazır? Yoxsa yenə atana gülür?

D u r n a. Xeyr. O qızıl medal alıb.

K ə r i m. Oxumuşam. Alsın, nə eybi var ki. Bizim briqada isə Keçici Qızıl Bayraq alıb. Ay Nisə, həyəti başdan-başa çilçıraqban eləyək ki, bir azdan hamı bura tökülüşəcək. Heyf... gərək o da gəlib bizim bu cah-cəlalı görəydi. Qızım, de görüm, daha nə yazır? *(Yavaşdan zarafatla).* Orda evlənib eləməyib ki?

D u r n a. Ata...

K ə r i m. Bir sözdür, dedim də. Daha nə yazır?

D u r n a. Anama salam yazır.

N i s ə *(sevincək, Kərimə acıq verir).* Mənə salam göndərən sağ olsun! Kişi, mən elə əvvəl gündən sənə deyirdim ki, Murad canlara dəyən oğlandır. Sən deyirdin yox. Min yaşasın mənə moskovski salam göndərən!

K ə r i m. Mənə necə, salam yazır?

Nisə Durnaya işarəylə bildirir ki, yox desin.

D u r n a. Xeyr, yox, yazmır.

K ə r i m. Necə, necə?!. Yazmır, yazmasın. Görünür, kağızdakı başqa əhvalatlar mənə salam yazmağa mane olub. Yəqin kağızda yer olmayıb... heç eybi yoxdur. Gəlib görər ki, Kərimgil burda nə möcüzələr yaradıb.

N i s ə. Qızım, ona mənim dilimdən yaz ki, ondan ötəri mən də, sən də, atan da yaman darıxırıq.

K ə r i m. Arvad, gəl sən mənim dilimdən vəkillik eləmə! Bəlkə, mən darıxmıram.

N i s ə. Darıxma kişi, darıxma... Qızım, bir söz yaz ki, bütün kolxozçular onunçün darıxır.

D u r n a. Ata, bəs sizdən nə yazım?

K ə r i m. Məndən heç nə. *(Durna otağa tərəf gedərkən onu saxlayır.)* Yox, dayan, qızım... Ona yaz ki, mənə də salam yazsın.

D u r n a *(gülərək).* Ata, sən ki, onu sevmirsən.

K ə r i m. Ailəmizdən biri sevir, kifayətdir də!

D u r n a. Ata!.. *(Utanaraq evə gedir.)*

N i s ə. Vallah, bu kişinin işindən heç başım çıxmır. Gah deyirsən, düşmənim Muraddır, gah da, deyirsən ki, öz qohum-qardaşım. Sənin felindən heç kəs baş çıxartmaz, heç kəs!

K ə r i m. Yaxşı, yaxşı, baş aparma. Nisə bir məsələ məni yaman çaşbaş eləyib, axı. Sən sandıqda, mən şkafda olanda...

N i s ə *(gülür).* Yox, a kişi, mən şkafda, sən sandıqda olanda.

K ə r i m. Hə,hə... hərəmiz birində olanda Durnaya eşq dərsi verən Muraddı, yoxsa o Dursun?

N i s ə. Əlbəttə Dursun! Onda biz Dursunu kötəkləmədik?

K ə r i m. Döyməyinə Dursunu döydük. Ancaq əvvəlcə mənim gözümə Murada oxşayan bir şey dəydi, axı.

N i s ə. Dursundu, a kişi, Dursun! Murad qızıl kimi oğlandır.

K ə r i m. Mənə Muraddan məruzə eləmə. Onu səndən yaxşı mən tanıyıram. Atası yerində dünya görmüş kişiyəm. Böyük-kiçik saymayıb mənimlə kəll-kəlləyə gəlir. Nə olar? Mən o dikbaşa kim olduğumu bildirərəm!

N i s ə. Səhvin var. O dikbaş deyil, mərddir, mərd. Sən istəyirsən ki, Murad da, qohumun Nəcəf və ona oxşayan bir para adamlar kimi sənə yaltaqlansın? Qabağında ikiqat olsun?

K ə r i m. Mən elə demirəm.

N i s a. Bəs necə deyirsən?! Onu da bil ki, düz adam, təmiz adam dünyasında heç kimin, padşahın da, Allahın da qabağında boyun əyməz. Muradı mən bu sayaq tanıyıram.

K ə r i m. Afərin Nisə, afərin!.. Sözlərində həqiqət var. Düz sözə nə deyəsən?

N i s ə. Sözün qısası, qızı Murada veririk, ya yox?

K ə r i m *(gülərək)*. Yoxsa Moskvadan gələn bürüştə salam saqqızını oğurladı. Qız köçürmək dəm-dəm halvasıdır, məgər? Qoy bir papağımızı qabağımıza qoyub baş sındıraq, görək nə olur.

Nisə Kərimin papağını başından qapıb miz üstə qoyur.

N i s ə. Buyur, papağını qabağında... Sındır başını görək!

Kərim hirslənib cəld ayağa qalxır.

N i s ə

Utan kişi, heç olmazsa yaşından,
Boş-boş sözlər çıxartma öz başından.
Bir qızım var, bu ellərin gözəli,
Dəyməyibdir əlinə bir yad əli.

K ə r i m

Deyirsən ki, qızı verək Murada
Sən yaxşı ol, mən pis olum arada?
Sonra gülüb deməzsən ki, aldatdım,
Öz fikrimdən çəkilmərəm bir addım.

N i s ə

Qız mənimsə mən razıyam ürəkdən,
Əl çək, kişi, mənəm, mənəm deməkdən.

K ə r i m və N i s ə

Biz nəçiyik sevişirsə könüllər,
Xoşbəxt olsun qoy bu azad nəsillər!

Hilal və bir neçə kolxozçu həyətə gəlir.
Onlar da Nisəyə və Kərimə qoşulub oynayırlar.

H i l a l. Salam, Kərim kişi, arvadla həyətdə yaman meydan açmısan ha.

K ə r i m. Salam, Hilal!.. Belə bir gündə oynamayıb bəs havaxt oynayacağıq.

H i l a l. Yaxşı, qonaqları qəbul eləməyə hazırsan? Kolxozçular səni təbrikə gələcəklər.

K ə r i m. Gəlsinlər, gəlsinlər.

H i l a l. Eşitdiyimə görə rayon mərkəzindən və qonşu kolxozlardan da gələnlər olacaq.

K ə r i m. Ay arvad, sən get işini, gör!

H i l a l. Doğrudur. Bir də gördün, aləm axışıb töküldü bura... sonra...

N i s ə. Göz üstə, buyurub gəlsinlər... Bir də, ay Hilal, kimi qorxudursunuz... Bütün el-oba yığışıb gəlsə yenə də süfrəmizdə hamıya duz-çörək tapılar.

K ə r i m. Sağ ol, ay arvad!

H i l a l. Deyirlər, Murad da bir az əvvəl gəlib çıxıb.

N i s ə *(şevincək).* Nə yaxşı oldu? Lap yerinə düşdü.

K ə r i m. Yaxşı, yaxşı, baş aparma. Get işlə məşğul ol! Hilal, buyurun içəri, bir çay içək!

H i l a l. Yox, yaxşısı budur. Biz də gedək kəndin kənarında qonaqları pişvaz eləyək.

Kolxozçular gedirlər. Kərim və Nisə evə keçirlər.
Dursun əlində saz oxuya-oxuya həyətə girir.

D u r s u n

Sən haralısan haralı, Lalə!?
Uca dağların maralı, Lalə!
Dursun əlindən yaralı, Lalə!
Yaralı, maralı, haralı Lalə!

Lalə səsə çıxır. Dursunu görüb əsəbiləşir.

L a l ə. Yenə həyəti nə götürmüsən başına?
D u r s u n. Hava alıram özümçün.
L a l ə. Havanı xalqın həyətində niyə alırsan?
D u r s u n. Buranın havası döşümə düşür, onunçun.
L a l ə. Boş-boş danışma, çıx get! Kərim dayı da evdədir.
D u r s u n. Lalə, qadası, məni qovursan?
L a l ə. De görüm, kimi istəyirsən, kimi?
D u r s u n *(sazı kökləyib çalır və oxuyur).*

Laləni, Laləni,
Nazlı, mazlı baləni,
Ürəyimı çaləni,
Məni dərdə saləni.
Buy, buy, buy
Buy,buy,buy....

L a l ə. Ulamağın öz başına düşsün. Sənə rədd olub, get dedim.
D u r s u n. Birminci məhəbbətini qovursan?.. Ay qız, imarət tamam-kamal tikilib qurtarıb ey!
L a l ə. İmarətin görüm başına uçulsun! *(Səs eşidilir.)* Dursun, evin doğrudan da yıxıldı. Dədən, nənən gəlir.

Lalə otağa keçir.

D u r s u n. Paho, bu heç yaxşı olmadı ki... Yəqin mənimçin elçiliyə gəliblər. Xəlvəti qulaq asaq, görək nə deyirlər, axı? Harda gizlənim, harda? *(Çaşbaş olur. Nəhayət, otağın altındakı toyuq hininə girir.)*

Nəcəflə Şərəf gəlir. Şərəfin qoltuqları hədiyyə ilə doludur: qucağında qarpız, başında böyük bir zənbil var. Onların hay-küyünə Kərim və Nisə həyətə çıxır.

K ə r i m. Aha, sizsiniz!

N ə c ə f. Əlbəttə, salam-əleyküm, əmioğlu!.. Həmişə şadlıqda olasınız!

K ə r i m *(könülsüz).* Salam!

N i s a. Salam, ay Şərəf xala!

Ş ə r ə f *(qəhqəhə çəkir).* Ayıbdır səninçin. Qızın yerindəyəm, mənə xala deyirsən.

N i s ə. Necə, mən sənin qızın yerindəyəm?

Ş ə r ə f. Bəs necə, bərkə çəkərsən, deyərəm lap nəvən yerindəyəm. Mənciyəz Nəcəfə adaxlı olanda, sənciyəz iki qarın doğub o biri dünyaya göndərmişdin. Halal süd əmmiş şahidlərim var.

N i s ə. Boy, başıma xeyir! Barı bu kişilərdən utan!

Gedib hinin yanındakı ağac altında otururlar.

N ə c ə f. Ay əmioğlu, qohum-qardaş, can-cigər, aramızda niyə kin-küdurət olsun, axı!

K ə r i m. Nə kın-küdurət?! Başa düşmürəm.

N ə c ə f. Dursun barədə deyirəm də. Onu sənin, mənim düşmənlərimiz gözdən salır. Canınçün canlara dəyən oğlandır. Ağıllı, kamallı.

Ş ə r ə f. Bu barədə mənə çəkib. Kiş-kişlər olsun, atasına çəksəydi, heyvərənin biri olacaqdı.

N ə c ə f. Arvad, yum!

Ş ə r ə f. Deyirsən, deyirəm. Demə, deməyim, desən deyəcəyəm.

N ə c ə f. Düzdür! Sənə çəkməsəydi, canım-ciyərim Kərimlə onun üstündə üz-göz olmazdıq.

Ş ə r ə f. Başın batsın, belə oğul! Mən Şərəf hara, qapı-qapı təvəqqeyə getdi hara!

Dursun hinin gözündən sazın ucuyla Şərəfi vurur.
Şərəf qorxudan yerə sərilir.

Ş ə r ə f. Vaxsey, məni cin vurdu!

N ə c ə f *(Şərəfin yanına cumur).* Sənə nə oldu, ay arvad?!

Ş ə r ə f. Vay... məni cin vurdu!
K ə r i m. Cini də cin vurar! Bu saat!

Kərim hinin ağzını açır. Dursunu bayıra dartır.
Dursunun üst-başı toyuq tüküylə doludur.

D u r s u n *(bir ağız xoruz kimi banlayır).* Boğulmuşdum ki.

N ə c ə f. Dursun, ay səni öküz vursun! Şərəf, Özünə gəl, səni vuran, cin deyil, oğlundur.

K ə r i m. Ay zatı qırıq! Sən bu hinə haçan, hardan gəlib girdin ki, biz görmədik.

D u r s u n. Yeraltı gəlmişəm, Kərim dayı!

Ş ə r ə f. Səni görüm hinə yox, qara yerə girəsən belə oğul.

D u r s u n. Çox oğul-oğul deyib lovğalanma. Sən imanın, adamı bu sifətdə doğarlar.

N ə c ə f. Xamuş!

D u r s u n. Nə? Camış?

Ş ə r ə f *(Nisəyə).* Kişi ki, camış dedi, yadima düşdü. Söz vaxtina çəkər, Nəcəfcanı, bir gün elə bax, bu vaxtlar naxır çöldən qayıdanda heyvancigəzim yapışır camışın quyruğundan dart, ha dart! *(Nisənin qolunu dartır.)* Camış da eləmə tənbəllik bir buynuz ilişdirir balamın ombasına. *(Bir yumruq Nisəyə vurur.)* Biz dedik uşaq öldü.

D u r s u n. Heyf deyiləm.

Ş ə r ə f. Sən demə, allahın nəzəri üstündəymiş. Hə, sonra nəzir-niyaz, pir, çıldaq, nə başınızı ağrdım, balamın yeddi canı varmış, ölmədi.

D u r s u n. Sən nə danışırsan, itəm, pişiyəm ki, yeddi canım olsun.

K ə r i m. Ölsəydi, böyük itki olardı.

N ə c ə f. Əlbəttə!

N i s ə *(istehza ilə).* Heç birinizo göz dəyməsin, heyfsiniz, heyf.

Ş ə r ə f *(hirsli ayağa qalxır).* Akişi, düş qabağıma gedək! Görmürsən ki, öz qohumunuz evində yad qızı bizi adam yerinə qoymur.

N i s ə. Xeyr, mən elə demədim.

K ə r i m. Bir sakit olun, görək Nəcəf nə istəyir?

N ə c ə f. Onu deyirəm ki, qohumluq, dostluq xatirinə Dursunu bağışla getsin. Bilirəm, özünü bir qədər yaxşı aparmayıb, neyləyəsən, uşaqdır da.

K ə r im. Uşaqdır?

N ə c ə f. Bəs necə?.. Bu dəfəlik keç günahından! Bir qələtdir eləyib. Daha eləməz.

K ə r i m. Eləməz? Bu sözü sizdən min kərə eşitmişəm.

Ş ə r ə f. Nə olar? Bir də eşit, olsun min bir kərə. Kərim kişi onun günahını bağışla bu əmigəlininə... Bu axır vaxtlarda balaciyəzim özünə çox yaxşi bir peşə tapıb.

K ə r i m. Nə peşə?

Ş ə r ə f. Qoy o olsun aşıq Murad, bu da aşıq Dursun. Baxıb görərik kimdir əsil aşıq.

K ə r i m. Aşıq?

N ə c ə f. Bəli, bəli aşıq... Biz onu imtahandan keçirmişik. Biz də özümüzə görə bir şey qanırıq, ya yox. Canınçın evdə şəbih çıxarır ey... uzun işdir! Kefi gələndə bilirsən nə şədd eləyir. Oğlum, bir ağız de, Kərim ərnin də görsün şücaətini.

D u r s u n. Görsün də.

Ş ə r ə f. Başla, dünən oxuduğunu.

D u r s u n. Zakaz-makaz lazım deyil. Özüm biləni oxuyacağam. Dədəsi, tez ol züy tut görək!

N ə c ə f. Bu saat! (Cibindən balaban çıxarıb, çalır.)

D u r s u n. Bir barmaq aşağı, yox, bir barmaq yuxarı. *(Meydan sulayır, gah qabağa, gah dala gedir.)*

Nəcəfin başına bax,
Sərəf tək yoldaşına bax,
Kərım dayı orden alıb
Dursunun yaddaşına bax.

*(Boğazı tutulur.)* Bir yumurta.

Şərəf hindən bir yumurta götürüb sındırır və Dursuna içirir.

D u r s u n. Şərəfin başına bax!..*(Yenə səsi tutulur.)* Məmə, birini də... Nisə. Yox, bu olmadı.

Ş ə r ə f. Uşağım evdə də yumurtasız oxumur. Hindəki yumurtaların hamısı onun boğazına gedir.

K ə r i m. Onda, gərək hər aşıqdan ötəri bir toyuq ferması açılsın ki.

N ə c ə f. Uşaq səndən utanır ey... yoxsa evdə bir şəbeh çıxarır ki.

K ə r i m. İnanıram, inanıram.

N ə c ə f. Yaxşı, Dursun sabahdan qayıdır kolxoza?

K ə r i m. Yox, sabahdan Dursun qayıtmır kolxoza. Nahaq təvəqqeyə gəlmisiniz. Lap nahaq! Mənciyəz xalq, dövlət işində qohum-filan tanımıram. Dursun kimilərə kolxozda yer yoxdur.

D u r s u n. Kərim dayı, heç mənsiz də kolxoz olar?

K ə r i m. Görürsünüz ki, olur. Götürək elə o Laləni... Onu kim yoldan eləmişdi? Dursun. Onu kim o kökə salmışdı? Dursun! Nəcəf! Sənin bu xeyrə, şərə yaramaz oğlun iş adamı deyil.

D u r s u n. Deyirsən, Lalə iş adamıdır?

K ə r i m. Nə qədər ki, səninlə oturub-dururdu yaxşı işləmirdi. Amma indi onu heç tanımaq olmur.

N ə c ə f. Yaxşı, bu başı batmışa nə çarə eləyək?

K ə r i m. Mən həkim deyiləm.

N ə c ə f. A Kərim ey, deyirəm gedəni evləndirək, bəlkə ağlı başına gələ.

K ə r i m. O özünü saxlaya bilmir, arvadı necə saxlayacaq?

D u r s u n. Danışdı da... Alsınlar, gör necə saxlayıram. Dədəm Nəcəfin, nənəm Şərəfin zapasına nə gəlib.

Durna otaqdan çıxıb pilləkən üstə dayanır. Söhbəta qulaq asır.

K ə r i m. Başında ağlı olan qız ona getməz!

D u r s u n. Yəni allahın Laləsi də mənə gəlməz?

K ə r i m. Gəlməz. Çünki indi siz ayrı-ayrı adamlarsınız.

D u r s u n. Əşi, özü mənə min dəfə deyib, toyumuzu eləməsən zorla gedib girəcəyəm atan Nəcəfin xarabasına. Bir də məndən başqa kimdir o zəhər tuluğunu alan?!

L a l ə *(pilləkəndən aşağı enir).* Kimə deyirsən zəhər tuluğu, ay gic-gici!

D u r s u n. Boy Laləsi...

L a l ə. Rədd ol, həyasız!

Ş ə r ə f *(onun üstünə cumur).* Mənim balama deyirsən həyasız? Hara qaçırsan? Dayan görüm!

Lalə həyətdən çıxır.

D u r s u n. Öyrədiblər... İşin yoxdur.

K ə r i m (Dursuna). Oğlum, bir bura gəl! Səndə təqsir azdır.

D u r s u n. Alıram boynuma.

K ə r i m. Doğru deyiblər ki,balıq başdan qoxuyar. *(Nəcəfi göstərir.)*

N ə c ə f. Nə? Balıq! Gedək oğlum! Heç eybi yoxdur! Mən bir də sənin bu qapından içəri girsəm, nakişiyəm, nakişi.

K ə r i m. Bu təntənəli günümüzdə qanımızı qaraltmaym, görək. Xoş gəldiniz! Yol açıqdır.

Ş ə r ə f *(şeylərini yığışdırır),* Gedək, heç eybi yoxdur.

Gedə-gedə deyinirlər.

D u r s u n. Məməsi, dədəsi, gedək.

Ş ə r ə f. Heç eybi yoxdur. Örkən nə qədər uzun olsa yenə gəlib doğanaqdan keçəcək. Bundan qabaq xoruz yoxdu, sabah açılmırdı?

D u r s u n. Qədrimi bilmədilər, heyf məndən, itirdiniz məni.

Gedirlər.

N i s ə. Boy başıma xeyir!.. Dursunu qınama, kişi. Bu qocalarda həyadan, abırdan əsər-əlamət yoxmuş, yox.

K ə r i m. Gedək, ay arvad; ara yerdə xörəyimiz soyudu. *(Otağa getmək istərkən, kolxozçular gəlirlər.)*

K ə r i m. Xoş gəlmisiniz! Xoş gəlmisiniz!

X o r

Sağ ol Kərim, var ol Kərim!
Biz heyranıq qüdrətinə.
Bizim ellər qiymət verir
Bu mənalı zəhmətinə.

Dost ellərin qüvvəti var
Bükülməyən qollarında.
Alnın açıq, üzun ağdır
Qalibiyyət yollarında.

K o l x o z ç u l a r. Sizi ürəkdən təbrik eləyirik!

K ə r i m. Mən də sizi təbrik eləyirəm. Bundan da xoş günləriniz olsun.

Q ə m ə r (qaçaraq gəlir). Gəlirlər, gəlirlər... O da gəlir.

N i s ə. Başa düşmədik. Gələnlər kimlərdir? O gələn kimdir?

Q ə m ə r. Durnadan soruşun, desin sizə. Onu hamıdan yaxşı o tanıyır.

Səhnə arxasından Muradın səsi eşidilir.

D u r n a. Odur, o...

K ə r i m. Qızım, utanma, çıx qabağına.

N i s ə. Kişi, gələn... Moskovdan mənə salam göndərən oğlandır.

Murad bir dəstə kolxozçu ilə gəlir. Görüşürlər.

M u r a d. Salam, yoldaşlar!

N i s ə. Niyə belə gec?

K ə r i m. Onu qınama. Sən Moskovaya pay-piyada gedib-gəlməyi asan bilirsən?

M u r a d. Salam, Kərim dayı!

K ə r i m. Salam! Nisə, axır mən də öz Moskov salamımı aldım. Murad, oğlum, qızıl nişanını da ürəkdən təbrik eləyirəm... haqqındır, almısan.

D u r n a. Orda heç bizi yada salırdınmı?

K ə r i m (gülərək). Bizi niyə, məni desənə!

M u r a d. Kərim dayı, sizi də, onu da.

K ə r i m. Daha mənə yox da. Bizi də ona görə.

M u r a d. Kolxozumuzda nə var, nə yox?

K ə r i m. Onlardan soruş.

L a l ə. Niyə, işlərimiz çox yaxşıdır.

M u r a d. Boy, Lalə!

L a l ə. Kərim dayının briqadası hamını ötüb.

M u r a d. Çox şadam!

D u r n a. Lalə indi başqa qızdır. O, indi bizim briqadamızda işləyir.

M u r a d. Çox gözəl! Kərim dayı, daha məndən incik deyilsən ki?

K ə r i m. İncik idim... Daha yox. A Hilal, niyə dayanmısan? Tez keç evin dalındakı qoçu kəs, yaxşı bir kabab yeyək.

H i l a l. Baş üstə! *(Gedir.)*

L a l ə. Kərim dayı, qoy Murad bizə Moskvada gördüklərindən danışsın.

K o l x o z ç u l a r. Danışsın, danışsın.
M u r a d. Bu gözlərim üstə!

Ona saz verirlər.

Gözəl Moskvada məhəbbətlə mən
Gəzib addım-addım hər yeri, gördüm.
Ellər paytaxtında, doğma şəhərdə
Gülür insanlığın səhəri, gördüm.

Sülhün beşiyidir torpağı, daşı,
Hər zaman göylərə ucalır başı.
Doğma Bakımızın böyük qardaşı
Paytaxtlar paytaxtı şəhər gördüm.

Kütləvi rəqs başlanır.

Xor

Sülhün xoş nəğməsilə açılır hər gün səhər,
Vətənin bayrağına yazılır sonsuz zəfər.
Təbiət dəyişir, qüdrətimizlə,
Həyat gözəlləşir, zəhmətimizlə.
Sevinir nəsillər, gülür candan, ürəkdən
Var olsun bu ellər, var olsun azad vətən
Günəşi salamlayır kəndi, şəhəri,
Gülür kommunizmin al şəfəqləri.

Hamı rəqs edir.

P Ə R D Ə

*1947*

## GƏLDİ-GEDƏR

*Dörd pərdəli komediya*

İŞTİRAK EDƏNLƏR

| | |
|---|---|
| Q o r x m a z o v | - 55 yaşında |
| D ü n y a | - 40 yaşında |
| D i l a v ə r | - 60 yaşında |
| B a y r a m a l ı | - 45 yaşında |
| G ü l a r ə | - 25 yaşında |
| D ə m i r o v | - 50 yaşmda |
| N a d i r | - 30 yaşında |
| F a t i | - 45 yaşında |
| R ə h i l ə | - 25 yaşında |
| M i l i s i o n e r | - 35 yaşında |

## BİRİNCİ PƏRDƏ

Modalar atelyesi. Qorxmazovun kabineti. Otağın iki qapısı var. Ustalar, işçilər, müştərilər gəlib Qorxmazovu soruşurlar. Otağın koridora pəncərəsi də vardır. Qapıçı Dəmirov Qorxmazovu soruşanları bayıra çıxarır. Qorxmazovun başı üstündə bu şüar yazılmışdır:

"Əyninə paltar zakaz vermə çasni mastera,
Pullarını vozduxa sovurma napras yerə".

D ə m i r o v. Yoldaş qırğom, tavariş qırğom, başına dönüm qırğom, qadanı alım qırğom!

M ü ş t ə r i l ə r. Canım, bizə müdir gərəkdir.

D ə m i r o v. Anam qırğom, bacım qırğom, bayıra, bayıra...

D i l a v ə r *(gəlir)*. Hanı bu Qorxmazov?

D ə m i r o v. İndicə gələr. Müavini Gülara öz otağındadır ki...

D i l a v ə r. Çün arvad tayfasilə alış-verişim yoxdur. *(Gedir.)*

Müştərilər yenə içəri girmək istəyirlər.
Dəmirov onları bayıra çıxarır.

D ə m i r o v. Qadanızı alım bayıra, başınıza dönüm bayıra.

B a y r a m a l ı *(gəlir).* Salam! *(Əlində zağarası getmiş yekə bir portfel vardır.)*

D ə m i r o v. Əleykəssalam.

B a y r a m a l ı. Qorxmazov gəlib?

D ə m i r o v. Hələ yox... Aşna bazar günü bostanımıza gedirik? Nəyimiz var bostanda?

B a y r a m a l ı. Xiyarımız da var, pomidorumuz da... Ancaq unutma ki, bostanda araq bitmir ha. *(Gedir.)*

Baş usta *(əlindəpaltar bir neçə adamla içərigirir).* Qorxmazov yoldaş hanı?

Gülara da gəlir.

G ü l a r a. Hanı bu Qorxmazov?

D ə m i r o v. Gəlməyib, səhərdən aləm onu axtarır.

G ü l a r a. Onu telefonda vacib bir yerdən soruşurdular...

Daha bir neçə müştəri gəlir.

M ü ş t ə r i. Belə də iş olar... Saat on ikidir. Direktor hələ də yerində deyil.

D ə m i r o v. Buyurun onun sağ əli Gülara xanımla danışın.

G ü l a r a. Sözünüzü mənə də deyə bilərsiniz, qulaq asıram.

M ü ş t ə r i l ə r *(bir səslə).* Yoldaş direktor, mənim kostyumum, mənim paltom, mənim şlyapam, mənim tumanım...

G ü l a r a *(Qorxmazovun stolunun dalında oturur).* Ancaq bir-bir danışın.

M ü ş t ə r i. Mən keçən il bu vaxt sizin atelye modaya...

D ə m i r o v *(pəncərədən baxaraq).* Aha, odur, Qorxmazov gəlir.

Q o r x m a z o v *(içəri girir).* Dəmirov! Sənə min kərəmlə deməmişəm ki, mən olmayanda kabinetimə heç kəsi buraxma? Hanı sənin nizamlı-intizamlı kulturan, hanı?

D ə m i r o v. Deyirəm qulaq asmırlar.

Q o r x m a z o v. Necə yəni qulaq asmırlar?! Məndən əvvəlki direktorun başına çıxmışdılar, istəyirsiniz indi də mənim başıma çıxsınlar?.. Hamı bayıra... priyomu növbə ilə başlayacağam.

D ə m i r o v. Qardaşlar, bayıra, bacılar bayıra!..

Hamı bayıra çıxır.

Q o r x m a z o v. Gülara, məgər mən ölmüşəm ki, sən mənim stolumun dalında oturub rəhbərlik eləyirsən?

G ü l a r a. Nə rəhbərlik? Sizinlə vacib işim vardı. Birdən müştərilər başladılar ki...

Q o r x m a z o v. Onları bilmirəm... Amma sən yaman başlamısan. Onu bil ki, adamın iki başı olmadığı kimi, bu idarənin də iki başı yox, bir başı var... O baş da mənəm, mən!

G ü l a r a. Bəs biz nəçiyik?

Q o r x m a z o v. Siz mənim əmrlərimin qulu.

G ü l a r a. Lakin unutmayın ki, yalnız özü ilə məşğul olan bir baş bu işlərin öhdəsindən gələ bilməz.

Q o r x m a z o v. Gələ bilər Gülara, gələ bilər. Bu kərənlik keçdim günahından, ancaq bir də mənim stolumun dalında oturma.

Dəmirov stulda oturur.

G ü l a r a. Çalışıram, yoldaş direktor... *(Gedir.)*

Q o r x m a z o v. Dəmirov, Marksı ordan mənə ver görüm. *(Dəmirov şkafin içindən Marksın bir tomunu ona verir.)* Bəzi ağzı göyçəklər deyirlər ki, mən öz üzərimdə işləmirəm. Böhtançılar, bəs bu nədir? Qoy bu kitab burda, göz qabağında olsun. Qoy bunu tamamlayım, sonra keçecəyəm yuxarı... *(Mürgüləyir.)* Düz demirəm adə?

D ə m i r o v *(diksinir).* Ha? Bəli.

Q o r x m a z o v. Adə Dəmirov, yatırsan? Mən sizə kərənlərlə demişəm ki, fizik kulturası eləməmiş işə gəlməyin?

D ə m i r o v. Demisiniz... ancaq gecə...

Q o r x m a z o v. Bizim kimi adamlarda sağlam bədən, sağlam ailə, sağlam dostbazlıq olmalıdır. Yox, gərək mən özüm sizinlə məşğul olam. Gündə radio deyir ki, məmə yeyəndən, pəpə deyəncən fizik kulturası eləməlidir. Bunsuz adamın ürəyi, beyni kif atar. Əslinə baxsan mənim

ağlımı artıran elə bu fizik kulturasıdır. Evimdəki fizik kulturası dəmdəsgahını görmüsən? Tez mənim adamlarımı bura çağır.

Dəmirov gedir.

Yox, yox, mən özüm öz işçilərimi nizam-intızama çagırmasam, iş getməz.

Bayramalı, Dilavər, Gülara, Dəmirov, Nadir,
dərzilər əllərində paltar, şlyapa içəri girirlər.

Q o r x m a z o v. Sıraya düzül! *(Hamı sıraya düzülür. Gülaradan, Nadirdən başqa)* Gülara, Nadir, bunun sizə dəxli yoxdur?

G ü l a r a. Bu oyuncaq kimə gərəkdir axı...

Gedirlər, pəncərədən baxıb gülürlər.

Q o r x m a z o v. Yaxşı, yaxşı, mənim adamlarım, sıraya düzül! *(Düzülürlər.)* Dalımca arş... *(Otaqda addımlayırlar.)* Sola dön! *(Biri sağa, digəri sola dönür.)* Sağa dön! *(Yenə qarışıq dönürlər.)* Afərin! Geriyə dön! Yeni sağlam qüvvə ilə işə başla... Arş marş... *(Hamı gedir.)* Varam belə kadrlara. *(Qorxmazov gəlib yerində oturur və birdən ayağa qalxır, zəngi basır.)* Adə, Dəmirov...

D ə m i r o v *(gəlir).* Salaməleyküm! *(Əl uzadır.)*

Q o r x m a z o v. Çəkil... Belə də şəriət olar? Yox, yox, mən belə şəriətdə sizə rəhbərlik eləyə bilmərəm. Oturanda dev kimi adam dönür cırtdana. Siz allah, bir görün sizdən nə qədər alçağam. Halbuki gərək siz məndən çox-çox alçaq olasınız.

D ə m i r o v. Elədir ki, var, yoldaş şey, dülgər gəmişdi... lap yadımdan çıxıb... bu dəqiqə... (Şkafdan dörd taxta parçası çıxarır.) Dülgər dedi ki, bunları vurarsınız Qorxmazovun ayaqlarına...

Q o r x m a z o v. Necə? Bir nallanmağım əskikdi! "Beqramotnik"lər.

D ə m i r o v. Sizin yox ki, stolun ayaqlarına... *(Taxta parçalarını stulun ayaqlarına keçirir, stul hündür olur.)*

Q o r x m a z o v. Bu başqa məsələ... Buna deyərəm şəriət, ancaq telefonum qoşalaşsaydı daha heç dərdim-zadım olmazdı. Ölmərik bəlkə onu da gördük. Dəmirov, get, Bayramalını çağır... *(Dəmirov gedir.)*

Yaman yoruldum, heç canımın qədrini bilmirəm ki. Bu qədər də işləmək olar? Görək radio nə çalır. Vaxtıdır: *(qurur.)*

R a d i o. İndi də musiqini dinləyin.

Q o r x m a z o v. Ver gəlsin.

Radio oxuyur.

Səni qəlbimdə gəzdirib hər an,
Eşqimiz görməsin dedim hicran.
Ala gözlüm mənimkisən bildim,
Sənin eşqinlə ağladım, güldüm.
Gülə bilməz bahar sənsiz,
Ürəyim od tutub yanar sənsiz.
Dönmərəm heç sözümdən ey canan!
Getmə bir an gözümdən ey canan!
Səndən ilham alır mənim könlüm,
Bizi cürət edib ayırmaz ölüm.

Bu zaman Rəhilə qucağında körpə içəri girir.

Q o r x m a z o v *(Rəhiləyə).* Ay qız, niyə gəlmisən? İşçilərim səni görmədilər ki?

R ə h i l ə. Mənim gözlərim körpəmdən başqa heç nə görmür. Artıq mən dözə bilmirəm. Öz körpənə sahib ol.

Q o r x m a z o v. Deyirsən ki, atelye modamın yanında zorba bir detski yasli da açım?!

R ə h i lə. Başıma bu oynu açdığın bəs deyil, bir danışırsan da. Yoxsa bunu danmaq istəyirsən. *(Körpəni göstərir.)* "Arvadım yoxdur... Ancaq səni sevirəm, subayam... səni alacağam..."

Q o r x m a z o v. Mən səni alacaqdmı. Sonra dərindən fikirləşib gördüm ki, yox, əgər mənim kimi namuslu adam ailə pozğunluğu ilə məşğul olsa, onun atasını dalına sarıyarlar. Səhvimi lap vaxtında düzəltdim. Səni alsaydım, onda gərək bax bu stolumdan əl çəkəydim. Bunsuz isə mənə gün-güzəran yoxdur, yox... Başa düşdün?

R ə h i l ə. Bəli, mən aldandığımı çoxdan başa düşmüşəm. Anam deyir ki, bu uşaq kimindirsə get onun evinə. Deyirəm atası orduya gedib, qayıdar... İnanırlarmı?

Q o r x m a z o v. Ay qız, anana de ki, uşağın atası Allah rəhmətinə gedib.

R ə h i l ə. Allah ağzından eşitsin.

Q o r x m a z o v. Rəhilə, gəlsənə ustanı çağırım sənin əndamına layiq təzə modni bir paltar tiksin, hə...

R ə h i l ə. İstəməz.

Q o r x m a z o v. Ay qız...bir ağıla gəl, qoy sənə biraz xərclik verim. *(Pul uzadır.)*

R ə h i l ə *(pulu qaytarır)*. İstəməz! Mən dilənçi deyiləm. *(Cibindən konvertləri çıxarıb Qorxmazovun üzünə çırpır.)* Al, bu da sənin mənə yazdığın məhəbbət məktubları. Adını dəyişib başqalarına göndərərsən.

Q o r x m a z o v. Mən sədaqətçin.

R ə h i l ə. Xeyr...Xeyr, sən məhəbbətçin, sədaqətçin yox, fırıldaqçın, avantüra üçün yaranmısan, binamus... *(Körpəni stol üstünə qoyur və telefon dəstəyini götürür.)* Mən bu saat lazımi yerə zəng vuraram.

Q o r x m a z o v. Vurma, vurma, qoy yerə... Bu səninçin küçə telefonu-zadı deyil... *(dəstəyi əlindən alır).*

R ə h i l ə. Mən telefonsuz da sözümü lazımi yerinə çatdıra bilərəm.

Q o r x m a z o v. Xux, qorxdum elə, çatdır görüm necə çatdırırsan.

R ə h i l ə - Bu dəqiqə... *(Yüyürə-yüyürə gedir.)*

Q o r x m a z o v. Ay qız, hara? Dayan! *(Bərkdən qışqırır və sonra qorxub səsini yavaşıdır. Pəncərədən)* Ay qız, Rəhilə... Napras yerə işə düşmədik. Siz anada namusa, vicdana baxın. Əşi, azı üç-dörd dəfə rəsmi arvad alıb-boşamışam, ancaq belə kələyə düşməmişdim, düşdüm. *(Gözü uşağa sataşır, diksinir.)* Bismillah-ərrəhman-ərrəhim!.. Yoxsa bu dilsiz körpənin də gözü mənim stolumdadır!.. Yaxşı, indi gəlib bunu burda görsələr neylərəm. *(Uşağı qucağına alır.)* Mən ölüm, məni ifşa eləmə. Özüm ölüm Dünya xanım olmasaydı, səni aparardım evə... *(Səs gəlir.)* Deyəsən gələn var... *(Fikirləşir.)* Aha, tapdım, tapdım... hələlik səni yan otağa qoysam necədir?! *(Uşağı yan otağa qoyur.)*

D ə m i r o v *(gəlir).* Salam əleyküm...

Q o r x m a z o v. Zəhrimar salam əleyküm, hər içəri girəndə adam salam verər! Bayramalı nə oldu?

D ə m i r o v. İndicə gələr... *(Diqqətlə Qorxmazovu süzür)* Yoldaş Qorxmazov, rənginiz niyə əhəng kimi ağarıb?

Q o r x m a z o v. Heç, malareyam var. *(Uşaq ağlaması)*

D ə m i r o v. Bu nə səsdir, yoldaş Qorxmazov?

Q o r x m a z o v. Aha, səs yan otaqdan gəlir. Deyəsən orda siçan var.

D ə m i r o v. Necə? Siçan?!

Q o r x m a z o v. Adə birdən parçaları çeynəyib tökərlər, düşərik qana, tez gir otağa, qov siçanları.

D ə m i r o v, Xeyr atam... mən uşaqlığımdan siçandan qorxuram. Qoy həyətdən pişik çağırım tutsun, piş-piş... piş...

Q o r x m a z o v. Xərifləmə... Tez ol, özün tut.

D ə m i r o v. Ya həzrət Fatma, yahəzrət bibi... *(Qorxa-qorxa otağa girir, uşağı gətirir.)* Nə zorba siçandır...

Q o r x m a z o v. Bu nədir, adə...

D ə m i r o v. Möcüzədir, möcüzə.

Q o r x m a z o v. Bu sənin kələyindir, əclaf! Hamıdan qabaq sən burda olmusan.

D ə m i r o v. Vallah xəbərim yoxdur.

Q o r x m a z o v. Tez ol, al uşağı boynuna!

D ə m i r o v. Boynuma alım?

Q o r x m a z ov . Əlbəttə, boynuna.

D ə m i r o v. Baş üstə. *(Uşağı boynuna qaldırır.)*

Q o r x m a z o v. Qoy yerə... Mən vicdanının boynuna deyirəm, öküz boynuna yox...

D ə m i r o v. Aləm bilir ki, mən sonsuzam... İnsaf yaxşı şeydir axı...

Q o r x m a z o v. Yaxşı, bəs onda bunu mənim otağıma kim qoyub, kim? *(Fikirləşir.)*

D ə m i r o v. Nə bilim, səhər tezdən Gülara burda qurdalanırdı...

Q o r x m a z o v. Aha, tapdım, tapdım!

D ə m i r o v - Kim qoyub?

Q o r x m a z o v. Bunu bir sən bil, bir də mən...

D ə m i r o v - Sən bilirsən ki, mən sirr dağarcığıyam.

Q o r x m a z o v. Bn Gülaranın işidir, Gülaranın. O, bizə şər atmaq istəyir. Öz körpəsini atıb bizim üstümüzə. Bu yaxında kurorta getməsi də fırıldaqdır.

D ə m i r o v. Görəsən kimdəndir?

Q o r x m a z o v. Allah bilir, hələlik səs-küy qoparmaq lazım deyil. Başa düşdün? Bu bizə gələcək üçün lazım olacaq. Tez əyalını, o Fatma xalanı çağır görüm.

D ə m i r o v *(pəncərədən Fatmanı səsləyir).* Ay qız, Fatma!

Q o r x m a z o v. Yaxşı Gülara...

F a t m a *(gəlir).* Salaməleyküm!.. Bıy, bu körpə kimindir?

Q o r x m a z o v. Onu sonra sənə Dəmirov deyər. *(Dəmirov Fatmanın qulağına pıçıldayır.)* Deyin görüm ikiniz ər-arvad mənim rəhbərliyim altında nə qədər maaş alırsınız?

D ə m i r o v. 120manat.

Q o r x m a z o v. Sizə bir o qədər də mən Qorxmazov verərəm. Oldu? *(Dəmirova pul verir.)* Çox da bəzi atalar, tfu, atalar yox, analar vicdansızlıq eləyib öz gül kimi körpələrini atırlar çölə. Bəs bizim namusumuz harda qaldı?! Bu günlərdə nəvəniz olmuşdur. Qoy gəlin bu körpəyə də baxsın. Bunun tərbiyəsini sizə tapşırıram. Hələlik bir siz bilin, bir də mən...

D ə m i r o v və F a t m a. Arxayın olun!

Q o r x m a z o v. Aparın!

F a t m a. Sizə bir kəlmə sözüm vardır.

Q o r x m a z o v *(diksinir).* Nə söz?

F a t m a. O söz ki, mən qocalmışam, mənə yazığınız gəlsin. Siz idarəni yaman zibilləyirsiniz. Bir az... *(Yerdən papiros kötüklərini yığır.)*

Q o r x m a z o v. Artıq danışma, get!

Dəmirov və Fatma gedir.

Q o r x m a z o v. Malades sənə Qorxmazov. Bu tələ, kimin ağlına gələrdi?! Məni məğlub eləyən hələ anadan olmayıb. *(Ayna qabağında sifətində gah ciddi, gah mülayim hərəkətlər göstəri., Sonra stol arxasında oturub əl və sifat hərəkəti ilə məşq eləyir.)* Yaxşı Gülara, görüm əlimdəki bu canlı dakumentin qabağına necə çıxacaqsan?

B a y r a m a l ı *(gəlir).* Salam, yoldaş Qorxmazov. Gəldim ki, sizi xəbərdar eləyim ki, siz rəhbərliyə gələn gündən bağçılıq işlərimiz öz yoluyla gedir. Deyirəm vallah təbiətin də özünə görə qanacağı var. Sizin mərhəmətinizlə bostanımızda xiyarımız da, pomidorumuz da, badımcanımız da xeyli tərəqqi etmişdir. Bircə buyurun baxın! *(Portfeli açıb meyvəcatı stolun üstə tökur.)*

Q o r x m a z o v. Əhsən... Bəs qovun-qarpızırmzın kefi necədir?

B a y r a m a l ı *(qulağına pıçıldayır),* On-on beş pud nübarlıq göndərmişəm.

Q o r x m a z o v. Malades. Bax varam belə can yandıran çesni rabotniklərə.

B a y r a m a lı. Buyurun, bu kağızlara qol çəkin.

Q o r x m a z o v. Bəri ver... *(Kağızlara qol çəkir.)* Bostanımızın inkişaf və tərəqqisini təsdiq edirəm. Aha, yaxşı yadıma düşdü... Qorxuram mən evə gedənəcən Dünya xanım qohumlara qonşulara göndərə.

B a y r a ma l ı. Rəfiqəniz elə qadınlardan olmasın gərək.

Q o r x m a z o v. Elədir, elədir! Azadsan...

B a y r a m a l ı. Hörmət və ehtiram. (Gedir.)

İçəri iki qadın girir.

D e m i r o v. Analar qırğom, bacılar qırğom.

M ü ş t ə r i q a d ı n. Ağıllı danış. *(Qorxmazova)* Yoldaş direktor, mənim şikayətim var.

Q o r x m a z o v. Necə, mənim rəhbərliyim altında şikayət?

M ü ş t ə r i q a d ı n. Burda da üz gördülük? Siz allah baxın görün usta onunçün necə tikib, mənimçin necə? *(Ayna qabağında fırlamır.)*

A k t r i s a. Yoldaş direktor, mən aktrisayam. Bu paltarı öz zövqümə görə tikdirmişəm. Bu qadın yapışıb yaxamdan, deyir ki, gəl bu saat gedək müdirin yanına, sən nəçisən ki, üz görüb səninçin belə qəşəng paltar tikiblər. Daha nə bilim nələr, nələr...

Q o r x m a z o v. Heç bir şey başa düşmürəm.

M ü ş t ə r i q a d ı n (güzgü qabağında əda ilə öz fiqurasını nümayiş etdirir). Siz allah mənimkinə də baxın, onunkuna da...

U s t a *(Qorxmazovun qulağına pıçıldayır).* Günah məndə deyil.

Q o r x m a z o v. Ay arvad, nahaq, napras yerə skandal eləyib şum salma... Aldığım sveji məlumata görə sizdə yerli-dibli fiqura yoxdur.

M ü ş t ə r i q a d ı n. Necə, məndə fiqura yoxdur... *(Güzgü qabağında fırlanır.)* Bəs bu nədir?

Qorxmazov. Canım, mən demirəmki, usta deyİr də...

M ü ş t ə r i q a d ı n. Aha, başa düşürəm... O, aktrisadır-nədir, ustanı razı salıb, odur ki, o da onun xeyirə-şərə yaramaz fiqurasına tərəfdar çıxır. Mən ustaya artıq bir şey vermədiyimçin mənim gül kimi fiquramı yerə vurur. Belə də haqsızlıq olar?

Q o r x m a z o v. Yoldaş fiqura, siz lap qranitsani keçdiniz ha...Mənə Qorxmazov deyərlər. Qəprizbazın biri qəprizbaz... Təvəqqe eləyirəm bayıra...

D ə m i r o v. Anam qırğom, xalam qırğom.

M ü ş t ə r i  q a d ı n. Mənə xala deyirsiniz! Heç eybi yoxdur... Ərimin qeyrəti olsa, gəlib öz arvadının fiqurasını müdafiə elər. *(Hirslə gedir)*

Telefon zəng vurur, Qorxmazov telefon dəstəyini götürür.

Q o r x m a z o v. Allo, guya biz fiqura-zad görməmişik. *(Telefona)* Necə? Bağışlayın, əşi... səninlə deyiləm? Necə, necə, mən yatmışam? Dünən Nadirlə Gülaranın nişanı olub? Sən də ordaydın. Adə mən onların direktor müdiri ola-ola mənim bu dəm-dəsgahdan xbərim olmasın? Bəli, bəli, burda olacağam. Sənə nə növbə axı... Əla parçadır. Arvad-uşağa da? O da bu gözlərim üstə... Dediyim o orden əhvalatını bir yoxla görək, sağ ol! *(Dəstəyi asır.)*

Nadir əlində eskizlər gəlir.

N a d i r. Salam, yoldaş Qorxmazov!

Q o r x m a z o v. Yoldaş, rəssam yenə padpolnı işləyirsiniz ha... Rəssam olanda nə olar ki, adam öz rəhbərini saymaz?

N a d i r. Nə deyim, elə birdən oldu. Yanınızda xəcalətliyəm.

Q o r x m a z o v. Heç bılirsən sənin üstündə başıma nələr gəldi? Deyirlər ki, ştatda belə bir vəzifə yoxdur. Dilavərə poladdan keçən bir əmr verib keçirtdim səni öz ştatıma. İndi sən də gərək elə paltar nümunələri düzəldəsən ki, görənlərin gözləri dəvə gözü kimi açılsın.

N a d i r. Buyurun, çəkmişəm, *(Eskizləri göstərir.)*

Q o r x m a z o v *(diqqətlə baxır).* Bax bu yaxşı, bu yaramaz. Bu yaramaz. Bu da yaramaz. Məni qana salma... Əl çək bu köhnə əks inqilabi modalardan, canım... Deyirsən ki, butulka balaq şalvarı Nikolay vaxtı burjuylar da geysin, inqilabdan sonra bu gün bizim adamlar da?.. Yox, yox, yenilik lazımdır, yenilik! Qoy bizim şalvarların balağı ürəyimiz kimi şiroki olsun. Qoy başqa atelye modalar da bizdən ibrat götürsünlər. Çalış cavan oğlan, özünü göstər!

N a d i r. Çalışarıq.

Q o r x m a z o v. İndi keçək məsələnin əsasına. Onu bilirsənki, ayın 13-də parkda atelye modaların böyük sərgisi olacaq?

N a d i r. Bilirəm.

Q o r x m a z o v. Onu da bilirsən ki, ya orda mənim də çıxışım var. Dalı da karnaval, dəm-dəsgahı!

N a d i r. Bilirəm.

Q o r x m a z o v. Tikdiyimiz kostyumların, paltarların göz çıxaracağına min faiz əminəm. Əsil mətləb orasındadır ki, sənə tapşırdığım bəzək şəkillərini vaxtında qurtarasan.

N a d i r. Çoxdan qurtarmışam.

Q o r x m a z o v. Afərin, bəs o biri işimiz necə olsun? Onu yarımçıq qoydun axı...

N a d i r. Şəklinizmi?

Q o r x m a z o v. Əlbəttə.

N a d i r. Ancaq, indi bir vacib işim var.

Q o r x m a z o v. Adə, bundan da vacib iş olar. Bu gün-sabah anadan olan günümdür axı. *(Qorxmazov ayna qabağında özünü düzəldib, sonra oturur, Barmağını gicgahına qoyub ciddi vəziyyət alır.)*

N a d i r *(üzü divara söykənmiş şəkli çevirir. Fırçanı rəngə batırıb işə başlayır.)* Yoldaş Qorxmazov, sizi təkrar bir məsələdən xəbərdar etməliyəm ki, mən janr etibarilə karikaturistəm.

Q o r x m a z o v. Necə-necə, qarğaturist?.. İstəyir lap çalağanturist ol... ancaq...

N a d i r. Nə qarğaturist, nə də çalağanturist. Karikaturist.

Q o r x m a z o v. O nə deyən sözdür?

N a d i r. Peşəmin janrı, xüsusiyyəti belədir, gülməlidir.

Q o r x m a z o v. Lap mənim adamımsan... Balam, ağlamalı kimə gərəkdir. Bir də canım... bu naz-mazını burax... Mənim üçün o xudojnik Əzimov deyilsən ki, tələbə babasan. Çək şəklimi, al maaşını.

N a d i r. Dinməyin, çəkirəm.

Q o r x m a z o v. Yoldaş Nadir, bir mənə de görüm... Belə otursam... *(Barmağın çənəsinə qoyur.)* İnsan bəşəriyyətinin xoşuna gələr, yoxsa bu sayaq?! *(Barmağını gicgahına qoyur.)*

N a d i r. Hər ikisi mənalıdır.

Q o r x m a z o v. Heç xəbərin var ki, ya bu şəkli çəkməklə sən özünü tarixə salırsan?

N a d i r. Xeyr.

Q o r x m a z o v. Sən hələ məni yaxşı tanımırsan. Eh, hardan tanıyasan ki, sən hələ detski malçiksən.

N a d i r. Nəyəm?

Q o r x m a z o v. Detski malçik, yəni uşaq-muşaq. *(Döşünə döyür.)* Gözümün qanlısıdır özündən danışan adam. Əclafdır döşünə döyən. İnsan gərək həmişə partirot olsun.

N a d i r. Portret?

Q o r x m a z o v. Xeyr, partirot, yəni vətənbaz! Mən bir vətənbaz kimi deyirəmki...

N a d i r. Sakit... çəkirəm...

Q o r x m a z o v. Onda bir dəqiqə... Icazənizlə bir başımı düzəldim. *(Cibindən bir yekə, iri diş daraq çıxarıb tüksüz başını darayır.)*

N a d i r *(zarafatla).* Yoldaş Qorxmazov, bərk basmayın, dişləri sinar.

Q o r x m a z o v. Gülmə, evlənərsən sonra sənində saçlarına baxarıq.

N a d i r. Bir dəqiqə mənalı baxın ki, gözlərinizi çəkirəm.

Q o r x m a z o v. Adə bu süpürgəni nə tez-tez soxursan gözlərimə, yoxsa qəsdin məni kor eləməkdir?!

N a d i r. Qəsdim ağlınızı gözlərinizdə əks etdirməkdir.

Q o r x m a z o v. Balam, bu qədər ağlı *(alnına vurur)* bu fındıq boyda gözlərə necə yerləşdirəcəksən?

N a d i r. Bu, sənətin sirridir.

Q o r x m a z o v. Mözücədir, möcüzə! *(Qorxmazovun burnuna milçək qonur. Burnunun hərəkətilə milçəyi qovmağa çalışır.)*

N a d i r. Tamam hərəkətsiz!

Qorxmazov zəngi basır. Dəmirov gəlir.

D ə m i r o v *(Qorxmazovun əlini tutur).* Salam.

N a d i r. Tərpənməyin.

Q o r x m a z o v *(dili topuq çala-çala).* Adə, Dəmirov, sənin ala gözünə aşiq olmamışam ki, havayı maaş aldın bəsdir, tez burnumdakı milçəyi qov getsin.

D ə m i r o v *(əlilə milçəyi qovur).* Rədd ol! *(Milçək yenidən onun burnuna qonur, yenə hərəkətlə göstərir.)*

Q o r x m a z o v. Adə, bu şoğəribi kabinetimdən qovsana getsin!

N a d i r. Səssiz, hərəkətsiz!

D ə m i r o v. Bu dəqiqə. *(Kepkasilə Qorxmazovun burnuna çəkir və otaqdan guya milçəyi qovub, pəncərədən dışarı çıxarır.)* Qırğom... *(Qorğmazova)* Atası yandı.

Q o r x m a z o v. Onun yox, mənim atam yandı... Axmaq...

D ə m i r o v. O adam... sizin şey, gəlib deyirki...

Q o r x m a z o v. Get, məşğulam. Mən iş vaxtı, vəzifə başında atamı da tanımıram. Hər kimsə rədd elə ge t sin.

D ə m i r o v. Baş üstə.

Q o r x m a z o v. Adə Dilavər gəlib?

D ə m i r o v. Bəli, öz otağında zad yazır, şeir daklad... *(Stol üstündən bir şey götürüb cibinə qoyur.)*

Q o r x m a z o v *(Nadirə).* Yoldaş rəssam, bu Dəmirovu bir o əlidüzlüyünə görə saxlarmşam, yoxsa...

N a d i r. Siz yaxşı bilərsiniz.

D ə m i r o v *(Nadirə).* Qorxmazovun paltosunu tuturam, tuturam... Cib yaylığımla çəkməsinin tozunu silirəm, silirəm. *(Əyilib Qorxmazovun çəkməsini və balağını təmizləyir).* Ancaq öldürsələr də əyilən deyiləm.

N a d i r *(gülür).* Görürəm.

D ə m i r o v. Mənim başıma nə bəla gəlirsə, əyilməzliyimdən gəlir.

Q o r x m a z o v. Varam bu sədaqətə.

D ə m i r o v. Müavinin Gülara xanım isə deyir ki, bu şeydir, yaltaqlıq.

Q o r x m a z o v. Napras yerə... *(Nadirə)* Yoldaş qarğaturist, adam harda işləyirsə işləsin, gərək öz xüsusi kadrosunun qədrini bilə. And içmişəm ki, bu Dəmirovu lap qəbrəcən özümlə aparım.

D ə m i r o v. Bağışlayın, oracan gedə bilməyəcəyəm... Ancaq mən dost yolunda canımdan keçən adamam. Yoldaş Qorxmazov, istəmirəm ki, qanınızı qaraldım. Xəbərçilik əclaflıqdır. Amma bayaq dərzi Heydərlə paltar biçən barənizdə ağızlarına gələni dedilər... Biri dedi ki, sən boşboğazsan...

Q o r x m a z o v. Sən, yoxsa mən?

D ə m i r o v. Nə mən, nə sən... siz...

Q o r x m a z o v. Yaxşı, ay səmimi dost, sən onlara nə cavab verdin?

D ə m i r o v. Hə... dedim nankorlar!

Q o r x m a z o v. Bərəkallah...

D ə m i r o v. Alçaqlar!

Q o r x m a z o v. Afərin.

D ə m i r o v. Əclaflar!

Q o r x m a z o v. Maşallah!

D ə m i r o v. Sonra dedimki...

Q o r x m a z o v. Yaxşı, bəs bu ağır sözlərdən sonra onlar sənə heç nə demədilər?

D ə m i r o v. Xeyr.

Q o r x m a z o v. Nə əcəb?

D ə m i r o v. Çünki, ona görə ki, mən onları ürəyimdə söydüm.

Q o r x m a z o v. Qorxağın biri, qorxaq, tez get Dilavəri yanıma çağır. *(Dəmirov gedir. Qorxmazov əsəbiləşir.)* Canım, bu zəhrimar qurtarmadı? Mən fotoqrafların qədrini indi bilirəm. Bir sekuntda çıq-çıq qurtardı getdi. Sən isə acı bağırsaq kimi uzadırsan bu şoğəribi.

N a d i r. Bu sənət əsəridir. Bu dəqiqə qurtarıram.

Q o r x m a z o v. Bu əziyyəti ki, mənə verirsən, olmaz ki, bir iş də görəsən?

N a d i r. Nə iş?

Q o r x m a z o v. Deyirəm yavan şəkildən şey çıxmaz, avtoritetimi qaldırmaqçın olmaz ki, döşümdə heç olmasa bir-iki orden və beş-altı medal da çəkəsən?

N a d i r. Onda gərək ordenlərinizi taxıb gələydiniz.

Q o r x m a z o v. Hələ verməyiblər axı... avanson deyirəm.

N a d i r. Bağışlayın, mənim orden paylamağa ixtiyarım yoxdur.

Q o r x m a z o v. Danışdı da... Bu sayaq ki, mən işləyirəm, gec-tez alacağam.

D i l a v ə r *(gəlir).* Salam! Həyatın bu müəmmalı, mənalı dəmlərində bəndə pişəzvaxt hüzuri mübarəkinizdə hazır.

Q o r x m a z o v. Paho, paho... Dilavər, otur görək.

N a d i r. Mən qurtardım.

Q o r x m a z o v. Yaxşı, get, sonra karnaval şəkillərilə yanıma gələrsən... *(Nadir gedir.)* Düz demirəm Dilavər? Parkdakı sərgilər zamanı mənim də nitqim olacaq, sonra da karnavaldır, qoy camaat bizim sayəmizdə özüyçün kefə baxsın. Bəs canlı təbliğat necə olar, canım!

D i l a v ə r. Əlbəttə.

Q o r x m a z o v. Dilavər, bir dəqiqə bağışla. *(Zəng vurur.)* Ədə, Nəqdəli, mənəm ey, salam. Ürəyim yaman səksəkidədəir axi. Orden barədə deyirəm ey... Vallah qorxuram ki, burda partkom, mestkom mənə badalaq gələ! Qorxmayım? Gözümü bir ona dikmişəm, sənin nazirliyə xodun var axı. Mən ölüm göz-qulaqda ol! Xatircəm olum, öpürəm... Necə? Yaxşı malımız var. Nəinki köç-külfətini, lap bütün qohum-əqrəbanı, dost-aşnalarını göndər, ölməmişəm ki, sağ ol! *(Dəstəyi yerinə qoyur.)* Ordenimiz də belə. Dilavər, vallah sən hər yanıma gələndə cavanlığımız yadıma düşür.

D i l a v ə r. Mənim də.

Q o r x m a z o v. Adə, Novxanı bağları yadındadır?

D i l a v ə r. Bəs yox?

Q o r x m a z o v. Bağırsaq qovurması, qutab, kabab, şərab... araq...
D i l a v ə r. Pəh-pəh... *(Zümzümə eləyir.)*
Q o r x m a z o v. Adə məsciddə mərsiyə deməyin yadına gəlir? Onda səndə küpdən çıxan səs vardı ha...
D i l a v ə r. Söhbəti dəyişsək yaxşıdır.
Q o r x m a z o v. Dilavər, gözümə bir təhər görünürsən, aşna. Yenə mənsiz harda vurmusan?
D i l a v ə r. Çün əz qəza təsadüfi oldu. Canınçin bu saat dönmüşəm şirə, pələngə, əjdahaya, hərif istəyirəm çıxsın qabağıma.
Q o r x m a z o v. Bir söz demirəm ki, bu araq şoğərib ki var, ondan siçanın da boğazına töksən pişikdən ştraf istər.
D i l a v ə r. Pəh-pəh, ölmə, ölmə... tapmısan. *(Oxuyur.)*

Sənin eşqinlə əzəldən elə sərməstəm ki,
Zərrə təsir edə? bilməz gözəlim vodka mənə.
İştaham xeyli kasıbdır, nə gərəkdir ki, plov,
Yetər ey sevgili canan quru selyodka mənə.
Gər yıxılsam küçədə, tez tut əlimdən qaldır,
Durma başdan-başa çək eşq ilə sətı şotka mənə.

Q o r x m a z o v. Varam sənin belə məzəli sözlərinə.
D i l a v ə r. Üzünüzə demirəm, həqiqətən siz çox böyük vücudsunuz. Heyf, səd heyf, özünüz özünüzü tanımırsınız. Əz qəza bir az əvvəl Bayramalı ilə əsnayi müsahibədə ərz eləyirdim ki, bu mənsəb sizin kimi nadir bir vücud üçün çox balacadır, bəli.
Q o r x m a z o v. Sağ ol qədir bilən dostum, sağ ol! Məsələ yerdə deyil. Yadından çıxartma ki, mənim kimi adam balaca bir yeri böyüdə bilər.
D i l a v ə r. Sizdə düz deyirsiniz, o da. Ancaq ürəyim yaman yanır. *(Bu an Bayramalı podnosda dilim-dilim kəsilmiş qovun-qarpız gətirir.)* Pəh, pəh, ölmə, Bayramalı, ölmə!
B a y r a m a l ı. Borcumdur.
Q o r x m a z o v *(zəngi basır, Dəmirov götürür).* Adə Dəmirov...
D ə m i r o v. Salam!
Q o r x m a z o v. Uzun eləmə, get! Yanıma heç kəsi buraxma... Biz millət işiyəo məşğuluq. Nitqə hazırlaşırıq. *(Dəmirov gedir.)* Varam belə zavxoza...

B a y r a m a l ı. Məni gözləyənlər var, mən gedim. *(Gedir.)*

Q o r x m a z o v. Can yandıran adamdır.

D i l a v ə r. Çox.

Q o r x m a z o v. Yaxşı, Dilavər, sənin gözəl mühasib olduğunu bilirəm. Görüm indi o biri sənətini necə göstərəcəksən? Nitqimi deyirəm ey, yazıb qurtarmısan, ya yox?

D i l a v ə r. Çoxdan... Alın, baxın! *(Ona çox qalın bir dəftər verir.)*

Q o r x m a z o v. Adə bu boyda reç olar ki, yazıbsan. Azı on kilo gələr. Aşna, bunun hamısını danışsam nitqim səhərəcən qurtarmaz ki...

D i l a v ə r. Əslən bir o qədər uzun deyil. Yarısı nəsrlədir, yarısı da nəzmlə. Nəzm hissəsi doqquz min beytdir.

Q o r x m a z o v. Pah atonnan! Bir-iki cümlə oxu görüm reçim necə çıxıb. Xamuş.

D i l a v ə r

Həyatın şən qucağında, a yoldaşlar, tavarişi,
Atelye modamın ali qurulmuşdur bütün işi!

Q o r x m a z o v. Tişi! Saxla, adə, bu şerdir ki.

D i l a v ə r. Ərz etdim ki, yarısı nəzmiədir.

Q o r x m a z o v. istəməz.

D i l a v ə r. Niyə?

Q o r x m a z o v. Birdə gördün zəhrimarın bir yerində ilişdim, sonra?

D i l a v ə r. İlişməzsiniz inşallah.

Q o r x m a z o v. Yox, yox. (Kitabı vərəqyir.) Aşna elə birinci səhifələrdən görürəm ki, nitqimi dayaz yazmısan. Mənim kimi adama yaraşmaz ki, tribunaya çıxıb dayaz nitq eləsin. Bir az da dərinləşdir. Elə dərinləşdir ki, prenyaya çıxanlar əl-qol atıb üzə bilməsinlər, nitqimin dərinliyində batıb boğulsunlar.

D i l a v ə r. Çox qorxdum ki, nitq mübarəkinizi qəliz yazsam, daha ilişərsiniz. Buna görə də...

Q o r x m a z o v. Fikrin özünə, mənə getməsin. Nitqimi nağıl dilində yaz ki, kəmsavad camaat da başa düşsün... *(Yenə dəftərə baxır.)* Adə, bu sözləri niyə həlqəyə salmısan?

D i l a v ə r. Mötərizəyə? Bunlar sitatdır.

Q o r x m a z o v. Ştatdır? Mən ştatdan danışmayacağam.

D i l a v ə r. Sitat. Yəni özgələrin fikri, ayə.

Q o r x m a z o v. Adə mən öz gül kimi fikirlərimi qoyub özgələrin fikrinə niyə əl atım axı. Aşna, gərək təzədən işləyəsən.

D i l a v ə r. Bu gözlərim üstə.

Q o r x m a z o v. Qaldı nitqimin preniyası, yox, mən preniya, mreniya açmayacağam.

D i l a v ə r. Bunsuz olmaz.

Q o r x m a z o v. Yaxşı preniyanı da sən özün yaz. Sonra verərsən yoxlayım. Mənim reçimə zidd bir kəlmə də danışılmamalıdır. Preniyada sən danışarsan, Bayramalı danışar, Dəmirov danışar. Vəssalam. Gülaraya, o qarğaturistə və başqalarına söz verdirmərik. Sonra səsə qoyub preniyanı kəsərik, vəssalam. Adə, bir də kim məndən ağıllı söz danışacaq ki, onlara söz də verək, hə?

D i l a v ə r. Ağıllı fikirdir.

Q o r x m a z o v. Nitqimin alqışlarını da sən təşkil etməlisən.

Bu dəmdə Gülara əlində anket gəlir.

Q o r x m a z o v. Bu nədən ötəridir?

G ü l a r a. Bilmirəm, istəyiblər.

Q o r x m a z o v. Mən hər şeyçin anket doldurmaram. Yəqinki, ordençidir. Onda, sən doldur. Mən qol çəkərəm.

G ü l a r a. Ancaq bir-iki suala mütləq özünüz şəxsən cavab verməlisiniz.

Q o r x m a z o v. De gəlsin sualını.

G ü l a r a. Peşəniz?

Q o r x m a z o v. Peşəm?

G ü l a r a. Bəli, peşəniz?

Q o r x m a z o v. Yaz ki, rəhbərlik.

G ü l a r a. Nə dediniz?

Q o r x m a z o v. Niyə durub baxırsan, yaz ki, rəhbərlik. Ay qız, sizə rəhbərəm, ya yox?!

Gülara başını bulayaraq yazır.

G ü l a r a. Təhsiliniz?

Q o r x m a z o v. Necə deyim. *(Fikirləşir.)* Yaz ki, ali savadsız.

G ü l a r a. Başa düşmədim.

Q o r x m a z o v. Niyə axı? Yəni təhsili yarımçıq buraxmışam.

G ü l a r a. Yaşınız?

Q o r x m a z o v. Xeyira, fikriniz məni qoca qələmə verməkdir? Onu görməyəcəksiniz. Yaz ki, yaşı naməlumdur... Daha sualın yoxdur ki?

G ü l a r a. Sualım olmasa da, sözüm var. Bizim sovet adamları yaxşı mədəni geyinməyi sevir; bizim borcumuz isə onlarırın bu arzusunu həyata keçirməkdən ibarətdir. Lakin bizim bəzi ustalar bunu unudaraq...

Q o r x m a z o v. Yaxşı, yaxşı, sonra, görmürsən vacib millət işiylə məşğulam.

G ü l a r a. Görürəm. *(Gedir.)*

Q o r x m a z o v. Bu qızdan sənə sonra işlər danışacağam ki...

D i l a v ə r. Başa düşürəm. Yoldaş Qorxmazov, əz qəza siz əvvəllərdə gərək ki, tamojnada işləmisiniz.

Q o r x m a z o v. Tamojna nədir caınm, mən yazığı üç-dörd ay bir yerdə rahat oturmağa qoymurlar ki... bir təşkilatı cana gətirən kimi, məni ordan götürüb başqa bir idarəyə atırlar ki, oranı da cana gətirim. Mən ölüm vicdanla, düzünü de görüm, bu bir neçə ayın müddətində buranı cana gətirmışəm, ya, yox?

D i l a v ə r. Şəksiz, şübhəsiz, pəh-pəh, ölmə, ölmə!

Q o r x m a z o v. Bəziləri deyir ki, gərək rəhbəri olduğun idarənin cikini-bikini, bütün sirlərini biləsən. Səhvdir, mənim əqidəmcə doktor olmasan da, böyük bir xəstəxananın müdiri ola bilərsən. İncinar olmasan da, zorba bir zavoda direktor müdiri olmağa ixtiyarın var. Canım qoy onlar işləsinlər, sən də kağız-kuğuza qol çəkib rəhbərliynini elə. Üzünü də elə apar ki, hamı səndən tük salsın. Yoxsa başına çıxarlar, qara-qorxusuz. filansız da işləmək mənə əl verməz.

D i l a v ə r. Pəh, pəh... Ölmə, ölmə! Hərçənd siz bizdən əfzəl bilirsiniz. Lakin məndən sizə vəsiyyət, əvvəla bilmədiyiniz şeyə bilmirəm deməyin və saniyən özünüzdən çox biləni nəbada həndəvərinizə qoyasınız, çün hörmətdən düşərsiniz.

Q o r x m a z o v. Ağlabatan sözlərdir.

D i l a v ə r. Yoldaş Qorxmazov, təhər-tövürünüzdən belə məlum olur ki, cavanlıqda məndən ayrılandan sonra beş-altı darülfünun qurtarmısınız.

Q o r x m a z o v. Xeyr, mən heç nə qurtarmamışam. Ömrüm məclislərdə, toyxanalarda keçib. Hər yerdə həmişə birinci mən danışmışam. Gördüyümü, eşitdiyimi yığmışam bax bura. *(Başını göstərir).* Bax bıra. *(Qarnını göstərir.)* Darülfünun nədir canım...

Pəncərədən başlar uzanır. Dəmirov onları kənar edir.

D ə m i r o v. Yoldaş qırğom, tovariş qırğom... atam qırğom, bacım qırğom.

Q o r x m a z o v. Dilavər, başın nitqimi yazmağa qarışıq olsa da, gərək mənim anadan olan günümə qədər bu şəklimin altı üçün bir-iki kəlmə qəribə bir qəzəl deyəsən...

D i l a v ə r

De görüm dayaz olsun qəzəl, ya dərin olsun.
Təndir tək isti olsun, hovuz tək sərin olsun?
Müsahibdir sanma ki, atelyamda küllənir,
Məzəli bir şairəm, bundan xəbərin olsun...

Q o r x m a z o v. Xəbərim var, dostum, var.

D i l a v ə r. Buyurun görək hansı qafiyələri işə salım, məsələn, bir var kamiyab, afitab, kəbab, şərab, bir də var, tellər, sellər, bellər, yellər...

Q o r x m a z o v. Ayaqlar.

D i l a v ə r. Xeyr, ədəbiyyata yamaq vurma. Yaxud, kaman, aman, çoban, daban...

Q o r x m a z o v. Pencə.

D i l a v ə r. Xeyr, pencənin qafiyəsi mütləq gəncə, ya da ki, səncə, məncə olmalıdır.

Q o r x m a z o v. Çox dərinə getmə... Bir az lotu yaz. Elə ordenli şairimiz Nizami də prostoy dildə yazıb.

D i l a v ə r *(gülür).* Pəh, pəh, ölmə, ölmə!.. Siz ədəbiyyat tarixini də çox gözəl bilirsinizmiş...

Q o r x m a z o v. Sən məni nə bilmisən. Mənim bu sinəm xəzinədir, xəzinə. Bax, Xəyyamov burda yatır, Füzulov burda yatır. Seyid Əzimov burda yatir. Əliağa Vahidov burda yatır, Dilavər burda yatır.

D i l a v ə r *(gülür).* Bu qədər yorğan-döşəyi hardan tapırsınz?

Q o r x m a z o v. Gülərsən... bəli biz beləyik, yoldaş Dilavər... Qaldı şəklimin altı üçün bir bürüştə qəzəli yadından çıxarma ha!

D i l a v ə r. Baş üstə...

Bu zaman Dəmirov tələsik dalı-dalı içəri girib şəklə baxır.

Q o r x m a z o v. Yenə nə var, adə?..

D ə m i r o v. Salaməleyküm... Sizin o əyal...

Q o r x m a z o v. Hm, dedim ki, məşğulam. Bir də bir kərənlik onu bilməlisiniz ki? hər yanıma gələn adamı kabinetimin qapısında saatiarla gözləməyə məcbur etməsəm, rəhbərliyimi hiss etməzlər. Deyin getsin!

Dəmirov Qorxmazovun yenə də şalvarının tozunu çırpır.

D i l a v ə r. Afərin... Düz buyurursunuz. Hicransız vüsalın nə ləzzəti... Qoy yanına gələnlər hicran oduna yansınlar, sonra...

Q o r x m a z o v. Afərin.

D i l a v ə r

Həqiqi aşiq, əlbəttə, dözər hicrana, Qorxmazov,
Yesə bu dərdi-qəmlə qəlbini müryana, Qorxmazov.
O kəs ki, mübtəladır bir gözəl canana, əlbəttə,
Vəfalı yara yetməkçün gedər Tehrana, Qorxmazov.

Q o r x m a z o v. Tehrana niyə, lap Mərəzəyə də gedər. Yaxşı, ey atelya modamın modnı şairi, bu qabiliyyət ki, səndə var, niyə pisatelski soyuza yazılmamısan?

D i l a v ə r. Çün o qapını min kərə döymüşəm, sədd heyf üzümə açmayıblar...

Q o r x m a z o v. Olardan əskiksən məgər?

D i l a v ə r. Xeyr... çün onlar sənin, mənim qandığımız eşq aləminə biganə kəslərdir.

Q o r x m a z o v. Qəm yemə dostum... gün gələr qəbrinin üstündə heykəlini özüm öz xərcimə bu əllərimlə dikəldərəm.

Bayırdan Dəmirovun səsi gəlir.

D ə m i r o v. Yoldaş qırğom, tovariş qırğom.

Gülara müştərisi ilə içəri girir.

M ü ş t ə r i. Canım belə də atelya moda olar? Belə də paltar tikərlər?

Q o r x m a z o v. Səssiz-səmirsiz, əngəlsiz, cəncəlsiz.

G ü l a r a. Yoldaş Qorxmazov, bu yoldaş şikayət edir ki, kostyum onun əyninə tikilməyib... Usta isə bu paltarı bunun əyninə, ölçüb biçdiyini iddia eləyir. Məncə yoldaş haqlıdır.

Q o r x m a z o v. Ay qiz, sən bir dayan. A yoldaş, de görüm nə olub?

M ü ş t ə r i. Bu kostyum mənim əynimə tikilməyib.

Q o r x m a z o v. Kostyum gözümə çox əntiqə görünür. Gəl bir ayna qabağında gey görək.

Ayna qabağında pencəyi zorla müştərinin əyninə keçirirlər.

Müştəri qollarını qaldıran kimi pencək daldan ikiyə bölünür.

M ü ş t ə r i. Çox əntiqədir, yoldaş müdir, çox.

G ü l a r a. Mən ustalarımızın yerinə xəcalət çəkirəm.

Q o r x m a z o v. Usta, de görək bu niyə belə olur axı?..

U s t a. Bilirsinizmi, günah məndə deyil... *(Qulağına pıçıldayır.)*

Q o r x m a z o v. Aha... Yoldaş, siz bu kostyumu nə vaxt zakaz vermisiniz.

M ü ş t ə r i. Doqquz ay əvvəl.

Q o r x m a z o v. Doqquz ay əvvəl harda işləyirdiniz?

M ü ş t ə r i. Su idarəsində.

Q o r x m a z o v. Aha... indi harda işləyirsiniz?

M ü ş t ə r i. Bunun mətləbə nə dəxli var?

Q o r x m a z o v. Çox dəxli var. Cavab ver görək indi harda işləyirsınız!

M ü ş t ə r i. Ət kombinatında.

Q o r x m a z o v. Pasluşi, görünür həddindən çox yemişsiniz.

M ü ş t ə r i. Bu təhqirdir.

Q o r x m a z o v. Pencək cəhənnəmə, yaxşı ki, özünüz partlamamısınız. Ustanın dediyinə görə siz bu kostyumu zakaz verəndə arıq, cılız bir adammışsınız. İndisə şişib dama dönmüsünüz.

M ü ş t ə r i. Bilmirəm mən məhkəmə qarşısındayam, yoxsa atelya moda müdirinin?..

Q o r x m a z o v. Hələlik atelya moda müdirinin.

G ü l a r a. Yoldaş Qorxmazov, sizin müştərilərlə belə rəftar etməyə ixtiyarınız yoxdur.

Q o r x m a z o v. Sən dinmə.

M ü ş t ə r i. Mənim kostyumuma bir əlac.

Q o r x m a z o v. Əlacı odur ki, təzədən gedin girin su idarəsinə, çerez 9 ay sonra gəlib kostyumunuzu bizdən təhvil alın.

M ü ş t ə r i. Mən sizi məhkəmə məsuliyyətinə çəkməli olacağam.

Q o r x m a z o v. Çək görüm necə çəkirsən! Tez bayıra!..

G ü l a r a. Yoldaş, rica edirəm, buyurun gedək. Hər şey düzələr.

Gedirlər.

Q o r x m a z o v. Yanıram, Dilavər... rəhbər mənəm, yoxsa o Gülara?

D i l a v ə r. Bişək siz.

Q o r x m a z o v. Dilavər, mən onun başını əkməsəm, o mənim başımı əkəcək. O çoxdan mənim yerimə göz dikib... İşçilərimizin çoxu da ona meyl bağlayıb. Belə söhbətlər də gedir ki, guya onu mənim yerimə qoyacaqlar. Yox, yox, mən hələ ölməmişəm. Mən onu ləkələr, çirkablar içində boğmasam o məni boğacaq. Yaxşı... *(Telefon eləyir.)* Kombinatın kadr şöbəsidir? Abbas Əli Baxşəliyeviç, sənsən? Salam. Mənəm, mən... Arvadınız paltosunu dünən apardı, razıdır? Çox şadam. O gecə niyə bizə gəlmədin, sənsiz içdik, sənin sağlığına. Ürəyimdə böyük dərdim var, sex müdiri Gülara Sadıqzadə yenə məni qurdalayır axı... Mənim kimi bir vətənbaza badalaq gəlir, özü də əxlaqdan. Necə, məşğul olan var? Mən ölüm orden məsələsində sən də göz-qulaq ol, qorxuram. Telefonun milləri vasitəsilə öpürəm səni. Sağ ol! *(Telefon dəstəyini asır.)* Dilavər, gördün gücümün zərbi-dəstini?!

D i l a v ə r. Pəh, pəh, ölmə-ölmə... comərdsiniz, comərd!

D ə m i r o v *(tələsik gəlir).* Yoldaş Qorxmazov, gələn malları yığdılar anbara. Sizin ikinizi də çağırırlar.

Q o r x m a z o v. Gedək Dilavər... *(Gedirlər. Pəncərə qarşısında Nadiri görür.)* Nadir, get kabinetimdə məni gözlə! Saninlə sözüm var.

Nadir içəri girir. Qorxmazovun şəklinə baxıb gülümsünür.
Gülara da gəlir.

G ü l a r a. Nadir, kimi gözləyirsən?

N a d i r. Qorxmazovu. Gülara, sən Qorxmazova necə baxırsan?

G ü l a r a. Bura gələni ancaq özüylə məşğuldur.

N a d i r. Tək özüylə məşğul olsaydı dərd yarıdır. Deyəsən, səninlə də məşğul olmaq fikrindədir.

G ü l a r a. Qoy bizi görək... Sən də qısqanmağa adam tapdın. Mənim qəlbimdə yalnız bir ad yaşayır ki, onu sən özun məndən yaxşı tanıyırsan. Elə deyilmi, Nadir?

N a d i r. Elə də olmalıdır. Ancaq mən istəyirəm ki, sənin adına güldən ağır bir söz deməsinlər.

G ü l a r a. Necə məgər?

N a d i r. Heç...

G ü l a r a. Bilirəm... yenə də... nəzərində Qorxmazovu tutursan.

N a d i r. Yox, yox, Gülara, bax gör Qorxmazovun karikaturasını necə çəkmişəm. Özü də məndən çox razı qalıb. Bu karikatura bizə lazım olacaq.

G ü l a r a *(gülür).* Başa düşürəm. Onu nişanımıza çağırmadığımıza görə yaman pərtdir.

N a d i r. Onun bizim məclisdə nə işi var.

G ü l a r a. Onun haqqında mən əlaqədar təşkilatlara müraciət etmişəm. İş, əlbəttə, bizim xeyrimizə olacaq. Lakin hələlik onu müdafiə edənlər də var.

N a d i r. Bilirəm.

G ü l a r a. Mən getdim. Sonra hər şeyi söz eləyərlər. *(Gedir.)*

Q o r x m a z o v *(gəlir).*Hə, yoldaş qarğaturist, karnaval dəm-dəsgahı hanı?

N a d i r. Buyurun. *(Paketi açıb müqəvva eskizlərini nümayiş etdirir.)*

Q o r x m a z o v. Pah atonnan. Adə, sən burda heyvanxana aşmısan ki... Bu nədir adə?.. *(Müqəvvaları sifətində yoxlaytr.)*

N a d i r *(gülərək).* Ta qədimdən qayda belədir... Karnavalda gərək hərə bir heyvan şəklinə girə!

Q o r x m a z o v. İnteresni, adə, yəni bu it-pişik, at-eşşək maskasını utanmayıb taxan olacaq?!

N a d i r. Əlbəttə...

Q o r x m a z o v. Nə bilim vallah... Daha adamlarda həya, abır qalmayıb. Yoldaş rəssam, karnaval dəm-dəsgahını təsdiq eləyirəm. *(Eskizlərə itnza atır.)*

N a d i r. Mən getdim.

Q o r x m a z o v. Bir dəqiqə! Bayaq qanını qaraltmaq istəmədim. Gülaranı çoxdanmı tanıyırsan?

N a d i r. Üç ay olar, necə məgər?

Q o r x m a z o v. Heç...

N a d i r. Sözlü adama oxşayırsınız.

Q o r x m a z o v. Sözüm odur ki, sizdən qabaq başqasıyla gəzib-eləməyib ki?

N a d i r. Gəzəndə nə olar ki?

Q o r x m a z o v. Çox şey... Yaxşı, o, kurorta niyə getmişdi?

N a d i r. Xəstə idi.

Q o r x m a z o v. Xəstəliyi nə idi axı...

N a d i r. Bir az açıq danışın.

Q o r x m a z o v. Sözün açığı odur ki, dünən bi rməktub almışam.

N a d i r. Kimdən?

Q o r x m a z o v. Naməlum bir Allah bəndəsindən... *(Stolun yeşiyindən bir məktub çıxarır.)* Yazır ki, sizin sex müdiri Gülara Sadıqzadə əxlaqdan...

N a d i r. Sus!..

Q o r x m a z o v. Adama yaxşılıq yoxdur.

N a d i r. Ver məktubu, özüm oxuyum.

Q o r x m a z o v. Onu görməyəcəksən.

N a d i r. Mən onu yazanı və yayanı məsuliyyətə çəkdirərəm. *(Əlindən almaq istəyir.)*

Q o r x m a z o v. Geriyə çəkil, sən bir bundakı cürətə bax. Mən heç məktub almamışam. *(Məktubu cırıb səbətə atır.)*

N a d i r. Sən onu ləkələyə bilməzsən! *(Hirsli gedir.)*

Q o r x m a z o v. Yavaş yeri...

Gülara gəlir.

G ü l a r a. Yoldaş Qorxmazov, bu nədir, bunu kim yazıb?

Q o r x m a z o v. Ver baxım. *(Oxuyur.)* Bəli, hamısı düzdürdə. Mən prikaz vermişəm. Dilavər də yazıb.

G ü l a r a. Planı 90 faiz doldurduğumuz halda, 130 faiz yazmağa nə ixtiyarınız var?

Q o r x m a z o v. Ay qız, əlimizdə hələ 20 gün var, ya yox? Əvvəl-axır mənim rəhbərliyim altında bir 40 faiz də artıracağıq, ya yox?

G ü l a r a. Bunu siz yox, vicdanlı işçilərimiz artıracaq.

Q o r x m a z o v. Bəs mənim rəhbərliyim? Başa düş, yuxarıya burda yazdığımızın yekunu lazımdır, itoq yekunu ...

G ü l a r a. Mən yuxarı təşkilatlara yalançı, saxta sənəd göndərməyə yol verməyəcəyəm.

Q o r x m a z o v. Sən kimsən ki, yol verməyəsən? Bir də başa düş, bu gün-sabah orden əhvalatı olacaq deyirlər... Belə lazımdır. Sən mən deyənə qulaq as... Sən gərək mənim avtoritetimi yerə vurmayasan.

G ü l a r a. Xalqı aldatmaqla hörmət qalxmaz. Hörmət qazanmaq üçün ağıl, bilik, namus, vicdan gərəkdir.

Q o r x m a z o v. Qənişnə...

D ə m i r o v *(gəlir).* Salam, necəsən?

Q o r x m a z o v. Adə, səni kim çağırdı bura?

D ə m i r o v. Qulağıma zəng səsi gəldi. *(Gedir.)*

Q o r x m a z o v. Gülara, vallah hər səni görəndə özümü itirirəm.

G ü l a r a. Yəni o qədər qorxuluyam?

Q o r x m a z o v. Qorxudan yox ki... ayrı şeydən... necə mənim sağ əlim... səni dünyalar qədər istəyirəm. Sənin xüsusi jizninlə çoxdan interesavatsa oluram.

G ü l a r a. Nə üçün?

Q o r x m a z o v. Mən bir rəhbər kimi istəyirəm səninçin yaxşı şərait yaradım, biləm görəm nəyin var, nəyin yox, kimin var, kimin yox.

G ü l a r a. Atamda var, anam da...

Q o r x m a z o v. Daha...

G ü l a r a. Özüm varam.

Q o r x m a z o v. Onu bilirəm, patom, patom...

G ü l a r a. Nişanlım var...

Q o r x m a z o v. Bəla elə bundadır ki, cavanlar tez nişanlanıb özlərini bədbəxt eləyirlər.

G ü l a r a. Bədbəxt niyə?

Q o r x m a z o v *(gəhqəhə çəkir).* Özüdə kimə nişanlanıb. Nə bilim o çalağanturistdir, nədir ona.

G ü l a r a. Nadir çox ağıllı, bacarıqlı oğlandır.

Q o r x m a z o v. Bir başa düş, bu rəssamdır, bu şairdir, bu artistdir, nədir, yaman şorgöz tayfadır. Yüz qızı, birdən sevirlər, birdən...

G ü l a r a. yanılırsınız.

Q o r x m a z o v. Xeyr, vallah deyirəmki, hansı müdirin belə bir zamı var, hansı zamın mən kimi adamı var! Doğrus, qurbandır bütün atelya modamın var-yoxu sənə. Mən ölməmişəm ki... beş gün dünyadır.

G ü l a r a. Bir az ədəbli danışın, yoldaş Qorxmazov.

Q o r x m a z o v. Ədəbsiz sənin o adamındır ki, var. Məndə sübut var, sübut!

G ü l a r a. Bu iftiradır.

Q o r x m a z o v. Yox, həqiqətdir. İnanmırsan buyur. *(Stolun gözündən hir konvert çıxarıb içindəki kağızı nəzərdən keçirir.)*

G ü l a r a. O nədir?

Q o r x m a z o v. Naməlum bir vicdanlı şəxsin Nadirin tərbiyəsizliyini sübut eləyən canlı, şanlı məktubu.

G ü l a r a *(onun əlindən almaq istəyir).* Ver baxım.

Q o r x m a z o v. Mətləbi bildin, kifayətdir. Al... *(Cırıb səbətə atır.)*

G ü l a r a. Mən sizinlə ayrı yerdə danışaram. Bunlara imza atın! *(Ona sənədlər göstərir).*

Q o r x m a z o v. Harda danışırsan danış. Mənim dalım möhkəmdir, möhkəm.

G ü l a r a *(gedir*). Baxarıq!

D ə m i r o v *(gəlir*). Zaddır... evimiz yıxıldı.

Q o r x m a z o v. Adə pajar-zad olmayıb ki...

D ə m i r o v. Pajar yaxşıdır, ancaq arvad milisionerlə əlbəyaxa olub.

Q o r x m a z o v. Arvad? Onda yenə min şükür bizim arvada... Görəsən bu hansı arvadağız kişinin arvadıdır? *(Bu vaxt zəng vurulur.)* Nə, nə? Süründürürlər? Sən kimsən ki, belə böyük-böyük danışırsan? Necə? Şair Xəyal Rza? İstəyir lap qərib İmam Rza ol, məni qorxuda bilməzsən. Vallah mən də sizin kimi bekar olsam ildə nədir, lap gündə bir kitab bağlaram.

Bu dəmdə Dünya xanım pəncərədən içəri atılır.
Dalınca da milisioner fit çala-çala içəri girir.

Q o r x m a z o v. Daha mənim kitabım bağlandı.

D ü n y a. Havaxtdan bu xarabanın qapısı mənim üzümə bağlanıb, ağa Qorxmazov?

Q o r x m a z o v. Sakit, yavaş, danışmaq kulturadır, bağırmaq xaltura, Dünya xanım.

D ü n y a. Xaltura sən özünsən, tez al, səhvini al boynuna, yoxsa...

Q o r x m a z o v. Mənim səhvim odur ki, anadan olmuşam.

D ü n y a. Olan gününə daş düşəydi, daş!

Q o r x m a z o v. Avtoritetimi gözlə, arvad!

M i l i s i o n e r. Yoldaş direktor, şəxsi davanızı evdə eləyərsiniz. Ancaq mən bu vətəndaşı rayondan aparmalıyam. İcazə verin telefonla köməyə bir milisioner çağırım.

Q o r x m a z o v. Hay-hay, bir polk da çağırsan bacarmazsan, get işinə.

M i l i s i o n e r. Xeyr, mən çağırmalıyam.

D ü n y a. Xox, qorxdum elə! *(Ayna qabağında özünü düzəldir.)*

Q o r x m a z o v. Bir məni başa salın görüm nə olub axı?

M i l i s i o n e r. Mən bu gün bu qonşuluqdakı kolxoz bazarında növbətçiyəm. Bir az əvvəl bu vətəndaş bir neçə kisə qovun-qarpız gətirib töküb bazarın lap ortasına.

Q o r x m a z o v. Mən bir ölən günümü bilmirəm. Dünya, səni qınamayan olsa məni də bazara çəkib heçə-puça satarsan.

D ü n y a. Heçə-puça getsaydin, indi səni çoxdan satmışdım.

M i l i s i o n e r. Nəhayət, bu vətəndaş, qovun-qarpızmı bəyənməyənə, almayana yağış kimi küçə söyüşləri yağdırıb. Mən onu intizama çağıranda məni də vəzifə başında təhqir edib hədələyir.

D ü n y a. Yox bir dayanıb baxacaqdım səninçin.

M i l i s i o n e r. Bu vətəndaşı rayona aparmaq mənim vəzifəmdir.

D ü n y a. Rayona xuliqanları aparırlar.

M i l i s i o n e r. Yoldaş direktor, rica edirəm xanımınızı intizama çağırasınız.

Q o r x m a z o v. Rəhmətlik... nə qoyub, nə axtarırsan. Sən beli tapançalı onunla bacarmayandan sonra, mən yazıq əli-beli boş ona neyləyə bilərəm!

M i l i s i o n e r. Məsələ bununla qurtarır. Xanımınız o biri otaqda işçilərinizin və müştərilərinizin yanında mənə əl qaldırmaq istəyirdi.

Q o r x m a z o v. Yaxşı qurtarmısan, yoldaş milisioner. Mənə əvvəl elə gəlirdi ki, milisionerlər fışqırığı kefi köklükdən çalırlar. Amma indi görürəm ki...

D ü n y a. Kişi, əmr elə milisioner rədd olub getsin!

M i l i s i o n e r. Mən akt bağlamışam gedən deyiləm.

Q o r x m a z o v. Əşi, onda mən gərək bunun əlindən gündə yüz akt bağlayam ki... Get işinə, sən çox yüngül qurtarmısan...

D ü n y a *(getmək istəyir).* Kişi, sonra gələrəm.

M i l i s i o n e r *(fit verir).* Dayan!

Q o r x m a z o v. Mən ölüm barışın getsin. *(Pul göstərir.)* Al bu da arvadın ştrafı.

M i l i s i o n e r *(pulu onun üzünə çırpır).* Qalsın xanımınıza, xərcləsiniz. Mən buna görə də sizdən akt bağlamalıyam.

D ü n y a. Qaragün, gör kimə pul təklif eləyir a!..

Q o r x m a z o v *(var-gəl edir. Fiklrləşir, sonra),* Yoldaş milisioner, görünür sizin iş-gücünüz qurtarıb ki, arvad-uşaqla məşğul olursunuz.

Bu dəqiqə başıma bir fikir gəldi. Bu axır vaxtlarda mən çox qorxuram ki, düşmənlərim, hәriflər mənim suyuma qəsd eləsinlər. Olmaz ki, bundan sonra sən xüsusi mükafatla məni evdən işə gətirib, işdən evə aparasan ki, düşmənlər qara niyyətlərinə nail olmasınlar?

M i l i s i o n e r. Sizin başınıza hava gəlib, nədir?

Q o r x m a z o v. Gəlməyibsə də, bundan sonra gələr inşallah.

D ü n y a. Uzun sözün qısası, kişi, əmr elə artıq adamlar çıxsın bayıra.

M i l i s i o n e r. Görünür, bu otaqda yox, o biri otaqda şahidlərin əliliə akt bağlamalı olacağam. *(Digər otağa keçir.)*

Q o r x m a z o v *(Dəmirova).* Dəmirov... Siz allah çalışın milisioneri dilə tutun akt bağlamasın.

D ə m i r o v. Görək də. *(Dəmirov gedir.)*

D ü n y a *(birdən şəkli görür).* Bıy, bıy, bayaqdan bunu görmürdüm, A kişi, bu ayı kimdir, hə?

Q o r x m a z o v. Mənəm, ay arvad, ayı nədir?

D ü n y a. Yaxşı, mənim başım o biri otaqda milisionerlə qanşıq olanda sən kabinetinə heç kəsi buraxmayıb öz zamınla nə pıç-pıç eləyirdin hə!

Q o r x m a z o v. İşdən danışırdıq.

D ü n y a. Hansı işdən?

Q o r x m a z o v. Mejdunarodnı məsələlərdən. Yaxşı işçi olmasına baxma, yaman kəmsavaddır. Axı gərək kadromuzu tərbiyələndirək də.

D ü n y a. Əcəb müəllimsən. Vallah məəttələm ki, cavan-cavan gözəl-göyçək qızlar bunun par-par parıldayan tüksüz kəlləsində nə görürlər.

Q o r x m a z o v *(gülərək).* Arvad, qaydadır pərvanə işığa gələr.

D ü n y a. Yaxşı, mən o pərvanələri sənin başında ağcaqanada döndərməsəm Dünya deyiləm.

Q o r x m a z o v. Niyə qısqanırsan axı. Gülarayla bizim Nadir şanlanıblar ey.

D ü n y a. Cəhənnəmə, gora nişanlanıblar.

Q o r x m a z o v. Sən canımı yığdın lap boğazıma. Məndən nə istəyirsən, ay mənim ömürlük qazamatım, nə?..

D ü n y a. Mənə deyirsən ömürlük qazamat? Yoxsa beş il qabaq ayaqlarıma düşüb dediyin sözlər yadından çıxıb? Görünür sənin dərsini yaxşı verməmişəm. Tez bu dəqiqə təzədən düş ayaqlarıma və de: "Ey Dünya, dünya, mənə sənsiz zindandır, zindan!".

Q o r x m a z o v *(oyan-buyana baxır),* A Dünya Bu zülmü Allah götürməz axı...

D ü n y a. Bu dəqiqə dediyimə əməl eləməsən...

Q o r x m a z o v *(tez pəncərəni örtür, üzündə əzab əlamətləri).* Yaxşı... *(Dünyaya yaxınlaşır, bu dəmdə Dəmirov tələsik içəri girir.)*

D ü n y a. Tfu, gəlməyə vaxt tapdın?

Q o r x m a z o v. Allah üzümə baxdı, nə vaxtında gəldi.

D ə m i r o v. Şey... milisioneri yola gətirmək olmur. Sonra Bayramalı və Dilavər deyir ki, bizimlə işi yoxsa bir saatlığa nahara gedək, varsa qalaq.

D ü n y a. İtilib getsinlər.

Q o r x m a z o v. Yox, qalsınlar.

D ü n y a. Dedim ki, getsinlər!

Q o r x m a z o v. Qalsınlar!

D ə m i r o v. Baş üstə, deyərəm həm getsinlər, həm də qalsınlar. *(Çıxır.)*

D ü n y a *(ayna qabağında məşq eləyir).* A kişi, bilirsən nə var? Parkdakı karnavalda istəyirəm hamının gözünü çıxaram.

Q o r x m a z o v. Birinkini çıxarmısan, bəs deyil?

D ü n y a. Yaxşı, yaxşi, de görüm, karnavalda sən də olacaqsan?

Q o r x m a z o v. Yə bilim, hardan... vaxtım hanı. *(Kanara)* Deyəsən, zalımın qızı karnavalı mənə haram eləyəcək. Dəli şeytan deyir nitqmi maska altında elə...

D ü n y a. Başqalarıyçın yerin dibindən vaxt taparsan.

Q o r x m a z o v. Dünya, burax bu qəprizləri. O biri otaqda priyomnımda saatlarla gözləyənlər var. Get, gəlib evdə doyunca danışarıq.

D ü n y a. Yaxşı... onda mindir məni maşınına, tez yola sal görüm.

Q o r x m a z o v. Mənim maşınım hardaydı, ay arvad!

D ü n y a. Ay kişi, demirdin ki, bu gün-sabah verəcəklər? Hələ ala bilməmisən, ay fərsiz? Xalqın arvadları hamama, bazara, partnixaya, manikyura, pedikyura - hər yerə maşınla getsin, mən Dünya xanım piyada! Onların nəyi məndən artıqdır. hə?

Q o r x m a z o v. Heç nəyi, çox çalışdım, ancaq...

D ü n y a. Acizin biri, aciz!

Q o r x m a z o v. Arvad, qurtardın, ya yox?

D ü n y a. Yox, bu saat o paltar şəkli çəkən oğlanı çağır gəlsin. Karnaval paltarımı ona başa salım.

Q o r x m a z o v *(zəngi tez-tez basır, tok olmur).* Buna nə oldıı... Adə Dəmirov, Dəmirov, Dəmirov... *(Özü bayıra çıxır səhvən asılqandan Dünyanın şlyapasını başına keçirir.)*

D ü n y a *(ətrafı nəzərdən keçirir. Qorxmazovun yeşiklərini axtarır. Bir neçə məktub çıxarıb sumkasına qoyur).* Bunlara evdə baxaram.

N a d i r *(gəlir).* Salam, xanım!

D ü n y a. Cavan oğlan... amma allah... *(Kresloya yıxılır.)*

N a d i r. Sizə nə oldu, xanım?

D ü n y a. heç, yenə yadıma düşdü...

N a d i r. Nə, kim?

D ü n y a. O, o, ilk məhəbbətim, belə də bənzəyiş olar, siz nə qədər də ona bənzəyirsiniz. Bəs mən niy bura belə tez-tez gəlirəm?

N a d i r. Heç nə başa düşmürəm, canım.

D ü n y a. Elə gərək açam sandığı, "tökəm pambığı! *(Nadir diqqəllə, təəccüblə Dünyaya baxır.)* Elə baxma, insafsız!

N a d i r. İnsafsız kimdir, canım?

D ü n y a. Qulaq as! Mənim ikinci ərim pis adam deyildi. Özü də sizin direktorunuzla tamojnada işbrdi, yaxın dostdular. Bu fərsiz o qədər bizə gəldi getdi, o qədər mənə dil tökdü ki, axırda mənim kimi nəcib, həyalı, abırlı, namuslu qadını yoldan çıxarıb özünə arvad elədi. Birinci ərim bunun yanında qızıla tutulası adamdı. Heyfi siz, bilirsiniz nə qədər də ona oxşayırsınız. Mən buna davam gətirə bilməyəcəyəm, aman, of... *(Yalandan ürəyi gedir. Divana yıxılır, Nadir qrafindən stəkana su tökür... Dünyanın başını qaldırıb ona su içirən dəmdə Qorxmazov və Gülara içəri girir.)*

Q o r x m a z o v. Adə, indi də mənim arvadıma əl atırsan, qarğaturist? *(Gülaraya)* mey vidu!

G ü l a r a. Belə... *(Nadiri süzüb kabinetdən çıxır.)*

N a d i r. Xanımınızın ilk məhəbbəti yadına düşüb, ürəyi getmişdi.

D ü n y a. A kişi, bu cavan oğlan rəhmətlik qardaşımla elə bil bir almadır bölünüb. Hə, qardaş, sohbətimiz yarımçıq qaldı... Mən istəyirəm ki, bütün parkın gözü məndə olsun. Tez ol, mənə yaxşı parça nümunələri göstər görüm.

N a d i r *(bir dəftərçədə ona parça nümumləri göstərir).* Bax, bu sizin nəcib fiquranıza çox uyğundur. *(Parça çox şit və duzsuzdur.)*

D ü n y a. Sağ ol, cavan oğlan. *(Dünya onu süzür.)*

Q o r x m a z o v. Az sağollaşın...

D ü n y a. A kişi, mənim seçdiyim parçadan mənim istədiyim fasonda heç kəsə paltar tikilməyəcək ha... Bu fason mənimdir, mənim.

Q o r x m a z o v. O da baş üstə.

N a d i r. Bəli. *(Kənara)* Baxarıq.

D ü n y a. Gedim baş ustaya əndamımı ölçdürüm. *(Dünya getmək istsrkən əlində akt və ruçka milisioner, Bayramalı, Dilavər və başqaları otağa girirlər.)*

M i l i s i o n e r. Vətəndaş, bir dəqiqə, akta qol çəkin, sonra. *(Aktı ona uzadır.)*

D ü n y a. Sən hələ burdasan?

M i l i s i o n e r. Vətəndaş, qanun naminə, sakit.

D ü n y a. Mən səninçin qanuna yerləşən arvadlardan deyiləm. Qırsaqqızın biri qırsaqqız!

M i l i s i o n e r. Xanın, ədəb yaxşı şeydir. Al, tez aktı oxu, qol çək!

D ü n y a *(aktı alıb cırır).* Ver qol çəkim. Dincəldin?..

M i l i s i o n e r *(aktı onun əlindən almaq isiərkən Dünya sumkasını firlayaraq milisionerə hücum çəkir.)* Mən indi səni milisionerlikdən dvornikliyə endirməsəm, Dünya adımı dəyişib kənd qoyacağam, kənd!

Q o r x m a z o v *(cibindən ağ yaylıq çıxarıb araya girir, yaylığı havada yellədir, Dünyanın zərbələri onun başına dəyir).* A Dünya, bütün dünya sülhə qol çəkir, sən hələ də hərbiyə deyirsən? Dilavər, Dəmirov, kömək eləyin, atam yandı!

M i l i s i o n e r *(fişqırıq çalır).* Vətəndaş, sakit, sakit!

*Dünya fişqırığı milisionerin əlindən qapıb özü çalır, Sürətlə milisionerin üzerinə cumur.*

Q o r x m a z o v. Arvad, lap anadan gəlmə milisionermiş ki...

M i l i s i o n e r *(Dünyaya tərəf gedir. Dünya fit çalmaqda davam edir).* Vətəndaş, düşün qabağıma... rayona!

D ü n y a. Kəs! *(Fit çala-çala pəncərədən koridora atılıb gözdən itir.)*

M i l i s i o n e r *(pəncərədən küçədəki milisionerləri səsləyir).* Milisioner, milisioner! Adə Heydər, onu tut! *(Gedir.)*

Q o r x m a z o v. Yazıq milisioner! *(Qəhqəhə)*

P Ə R D Ə

## İKİNCİ PƏRDƏ

Park şüarlarla bəzənmişdir. Bəzi ağaclardan paltar eskizləri və modelləri asılmışdır. Pərdə açılarkən rəqs edən gənclər səhnədən keçirlər. Qorxmazov alnının tərini silə-silə gəlir. Dilavər, Bayramalı və Dəmirov əl çala-çala onu təqib edirlər.

Q o r x m a z o v. Burda niyə, orda əl çalaydınız da.

D ə m i r o v. Mən sizə partapart əl çalanda dedilər: xuliqanlıq eləmə.

Q o r x m a z o v. Heç eybi yoxdur, Gülara... Sən məni tribunadan aşağı düşürürsən? Gör bir nə deyir a... Qorxmazov azğındır, qudurğandır, gəldi gedərdir. Səhvin var, Gülara, mən pastayannıyam, pastayannı...

D i l a v ə r. Ölmə, Ölmə!..

Q o r x m a z o v. Gör nə deyir a. Qorxmazovun atelya modadan başı çıxmır. Xeyr, Gülara xanım, mənim çox şeydən başım çıxır.

B a y r a m a l ı. Adə, niyə durmusunuz, bu gözəl nitqdən sonra gəlin hörmətli rəhbərimizi atıb-tutaq.

D i l a v ə r. Ərşi əlaya, ərşi əlaya.

D ə m i r o v. Yaşasın aşnamız Qorxmazov, adə vurrey...

Qorxmazovu atıb-tuturlar, onun fəryadına fikir verən olmur.

Q o r x m a z o v. Vay, vay, aman!.. Boğuldum, vay, vay, öldüm!..

D i l a v ə r. Ölmə, Ölmə!

D ə m i r o v. Yaşa, yaşa!

Q o r x m a z o v. Ay zalımlar, doğrudan ölürəm ey...

B a y r a m a l ı. Buraxın, birdən ölüb elər, qanı düşər üstümüzə.

Qorxmazovu bihal vəziyyətdə yerə qoydular

D ə m i r o v *(nəfəsini yoxlayır).* Adə, deyəsən doğrudan öldü axı. Dilavər. Tez su...

Dəmirovbir ağacın dibindən bağça sulayan süzgəci qapıb Qorxmazovu sulayır. Qorxmazov ayılıb yavaş-yavaş ayağa qalxır.

Q o r x m a z o v. Adə, ağac-zadam ki, məni sulayırsan?

B a y r a m a l ı. Bütün bunlar sizə hörmət üçündür.

Q o r x m a z o v. Napras yerə.

D i l a v ə r. Adətdir, yaxşı natiqləri atıb-tutarlar.

D ə m i r o v (onun paltarını təmizləyir). Öldürsələr də əyilməyəcəyəm.

Q o r x m a z o v. Dilavər, bir dilin də var danışırsan? Adə, o nə nitq idi yazmışdın, hə?

D i l a v ə r. Çün piş əz vaxt, bərayi məlumat...

Q o r x m a z o v. Sənin məlumat başına dəysin. Adə, o nə zibil nitq idi yazmışdın?

D i l a v ə r. Çün, çün...

Q o r x m a z o v. Zəhrimar çün, çor çün. Ağzına gələni yazmısan mənim nitqimə, mən də çıxmışam tribunaya ki, bu saat həriflərə zorumu göstərəcəyəm. Əcəb göstərdim zorumu. Gördüm hərriflər məni nə kökə salıb tribunadan aşağı düşürdülər? Barakallah sənə, barakallah!

D il a v ə r. Çün nadanlar şeri nə qanır.

Q o r x m a z o v. Nadan sənsən ki, məni düşmənlərimin qabağında heçə vurdun. Nitqimi zibilləyən sənin o qəliz, ibarəli şerlərin olmadı məgər? Heç eybi yoxdur, onlarla sabah idarədə danışaram.

D i l a v ə r. Pəh, pəh, ölmə, ölmə!

Q o r x m a z o v. Bunlar keçər gedər, deyin görüm bizim Dünyanı görən olmayıb ki?

D ə m i r o v. Göz gəzdirmişəm, yoxdur.

Q o r x m a z o v. Düşmənlərimdən birinci yaranı aldım, Dünyadan ikinci yaranı almaq istəmirəm, gedək dostlar, gedək!

Qorxmazov ve Bayramalı gedir.

D ə m i r o v *(Dilavəri bir kənara çəkərək qulağına pıçıldayır).* Sən öl düz deyirəm. Ancaq bir sən bil, bir də mən...

Gülüşürlər.

B a y r a m a l ı *(onlara yaxınlaşır).* Mən ölüm deyin nə olub? Deyin biz də gülək də...

D ə m i r o v. Bir dəqiqə... *(Kənara çəkib onun da qulağına pıçıldayır.)* Bir sən bil, bir də mən.

D i l a v ə r. Əcaibdir, əcaib. Çün piş əzvaxt tifil görəsən kimdəndir, kimdən?

D ə m i r o v. Allah bilir. Amma öz aramızda, çox tez əmələ gəlib, çox...

D i l a v ə r. Tez niyə olur. Biri öz dostundan soruşur ki, evləndiyiniz bir ay olmaz, amma arvad dünyaya bir övlad gətirib, de görək adını nə qoyaq? Dostu gülüb cavab verir: "Bir uşaq ki, 9 ay 9 günlük yolu bir aya sürətlə belə gəlib çıxıb, adını Aynapalan qoysanız məsləhətdir".

B a y r a m a l ı. Nə ağıllı cavabdır...

Nadirlə Gülara göz-gözə gəlirlər.

D i l a v ə r. Cavan nəsli ürəkdən təbrik etmək borcumuzdur! Sonsuz alqış! *(Əl çalır.)*

N a d i r. Təşəkkür. *(Eskizlərə, modellərə baxır.)*

D i l a v ə r. İxtiranız çox qəribədir, çün məhz məhəbbətin meyvəsi gərək belə də ola. Dost-aşnadan gizlu... pah... pah...

G ü l a r a. Vallah günah Nadirdə deyil, məndədir. Dedik ki, xudmanı olsun.

B a y r a m a l ı. Aha... boynunuza alırsınız?

G ü l a r a. Səhvimizi niyə boynumuza almayaq ki?

D ə m i r o v. Boynunuza almaqda çox ağıllı iş görürsünüz.

G ü l a r a. Yaxşı, bu dəfə maaş alanda bir də bizdə yığışarıq, söz-söhbət qurtarar gedər. Daha orda-burda haqqımızda artıq-əskik söz deməzsiniz.

D ə m i r o v. Mən kişi kimi söz vermişəm. Lalam... sirr dağarcığıyam... hələlik bax üçümüz bilirik. Vay onda ki...

G ü l a r a. Eh, hamı bilsə nə olar ki.

D i l a v ə r. Çün o yaxşı olmaz.

G ü l a r a. Onda xərcimiz bir qədər çox çıxar, onun qorxusu yoxdur.

D i l a v ə r. Deyirəm körpənizin adını Aynapalan qoysaq yaxşıdır.

N a d i r. Canım, körpə nədir, ayrapalan nədir? Zarafatı buraxın.

D ə m i r o v. Uşaq tərəfdən xatircəm olun. Mən razı olmaram ki, Gülara xanım əziyyət çəkə. Onun ruhani atalığı mənim boynuma.

G ü l a r a. Sağ olsun əvvəldən gələcək körpəmizə belə canyandıran dostlar!

D i l a v ə r. Var olsun Gülara, var olsun Təyyarə! *(Əl çalır.)*

N a d i r. Bizi utandırmayın, canım!..

D i l a v ə r.

Məncə evlənmək, a Nadir, deyil əlbəttə xata,
Qoy təbiət eləsin sizlrə bir qız da əta.

*(Bayramalıya göz vurur.)*

İndi süratlə olur dəhrdə hər şey hasil
Getməmiş zaksa görürsən ki, olursan bir ata.

G ü l a r a. Dilavər, yenə kimə söz atırsınız, kimin haqqında pıçıldaşırsınız.

D i l a v ə r. Övzayi zəmanədən danışmq. Gedək dostlar, işlərimiz tökülüb qaldı.

Gedirlər.

N a d i r. Onları qonaq çağıracaqsan ki, söz verdin.

G ü l a r a. Bir sözdür dedim də. Əlindəki nədir, Nadir?

N a d i r. Şeir kitabçasıdır. (Ona göstərir.)

G ü l a r a. Mən bunu çoxdan axtarırdım.

N a d i r. Gözəl şeirlərdi, gəncliyin qəlbinin incə hisslərini tərənnüm edir. Hicrandan, vüsaldan danışır...

G ü l a r a. Görək şair nə deyir:

Gözəlim, gəncliyimi mən sənə qurban etdim,
Sənin hicranını öz dərdimə dərman etdim.
Sevirəm söylədin, axırda vəfasız çıxdın,
Ağladım, lalə kimi bağrımı al qan etdim.
Mərhəmət yox bu gözəllərdə, vəfa yox, deyərək
Gecəni, gündüzü dərya kimi tüğyan etdim.
Sənin uğrunda başım xeyli bəla, dərd çəkdi;
Özüm öz qəlbimi öz eşqimə zindan etdim.
Başqa bir gənclə səni qol-qola gördükdə aman,
Yox bu dünyada vəfa söyləyib, üsyan etdim.

N a d i r. Necədir, Gülara, xoşuna gəldimi?

G ü l a r a. Yox.

N a d i r. Niyə?

G ü l a r a. Bir qız öz sevgilisinə vəfasızlıq etmişsə, başqa qızların nə günahı?

N a d i r. Öz aramızdır, qızlarda günah daha çoxdur. Bir də mübaliğəsiz şer olmaz ki... Məncə şair haqlıdır.

G ü l a r a. Mən bu şairin yerinə olsaydım, vəfasızlıqda qızları yox, oğlanları təqsirləndirərdim.

N a d i r. Yox, bu olmadı... Gülara, de görüm, mən heç sənə vəfasız çıxmışammı?

G ü l a r a. Yox.. bəs mən necə?

N a d i r. Sən də yox. Onu bil ki, ayrılıq cürət edib bizim səmimi eşqimizə yaxın düşə bilməyəcək. Bizim eşqimizin döyünən bir ürəyi var. Onu ikiyə bölsək yaşamaz. Barmağındakı o nişan üzüyünü görürsənmi?

O bizim...

G ü l a r a. Üzük cansız bir şeydir, bunsuz da keçinmək olar. Mən sənin qəlbini görürəm.

N a d i r. Mən də sənin mənə qarşı məhəbbət dolu, ləkəsiz, pak qəlbini büllur ayna kimi əks etdirən o mənalı, mavi səmavi gözlərini görürəm. Mən o gözlərdə öz bəxtimizi görürəm.

G ü l a r a. Mən də görürəm, Nadir!

N a d i r. Gedək, Gülara.

Gedirlər. Dünya mələk qanadlı paltarda gəlir.

D ü n y a. Bağrım çatladı.

M ü q ə v v a s a t a n q ı z. Müqəvva, müqəvva. Püşk ilə, püşk ilə.

D ü n y a. Ay qız. Çərən-pərən danışma... Torbanı bəri ver görüm. *(Müqəvva satan qız qorxa-qorxa torbanı Dünyaya tərəf uzadır. Dünya torbadan nömrə çıxarır.)* Tez ol 9 nömrəli müqəvvanı ver bura!

Q ı z *(ona it müqəvvası verir).* Buyurun...

D ü n y a *(müqəvvanı taxır),* Bu da mən. Gəzək görək başımıza nə gəlir. *(Skamyada oturub tum çırtlayır. Rəqs edənlər gəlib onun qabağından keçirlər. Orada Dünyanın geydiyi paltarda bir qadın görünür.)* Məni qara basır, yoxsa doğrudan belədir? *(Qadını saxlayır.)* Ay arvad, bir dayan! Bu paltar səninçin hardan?

Q a d ı n. Ərim tikdirib.

D ü n y a. Qorxmazov?

Q a d ın. Bıy, Qorxmazov kimdir?

D ü n y a. Tez ol xoşluqla al boynuna, yoxsa səni rüsvayi-cahan elərəm. De görüm, Qorxmazov hara əkildi?

Q a d ı n. Nə bilim axı... mənim günahım nədir, ay bacı?

D ü n y a (onun paltarından yapışır). Günahın bax budur, bu!..

Q a d ı n. Oğurluq ki deyil, atelya modada özüm tikdirmişəm.

D ü n y a. Özüm. Axır ki, aldın boynuna, özüm... *(Bu zaman eyni paltarda bir neçə qadın gəlib keçir. Dünya bu qadını tərk edir.)* Mən nələr görürəm... Bir deyil, iki deyil. Əclaf bütün şəhərdəki adamlarına mənim paltarımdan geyindirib... *(Oturub əsəbi tum çırtlayır. Birinci pərdədəki milisioner gəlib Dünyanın qabağında dayanır.)*

M i l i s i o n e r. Vətəndaş!.. *(Dünya dinmir.)* Yoldaş!..

D ü n y a *(ondan üz çevirir).* Eh qadam ağzına elə...

M i l i s i o n e r. Xanım!..

D ü n y a. Ədəblə danışa bilməzsən?

M i l i s i o n e r. Məgər xanım ədəbsizdir?

D ü n y a. Qoymazlar bir dəqiqə azad nəfəs alaq ki...

M i l i s i o n e r. Mən sizin qadın olmağınıza hörmət edirəm, yoxsa anam...

D ü n y a. Necə, necə anam?

M i l i s i o n e r *(yumşaq).* Xanım.

D ü n y a. Get, mən sən deyənlərdən deyiləm.

M i l i s i o n e r. Bu nə danışır canım. *(Dünyaya)* Vətəndaş, iftira xanım. *(Fit verir.)* Karnaval gecəsi el bağını zibillədiyinə görə 3 manat cərimə.

D ü n y a. Necə, necə, cərimə? Bağ elın, karnaval ərimin, sənə nə hay düşüb? *(Tum çırtlayır.)*

M i l i s i o n e r *(cibindən dəftərçəni çıxarır).* Onda mən akt bağlamalıyam.

D ü n y a. Nə dedin? Yenə akt? Görünür dərsin yaxşı verməmişəm. Gözünü aç, mənə yaxşı bax! *(Müqəvvanı qaldırır, milisioner onu tanıyıb diksinir.)*

M i l i s i o n e r. Bu sizsiniz?

D ü n y a. Bəli mənəm. Niyə duruxdun? Bağlasana aktını.

M i l i s i o n e r *(kənara).* Bağışlayın xanım. Bağda təmizlik nümunəsi göstərdiyinizə görə sizə bizim milis idarəsi tərəfindən təşəkkür. *(Gülərək gedir.)*

D ü n y a. Vallah məndən nə milis naçalniki çıxar. *(İki barmağını ağzına salıb milisionerin dalınca fit çalır.)*

Nadir əlində gül, Gülaranı axtararaq gəlir.

N a d i r. Bu Gülara hara getdi? Eh qızlar, qızlar!..

D i l a v ə r *(gəlir).* Aha, Nadir, niyə bikefsən?

N a d i r. Heç...

D i l a v ə r. Yox dostum, dərdini bilirəm, sənə ürəkdən acıyıram.

N a d i r. Gülaranı görməmisiniz ki?

D i l a v ə r. Niyə görməmişəm, görmüşəm. Onun əli böyüklər ətəyindədir.

N a d i r. Uzatmayın, hardadır?

D i l a v ə r. Bağın tənha bir guşəsində Qorxmazovla şirin-şirin söhbət eləyir.

N a d i r. Qorxmazovla?

D i l a v ə r. Bəli, doğrudur, Qorxmazov bizim dostumuzdur, amma nişanlı bir qıza yaraşmaz axı. Götürək elə bu uşaq məsələsini...

N a d i r. Nə uşaq məsələsi?

D i l a v ə r. Əşi biri deyir səndəndir, o biri deyir özgəsindəndir. O biri də deyir ki...

N a d i r. Bu sözü kim çıxarıb, kim?

D i l a v ə r. Uşağın özü, doğrudur hələ uşaq dil açmayıb, ancaq onu saxlayaının min dili var.

N a d i r. O kimdir?

D i l a v ə r. Dəmirov.

N a d i r. Sizin başınıza hava gəlib nədir, bu uşaq söhbəti hardan çıxdı, canım?!

D i l a v ə r. Qorxmazovun otağından.

N a d i r. Əl çəkin yaxamdan.

D i l a v ə r. Biz əl çəkirik, lakin uşaq əl çəkməyəcək. *(Gedir.)*

N a d i r. Uşaq nədir? Bu sözlərin mənası nədir? Niyə Gülaranın haqqında belə söhbətlər olsun axı. Təqsir özündə. Kim bilir bəlkə, burda həqiqətə yaxın bir şey var, varsa onda eh...

G ü l a r a *(tələsik gəlir).* Nadir, hardasan, bayaqdan səni axtarıram.

N a d i r. Məxfi söhbətinizi qurtardınızmı?

G ü l a r a. Kiminlə?

N a d i r. Qorxmazovla.

G ü l a r a. Bu nə sözdür?!

N a d i r. Sözdür də...

G ü l a r a. Boş sözdür. Görmədin iclasda ona nə toy tutdum.

D ə m i r o v *(gəlib ağac dalından onlara qulaq asır. Kənara)*. Qulaqlarım da tutulmağa vaxt tapdı. *(Qulağını ovur.)*

N a d i r. Mən bir neçə dəfə sənə ciddi demişəm ki, ondan uzaq, uzaq...

G ü l a r a. Mən ondan necə uzaq ola bilərdim ki, o hələlik...

N a d i r. Əlbəttə uzaq ola bilməzsən, çünki bağlar möhkəmdir.

G ü l a r a. Sən uşaq olmusan nədir?

N a d i r. Bəli, uşaq olmağına olub, ancaq atası mən deyiləm.

G ü l a r a. Nə ata, nə uşaq?

N a d i r. Sən yaxşı bilirsən. *(Əlindəki gülü yerə çırpıb gedir.)*

G ü l a r a. Heç başa düşmürəm nə olub. Nadir, bir dayan! *(Dalınca gedir.)*

Dəmirov gülü yerdən götürüb iyləyir,
Qorxmazov, Dilavər, Bayramalı gəlir.

Q o r x m a z o v. Adə, Dəmirov, Dünya bu aralarda yoxdur ki?

D ə m i r o v. Xeyr... görməmişəm.

Q o r x m a z o v. Qorxuram bu qəşəng gecəni mənə haram eliyə.

D ə m i r o v. İndicə Gülara ilə şekilçəkən cavan...

Q o r x m a z o v. Qarğaturist?

D ə m i r o v. Hə, hə, bu ağacın altında.

Q o r x m a z o v. Aha, öpüşürdülər?

D ə m i r o v. Xeyr a... vuruşurdular.

Q o r x m a z o v. Nə üstə?

D ə m i r o v. Uşaq üstə.

Q o r x m a z o v. Sonra, sonra?

D ə m i r o v. Şey, Nadir dedi ki, uşağı al boynuna. Gülara almadı və Nadiri qovdu. Sonra o dedi ki, bu gülü mənim tərəfimdən verərsən Qorxmazova.

Q o r x m a z o v (gülü qoxulayır). Can qısqanclıq, can! Afərin mənim bu başıma. Gör a... qız birdən nə dəyişdi. Məndən zəhləsi gedirdi. İndi mənə gül göndərir. Can! Can!

D i l a v ə r. Bütün bunlar nazdır, naz!

Q o r x m a z o v. Deməli, cananın mənə axotu var?

D i l a v ə r. Bəli, var. Çün piş əz vaxt bərayi-məlumat, sizi möhkəm tənqid etməsi də nazdır, naz!

Bu deyil tənqidi-şəxsi, bu olur tənqidi-nazi.
Məni qoyma, ey gözəl qız, o camalına tamarzı.

Odur, müqəvvaffiruş xanım gəlir.

Q o r x m a z o v. Maska satan qız? Deyirsən biz də maskalanaq?

D i l a v ə r. Əlbəttə, bərayi-ehtiyat...

Q o r x m a z o v. Ay qız, maskaları bura gətir görək. *(Qız gəlir.)*Hansını taxsam yaxşıdır?

Q ı z. Maskalar püşk ilə satılır.

Q o r x m a z o v. Qoy elə olsun, ya bəxt! *(Torbadan nömrə çıxarır),* Nömrə 7-ni ver.

Q ı z *(ona ayı müqəvvası verir).* Buyurun!

Q o r x m a z o v. Boyunu yerə soxum belə bəxt! *(Hamı maska taxır. Musiqi çalınır.)* Mən ölüm ora baxın, yenə aləm qarışdı bir-birinə.

Rəqs edənlərin arasında bir qiz oxuyur.

Canan! Bütün aləm bilir eşqimdə düzəm mən,
Məndən uzaq olsan belə üstündə gözəm mən.
İşdir sən əgər özgəni sevsən, onu bil ki,
Od parçasıyam, yandıraram, sanki közəm mən.
Gördüm səni qarşımda dünən, söylədim ey bəxt
Alqış sənə cananla yenə üzbəüzəm mən.
Sənsizliyi az bilmə, gülün rəngimə bir bax,
Hicranın ilə gör necə solğun bənizəm mən.
Yox, yox, dözərəm dərdinə, hicranına canan,
Hicran seli neylər mənə, coşqun dənizəm mən.
Gəl sanma özün tək bu Süleymanı vəfasız,
Qarşmda yenə körpə uşaq tək təmizəm mən!

Dünya Nadirlə söhbət edə-edə gəlir.

D ü n y a. Sözümü kəsmə, mənə qulaq as, zəmanə yaman dəyişib. Biz də qız olmuşuq, belə qələtər eləməmişik... Ərimin pamoşniki Gülaranı deyirəm ey... Kişini yoldan eləməyib?

N a d i r. Buraxın bu dolaşıq söhbətləri.

D ü n y a. Bizi dolaşığa o salıb... gecə yarıya kimi evimizə zəng olur.

N a d i r. Nə dediniz? *(Fikri dağınıqdır)*

D ü n y a. O gecə yuxusunda Gülara, Gülara deyib gur-guruppaz kravatdan endi yerə... Mən də nə yemisən - turşulu aş, o ki döyməliydi döydüm onu. İndi də bütün aləm deyir ki, bir bala doğub verib Dəmirovgilə saxlamağa... Guya körpəni Dəmirovun əliuşaqlı gəlini əmizdirir.

N a d i r. Uşaq?! Dəmirovgildə!..

D ü n y a. Hə, hə, başına çarə qıl, cavan oğlan!

N a d i r *(pərişan).* Çarə, əlbəttə çarə. *(Dağınıq fikirli yavaşdan bu şeri deyir)*

Bir körpə uşaq tək məni əyləndirib oynat,
Aldat məni, aldat məni, aldat məni, aldat.
Mən könlümü verdim sənə, heyhat!
Dedin azdır. Rüşvət deyil əlbəttə könül, sən məni azdır.
Hər doğru sözüm oldu yalan söz nəzərində,
Aldandın əzizim yenə sən öz nəzərində.
Vaxtilə tutardın məni dünyalara üstün,
Anlat mənə, məndən niyə qaçdın, niyə küsdün?

*(Gedərkən Dünya gəlməkdə olan Gülaranı görüb Nadirə süni mehribanlıq göstərir.)*

G ü l a r a. Mən nələr görürəm!

D ü n y a. Gedək, Nadir, sənə sözüm var.

*(Gedirlər.)*

G ü l a r a. Gedin, artıq mən sizə mane olmuram.

Mən söyləmərəm boş yerə canana vəfasız,
Axır məni saldın yenə sən qanə, vəfasız,
Var məndə vəfa, səndə, gülüm, zərrə vəfa yox,
Gəl söyləmə sən bir də Gülaranə vəfasız.

Q o r x m a z o v *(tələsik gəlib özünü Gülaraya yetirir).* Ay qız!

G ü l a r a *(diksinir:)* Bıy, bu kimdir?

Q o r x m a z o v. Napras yerə qorxursan, mənəm, Qorxmazov.

G ü l a r a. Çəkilin... rica edirəm.

Q o r x m a z o v. Gülara, daha bağışlayıram səni. *(Gülü iyləyir.)* Sənin tənqidinin mənasını indi başa düşürəm.

Bu deyil tənqidi-şəxsi, bu olur tənqidi-nazi,
Məni qoyma, ey gözəl qız, o camalına tamarzı.

G ü l a r a. Deyəsən tənqid sizi şair eləyib.

Q o r x m a z o v. Bəs nə, bu gül məni bir sayaq eləyib ey...

G ü l a r a. Təbiətin sirri böyükdür.

Q o r x m a z o v. Təbiət, məhəbbət... Deməli siz də sevirsiniz...

G ü l a r a. Əlbəttə sevirəm, bu gizli deyil. Lakin vəfasız məni...

Q o r x m a z o v. Vallah mən də sevirəm. vəfassz zad deyiləm. Bir hə de, gör səninçin neyləyirəm, nə!..

G ü l a r a. Ona nə edə bilərsən ki?

Q o r x m a z o v. Qovaram eşqimizə meşat eləyən biganələri.

G ü l a r a *(gülür).* Mən nə hayda, siz nə hayda...

Q o r x m a z o v *(fikirləşir).* Belə sənin maskanı yeyim, maskanı... G ü l a r a, özün görürsən ki, rəhbərliyi necə bacarıram. Ancaq bu şoqərib qalstuk bağlamağı bacarmıram ki, bacarmıram. *(Cibindən bir qalstuk çıxarır.)* Al keçirt boynuma, bağla məni...

G ü l a r a *(başını bulayıb gülür).* Ver görüm. *(Qalstuku Qorxmazovun boynunda bağlayır.)*

N a d I r *(gəlir).* Bağışlayın, mane oldum.

Q o r x m a zo v. Çalağanturist!

G ü l a r a. Yoldaş Qorxmazov, rica etdi qalstukunu bağlayım.

N a d I r *(əsəbı).* Bərk bağla, qırılıb əlindən qaçmasın. *(Gedir.)*

Q o r x m a z o v. Adə, heyvan-zadam ki, kənidiri qırıb qaçam?! *(Gülara Nadirin dalınca getmək istərkən Qorxmazov əlindən tutub dartır.)* Bivəfadır, qoy getsin! Gəl oynayaq, gör nə qəşəng havadır. Bunu yazanın barmaqlarına əhsən!

G ü l a r a. Belə axmaq zarafatları heç də xoşlamıram. *(Onu itələyi*r, *Oorxmazov yıxılır.)*

Q o r x m a z o v. Bu havanı yazan, görüm barmaqların qırılsın! *(Ayağa qalxır.)* Bu qarğaturist nə yaman vaxtda gəldi. *(Qalstuku öpür.)* Sənə

canan əli dəyib, canan... Ədə, görəsən bu dostlar yenə niyə pərən-pərən düşdü? (*Bu dəmdə arxadan gələn Dünyanı görür.)* Aha, bu nazənin kim ola? Əcəb bürüştə yerişi var. *(Dünya da skamyada oturub tum çırtlayır.)* Əcəb quşdur, özü də gəlib qonub mənim məhəbbət ağacımın şah budağına. Padxod eləyək görək başımıza nə gəlir. Malağankalar kimi simişkə çırtlaması bir az məni şübhələndirir. Birdən domarabotnitca-zad olar a!..

D ü n y a. Görəsən bu oğlan kimdir? Mənə nə həsrətlə baxır. Bəs niyə yaxınlaşmır. Eh, hamı bizim kişi kimi sırtıq olmaz ki...

Q o r x m a z o v. Ehtiyat igidin yaraşığıdır. Səsimi dəyişməliyəm. Yoxsa Dünya iyimi duyub gəlib üstümüzə çıxar.

D ü n y a. O mənimlə tanış olmaq istəyir. Səsimi dəyişim. Tanıyan-falan olmasın.

Q o r x m a z o v *(başqa səslə).* Xanım, müqəddəs yanınızda oturmaq olar?

D ü n y a. Niyə olmur ki.

Q o r x m a z o v. İcazənizlə... *(Yanında oturur.)*

D ü n y a *(kənara).* Nə tərbiyəli oğlandır.

Q o r x m a z o v. Nə üzüyola xanımdır... *(Dünyaya)* Xanım inci, mirvari dişlərinizə heyfiniz gəlmir ki, tum çırtlayırsınız?

D ü n y a. Dərddən çırtlayıram, dərddən.

Q o r x m a z o v *(kənara*). Deyəsən bu da mənim kökdədir. *(Dünyaya)* Xanım, bu baği cənnətdə kimi gözləyirsiniz?

D ü n y a. Heç kimi, bəs siz?

Q o r x m a z o v. Mən də heç kimi.

D ü n y a. Bəs arvadınız?..

Q o r x m a z o v. Həm var, həm yox. Kaş dünən öləydi bu gün ikinci günü olaydı.

D ü n y a. Mən də ərim haqqında siz deyəni deyə bilərəm. Sizinki gözəldirmi?

Q o r x m a z o v. İfritədir. Ata atsan at yeməz, itə atsan it... Bəs sizin əriniz necə?

D ü n y a. Üzünə baxsanız qusmağınız gələr.

Q o r x m a z o v. Pah atonnan, bəxtimiz beləymiş xanım. Mənim nəzəri noxtamca buna çarə tapmalıyıq.

D ü n y a. Nə çarə?

Q o r x m a z o v. Deyirəm indi ki, ikimiz də bir dərddəyik, gəlin yaxından dost olaq.

D ü n y a. Nə deyirəm ki...

Q o r x m a z o v. Xanım, sənin o illahi gözəlliyin məni çəkib apardı eşqimin detski malçik dövrünə... *(Dünyanın əllərini ovuşdurur.)* Can, pambıqdır, pambıq. Yoxsa bizim arvadın əlləri kimi, elə bil mişardır-mişardır...

D ü n y a. Ehtiyatlı olun.

Q o r x m a z o v. Eşqə, məhəbbətə nə ehtiyat canım. Sən mənim canımsan, ciyərimsən.

D ü n y a *(kənara).* O nanəcibdən, ərimdən belə şirin söz eşitmədim. *(Qorxmazov)* Nə buyurdunuz, cavan oğlan?

Q o r x m a z o v. Heç. *(Kənara)* Nə həyalı arvaddır! *(Dünyaya)* Xanım, gərək bizim bu dostluğumuz ömürlük, yəni pastayannı olsun. Odur ki, bir insafa gəl, götür maskanı, ta o ay camalının nuru mənim tomnı qara qəlbimi çadrovı küçəmiz kimi işıqlandırsın.

D ü n y a. Əvvəlcə siz götürün...

Q o r x m a z o v. Yox, əvvəlcə sən aç.

D ü n y a. Olmaya arvadınızdan qorxursunuz?

Q o r x m a z o v. Kişi də arvaddan qorxar? Bəlkə sən ərindən...

D ü n y a. Necə, necə, arvad da kişidən qorxar?..

Q o r x m a z o v. Onda niyə uzadırıq axı.

Tez ol aç o gül camalını,
Görüm üzündəki xalını,
Soruşum sənin əhvalını.

D ü n y a. Saxla, onda gəl ikimiz də birdən açaq.

Q o r x m a z o v. Açaq qadası, açaq. Bax, mən üç deyən kimi ikimiz də birdən mübarək üzümüzü açırıq.

Sayıram... bir... iki... (kənara) ürəyim nə yaman döyünür. Allah əliyə Dünya zalımın qızı üstümüzə çıxmaya. (Dünyaya) iki... iki...

D ü n y a. Uzatmayın görək.

Q o r x m a z o v. Bir, iki, bir, iki...

D ü n y a. Ürəyim suya döndü ki, tez!

Q o r x m a z o v. Can, bu da sənə üç!..

Hər ikisi müqəvvasını çıxarır. Hər ikisi lapdan yerə yıxılır.

P Ə R D Ə

## ÜÇÜNCÜ PƏRDƏ

Qorxmazovun kabineti. Dəmirov başının altına kiçik bir yastıq qoyub uzanmışdır. Dəmirov əsnəyir, gərnşir.

D ə m i r o v (yuxulu). Nə, danışan kimdir? Cecurnadır! *(Hərəkətsiz) (Yenə zəng)* Necə, bakalları qaldıraq padxalimlərin sağlığına? Axmaq... Burda padxalim nə gəzir... (Hərəkətsiz).

Yenə zəng vurulur. Fatma gəlib divardakı saata baxır və Dəmirovu silkələyərək zorla ayıldır.

F a t m a. A kişi, bəsdir xoruldadin, dur ayağa!

D ə m i r o v (diksinir). Necə, prikazım gəldi?

F a t m a. Bir qazın yox, iki qazın gəldi... Umsunma, şişərsən, qalx ayağa!

D ə m i r o v. Arvad, bu dəqiqə yuxuda görürdüm ki, məni Qorxmazovun yerinə itələyiblər. (Stol arxasında oturur.) Bax gör yaraşır, hə?..

F a t m a. Eh... cavan ömrümü gör kimlə çürütdüm. Ata, anama nə deyim.

D ə m i r o v. Yenə şikayət? Məndən artığına gedəcəkdin? Sən bir gör ərin kimin yanında işləyir!

F a t m a. Uşaq-uşaq danışma!

D ə m i r o v. Yaxşı yadıma saldın, uşaq necədir?

F a t m a. Nigaran qalma, yaxşıdır. Kürəkənimiz səfərdən gələnə kimi saxlarıq.

D ə m i r o v. Uşaq deyil, çörək ağacıdır, çörək ağacı... Uşağın əsil atası tapılsaydı daha dərdimiz oimazdı.

F a t m a. Allah Qorxmazova ömür versin ki, özgənin uşağına bu qədər can yandırır.

D ə m i r o v. Hə, hə, görürsən necə kişidir. Sən isə həmişə onun dalınca deyinirsən. *(Səbir gətirir, asqırır.)*

F a t m a. Ürəyimizi bulandırma... Üz-gözündən kifirlik yağır. Tez get əl-üzünü yu...

D əm i r o v. O da baş üstə! *(Getmək istəyir.)*

F a t m a. Kişi günorta bazara sən gedəcəksən.

D ə m i r o v. Nə deyirəm ki. *(Gedir.)*

Gülara *(gəlir).* Salam, Fatma xala!

F a t m a. Salam qızım, salam!

G ü l a r a. Qorxmazov hələ gəlməyib?

F a t m a. Xeyr qızım, niyə belə bikefsən?

G ü l a r a. Heç xala... Atelya modamızın körpəsi necədir?

F a t m a. Uşaqdan nigaran qalma. Ona öz doğma balamız kimi baxrıq. Ancaq biraz...

G ü l a r a. Başa düşürəm... (Ona pul verir.) Al. Ancaq ondan muğayat ol, körpədə günah yoxdur. Günah bizdədir ki, bu cinayəti işləyib, sonra ört-basdır etməkçin məsum körpələri əldən-ələ salırıq.

F a t m a. Cavanlıqdır qızım, bir işdir olub da... Qızım, bəs o körpnin əsil atası kimdir? Məndən gizlətmə... də.

G u l a r a. Deməyə çox çətinlik çəkirəm, Fatma xala. Kimin üstünə atasan ki...

F a t m a. Bıy, başıma xeyir... allah günahınızdan keçsin qızım, o dünyada nə cavab verəcəksiniz?

G ü l a r a. Mən niyə? Qoy təcrübəsiz qızları yoldan eləyən vicdansızlar cavab versin.

F a t m a. Haqlısan, görəsən o dələduz daha kimli bədbəxt eləyəcək? Qoy bu sizə ömürlük dərs olsun.

G ü l a r a. Bu ağıllı sözdür. Sağ ol, Fatma xala. (Gedir.)

F a t m a. Yazıq qız, tutduğu əməldən yaman peşman olub. (Fatma stolu təmizləyir. Papiros kötüklərini toplayır. Sonra divara söykədilmiş şəkli çevirir. Təmizləyir.) Qorxmazov bu idarəyə gələni aləmi zibilləyib. Bunu da yaman toz basıb. (Şəkilə tüpürür və silir. Qorxmazov gəlir, heyrətlə Fatmaya baxır.) Tfu, tfu...

Q o r x m a z o v. Adə, düşməni ayrı yerdə niyə axtarıram. Budur, hazır durub qabağımda. Fatma, mənim üzümə tüpürürsən?

F a t m a. Bıy, salaməleyküm! Üzündəki çirki təmizləmək istəyirdim.

Q o r x m a z o v. Xeyr, kələyin baş tutmaz. De görüm səni kim öyrədib?

F a t m a. Eh, boş-boş danışma.

Q o r x m a z o v. Neceə

F a t m a. Daha bəsdir. Ərim bir yandan, sən bir yandan canımı boğazıma yığdınız... Səhərdən axşamacan işləmək bir yana dursun, üstümüzə bir uşaq da atdınız.

Q o r x m a z o v. Yaxşı, yaxşı... uşağın halı necədir?

F a t m a. Yaman şıltaqdır.

Q o r x m a z o v. Yəqin atası qırışmala çəkib.

F a t m a. Necə, atası tapılıb?

Q o r x m a z o v *(diksinir),* Hələ yox.

F a t m a. Atası əclafda insaf, vicdan olsaydı, öz gül kimi uşağına sahib çıxıb onu yad əllərə tapşırmazdı.

Q o r x m a z o v. Bəli, bəli...

F a t m a. Vallah, Qorxmazov qardaş, atası rastıma gəlsəydi, tutardım onun yaxasından, bax belə... *(Qorxmazovun yaxasından yapışır.)* Üzünə bir parça tüpürüb deyərdim ki: ey dələduz! *(Tüpürür, Qorxmazov dadlı-dadlı getdikcə Fatma onu təqib edir.)* Ay binamus! Ay əclaf!

Q o r x m a z o v. Buraxsana yaxamı, onun atasından mənə nə.

F a t m a. Bu sözləri sənə yox ki, uşağın əsil atasına deyirəm də.

Q o r x m a z o v. Heç ona da demə... Ədəblə danışmaq kulturadır, ədəbsiz danışmaq xaltura, Fatma xala!

F a t m a. Əlbəttə quldur-muldur belə iş görə bilər, kül o biqeyrət atanın başına ki...

Q o r x m a z o v. Sus, atasının yox, anası Gülaranı söymək lazımdır, Gülaranı. Ana da öz uşağından boyun qaçırar? Zalımın qızı, bəlkə bu uşaq böyüyüb zorba bir incinar olacaq, doktor olacaq...

F a t m a. Dərzi olacaq...

Q o r x m a z o v. Yox, yox atası buna razı olmaz.

F a t m a. Qoy olmasın, olmasın... Hə, onu deyirəm ki, az qalmışdı yadımdan çıxsın.... Dünən Dünya xanım bizə gəlmişdi.

Q o r x m a z o v. Sizə gəlmişdi? *(Kənara)* Evim yıxıldı.

F a t m a. Bəli, körpənin göz-qaşına, burun-qulağına çox diqqətlə baxdı.

Q o r x m a z o v. Yoxsa burun-qulaq doktoru olub? Fatma xala, səndən çox xoşum gəldi. *(Pul verir.)* Al bu pulu... Uşağa yaxşı qulluq eləyin.

F a t m a. Görüm əlin kimi ürəyin də açıq olsun. Bayaq Gülarada uşaqçın bir az xərclik verdi.

Q o r x m a z o v. Aha, uşağı aldı boynuna?

F a t m a. Alan kimi oldu... ancaq atasını demədi ki, demədi. Yaxşı, Qorxmazov qardaş, baş-gözünüz niyə belə gömgöydür? Olmaya yıxılıb eləmisiniz?

Q o r x m a z o v. Xeyr, Fatma xala, bunlar karnaval frontunun meyvəsidir.

F a t m a. Yaxşı, mən getdim işimə. *(Gedir.)*

Q o r x m a z o v (gəzişir). Yaxşı Gülara... nə qədər ki, bu uşaq məsələsi var, sən mənim əlimdəsən, əlimdə! Öl desəm öləcəksən, qal desəm qalacaqsan... Məni sev desəm sevəcəksən... *(Rəhilə içəri girir.)* Aha... Axır ki, gəldin, görürsən hörmətini? Demişəm səni mənim yanıma bez daklad buraxsınlar.

R ə h i l ə. Mən balamı istəyirəm, balamı!

Q o r xm a z o v. Şərtini dünən demişəm. Cəmisi bir dəqiqəlik əziyyəti var.

R ə h i l ə. Vicdanım iftira atmağı qəbul etmir. Balamı qaytarın mənə...

Q o r x m a z o v. Aha...balamı...Dediyim şərtdən başqa bir yolu yoxdur. Onu da sənə xəbər verim ki, Dünya ilə bu gün-sabah üzülüşəcəyəm.

R ə h i l ə. Onun daha mənə dəxli yoxdur.

Q o r x m a z o v. Çox dəxli var. Telefonda sənə dediyim şərtə razısan, ya yox?

R ə h i l ə. Yox, yox, qaytarın mənim balamı özümə.

Q o r x m a z o v. Aha, qoy sənə düzünü deyim. Balan Nadirdədir, Nadirdə. Verdim ona oğulluğa... bu dəqiqə... *(Zəngi basır.)*

R ə h i l ə. Bu nə işdir mən düşdüm.

Dəmirov gəlir

Q o r xm a z o v. Tez Nadiri çağır gəlsin... Sonra o biri işçilərimə də xəbər elə yanıma gəlsinlər... *(Dəmirov gedir.)*

R ə h i l ə. Görəcək günlərim varmış.

Q o r x m a z o v *(qışqırır).* Necə, necə? Sən mənim kadrolarımı ləkələyirsən?

N a d i r *(gəlir).* Mənə aid qulluq!

R ə h i l ə *(onun üstünə atılır).* Nadir, Nadir...

N a d i r. Məndən nə istəyirsiniz?

N a d i r. Nə bala?

R ə h i l ə. Günahların hamısı məndədir.

Bu dəmdə Gülara, Dilavər, Bayramalı, Dəmirov gəlir.

N a d i r. Bu nə komediyadır?

R ə h i l ə. Ayaqlarına düşürəm, ver mənim balamı.

Q o r x m a z o v. Ay qız... mənim kabinetimi zaqsa döndərmə deyirəm sənə!

R ə h i l ə *(Qorxmazova).* De mənim balamı qaytarsın özümə.

N a d i r. Nə bala, canım?

R ə h i l ə. Yıxılıram ayaqlarına. Balamı qaytar, məni bədbəxt eləmə.

N a d i r. Xanım, bu iftira üçün sizi məsuliyyətə çəkərəm. Mən sizi birinci dəfədir ki, görürəm.

D i l a v ə r. Çün piş əz vaxt bərayi məlumat...

G ü l a r a. Nadir, bu bədbəxti niyə təhqir edirsiniz?

N a d i r. Yox, mən dəli olacağam!

R ə h i l ə. Balamı niyə mənə qaytarmırsan axı?..

Q o r x m a z o v. Yoldaşlar, görürsünüz bu həngaməni? Biri otağıma uşaq qoyur, o biri gəlib kadroma, qarğaturistimə iftira atır. Rədd olun mənim kabinetimdən... Hanı bu telefon? *(Zəng vurur.)* Salam. Mənəm, Qorxmazov... Sən öl, məni rahat işləməyə qoymurlar. Axşam gəlirəm sizə, öpürəm. *(Hamı təəccüb edir.)* Rədd olun başımdan, qoyun işləyək, planımızı dolduraq. Avaralar! *(Hamı gedərkən Rəhiləyə)* Qızım, sən bir dəqiqə dayan. Səninlə işim var. Hə, gördün ki, heç bir qorxulu iş olmadı. Balan əvvəl Nadirgildə idi. İndi isə bax bu adresdədir, *(Qorxmazov kağız yazıb ona verir.)* AI, axşam gedib bu adresden uşağını alıb apararsan. (Rəhilə kağızı alıb hönkürərək çıxır.) Bu da belə...

D ə m i r o v *(gəlir).* Salam, indi necəsən?

Q o r x m a z o v. Bir də o qızı bura buraxmazsan. Axşam o sizə gələcək, ver uşağını aparsın, təqsir Gülarada yox, Nadirdə imiş...

D ə m i r o v. Siz buyuran düz olar.

Q o r x m a z o v. Adə Dəmirov, dostlar bilir ki, sabah nə günüdür və ayın neçəsidir?!

D ə m I r o v. Sabah bazar günü, özü də ayın 13-dür.

Q o r x m a z o v. Yaman nəhs gündür, yaman, ayın on üçü, yəni nə adə?

D ə m i r o v. Anadan olan gününüz...

Q o r x m a z o v. Malades, kakraz mən sabah bu vaxt dünyaya gəlmişəm.

D ə m i r o v. Xoş gəlmisiniz, yoldaş Qorxmazov. Hamı hazırlıq görür.

Q o r x m a z o v. Yaxşı, get Nadiri çağır.

D ə m i r o v. Nadiri? Yox, yox, qorxuram.

Q o r x m a z o v. Qorxursan, nə olub adə?

D ə m i r o v. Dilim gəlmir.

Q o r x m a z o v. Danış adə, bağrım çatdadı ki?

D ə m i r o v. Nadir, Nadir, bayaq, Nadir, Nadir bayaq!

Q o r x m a z o v. Ay əclaf, sonra, sonra...
D ə m i r o v. Sonra, sonra Nadir... bayaq Nadir...
Q o r x m a z o v. Dillən, nankor, dillən!
D ə m i r o v. Bayaq, Nadir, bayaq Nadir, işçiləri başına yığıb yavaşdan danışırdı. Tez-tez sənin adını çəkirdi. Deyirdi ki, intiqam alacağam, intiqam.
Q o r x m a z o v. Necə intiqam?
D ə m i r o v. Hə, sonra mən tapşırdığın kimi onu güddüm. Gördüm stolun balaca gözünü açıb cibinə qara bir şey qoydu, tapançaya oxşayırdı.
Q o r x m a z o v. Necə, tapança? Ölkə yiyəsizdir məgər?.. Bu saat milis idarəsinə xəbər vermək lazımdır.
D ə m i r o v. Tələsmə, bəlkə tapançaydı, bəlkə yox...
Q o r x m a z o v. Bəs allah sənə gözü nə üçün verib, ay nadan? Sən şahidim olacaqsan. İntiqam, sonra da tapança. Yəqin quyuma qəsd eləmək istəyir. Yox, bu işi belə qoymaq olmaz... *(Telefon zəng vurur. Dəmirov gedir.)* Qulaq asıram, necə? Sizi get-gələ salıblar? Çığır-bağır salmayın. Tapança! İntiqam! Necə dəli olmuşam? İntiqam, tapança!.. Əşi rədd ol başımdan... Əlindən gələni beş qaba çək. *(Trubkanı asır.)*
N a d i r *(gəlir)*. Mən gəlmişəm.
Q o r x m a z o v. Hə? Necə! Gəlmisən? Gəlmə, gəlmə. Əlini cibindən çıxart deyirəm sənə!
N a d i r. Kefim belə istəyir.
Q o r x m a z o v. Qorxuram sənin kefin mənə çox baha otura. *(Diksinir, Nadir irəlilədikcə Qorxmazov dalı-dalı gedir.)*
N a d i r. Sizi başa düşmürəm.
Q o r x m a z o v. Əllərini qaldır, bir, iki, üç...
N a d i r. Sizə nə olub? Tapança kimi nə açılırsınız adamın üstünə?
Q o r x m a z o v. Aha, tapança, tapança...
N a d i r. Nə tapança, canım?
Q o r x m a z o v. Cibindəki tapança...
N a d i r. Cibimdə tapança? *(Ciblərini göstərərkən Qorxmazov həyəcan keçirir.)*
Q o r x m a z o v. Pencək cibini də, qoltuq cibini də, dal cibini də... *(Kənara)* Ürəyim bir az rahat oldu. *(Nadirə)* Qoçuluq dövrü çoxdan keçib.
N a d i r. Əlbəttə. Bunu özünüzə deyin... Yaxşı, məni niyə çağırmısınız?
Q o r x m a z o v. Onun çün çağırmışam ki,mənim rəhbərliyim altında sən nə ixtiyarla əxlaq pozğunluğu ilə məşğul olursan?

N a d i r. Bunun sizə heç dəxli yoxdur.

Q o r x m a z o v. Deməli bu həqiqətdir?

N a d i r. Həqiqət, ya qeyri-həqiqət... Bu mənim öz işimdir.

Q o r x m a z o v. Nə dedin? Mən heç kəsə izin vermərəm ki, əxlaqsızlıq eləyib atelya modamın və mənim avtoritetimi yerə vursun. Günah Gülarada yox, səndə imiş, sən karikaturistdə...

N a d i r. Bu belə qalmayacaq.

Q o r x m a z o v. Əlbəttə qalmayacaq.

N a d I r. Mən intiqam alacağam, intiqam!

Q o r x m a z o v. İntiqam qurtarmadi? *(Qorxur, geri çəkilir.)*Kimdən?

N a d i r. Bu komediyanın baş rejissorundan.

Q o r x m a z o v. Onda get teatra!

N a d ı r. Mənim intiqamım çox dəhşətli olacaq, çox...

Q o r x m a z o v. Tapançayla, əlbəttə, dəhşətli olar. *(Titrəyir.)* Adə, məni öldürmək istəyirsən, hə?

N a d i r. Bəli, sizin o çürük qəlbinizdəki murdar, ləkəli, iyrənc, əməlləri çoxdan öldürmək lazımdı.

Q o r x m a z o v. Bu nə danışır adə... Mən vətənbazlıq eləyəndə, inqilabbazlıq eləyəndə, can qoyanda sən hələ anadan olmamışdın...
Detski malçik!

N a d i r. Əlimdə imkan olsaydı yaltaqlığı, alçaqlığı, qorxaqlığı, ikiüzlülüyü, lovğalığı, mənəm-mənəmliyi, sizə bənzər adamların beynindən qızmar kəlbətinlə kökündən çıxarıb zibil yeşiyinə atardım ki, sağlam cəmiyyətimizi zəhərləməsin. Bəli, sizdəki bu təmayülləri öldürmək mənim müqəddəs borcumdur. Bu qədər! *(Gedir.)*

Q o r x m a z o v. Adə adam öldürmək havaxtdan müqəddəs iş olub? Vay, vay, bu nə deyir adə. Məni öldürmək... yox, yox, mən ölməyəcəyəm, mən özüm sizi öldürəcəyəm! *(Zəngi basır, Dəmirov gəlir.)* Adə, Dəmirov, düz deyirsənmiş, məni öldürəcəklər. Tez dost-aşnamı çağır gəlsin... *(Dəmirov yalandan ağlaya-ağlaya gedir.)* Yox, mən ölməyəcəyəm, ölməyəcəyəm. Yenə də prikaz verəcəyəm, qol çəkəcəyəm...

Bayramalı, Dilavər və Dəmirov birlikdə gəlilər.

D i l a v ə r. Bu nə qara xəbərdir, canım?

Q o r x m a z o v. Ölüm xəbəridir ölüm, bu dəqiqə o malağanturist məni hədələdi ki, səni öldürəcəyəm.

D i l a v ə r. Çün o...

B a y r a m a l ı. Biz ölmüşük məgər?

Q o r x m a z o v. Ölməsəydiniz məni hədələyə bilərdilər? Ölmüsünüz? Çarı tapın görək, çarə, ölürəm.

D i l a v ə r. ölmə, ölmə... fikir vermə, çün o cahildir.

Q o r x m a z o v. Görürəm sizdən mənə kömək olmayacaq.Tapdım. *(Zəng vurur.)* Milis idarəsidir? Danışan qonşuluğunuzdakı Qorxmazov... Bəli, bəli, atelya modnı Qorxmazovdur. Tez-tez bir milisioner göndərin! Nə üçün? Məni öldürəcəklər... Haçan? Lap elə bu dəqiqə. Zarafat nədir canım! Seryoznı deyirəm. Milisioner geciksə, mənim üstümdə özünüz də qana düşərsiniz, qana! Tez olun, daha dilim söz tutmur. *(Trubkanı asır.)* Dostlar! Siz də göz-qulaq olun! Daha bundan sonra mənə teloxranitelsiz gəzmək yaramaz.

D i l a v ə r. Yoldaş Qorxmazov, biz sizi çox igid adam kimi tanıyırıq. Nahaq yerə bu qədər təlaş büruzə verirsiniz.

Q o r x m a z o v. Adə, sən də belə? Yoxsa onu istəyirsiniz ki, gözünüzün qabağında diri-diri dərimi o qədim şair Nəsimov kimi dabanımdan soysunlar? Adə, mən ölsəm, yetim qalarsınız ki...

Bu dəmdə Gülara bir müştəri ilə içəri girir.

G ü l a r a. Bu yoldaş...

Q o r x m a z o v. Hə!.. Tapança? İntiqam? Hə, hə, nə olub?

M ü ş t ə r i. Sizin atelya modaya gözəl bir parça vermişdim. Kostyum tikisin, sonra da əlli-ayaqlı yox olmuşdur.

Q o r x m a z o v. Ay rəhmətlik oğlu, sən nə danışırsan az qalmışdı bayaq mən özüm əlli-ayaqlı yox olam.

M ü ş t ə r i. Bu cavab olmadı, yoldaş direktor.

G ü l a r a. Yoldaş haqlıdır. Onun kostyumunu aparanı tapıb ağır cəzalandırmaq lazımdır.

Q o r x m a z o v. Tapaq da... yoldaş, kostyumunu aparan qardaşım da olsa padsud verəcəyəm, padsud.

B a y r a m a l ı *(büzüşür).* Yoldaş Qorxmazov, vacib işim var. İcazə verin mən gedim.

Q o r x m a z o v. Get.

M ü ş t ə r i *(onu yaxalayır).* Aha, yoldaş, bir dəqiqə...

B a y r a m a l ı *(müştəriyə yavaşdan).* Mən ölüm burda yox... bayırda.

Q o r x m a z o v. Adə deyəsən tanış çıxdınız axı?

M ü ş t ə r i. Özüylə yox, bu kostyumla tanışam. Axır ki, tapıldı. Budur mənim kostyumum.

Q o r x m a z o v. Adə Bayramalı...

B a y r a m a l ı. Vallah... bir günlüyə götürdüm ki, sabah sizin şərəfli, təntənəli mübarək ad gününüzdə xəcil olmayım.

Q o r x m a z o v. Tez get soyun kişinin kostyumunu qaytar özünə.

B a y r a m a l ı. İndi?

Q o r x m a z o v. Əlbəttə indi.

B a y r a m a l ı. Lüt qalım deyirsən?

Q o r x m a z o v. Axmaq, lüt niyə? Onunkini qaytar özünə. Bir başqasınkini keçirt əyninə, qurtarsın getsin. Yoldaş, bağışla, səhv olub. Hamınız gedin. Gülara, sən qal, səninlə vajnı söhbətim var.

G ü l a r a. Qulaq asıram, buyurun.

Q o r x m a z o v. Gülara, gəl barışaq. *(Ona əl uzadır.)*

G ü l a r a. Başa düşmürəm.

Q o r x m a z o v. Bu uşaq məsələsinə görə gözümdən yaman düşmüşdün. Bayaqkı əhvalatdan sonra gözümdə yenə ucaldın göylərə...

G ü l a r a. Gəlin bu barədə danışmayaq.

Q o r x m a z o v. Niye axı... Bayaq öz gözlərinlə görüb, qulaqlarınla eşitmədin məgər? Yoxsa yenə şübhən var?

G ü l a r a. Bilmirəm.

Q o r x m a z o v. Çox yaxşı bilirsən, görürəm, yaman pərtsən. Mən əvvəldən səni xəbərdar eləmişdim. Bu şairdir, bu artistdir, bu rəssamdır... nədir. Bu tayfa...

G ü l a r a. Dedim ki, bu barədə danışmayaq, vəssalam. Gəlin əsas işdən danışaq.

Q o r x m a z o v. Aaz, əsası elə budur də. Biz bununla da məşğul olmasaq, bəs nə ilə məşğul olacağıq. Planımızı da doldurmuşam...

G ü l a r a. Bəli, fədakar işçilərimizin sayəsində.

Q o r x m a z o v. Xeyr, mənim rəhbərliyim sayəsində. Xalqın gözündən pərdə asmaq olmaz.

G ü l a r a. Düzdür... Bayramalı, Dilavər sizin gözünüzdən elə qalın pərdə asmışdır ki, onu yırtmaq çox çətindir.

Q o r x m a z o v. Bilin ki, məni öz səmimi dostlarımdan ayırmaq çox çətindir.

G ü l a r a. Doğrusu, siz həyatdan çox geri qalmısınız.

Q o r x m a z o v. Uşaq-uşaq danışma, mən həyatdan geri qalmış olsaydım, bu zorbalıqda uçrejdenini mənə tapşırmazdılar. Gülara, gəl daşı

ətəyindən tök yerə, əl çək o qarğaturistdən. *(Kənara)* Tapança, intiqam... *(Gülaraya)* O səni almayacaq. Bayaqkı qızın gününə sahb bütün zemnoy şarda bədnam eləyəcək... Yoxsa inanmırsan?

G ü l a r a. Bilmirəm. Bəlkə də...

Q o r x m a z o v. Gülara, onun adını ürəyindən poz getsin.

G ü l a r a. Əvvəla mən onun adını ürəyimə tabaşirlə yazmamışam ki, asanlıqla poza bilim. İkinci... Bayaqkı hadisəni, soyuq qanlılıqla yoxlayıb, sonra bir qərara gəlməliyəm.

Q o r x m a z o v. Daha buna sözüm yoxdur. O, qudurğan hələ məni öldürmək fikrinə də düşüb. *(Diksinir.)* Tapança, intiqam! Yox, yox, mən belə şəraitdə işləyə bilmərəm. Biri əxlaqsızlıqla məşğul, o biri stoluma göz dikib. O biri də, yəni sən...

G ü l a r a *(gülür).* Stol nə sizindir, nə mənim.

Q o r x m a z o v. Yox, bu stol mənimdir, mənim! Qoy bu saat yuxarıya bir zəng vurum... Görərsiniz mənim gücümü... *(Telefonu götürür.)* Allo... zanitdir.

G ü l a r a. Siz özünüz özünüzü ifşa edirsiniz. Bundan xəbəriniz varmı?

Q o r x m a z o v. Məni ifşa eləyəcəksən. Tez mənim kabinetimdən bayıra çıx, yoxsa bu dəqiqə ürəyim partlar... Vay, vay...

G ü l a r a. Oyunbaz! *(Gedir.)*

Q o r x m a z o v. Yox, bunlar məni hərtərəfdən okrujeniyaya alıblar. Yox, mən də intiqam alacağam!..

D ə m i r o v *(gəlir).* Gəldilər.

Q o r x m a z o v. Milisionerler?

D ə m i r o v. Yox... iki nəfər keçdi Gülaranın yanına. Dedilər ki, yanımıza heç kimi buraxmayın.

Q o r x m a z o v. Qocaydılar, yoxsa cavan?

D ə m i r o v. Nə o, nə o. Yəqin qəmissiyadan-zaddandır.

Q o r x m a z o v. Bayquş, ağzını xeyirliyə açsan olmaz?

D ə m i r o v. Nadir də bayaq məndən o Rəhilə xanımı soruşurdu.

Q o r x m a z o v. Demədin ki, heç nə bilmirəm?

D ə m i r o v. Dedim. İnanmadı.

Q o r x m a z o v. Dəmirov, get göz-qulaqda ol, mən yaman yorulmuşam. Gedim bir kəlləmi bərkidim.

D ə m i r o v. Xatircəm ol. *(Gedir.)*

Q o r x m a z o v. Başıma nə kül töküm. Hara zəng vurum? Raykoma? Yox, ora mənim xodum yoxdur, yox... *(Portfelini qapıb qapı ağzına*

*qədər gedib cəld qayıdır.)* Mən hara gedirəm, hara? *(Stola).* Bütün bu bəlalar mənim başıma səndən ötəri gəlir. Sən gecələr də məni rahat yatmağa qoymursan. Beynimə yerləşib, ordan çıxmırsan ki, çıxmırsan. Səndən ayrılıb evə gedəndə ürəyim xarab olur. Elə bilirəm ki, bir də sənin üzünü görməyəcəyəm. Bir özgəsi səni mənim əlimdən alacaq, mən yazıq qalacağam - kruqli yetim. Doğrudur, vücudun bir batman cansiz, quru taxtadan ibarətdir. Amma səndə zorba-zorba hikmətlər, mənalar var. Bəzilərini bəzəyirsən, bəziləri də səni bəzəyir. Mən bədbəxt Qorxmazovun bəzəyi ancaq sənsən, sən! (Fikirləşir.) Məndən başqa kim burda rəhbərlik eləyə bilər axı? Heç kim, heç kim, mən özüm. Bəsdir bu qədər idarələrdə səyahət elədim, bəsdir! Sən pənahım sən-sən, sən! *(Fikirləşir.)* Bir az da fikirləşsəm, başıma hava gələr, hava... *(Portfeli stol üstünə atıb oturur).* Qoy hamı xəbərdar olsun ki, mən əvəzsizəm, əvəzsiz! *(Bağırır.)* Adə, Dəmirov, qapida möhkəm dayan! *(Gah zəngi vurur, gah telefon dəstəyini götürür.)* Priyomu növbə ilə başlayacağam. Mən pastayannıyam, pastayannı!.. Rəhbərliyim davam edir i tağdalı!..

P Ə R D Ə

## DÖRDÜNCÜ PƏRDƏ

Qorxmazovun həyəti. Yaydır. Divardan telefon asılmışdır, əncir ağacından boks topları sallanmışdır. Həyətin ortasında quyu var. Pərdə ağılarkən Dünyanın radioqəbuledici cihazla plastinka çaldırdığı görünür. Tez-tez telefon zəng vurur. Dünya gah priyonmika, gah telefona sarı gedir.

D ü n y a *(dəstəyi götürür).* Qulaq asıram. Kimdir danışan? Bir nəfər? Bir nəfər olsaydınız, dərdim nəydi ki. Necə? Sənin nə ixtiyarın var ki, mənim ərimin anadan olan gününü təbrik eləyəsən? Həyasız! *(Dəstəyi asıb radioya tərəf gedir.)* Yəqin o karnavalda gordüyüm arvadlardan biridir. *(Telefon zəngi)* Hə, səsini çıxartsana, zəhrimar, çor! (Dəstəyi asır.) Bu ev deyil, dəlixanadır! *(Yenə də zəng)* Qulaq asıram. Köpək qızı, atboy verdi.

Q o r x m a z o v *(yüngül paltarda evdən çıxır).* Nə yaman çox yatmışam, fizik-kulturamın vaxtnı keçirmişəm... *(Saata baxır.)* Arvad, deyəsən den rojdeniyama dəm-dəsgah açmısan axı...

D ü n y a. Sənin anadan olan gününə yekə bir daş düşəydi, daş! Bayaqdan adamların telefonu partdatdılar ki...

Q o r x m a z o v. Arvad, heç olmasa bu gün mənə dolaşma.

D ü n y a. Şəhərdə bir arvad tapılmaz ki, ona telefon nömrəmizi verməmiş olasan.

Q o r x m a z o v. Dünya, bəsdir Dünya!

D ü n y a. Yaxşı, uşaq hələ də Nadirin boynunda qalır?

Q o r x m a z o v. Əlbəttə, öz adamları deyir ki.

D ü n y a. Bəs niyə o əxlaqsızı atmırsan idarəmizdən bayıra?

Q o r x m a z o v. Arvad, onlara daha vadar çixan var ey, yoxsa onda nə var ki. Məsələ lap bu gün-sabahlıqdır.

D ü n y a. Görək də. Yaxşı, sənin qonaqların kimlərdir?

Q o r x m a z o v. Öz səmimi dost-aşnalarım... Dilavər, Bayramalı, Dəmirov və tağdali...

D ü n y a. Bu tağdali kimdir, böyük adamdır?

Q o r x m a z o v. Yox canım, tağdali adam deyil, yəni və qeyrə və qeyrə.

D ü n y a. De görüm çağırdıqların arasında arvad xeylağı da var?

Q o r x m a z o v. Yox, sakit ol. Adıma qəzet gətirməyiblər ki?

D ü n y a. Hələ yox.

Q o r x m a z o v. Həmişə alaqaranlıqda gətirərlər, indi gör bəxtimdən ordenlərimizə görə nə yaman apazdat eləyir.

D ü n y a. Ürəyin suya dönməsin.

Q o r x m a z o v. Eh, başımı qarışdırdm söhbətə, fizik-kulturam qaldı.

D ü n y a. Çox ağlm-kamalın vardı. Bunlarla oynayandan sonra bir təhər olarsan.

Q o r x m a z o v. Dünya, beynimin, ürəyimin, kürəyimin - bir söz hər şeyimin artmasına bax bu kömək eləyəcək, bu! Al gəldi. *(Boks əlcəklərini geyib ağacdan asılı toplara vurur. Toplar Dünyanın üzünə dəyir.)*

D ü n y a. Məni vurursan?

Q o r x m a z o v. Yavaş danışmaq kulturadır, bağırmaq xaltura, al bu da sənə fizik-kutura.

D ü n y a. Ay arsız, gör indi kəsirəm ya yox. *(İçəri cumur.)*

Q o r x m a z o v *(məşq eləyir)*. Kultura, xaltura, fizik-kultura.

D ü n y a *(əlində yekə bir mətbəx bıçağı qayıdır)*. Gör kəsirəm, ya yox.

Q o r x m a z o v. İnsafın olsun, Dünya, kəsmə!..

D ü n y a. Kəsəcəyəm. *(Dünya topları kəsmək istərkən Qorxmazov elə bilir ki, Dünya onu bıçaqlamaq istəyir. Əlcəklərlə Dünyanı vurub özünü müdafiə eləyir.)*

Q o r x m a z o v. Camaat, kömək eləyin, məni kəsirlər!

Dünya topları kəsir. Qorxmazova tərəf cumur. Qorxmazov yorulub yerə sərələnir. Dünya gülə-gülə onun başının üstündə dayanır və bıçağı boğazına dayayır.

D ü n y a. Kəsim?

Q o r x m a z o v. Hara tələsirsən, ay arvad? Qurban bayramına hələ çox var.

D ü n y a. Yazıqsan, qalx ayağa!..

Q o r x m a z o v *(qapıya tərəf baxır).* Aha, deyəsən, qonaqlarımız gəlir. Arvad, sən süfrəyə rəhbərlik elə, mən də qonaqlara.

D ü n y a. Xörəklər yandı deyəsən. *(Mətbəxə cumur).*

D i l a v ə r *(gəlir, əlində kağıza bükülü bir stol modeli var).* Salaməleyküm!..

Q o r x m a z o v. Hə, kak zdorov?

D i l a v ə r. Sansız təşəkkür... *(Həyəti nəzərdən keçirir.)* Pəh, pəh, ölmə, ölmə. Həyət deyil, guşəyi cənnətdir. Nəzərgahı cəzb eləyir.

Q o r x m a z o v. Sağ ol.

D i l a v ə r. Sansız təşəkkür. Bu günkü yomialinizə iki hədiyyəmlə gəlmişəm.

Q o r x m a z o v. Özün gəlmisən elə mənə bəsdir.

D i l a v ə r. Sansız təşəkkür. Biri şəxsən vücud mübarəkinizə ithaf etdiyim qəzəl, digəri budur. *(Kağızı açıb stol maketini ona verir.)*

Q o r x m a z o v. Bu nədir adə? Özün bilirsən ki,uşağım-zadımyoxdur. Fikrin odur ki; bu iqruşkalarla yaşımın bu vaxtında mən özüm oynayım? Məni dolamısan?Ələ salmısan?!

D i l a v ə r. Pəh, pəh, xeyr, bunda rəmz var. Burda dərin birmənа gizlənir. Bunu sizə təqdim etməkdən amalım odur ki, vücudi alinizi həmişə stol dalında rəhbərlikdə görüm.

Q o r x m a z o v *(ağlamsınır).* Çox şadam... Əziz dost. Əvvəlcə qanmadım. Məni bağışla, bunsuz mənim bir günüm olmasın. (*Maketi öpür.)* Afərin sənə belə dost!

D i l a v ə r . Sansız təşəkkür... Çün bir saniyə... xamuş...

Q o r x m a z o v. Tişi!..

D i l a v ə r

Sən ey insan kimi hər bir zadı yaxşı qanan stol!
Səni harda doğubdur söylə rəhmətlik anan, stol?
Vəfasızsan, sürüşkənsən, yenə sənsən mənə imdad,
Edirsən piri sən bir an içində nocavan, stol!
Elər arzu bütün dostlar bu gün bu yomialidə,
Otursun Qorxmazov yoldaş dalında hər zaman, stol!

Q o r x m a z o v. Sən məni ağlatdın, gəl öpüm səni, mehriban dostum! *(Dilavəri öpüb ağlayır.)*

D i I a v ə r. Sansız təşəkkür. Bəs sən bizə nə hazırlamısan?

Q o r x m a z o v. Quzu ətindən kabab, yanında da al şərab.

D i l a v ə r. Ötürrük, olar səvab.

Q o r x m a z o v. Nə tez tapırsan cavab?

D i l a v ə r. Pəh pəh, ölmə! Ölmə! Siz xalis şairsiniz ki, var.

Q o r x m a z o v. Mən sənin yanında bir qələt eləyə bilmərəm.

D I l a v ə r. Sansız təşəkkür! İcazənizlə şəxsinizə yazdığım qəzələ guş edin, xamuş!

Q o r x m a z o v. Tişi!

D i l a v ə r

Mübarəkdir sənin bu ad günün alicənab dostum,
Yedirdən hər qonaqlıqda bizə bollu kabab dostum.
Bilir aləm ki, içməzsən, yeməzsən bir kərə mənsiz,
Sənə ad qoymuşam çoxdan araq dostum, şərab dostum.
Gələn həftə həmin burda, bizi cəm eylə xudmani,
Səhər cızbız yeyək. Axşam yeyək yağlı qutab, dostum!

Q o r x m a z o v *(əl çalır).* Malades, mənim yağlı qutab dostum!

D ə m i r o v *(gəlir).* Salam, necəsən, yaxşısan? Gecikməmişəm ki?

Q o r x m a z o v. Deyirsən sənin də yolunu gözləyək? Dəmirov *(ona bir daimi ruçka verir).* Buyur, bu da mənim hədiyyəm. Ancaq camaat dağlışandan sonra açıb baxarsınız.

Q o r x m a z o v *(kağızı açıb baxır).* Adə, bura mənim öz ruçkamdır ki...

D ə m i r o v. Zaddır, şeydir...

Q o r x m a z o v. İki gündür bunu axtarırdım.

D ə m i r o v. Əldən almşam.

Q o r x m a z o v. Ayrı qiymətli bir şey tapa bilmədin?

D ə m i r o v. Bunun mənası ən böyük hədiyyələrdən də böyükdür. Mən, nəinki mən, bütün biz dost-aşnaların istəyirik ki, siz həmişə bu ruçka ilə prikazlara qol çəkib hamımıza rəhbərlik eləyəsiniz. *(Onun üst-başını çırpır.)* Ancaq öldürsələr də əyilməyəcəyəm!

Q o r x m a z o v. Adə bu padarkaların hamısında dərin, yekə bir mısıl varmış ki. *(Çalğı səsləri gəlir. Qorxmazov özünü kabinetdə hesab edir, masada zəng yeri axtarıb barmağıyla basır.)* Adə, bunun zəng yerisi yoxmuş ki Dəmirov, tez keç qapıya.

D ə m i r o v. Burda da qapıçı olacağam?

Q o r x m a z o v. Yox adə, qonaqlarımın qabağına çıx deyirəm.

D ə m i r o v. Nə deyirəm ki. *(Qapıya gedir.)*

Q o r x m a z o v. Gəl Dilavər bir vuraq. *(İçirlər.)*

D ə m i r o v *(qayıdır).* Muştuluğumu ver. Sizi götürdülər.

Q o r x m a z o v *(udqunur. Stola oturur).* Necə? Məni işdən götürdülər? Nə ixtiyarla?

D ə m i r o v. Şeydir, zaddır... Sizi götürdülər.

Q o r x m a z o v. İşdən?

D ə m i r o v. Yox, sizi gətirdilər bura. *(Qorxmazov sakit olur.)*

Q o r x m a z o v. Götürmədilər, gətirdilər, hə? Adə dəli olmusan, nədir? Mən burda ola-ola məni bura kim gətirə bilər axı?

D ə m i r o v. Bu gözlərimlə gördüm. Başınıza örpək də salıblar.

Q o r x m a z o v. Deyirsən bu ağsaqqal vaxtında məni gəlin köçürürlər? İtil gözümdən... *(Dəmirov qapıya gedir.)* Dilavər, bu nə işdir? Yoxsa ikinci bir Qorxmazov çıxıb?

D i l a v ə r. Çün cəfəng söyləyir.

Q o r x m a z o v. Sən öləsən, bir də gördün ki, mənə oxşamayanın biri oturub stolumun dalında deyir ki, mənəm nastoyaşşı Qorxmazov, sən kimsən?

Bu an vağzalı havası müşayiətilə bir dəstə qonaq həyətə girir.
Bayramalının qucağında bir qarpız var. Dəmirov u n başında örtüklü
bir büst. Dəmirov rəqs edərək gəlir, Qorxmazovun qabağında dayanır.

D ə m i r o v. İndi ver muştuluğumu.

Q o r x m a z o v. Adə bu kəllə qəndi hardan tapdınız?

D ə m i r o v. Qənd deyil, boş kəllədir.

Q o r x m a z o v. Ay lotu, bəs o dediyin adam hanı?

D ə m i r o v. Budur ey... (Örpəyi açıb Qorxmazovun büstünü nümayiş etdirir.) Sizi gətirdilər, ya yox?

Q o r x m a z o v. Doğrudan da gətirdilər. Adə bu xalis mənəm ki.

D i l a v ə r. Ölmə, ölmə... Əcibülheykəl, əcibülheykəl.

Q o r x m a z o v. Əcəb kəldir, nədir adə? Ay dost, gözünü aç yaxşı bax. Bu kəl-zad deyil, mənəm ey...

B a y r a m a l ı. Bnu sizin anadan olan gününüz münasibətilə şəxsən öz tərəfimdən adınıza qayitdırmışam. Qoy gələcəkdə nəvə-nəticələriniz buna baxıb sizi yad eləsinlər.

Q o r x m a z o v. Adə, sonsuz adamın da nəvə-nəticəsi olar?

B a y r a m a l ı. Onda camaat baxar.

Q o r x m a z o v. Aşna, qızıldandır, yoxsa gümüşdən?

B a y r a m a lı. Kirəcdən.

D ə m i r o v. Adə, vurrey, yaşasın kirəc Qorxmazov.

D i l a v ə r. Xamuş!

Q o r x m a z o v. Tişi!

D i l a v ə r

Qəbrə girənəcən dostuq səninlə,
Bu sol əlin, mən də sağ əlin, sənin!
Araq dostlarına arxayın ol ki,
Yadigar qalacaq heykəlin sənin!

Q o r x m a z o v. Əlbəttə, qalacaq. Daba tez oturun. Əlli yaşımı tamam eləyək.

D i l a v ə r. Kəsin bu nalələri, doldurun piyalələri. Xamuş!

Q o r x m a z o v. Tişi!

D i l a v ər. Birinci piyaləni qaldıraq, alicənab, təvazökar, ürəyi əli kimİ, əli ürəyi kimi açıq aşnamız Qorxmazovun sağlığına.

D ə m i r o v. Vurrey...

İçirlər.

D i l a v ə r. Çün pişi əz vaxt tarzən qələyanə gəlsin. Xanəndə tüğyan etsin. Biz də guş edək.

Q o r x m a z o v. Prostoy danışsana, biz də başa düşək.

B a y r a m a l ı. Çalın, oxuyun... Mən ölüm ürək yandıran.

Çalıb oxuyurlar.

Q o r x m a z o v. Bu saat təbiətin xolodelnikindən görün sizə nə çıxaracağam. *(Kəndirlə quyudan içki çıxarır.)*

D i l a v ə r. Badələri doldurun, piyalələri qaldırın. İçək ən namuslu, ən nəcib, ən həyalı, ən səxalı, ən vəfalı...

Q o r x m a z o v. Ən cəfalı. *(Dünya gəlir.)*

D i l a v ə r. Ən səfalı, Dünyamızın sağlığına!

D ü n y a. Var olun!

D i l a v ə r. İlham gəldi. Xamuş!

D ə m i r o v. Tişi!..

Q o r x m a z o v. Mənim sözümün duzunu qaçırtma. Tişi!..

D i l a v ə r

Şəkərdən də şirindir ta əzəl gündən dilin, Dünya,
Sevin ki, qarğudan da xeyli nazikdir belin, Dünya.
Fərasətdə, nəcabətdə, gözəllikdə tayın yoxdur,
Yanında kaftara bənzər Gülara tək gəlin, Dünya!
Sənin sayəndə tez-tez cəm olur dostlar bu xəlvətdə,
Çinardan da uzundur çüm səxavətdə əlin, Dünya!

H a m ı. Vurrey...

D ü n y a. Şair belə olar. Yoxsa o...

Q o r x m a z o v. Zəmanə şairlərini deyirsən? *(Telefon zəngi, Qorxmazov telefon dəstəyini götürür. Bir əlində piyalə var.)* Qulaq asıram. Necə? Təcili, yay klubuna gəlim? Əvvala otdıxım mənimçün hər şeydən vajnıdır. İkinci, əlimdə çox vacib işim var. *(Piyaləni vurur telefona.)*

B a y r a m a l ı. Yoldaş Qorxmazov, siz bir qədər uzansanız yaxşıdır.

D i l a v ə r. Vətənbaz da yorular? Mən frontlarda vuruşanda siz bilmirəm hansı siçan deşiyini satın almışdınız. Mənim gəzmədiyim şəhər, kənd qalmayıb, mən necə bir partirot... Adə hanı o kart?

B a y r a m a l ı *(cəld cibindən oyun kartını çıxarıb əlində oynadır)*. Bu dəqiqə... Aşna çəkirik?

Q o r x m a z o v. Ay lotu, o kartı yox. Cümlə cahan kartını deyirəm. Dünya, sən atanın goru o dünya kartını gətir bura... *(Dünya ona xəritə*

*verir. Qorxmazov xəritəni açıb ağacdan asır. Sonra manqalın üstündən kabab şişini qapır.)* Yaxşı-yaxşı baxın. Mən ata müharibəsində.

D i l a v ə r. Çün dərk etmədik.

Q o r x m a z o v. Ata müharibəsi, ay nadanlar, yəni oteçestki voyna. O vaxt mən burda, xüsusilə burda elə işlərdən çıxmışam ki. *(Xəritədə bir nöqtəni göstərir.)*

D i l a v ə r. Çün... Yoldaş Qorxmazov, bura ki Həmədandır.

Q o r x m a z o v. Həmədan olsun. Coğrafiyadan həmişə beş alardım, arvad mənd huş qoydu ki...

D ü n y a. Əvvəldən varındı ki!.. *(Qapı zəngi vurulur, Dünya gedib qəzetləri alır.)* Al, bu da sənin qəzetlərin.

Q o r x m a z o v. Axır ki, ordenlərimiz öz əl-ayağıyla gəlib çıxdı.

B a y r a m a l ı. Sizi avansom təbrik.

H a m ı. Avansom, avansom.

Q o r x m a z o v. Mənim nəqdimi nisyəyə nə üçün döndərirsiniz axı?

D i l a v ə r. Susdurun naxalları, qaldırın bakalları.

Q o r x m a z o v. Mən ölüm! Ürəyim suya döndü. Oxu görək mənə hansından veriblər.

D i l a v ə r. Qorxma, çün meydan genişdir, durma çap at, Qorxmazov!

Q o r x m a z o v. Əhsən! Öz başma iş görüb aldın mükafat, Qorxmazov!

D i l a v ə r. Çün iqdam edirəm qəzeti mütaliəyə. *(Qəzetə göz gəzdirir. Gah çiynini dartır, gah başını bulayır.)* Təqazeyi cahandır də. Eləyirlər də.

Q o r x m a z o v. Tez da ordenlərimizi ver taxaq.

D i l a v ə r *(oxuyur).* Lenin ordeni ilə. Lenin adına fabrikin staxanovçusu.

Q o r x m a z o v. Özgələrdə nə işin adə. Bizimkiləri oxu.

D i l a v ə r. Qızıl əmək bayrağı ordeni ilə Sadıqzadə Gülara.

D ə m i r o v. Can, can, vurrey!..

Q o r x m a z o v. Zəhrimar vurrey, çor vurrey!.. Dalını tez, tez dalını oxu!

D i l a v ə r. Rəsulzadə Nadir.

Q o r x m a z o v. Bağrımı yarma.

D i l a v ə r. Qor, qor, qor.

Q o r x m a z o v. Adə növbə çatdı mənə.

Piyalələri bir-birinə vurub içirlər.

D ə m i r o v. Vurrey, vurrey!..

Q o r x m a z o v. Dilavər, sən məni təzədən dünyaya gətirdin. Az qalıb şadlığımdan başımı itirim.

D ə m i r o v. Qorxma, itirsən axtarıb taparıq.

Q o r x m a z o v. Vallah uçuram ey, uçuram.

D ü n y a. Çox yuxarılarda uçma, uçularsan.

D i l a v ə r. Çün ərz eləyirəm ki, mabədinə qulaq asın.

Q o r x m a z o v. Adə, indicə Qorxmazov demədin?

D i l a v ə r. Çün Qorda qaldım.

Q o r x m a z o v. Onda tez ol tamamla məni.

D i l a v ə r. Sansız təşəkkür...Qor,qor,qor... *(Qorxa-qorxa oxuyur.)*

D ə m i r o v. Güc elə!

Q o r x m a z o v. Mənim familimdə nə qədər qor var ki, bu qədər höccələyirsən!

D i l a v ə r. Qornastayeva Lida.

Q o r x m a z o v. Necə? Dalını oxu.

D i l a v ə r. Dalı qeyri-şəxslərdir.

Q o r x m a z o v. Adə bəlkə məni rəhbəriniz kimi ayrıca ukazla naqradıt eləyibiər. Birinci səhifəyə baxmısan?

D i l a v ə r. Bəli, orda da yoxsunuz.

Q o r x m a z o v. Axırıncı səhifədə necə?

D i l a v ə r. Odra da bir şey görmürəm.

Q o r x m a z o v. Axırıncı səhifənin lap axırına necə, baxmısan?

D i l a və r. Çün orda arvadından boşananların, rəhmətə gedənlərin elanları var.

Q o r x m a z o v. Deyirsən mən rəhmətə gedənlərin siyahısında da yoxam?

D ü n y a. Yıxdı bu arvadlar kişinin evini.

Q o r x m a z o v. Belə, dostlar, siz öləsiniz, daha dünyanın zibili çıxdı.

D ü n y a. Nə dedin? Zibilim çıxdı?

Q o r x m a z o v. Sənin yox, cümlə cahan dünyasının. Aman, ürəyim bir təhər oldu. Dostlar, yuxum çin çıxdı.

B a y r a m a l ı. Yuxuda nə görmüşdünüz?

Q o r x m a z o v. Qulaq asın!

D i l a v ə r. Xamuş!

Q o r x m a z o v. Tişi!.. Görürəm ki, ölmüşəm. Tabutumu çiyninizə alıb məni qəbiristanlığa aparırsınız. Orkestr bir tərəfdə, qoşa zurna o biri tərəfdə çalır. *(Dəmirov məclisdəki çalanlara işarə edir. Onlar ahəstə matəm havası çalır. Dəmirov bir şiş qapıb dirijorluq eləyir.)* Arxamca venok götürən gözəl, göyçək qızların bir ucu burda, o biri ucu qəbiristanlıqda.

D ü n y a. Əclafın ölüsü də qızlardan əl çəkmir.

Q o r x m a z o v. Görürəm ki, şəhərdə maşın, trolleybus, tramvay gediş-gəlişi kəsilib.

D ə m i r o v. Səni basdırıb evə piyada qayıdacağıq?

Q o r x m a z o v. Görürəm ki, qəbrim hazırdır. Əli lapatkalı Dilavər və Bayramalı ağlaya-ağlaya üstümə torpaq tökürlər.

Dilavər və Bayramalı ağlamsınır.

D ə m I r o v *(onu silkələyir).* Bəs mən nə qayırıram? Mən də ağlayıram?

Q o r x m a z o v *(xəyal aləmindən ayılır).* Hə, necə?.. Avansom ağlaşmayın! *(Çalğıçılara)* Kəsin! Mən seryoznı ölmüşəm ki, paxaronnı çalırsınız? Yox, mən ölməmişəm, ölməyəcəyəm də, yox, yox...

D i l a v ə r. Ölmə, ölmə... Çün qəm yemə... qalibiyyət yenə sizinlə olacaq. Qoy müğənni bir təğənni etsin.

Çalğıçılar çalır, Qorxmazov ah-uf eləyir.

Q o r x m a z o v *(əsəbı).* Adə, bağrım çatladı ki... Burda barmaq var... barmaq. Mənim cibimdə daşdan, poladdan keçən elə xarakteristikalarım var ki, adamın atasını səriyər dalına. Bu bir, bu iki... *(Kağızları stol üstə atır. Dünya diqqətlə baxır. Bir şəkil götürür.)*

D ü n y a. Budur sənin daşdan, poladdan keçən xarakteristikan? Bu qız kimdir?

Q o r x m a z o v. Staxanovçu qızdır. Məndən qəzetlər istədi, mən də qoydum cibimə ki...

D i l a v ə r. Dünya xanım, sakit ol! Onun cibindən nümayan olan afəti-dövranın surəti...

D ü n y a. Sən də ona həyan çıxırsan? Mən daha bu xarabada qala bilmərəm. Mənim kimi namuslu qadına xəyanət... Yox, sən bu evdən rədd olmalısan!

D ə m i r o v. Bu dəfəlik onun zadını, günahını bağışlayın mənə.

Bu dəmdə Gülara gəlir.

G ü l a r a. Salam... Deyəsən gəlib məclisin axırına çatmışam.

D ü n y a. Buyurun, bu da bir nümayan. *(Gülaraya).* Səni kim çağırıb gəlmisən? Tez itilin mənim evimdən!

G ü l a r a. Qonağı qovmazlar. Bir də mən Qorxmazovu canlı bir hədiyyəylə təbrikə gəlmişəm.

M i l i s i o n e r *(içəri girir. Əlində kağız).* Nəhayət, sizi evdə tapdım. Buyurun imza atın. Sizi məhkəməyə çağırırlar.

D ü n y a. Bu nə sözdür, nəyə görə?

M i l i s i o n e r. Mağazindəki hadisəyə göra, atelye modadakı hadisəyə görə.

D ü n y a. Mən məhkəməyə gedən deyiləm. Məhkəməyə mənim istirahətimi pozan bu qızı, bir də bu əclafı aparın. Tez bunları basın rayona.

M i l i s i o n e r. Xanım, imza atınız.

D ü n y a *(milisionerə).* Niyə durub baxırsan? İstəyirsən tapançanı belindən açıb bunları rayona mən özüm aparım?

M i l i s i o n e r. Mən sizi bir daha xəbərdar edirəm. Bu dəfə elə zarafat yoxdur. Atınız imzanızı!

D ü n y a. Bütün dünyanın milisionerləri də gəlse Dünya qorxan deyil. *(Gülaraya)* Sən niyə dayanıb durmusan? Get, bir də gözüm səni görməsin!

G ü l a r a. Qoy onda ərinizin qiymətli hədiyyəsini təqdim eləyim, sonra.

Q o r x m a z o v. Malades Gülara... Padarka sənnidir?

G ü l a r a. Çox.

M i l i s i o n e r *(fit verir).* İmza atınız, imza atınız, imza atınız!..

D ü n y a. Atmıram, atmıram, atmıram, al canın dincəlsin. *(İmza atır.)*

M i l i s i o n e r. Məhkəmədə görüşənə qədər *(gedir).*

Gülara qapıdan səsləyir. Fatı, Rəhilə qucağında uşaq içəri girir.

Q o r x m a z o v. Vay... *(Özündən gedir.)* Mən doğrudan da öldüm.

D i l a v ə r. Ölmə, ölmə...

Dəmirov qrafindən ağzma su alıb Qorxmazovun üzünə püfləyir.

G ü l a r a. Hədiyyə o qədər canlı hədiyyədir ki, sevindiyindən ərinizin ürəyi getdi.

D ü n y a. Bu bic balanı nə ixtiyarla mənim evimə gətiribsiniz?

G ü l a r a. Atasıyla görüşə gətirmişik. *(Nadir tez gəlir.)*

Q o r x m a z o v *(ayılır).* Yalandır, yalan. Uşağı mənim üstümə niyə gətirmisən?

D ü n y a. Atası sənin adamın Nadir ola-ola.

N a d i r. Biz adresi düz tapmışıq.

F a t ı. Məni bağışlayın... Uşaq əvvəl bizdəydi, gəlinim əmizdirirdi. Sonra dünən bu külbaş ərim uşağı alıb ayrı yerə aparmaq istəyirdi. Mən qoymadım, uşağı mənə Qorxmazov tapşırmışdı.

Rə h i l ə. Məni o bədbəxt elədi, o...

D ü n y a. Cavab ver, ağa Qorxmazov.

N a d i r. Cavaba ehtiyac da yoxdur. Məsələ aydındır. Mən də Qorxmazovu iki münasibətilə təbrikə gəlmişəm. Biri anadan olması münasibətilə...

Q o r x m a z o v. Təşəkkür.

N a d i r. O biri də buyurun baxın. "Kirpi"də sizi xüsusi qeyd eləyiblər.

Q o r x m a z o v. Orden veriblər?

N a d I r. Hətta şəklinizi də vurublar.

D ə m i r o v. Adə vurrey...

Q o r x m a z o v *(lovğalanır).* Adə Dilavər, nankor, məni qəzetdə yox, jurnalda naqradit eləyiblər. *(Jurnala baxır.)* Adə, bu sənin çəkdiyin şəkildirki...

N a d I r. Bəli, bu mənim çəkdiyim karikaturadır.

Q o r x m a z o v. Malades sənə qarğaturist! Gördün zəhmətin zay olmadı. Dilavər, al oxu görək. Məni necə tərifləyiblər?

D i l a v ə r *(jurnala baxır).* Çün piş əz vaxt. Bərayi məlumat, çün...

Q o r x m a z o v. Uzatma, adə başda nə yazıblar?

T e a t r. Yazıblar ki, gəldi gedər...

Q o r x m a z o v. Necə? Nə ixtiyarla? Kim yazıb bu iftiranı?

G ü l a r a. Mən, Gülara Sadıqzadə. Bu da imzam. *(Jurnalı göstərir.)*

D ü n y a *(Qorxmazova).* Tez ol çıx mənim xarabamdan... Yoxsa... *(Onun sport şeylərini qapının ağzına tullayır.)* Tez ol!

Q o r x m a z o v. Adamda insaf yaxşı şeydir. Mən hara gedim, hara?

D ü n y a. İtil gözümdən!

Q o r x m a z ov *(Rəhiləyə).* Ay qız, Rəhilə, keç günahımdan. Gedək sizə, ver mənim detski malçikimi.

R ə h i l ə. Çəkil!

G ü l a r a. Atelye modanın müvəqqəti müdirliyi, orada təmizlik aparılması mənə tapşırılmışdır. Rəhilə də bizdə işləyəcək.

D ə m i r o v. Adə vurrey... *(Cəld əkilib Gülaranın tuflisini təmizləyir.)* Öldürsələr də əyilməyəcəyəm.

D i l a v ə r. Xamuş!

Zamanın qəhrəman, dilbər qızı ancaq Gülaradır,
Ədalət göylərində çün qızıl bayraq Gülaradır.

Q o r x m a z o v. Deməli mən daha yoxam? Hamıya yer də düzəldi, iş də, Dünya! Gülara, Nadir, Dilavər, Bayramalı, adə Dəmirov... *(Hamı ondan üz çevirir.)* Belə... Gedək görək başımıza nə gəlir. *(Birdən dönür.)* Bir sual.

D i l a v ə r. Xamuş!

Q o r x m a z o v. Mənim evimi yıxan sənin xamuşun olmadı məgər? Mənim huşum, yerindən oynayıb. Siz allah, bir deyin görüm o şəklin altında nə yazıblar?

H a m ı. Gəldi-gedər. *(Qəhqəhə)*

P Ə R D Ə

*1955-1969*

# MÜNDƏRİCAT

PYESLƏR

Çimnaz xanım yuxudadır……………………………………………7

Qaçaq Nəbi……………………………………………………19

Durna…………………………………………………………163

Gəldi-gedər…………………………………………………...210

**SÜLEYMAN RÜSTƏM**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÜÇ CİLDDƏ

III CİLD

"ŞƏRQ-QƏRB"

BAKI-2005

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |
| Korrektor: | *Fəridə Səmədova* |

Yığılmağa verilmişdir 22.10.2004. Çapa imzalanmışdır 22.04.2005.
Formatı 60x90 $^{1}/_{16.}$ Fiziki çap vərəqi 17,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 90.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.